Grammar Teaching: At its core, grammar teaching aims to help students discover the structural elements of a language (sound, form, syntax) within meaningful contexts. Chomsky's (1965) universal grammar theory argues that individuals possess an innate capacity for language acquisition, demonstrating that learning cannot be explained solely by external stimuli. These developments paved the way for cognitive and subsequently constructivist approaches. Constructivist learning theory argues that individuals do not passively receive information from the outside, but rather construct it through their own mental processes by interacting with their prior knowledge (Naghiyeva, 2024). In this context, learning is considered an individual and social construction process. Jean Piaget, Lev Vygotsky, and Jerome Bruner are among the founding figures of the constructivist approach**.** According to Piaget learning occurs through assimilation and adaptation as a result of an individual's interaction with their environment. Mental development progresses through specific stages, and this development directly affects language learning. Vygotsky argues that learning is a social activity and that individuals' areas of potential for development can be expanded through guided learning and social interaction. According to him, language is both a tool for cognitive development and a cornerstone of learning. Bruner states that the functions of language in acquiring, interpreting, and transmitting information play a central role in mental development (Ekizer, 2025). According to him, learning is constructed through the individual's active interaction with their cultural environment.In grammar teaching, the use of much newer and more effective methods, in line with modern technology, is now an unavoidable necessity.

Approaches and Methods

1. In language teaching, lecture and question-and-answer methods hold a significant place among the approaches used. The lecture method is one of the oldest and most classic methods for conveying grammar topics quickly and concisely. However, when used alone, this method is insufficient for

ensuring lasting learning and can lose its appeal for students. Therefore, it should be preferred more in a limited way, especially during the summarizing and presentation of basic information stages.

2. The question-and-answer method promotes active student participation, critical thinking, and curiosity. In this approach, the teacher uses questions to help students understand and reinforce the topic, making it particularly effective after lectures. When applied appropriately alongside other methods, it enhances the overall effectiveness of the language teaching process (Ismayilli, 2025).

The four skills-based method (reading, listening, speaking, writing) adopts a holistic approach to teaching grammar. Students learn grammar in context through carefully selected texts, followed by speaking and writing activities. This approach enables learners to internalize grammar through practice rather than memorization, leading to more effective and lasting learning.

3. Inductive and deductive methods are important cognitive strategies in grammar teaching. In the inductive method, students learn intuitively and through discovery by arriving at rules from examples. This approach supports critical and scientific thinking skills. In the deductive method, general rules are given, and students are then asked to apply these rules to examples (Mammadova, 2024). This method, which is particularly suitable for students with well-developed abstract thinking skills, contributes to the systematic and structured learning of subjects. Dramatization (play-based learning) is an effective language teaching technique, especially at the primary school level. In this method, students actively participate in the learning process through role-playing and dramatization. Play-based learning increases student motivation while making information easier to understand and retain. It also makes learning more understandable and enjoyable by allowing abstract grammatical concepts to be concretized (Abbasova, 2024). The group work method is based on collaborative learning. Students working together to produce knowledge helps them grasp grammar concepts more easily. This method develops a sense of responsibility, communication skills, and a collaborative work culture in students. It also makes the language teaching process more efficient and participatory by supporting learning through the exchange of ideas and interaction.

7. Demonstration and Practice Method: Students learn effectively through seeing, hearing, and doing; therefore, demonstration-based methods are highly important (Ashrafova, 2025). In this approach, the teacher guides the process by first presenting correct examples and then encouraging students to practice them. It is especially useful for language teaching, vocabulary acquisition, and writing activities.

Presentation Method Strategy: Based on David Ausubel's meaningful learning theory, this strategy involves presenting information in a structured, logical, and sequential way (Babayev, 2025). The teacher explains concepts clearly, ensuring that students are mentally prepared to understand and internalize new knowledge.

Discovery Learning Strategy: This student-centered method encourages learners to actively participate and reach conclusions through their own discoveries. Learning occurs inductively, as students analyze information and form generalizations, which also enhances critical thinking and problem-solving skills (Boiko, 2025, p. 5).

Inquiry-Based Learning Strategy: This approach focuses on problem-solving. Students identify problems, form hypotheses, collect and analyze data, and draw conclusions, while the teacher acts as a guide. It helps learners develop both subject knowledge and future problem-solving abilities.

Shadowing: Widely used in foreign language teaching, this technique involves repeating speech simultaneously with a speaker. It improves pronunciation, intonation, and fluency, while also

strengthening listening skills. Recording and evaluating one's own voice increases awareness and retention (Saez-Zevallos, 2024).

Visualization: Particularly effective in teaching grammar to younger learners, this method uses visual aids and colorful materials to make abstract concepts more concrete, engaging, and easier to remember.

Visual Methods: Tools such as TV programs, films, and theater present language in natural contexts, making learning more enjoyable and lasting. However, materials should be appropriate to the learners' level.

Field Trip Method: This supportive approach enables students to experience language in real-life settings, making learning more meaningful through observation and interaction.
Exposure Method: This method emphasizes intensive use of the target language. By actively engaging with the language, students naturally acquire its rules, which accelerates the learning process.

Conclusion

In light of the information provided above, we must first state that language teaching is not simply about teaching grammar. Language is not learned by teaching grammar; on the contrary, it makes learning more difficult and unpleasant. Language teaching is a challenging process that requires the use of many methods and components together. Therefore, conducting language teaching with multiple methods, rather than a single one, both accelerates the process and makes learning enjoyable and engaging. In conclusion, we must move beyond rote memorization of grammar rules in language teaching and rethink methods, finding new approaches and methods. Following the methods applied in the contemporary world while adding new approaches and methods is now a great necessity. Whether for our own children or for foreigners, finding new methods, opening new horizons, and utilizing technological innovations in teaching Turkish is a necessity brought about by the times.

References

1. Ashrafova, I., Mirjalal Orujlu, A., & Yusifeli qızı Mehdizade, N. (2025). MULTILINGUALISM IN HIGHER EDUCATION: BRIDGING CULTURES THROUGH TRANSLATION AND INTERPRETING. *German International Journal of Modern Science/Deutsche Internationale Zeitschrift für Zeitgenössische Wissenschaft*, (116).
2. Ekizer, F. N. (2025). Exploring the impact of artificial intelligence on English language teaching: A meta-analysis study. *Computers & Education*.
3. Babayev, J. (2023). How to teach a foreign language through CLT. In *Proceedings of the 4th International Scientific Conference" Interdisciplinary Science Studies* (p. 123).
4. Babayev, J. S., Sadikhova, S. N., Baghirova, M. A., Seidova, E. R., & Mammadova, A. A. (2025). A lexical-stylistic and cross-cultural analysis of vulgarisms and their usage spheres. *Universidad y Sociedad*, *17*(6), e5525-e5525.
5. Ismayilli, T. M., Mammadova, K. M., & Asadova, A. A. (2025). The Impact of Educational Games on Speaking Skills in the Foreign Language Teaching Process. *Novitas-ROYAL (Research on Youth and Language)*, *19*(1), 229–240.
6. Ismayilli, T., Mammadova, K., Ibrahimli, N., & Heyderova, N. (2025). Confirmation gestures, mimics and their effects on foreign language learning: Examples of EFL students. *Pegem Journal of Education and Instruction*, *15*(2), 198–206.
7. Babasoy, Y. B., Zeynalova, K., Sadigova, N. E., & Ismayilli, T. M. (2025). Functional semantic character of affirmation in English in the aspect of cognitive linguistics. *Universidad y Sociedad*, *17*(3), e5214-e5214.

8. Ismailli, T. (2024). İngilis və Azərbaycan dilində durğu işarələri. *Elmi Tədqiqat*, *15.*
9. Naghiyeva, G. İngilis dili dərslərində fənlərarası əlaqədən istifadə etməklə tələbələrin dərsdə fəallığının artırılması yolları. *Elmi Tədqiqat*, *57*
10. Mammadova, K. (2024). Steven Krashen's Theory of the Second Language Acquisition. *International Scientific Journal*, *18*(11), 81–87.
11. Abbasova, K. (2024). Cultural, Political, and Technological Influences on the Evolution of German. *EuroGlobal Journal of Linguistics and Language Education*, *1*(2), 26–37.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 24–32
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 24–32
DOI: https://doi.org/10.36719/2706-6185/60/24-32

1980-ci illərdə Azərbaycanda ictimai-siyasi vəziyyətin mətbuata təsiri

Günay Məmmədova

Xülasə. *XX əsrin 80-ci illərində SSRİ-nin dərin iqtisadi böhran içərisində çabaladığı, mənəvi-psixoloji aşılanmanın son həddə çatdığı, ictimai-siyasi hərc-mərcliyin hökm sürdüyü hər addımda hiss olunurdu, həmçinin dünyada mühafizəkar qüvvələrin fəallaşması bir çox əsarət altında yaşayan ölkələrə təsir edirdi. Göründüyü kimi, SSRİ-nin bütün iqtisadi sistemi, ideologiyası, daxili və xarici siyasəti köklü surətdə yenidənqurmaya, ciddi islahatlara, əsaslı dəyişikliklərə möhtac idi.*
1985-ci ilin mart ayında SSRİ-də Mixail Qorbaçovun hakimiyyətə gəlməsi ilə ölkəni iqtisadi böhrandan çıxmaq meylləri "yenidənqurma" siyasəti adı altında pərdələnməyə başlandı. Xarici ədəbiyyat bunu "Qorbaçov inqilabı" adlandırır. Həqiqətən də ölkənin həm iqtisadiyyatı, həm də ideologiyası ciddi yenidənqurma tələb edir. "Yenidənqurma" əvvəl xalq təsərrüfatının inkişafını sürətləndirmək siyasətindən başladı. Sonra iqtisadi, siyasi və hüquqi islahatlar həyata keçirilməsinə başlanıldı. Qarbaçovun nisbətən cavan olması xalqda müəyyən ümidlər doğurmuşdu. "Yenidənqurma" siyasətində demokratiya anlayışının önə sürülməsi Sovet imperiyasının tərkibində olan millətlərin siyasi həyatı ilə yanaşı mətbuatına da bir sıra dəyişikliklər gətirdi. Qəzetlərin məzmununda obyektiv yanaşmalar və fikirlər yer almağa başladı.

Açar sözlər: *yenidənqurma, mətbuat, Qarabağ, antitürk siyasət, qəzet, müstəqillik dövrü, kommunist ideologiyası, ilk gizli nəşrlər*

Bakı Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: g-alizade87@mail.ru
Daxil oldu: 17 Dekabr 2025; Qəbul edildi: 7 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

The Impact of the Social and Political Situation in Azerbaijan in the 1980s on the Press

Gunay Mammadova

Abstract. *In the 1980s, the Soviet Union was experiencing a profound economic crisis, the process of moral-psychological indoctrination had reached its final stage, and societal-political turmoil was evident at every step. Additionally, the growing influence of conservative powers around the world was impacting many countries under occupation. As can be seen, the entire economic system, ideology, and both domestic and foreign policies of the USSR were in dire need of a fundamental restructuring, serious reforms, and substantial changes.*
In March 1985, with Mikhail Gorbachev coming to power in the Soviet Union, the policy of "perestroika" (restructuring) was initiated in an attempt to overcome the crisis.

This policy is often referred to in foreign literature as the "Gorbachev revolution." Indeed, both the country's economy and its ideology required a significant overhaul. "Perestroika" initially began with a policy aimed at accelerating the development of the national economy. Subsequently, economic, political, and legal reforms were implemented. Gorbachev's relative youth sparked some hope among the public. The emphasis on democracy within the "perestroika" policy led to changes in the political life and media of the nations within the Soviet Empire. Newspapers began to reflect more objective perspectives and views.

Keywords: *perestroika, press, Nagorno-Karabakh, anti-Turkish policy, newspaper, independence period, communist ideology, first clandestine publications*

Baku State University, PhD in Philology, Baku, Azerbaijan
Email: g-alizade87@mail.ru
Received: 17 December 2025; Accepted: 7 April 2026; Published online: 28 May 2026
© Author(s) 2026. This is an open-access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

1980-ci illərdə Mixail Qorbaçov tərəfindən irəli sürülən "yenidənqurma" (perestroyka) siyasəti çərçivəsində sosializm, demokratiya və aşkarlıq (qlasnost) kimi prinsiplərin həyata keçirilməsi nəzərdə tutulurdu. Bu siyasət cəmiyyətdə obyektiv olaraq demokratik dəyərlərin və azadfikirliliyin ilkin rüşeymlərinin formalaşmasına zəmin yaratdı. Lakin Azərbaycan 1988-ci ilin əvvəllərinədək SSRİ-də baş verən bu müsbət transformasiya proseslərindən faktiki olaraq müəyyən dərəcədə kənarda qalmışdı. Real problemlərin üstünün örtülməsi, mövcud ictimai-siyasi mühitdə onların ictimai müzakirədən yayındırılması və ümumi rifah illüziyasının yaradılması dominant xüsusiyyət kimi çıxış edirdi (Əliyev, 2014).

Azərbaycan təbii resurs baxımından zəngin olmasına baxmayaraq, ciddi sosial-iqtisadi çətinliklərlə üzləşmişdi. Sosial infrastrukturun ləngiməsi – xəstəxanaların, təhsil müəssisələrinin və mənzil fondunun çatışmazlığı, o cümlədən adambaşına düşən milli gəlirin aşağı səviyyədə olması respublikanın geridə qalan regionlar sırasında yer almasına səbəb olmuşdu. Aşkarlıq mühitinin və siyasi plüralizmin təşviqi nəticəsində "Yenidənqurma" siyasəti çərçivəsində demokratik institutların, təxminən 70 il ərzində cəmiyyətdə, həmçinin milli münasibətlər sahəsində yığılıb qalmış problem və ziddiyyətləri üzə çıxmağa başladı. Bu proseslər eyni zamanda mərkəzdənqaçma meyllərinin güclənməsi ilə müşayiət olunurdu. İctimai-siyasi həyatda demokratikləşmə və açıq müzakirə mühiti genişlənir, mətbuat daha fəal rol oynamağa başlayırdı. Aşkarlıq prinsipindən istifadə edən Azərbaycan mətbuatı xüsusilə 1920–1940-cı illəri əhatə edən tarixi dövrü yenidən qiymətləndirərək tənqidi təhlillər təqdim edirdi. Bu çərçivədə Mir Cəfər Bağırov dövrünün repressiv idarəetmə üsulları, qeyri-humanist siyasəti, totalitar idarəçilik metodları və bolşevik ideologiyasının milli ayrı-seçkilik xüsusiyyətləri ifşa olunurdu. Lakin atılan ilk addımlardan, görülən ilk tədbirlərdən hiss olunurdu ki, Mixail Qorbaçov belə böyük ölkəni idarə etmək, bu ağır vəzifəni yerinə yetirmək qabiliyyətindən çox uzaqdır. Buna görə də M.Qorbaçovun "yenidənqurma" adı ilə aparmaq istədiyi islahatların uğursuz olacağı çoxları üçün şübhə doğurmurdu.

Ümumilikdə, sovet mətbuat sisteminin tərkib hissəsi olan Azərbaycan mətbuatının əsas xüsusiyyətlərindən biri onun siyasi-ideoloji və təbliğat yönümlü olması idi. Tarixi və ictimai əsasları zəif olan bu sistem uzun müddət fəaliyyət göstərsə də, mahiyyət etibarilə sovet rejiminin ideoloji aləti kimi çıxış etmişdir. Nəticə etibarilə, sovet siyasi sisteminin süqutu ilə bu mətbuat modeli də öz funksionallığını itirərək iflasa uğramışdır (Məmmədli, 2018, s. 33).

“Yenidənqurma” siyasəti və islahatların mətbuata təsiri

“Yenidənqurma” ərəfəsində və dövründə ölkənin iqtisadi tənəzzüldə boğulduğunu aydın təsəvvür etmək üçün cəmiyyətin ümumi mənzərəsini nəzərdən keçirmək kifayətdir. Xalq təsərrüfatının elə bir sahəsi yox idi ki, orada ayrı-ayrı göstəricilər üzrə geriləmə olmasın. Xalqa verilən heç bir vəd-ərzaq proqramı, mənzil proqramı və təhsil sahəsində islahatlar yerinə yetirilə bilmədi.

Kənd təsərrüfatında vəziyyət daha pisləşirdi. Kənd təsərrüfatında da mövcud idarəetmə metodlarının kökündən dəyişdirilməsinə ciddi ehtiyac vardır. M.Qorbaçov isə problemin dərinliyinə varmaq istəmir, əvvəllərdə olduğu kimi, ənənəvi yolla hər şeyin həll ediləcəyini gözləyirdi. Sov.İKP MK-nın Plenumunda (1989-cu il mart) M.S.Qorbaçov “Müasir şəraitdə Sov.İKP-nin qarar siyasəti haqqında” məruzəsində demişdir. “Həqiqət belədir ki, kənd təsərrüfatı məhsulumuz çatışmır. Dövlət xaricdən xeyli miqdarda taxıl, ət, meyvə, tərəvəz, şəkər, bitki yağı və bəzi başqa məhsulları satın almağa məcburdur. Biz həm əmək məhsuldarlığı, həm tarlaların məhsuldarlığı, həm də ərzaq məhsullarının müxtəlifliyi və keyfiyyəti sarıdan inkişaf etmiş bütün ölkələrdən (irili-xırdalı ölkələrdən) geri qalırıq” (Hüseynova, 2004, s. 472). İqtisadiyyatın ağır vəziyyətə düşməsinin digər səbəblərindən biri 1986-cı ildə Çernobıl Atom Elektrik Stansiyasındakı qəza oldu. Qəza barədə məlumat əhaliyə və dünya ictimaiyyətinə vaxtında çatdırılmaması fəlakətin nəticələrinin qlobal xarakter almasına səbəb oldu.

Mətbuatda az-çox senzura götürülsə də, hələ də arxivlərin tam açılmasına, mühüm sənədlərin üzə çıxarılmasına icazə verilmirdi. Belə nəticəyə gəlirik ki, M.Qorbaçovun hakimiyyətə gəlişi vəziyyəti bir qədər də mürəkkəbləşdirdi. Sovet cəmiyyətinə yeni siyasi sistem kimi təqdim olunan yenidənqurma və aşkarlıq siyasəti sovet ideoloji sisteminin zəifləməsinə şərait yaratdı. Yuxarıdan aşağıya doğru idarə olunan, çoxlu sayda xəbərçilərdən ibarət olan, “KQB” adlanan senzura sisteminin güclü nəzarət şəbəkəsi sarsılmağa başladı. Bir çox xalqları bir araya gətirən Sovet idarəçiliyinin zəifləməsi sosial ədalət istəyən qüvvələrin fəallaşmasına səbəb oldu.

Demokratiya və aşkarlıq siyasətinin genişlənməsi nəticəsində Azərbaycanda dini-mənəvi dəyərlərə, İslam ənənələrinə maraq və dönüş prosesi sürətləndi. Uzun müddət qadağan olunmuş dini fəaliyyətlər tədricən leqallaşdırılıb, müqəddəs ibadət yerlərindən sərbəst istifadə imkanları genişləndi. 1988–1990-cı illər ərzində respublika ərazisində 30-dan artıq məscidin fəaliyyətə başlaması dini həyatın canlanmasının mühüm göstəricilərindən biri oldu. 1989-cu ildə Bakıda islam mədrəsəsinin açılması dini təhsilin institusional əsaslarının formalaşmasına təkan verdi. Bununla yanaşı, 1990-cı ildən etibarən müsəlmanların müqəddəs Məkkə şəhərinə ziyarətlərinin təşkili dini azadlıqların genişlənməsinin praktik ifadəsi kimi çıxış edir. Eyni dövrdə “İslam” qəzetinin nəşrə başlaması da dini ideyaların və maarifləndirici məlumatların ictimaiyyətə çatdırılmasında mühüm rol oynayır.

Respublikada yaşayan azərbaycanlıların İran və Türkiyə ərazisində yaşayan soydaşları ilə əlaqələrinin bərpası istiqamətində də mühüm addımlar atılır. Bu məqsədlə “Sərhəd hərəkatı” adlandırılan ictimai-siyasi proses formalaşır. 1989-cu il 31 dekabr və 1990-cı il 1 yanvar tarixlərində Araz çayı boyunca uzanan 137 km-lik Sovet–İran sərhəd xəttində, həmçinin 1990-cı il yanvarın 7-də SSRİ–Türkiyə sərhədində mövcud olan mühəndis qurğularının dağıdılması nəticəsində sərhədin hər iki tərəfində yaşayan qohum və soydaşların bir-biri ilə təması və gediş-gəlişi bərpa olunur. Ümumiyyətlə, qeyd olunan proseslər Azərbaycanda ictimai-siyasi həyatın dinamikləşməsi, milli və dini özünüdərkin güclənməsinin cəmiyyət daxilində genişmiqyaslı sosial fəallığın artması ilə səciyyələnirildi (Mixail Qorbaçov: Niyə onun yenidənqurma siyasəti SSRİ-ni qoruya bilmədi, n.d.).

İqtisadi çətinliklər, ölkənin qeyri-peşəkarcasına idarə olunması imperiyanın tərkibində yaşayan xalqlarda müstəqillik meyillərini alovlandırdı. Baltikyanı ölkələrdə, Gürcüstan və Ukranıyanın qərb bölgələrində həm ziyalılar, həm də adi vətəndaşlar müstəqillik hərəkatına başladılar. 1989-cu ildə avqust-sentyabr aylarında Baltikyanı ölkələrdə nümayişlər başlandı. Nümayişçilər respublikaların SSRİ-nin tərkibindən çıxmasını tələb edirdilər. Qərbi Ukraynanı, Moldaviyanı və Tacikistanı nümayişlər dalğası bürümüşdü. Tatarıstan, Çeçenistan da müstəqillik uğrunda mübarizəyə qoşulmuşdular. Mərkəzdənqaçma qüvvələrin fəallaşması Sovet İmperiyasının vəziyyətini daha da mürəkkəbləşdirdi. Digər tərəfdən, partiya rəhbərliyinin və demokratik qüvvələrin siyasətdə və

iqtisadiyyatda düşünülməmiş radikal islahat tələbləri ölkədə başlanmış böhranı daha da dərinləşdirdi. Milli respublikalarda və regionlarda mərkəzə qarşı kütləvi çıxışlar, mitinqlər daha geniş vüsət aldı. Parçalanmağa heç cür razı olmayan Sovet İttiffaqı bu vəziyyətdən çıxışı yolunu çirkin əməllərə əl atmaqda gördü. Sovet imperiyasını yenidən bərpası üçün hazırlanmış layihə və tədbirlərə başlanıldı, xalqları bir-birinə düşmən etməklə hadisələrin qarşısını almağa çalışırdılar. Tbilisidə, Bakıda, Litvada və digər şəhərlərdə törədilən qırğınlar SSRİ-dəki böhran vəziyyətini daha da acınacaqlı bir vəziyyətə saldı. Ayrı-ayrı respublikalar kommunist rejiminin mövcudluğu ilə barışmayaraq mübarizə aparırdı. Çoxlu sayda millətləri və xalqları öz əsarətində saxlayan Sovet İttifaqı dünya ictimaiyyətinin nəzərində təcəvüzkar dövlət kimi tanınırdı. Xalqların milli özünüdərkinə əngəl törədən, suveren hüquqlarını tapdalayan hakim rejim həm də, milli sərvətlərin sahib olduğu millətlərdən alınaraq talan edilməsinə şərait yaradırdı. Bu da etiraz dalğasını daha da genişləndirdi. Sözlə iş, nəzəriyyə ilə praktika arasında dərin uçurum vardı. "Yenidənqurma" və "Aşkarlıq" adı altında görülən saxta addımlar da bir bəhrə vermədi, əksinə iqtisadiyyata ciddi ziyan vurdu, cəmiyyətləri açıq siyasət aparmağa cəsarətləndirdi, mərkəzdən qaçan qüvvələrin sayı artdı. Ən əsası Kommunist partiyasının yalançı nüfuzu sarsıldı.

Azərbaycanda Qarbaçov siyasətinin nəticəsi kimi yenidənqurma – yenidənqurulma media aşağıdakı mərhələlərdən keçdi:

- Dövlətin və kommunist partiyasının monopoliyasında fəaliyyət göstərən mətbuat tədricən sahibinin mütləq diktəsindən imtina etməyə başladı. Bu proses "Oqonyok"," Novıy Mir", "İzvestiya", "Komsomolskaya", "Pravda" və "Literaturnaya Gazeta" kimi mətbuat orqanlarının, həmçinin Azərbaycanda nəşr olunan "Molodyoj Azerbaydjana" və "Kommunist" qəzetlərinin tematikasında öz əksini tapdı.
- SSRİ-nin milli müstəqilliyə can atan respublikalarında qeyri-formal təşkilatların yaranması bu təşkilatlara məxsus qəzet və jurnal tipli nəşrlər meydana gəlməsinə səbəb oldu. Bu qurumların formalaşması tədricən mövcud hakimiyyətə qarşı mübarizəsini daha da gücləndirdi. Ümumiyyətlə, bir çox respublikalarda özlərini "müxalifət" kimi təqdim edən siyasi qüvvələr formalaşdı və birləşən partiya və təşkilatlar hakimiyyətə gəlmək uğrunda mübarizəyə qoşuldular. Yeni ictimai-siyasi dalğa isə bu təşkilatların ideoloji fəaliyyətini təmin edən mətbuat orqanlarının yaranmasına zəmin yaratdı.
- Uzun müddət mətbuat üzərində– təxminən 70 il ərzində monopoliyanı qoruyan sovet sisteminin zəifləməsi və dağılması ehtimalını hiss edən qüvvələr, eyni zamanda, sivil dünya təcrübəsinə əsaslanan kütləvi informasiya vasitələri sisteminin yaradılması istiqamətində təşəbbüslər irəli sürdülər. Bu sonuncu mərhələ əvvəlki mərhələlərin daxilində formalaşsa da, onun real şəkildə gerçəkləşməsi daha gec baş verdi. Bu prosesin həyata keçməsi üçün mövcud siyasi sistemin və rejimin dəyişməsi zəruri idi. SSRİ-nin tam dağılması və bazar münasibətlərinə keçid bu mərhələnin başlanması ilə mümkün oldu.

1980-ci illərin ikinci yarısında Azərbaycanda nəşr olunan bəzi qəzet və jurnallar "aşkarlıq" və "yenidənqurma" prinsiplərinə əsaslanaraq cəmiyyətdə baş verən prosesləri nisbətən obyektiv şəkildə əks etdirməyə başladılar. "Molodyoj Azerbaydjana", "Odlar Yurdu" və "Elm" qəzetləri ictimai narahatlıq doğuran problemlərlə bağlı tənqidi materiallarla çıxış edir, mövcud quruluşun və ictimai-siyasi münasibətlərin ziddiyyətlərini ön plana çəkirək göstərirdilər. Məzmun və hadisələrə yanaşma baxımından bu nəşrlər digər mətbuat orqanlarından əhəmiyyətli dərəcədə fərqlənirdi. Azərbaycanda yürüdülən antitürk siyasəti isə "yenidənqurma" dövründə ölkə üçün ən ağır nəticələrdən biri kimi özünü göstərdi və bu siyasətin ən bariz təzahürü Qarabağ problemi oldu.

Azərbaycanda antitürk siyasəti

"Yenidənqurma" və "aşkarlıq" siyasətinin elan etdiyi nisbətən liberal mühitdən istifadə edən erməni millətçi qüvvələri Qərbi Azərbaycanda antitürk yönümlü siyasətlərini daha da gücləndirib etnik

təmizləmə prosesinə başladı. Bu mərhələdə azərbaycanlıların Ermənistandan növbəti deportasiyası başlandı. 1988-ci ilin fevral ayında Yerevan şəhərində "Ermənistanı türklərdən təmizləməli" və "Ermənistanda yalnız ermənilər yaşamalıdır" kimi şüarlar altında kütləvi antitürk mitinqləri keçirildi. Fevral ayının 21-də isə erməni radikal qrupları tərəfindən şəhərdə fəaliyyət göstərən son məscid dağıdıldı.

Elə həmin il, fevralın 18–23-də təqiblərə məruz qalan azərbaycanlı qaçqınların yeni dalğası Azərbaycana sığınmaq məcburiyyətində qaldı. Erməni tərəfi azərbaycanlılar haqqında mənfi ictimai rəy formalaşdıraraq hadisələrin gedişini məqsədli təxribat xarakterli addımlara yönəltdi. 1988-ci il fevralın 28-də Sumqayıt şəhərində baş verən hadisələr bu kontekstdə xüsusi qeyd olunur. "Paşa" ləqəbli Edik Grigoryan adlı şəxsin iştirakı ilə təxribat xarakterli iğtişaşlar törədilməyə başladı. Bu hadisələrin məhz Sumqayıtda baş verməsi təsadüfi deyildi; çünki, Ermənistan ərzisindən qovulmuş çoxsaylı azərbaycanlılar bu şəhərdə məskunlaşmışdı.

Əvvəlcədən planlaşdırıldırılan hadisələrdə bir sıra faktlar – videolentlərin çəkilməsi, bəzi ermənilərin öncədən banklardan vəsaitlərini çıxarması və şəhəri tərk etməsi – bu qənaəti gücləndirir. Sonralan bu hadisələri bəzi təhriflərlə beynəlxalq ictimaiyyətə təqdim edilərək azərbaycanlılara qarşı mənfi rəy formalaşdırmağa çalışmışdılar. 1988-ci il fevralın 27-də şəhərdə kütləvi iğtişaşlar başlayır, səhəri gün talan və zorakılıq halları baş verir. Nəticədə 32 nəfər (26 erməni və 6 azərbaycanlı) həlak olur, 200-dən artıq ev qarət edilir.

Sumqayıt hadisələrindən sonra Ermənistanda antitürk istiqamətli hərəkat daha da formalaşmağa başladı. Bu zaman qeyri-formal silahlı erməni birləşmələri fəallığı yüksəlməyə başladı. 1988-ci ilin martında azərbaycanlıların yaşadığı ərazilərdə yüzlərlə ev qarət edilərək yandırılır, əhali məcburən öz evlərini tərk etmək məcburiyyətində qalaraq qovulur. Həmin ilin may ayında Yerevan ətrafında yerləşən azərbaycanlı kəndlərinə yenidən hücumlar təşkil edilir (Əliyev, 1989, s. 119). 1988-ci ilin mart–dekabr ayları ərzində yüzlərlə azərbaycanlı qətlə yetirilmiş, minlərlə insan isə İran və Türkiyə sərhədlərini keçərək sığınacaq alır. Eyni zamanda, silahlı hücumlar Azərbaycanın müxtəlif bölgələrinə də yayılır. Qarabağ bölgəsində, xüsusilə Qubadli District ərazisində yerləşən Eyvazlı, Qovudlu və Qədili kəndlərinə hücumlar edilir, qırğınlar törədilir, Kərki kəndi işğal olunaraq yandırılır. Sentyabr ayının 16-da Bakı–Tbilisi sərnişin avtobusu partladılır, 31 iyul 1991-ci ildə isə Moskva–Bakı qatarında güclü partlayış törədirlər.

Ümumiyyətlə, bu prosesdə 230 minə yaxın azərbaycanlı öz doğma yuvalarından qovulur, 225 nəfər isə həyatını itirməklə Qərbi Azərbaycandan deportasiya edilir. Azərbaycanlılara qarşı həyata keçirilən zorakılıq siyasəti onların kütləvi köçməsi ilə sonlanır. Əhalinin Azərbaycana köçü respublikada ictimai-siyasi vəziyyətin daha da gərginləşdirdi. Sovet cəmiyyətini sarsıdan "yenidənqurma" və "aşkarlıq" şüarından istifadə edən erməni siyasi qüvvələri yenidən Azərbaycana qarşı ərazi iddiaları irəli sürürlər.

Qarabağ münaqişəsi və mətbuatda əksi

Sovet hakimiyyəti dövründə xalqlar arasında konfliktlər, münaqişələr sərtləşdi, mərkəzdənqaçan qüvvələri zəiflətmək üçün ənənəvi "parçala, hökm et" siyasətindən daha geniş istifadə edilərək milli münaqişələr qızışdırıldı, imperiyanın müxtəlif bölgələrində əvvəldən məharətlə hazırlanmış milli münaqişə ocaqları alovlandırıldı. Bu ocaqlardan biri də Azərbaycanda yaradıldı. Qarabağ hadisəsi birdən-birə yarana bilməzdi. Mərkəz buna illərlə ciddi hazırlıq görmüş, çox mükəmməl ssenari tərtib etmişdi. Şübhəsiz ki, bu oyunun əsas icraçıları erməni millətçi dairələri, iştirakçıları isə sadə xalq olmalı idi. Moskvada və İrəvanda illərlə Azərbaycan xalqı əleyhinə nəşr edilən kitablar, qəzetlərdə dərc olunan məqalələr düşmən Azərbaycan obrazı yaratmaq üçün idi. SSRİ-nin dəstəyi ilə hüquqi əsası olmayan Qarabağ komitəsinin fəaliyyəti genişləndi. Ermənistandan Dağlıq Qarabağı Ermənistana birləşdirmək məqsədi ilə dünyanın 30-dan çox dövlət və beynəlxalq təşkilatına 300 min

ermənin imzası ilə müraciətnamələr göndərildi. Azərbaycanlıları təhqir edən, milli münasiqəni qızışdıran sifarişli yazıların yazılması, xüsusi ilə Harun Qazaryanın, Zori Balayanın, S.Xanzadyanın, B.Ulubabyanın, S.Kaputikyanın və başqalarının tarixi saxtalaşdıran "əsərləri" ilə uydurma erməni tarixi yazılırdı. Balayanın "İki od arasında", "Qəza", "Ocaq" kitablarında ermənilər özlərinin uydurduğu "tarixi" faktlara inandırmağa cəhd edirdilər. "Literaturnaya qazeta" nın Ermənistan SSR üzrə müxbiri Zori Balayanın 1984-cu ildə rusca buraxılan "Ocaq" kitabında türklər, xüsusilə azərbaycanlılar "vəhşi", "barbar" adlandırılır. Ermənilər və sətiraltı məna ilə rusları azərbaycanlılara qarşı müharibəyə çağırırdılar.

Erməni təxribat qrupları irəli sürdüyü iddiaların onlara məxsus olmayan ərazilərlə bağlı növbəti hadisəsi 1987-ci ilin oktyabrında baş verdi. Bu zaman İrəvanın Puşkin meydanında "Qarabağ" komitəsinin ilk açıq mitinqi keçirildi. Burada Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbini irəli sürüldü. Ardınca Dağlıq Qarabağ Muxtar Vilayət Soveti tərəfindən regionun Ermənistana birləşdirilməsi haqqında qərar qəbul olundu.

Azərbaycan xalqı baş verənlərə etiraz olaraq respublikanın ərazi bütövlüyünün qorunması ilə bağlı kütləvi nümayişlərə başladı. Bu vaxt erməni silahlı qüvvələri Azərbaycan ərazilərində açıq hərbi əməliyyatlara girişdi. Hüquq-mühafizə orqanları Sovet rəhbərliyinin göstərişi ilə azərbaycanlı əhalinin əlində olan silahları müsadirə etdilər ki, bu da faktiki olaraq onların tərksilah edilməsi demək idi. "Azadlıq" meydanında keçirilən fasiləsiz mitinqlər və hadisələrə bu cür münasibət rəsmi dairələrdə narazılığı daha da gücləndirdi. 1988-ci il noyabrın 17-dən dekabrın 5-dək təxminən bir milyona yaxın insanın iştirak edirdiyi mitinqlərdə hakimiyyət xalqın tələblərini nəzərə almaq əvəzinə, sovet qoşunları vasitəsilə bu aksiyaları dağıtmağa üstünlük verdi.

Azərbaycan xalqını gözləyən təhlükələri görməmək və qabaqlayıcı tədbirləri həyata keçirməmək Sovet İperiyasını atdığı ən böyük səhv addımlardan biri idi. Belə ki, 1988-ci il ermənilərin Qarabağda cinayətkar hadisələr törətməsi, ondan qabaq isə Qərbi Azərbaycanda yaşayan Azərbaycan türklərinin öz torpaqlarından deportasiya edilməsi, Qarabağda Topxana meşəsində ağacların qırılması və bununla bağlı başlanan mitinqlər hadisələrin məcrasını dəyişdi. 1988-ci ilin fevralında Sumqayıt şəhərində ermənilər tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş təxribat xarakterli qırğınlar da SSRİ Dövlət Təhlükəsizlik Komitəsi ilə ermənilərin həyata keçirdiyi ssenarinin tərkib hissəsi idi. Münaqişənin qızışdırılmasında millətçi erməni ziyalılarının mühüm rolu olmuşdu. Həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün mübarizəyə Azərbaycan ziyalıları da qoşuldu.

1988-ci ildə hərəkatçı və Milli Elmlər Akademiyası Coğrafiya İnstitutunun əməkdaşı Ənvər Əliyev "Vətən" adlı rus dilində məqalələr toplusunu nəşr etdi. 1989-cu ilin aprelində "ANS" televiziyasının yaradıcısı olan Vahid Naxış "Rok Oko" adlı bir jurnalı nəşr edib yaydı. 1989-cu ilin mayın 27-də isə Azər Qasımzadə "Dirçəliş" qəzetini nəşr etməyə başladı. A.Qasımzadənin ümumi redaktorluğu ilə "Gülüstan", "Soy", "Dönüş" məcmuələri də nəşr edilməyə başlandı. Bir müddət sonra Azərbaycan Xalq Cəbhəsinin, "Yeni Müsavat" Partiyasının, "Birlik" Cəmiyyətinin, Xalq Azadlıq Partiyasının "samizdat" nəşrləri Azərbaycanda yayılmağa başladı. Eyni zamanda Sovetlər Birliyi dövründə qadağan edilmiş mövzularda kitablar da çap edilib gizli qaydalarda oxuculara çatdırılırdı. Qarabağ hadisələrinin başlaması Azərbaycan mətbuatına "yuxarıların" sifarişini yerinə yetirməməyə, xalqın haqq sözünü deməyə təkan verdi. Kütləvi informasiya vasitələrində nəzərəçarpan dərəcədə məzmun dəyişikliyi hiss olunmağa başlanmışdı. Ancaq mətbuat hələ də sovet iqtidarının nəzarətində olduğundan ilk əvvəl "Odlar Yurdu", "Molodyoj Azerbaydjana" qəzetlərində, "Gənclik", "Xəzər" jurnallarından başqa, demək olar ki, respublikanın heç bir informasiya vasitəsi həlli vacib məsələlər barədə oxucularla açıq dialoq aparmaq iqtidarında olmadı.

1989-1990-cı illərdə Azərbaycanda "samizdat"ların sayı çox olsa da, müxalif istiqamətli qəzetlərin dövlət qeydiyyatına alınması prosesi də artıq başlanılmışdı. Məsələn, Azərbaycan Xalq Cəbhəsinin

qəzeti kimi nəşr edilən "Azadlıq" 1989-cu ilin dekabrından qeydiyyata alınmışdı və elə ilk sayından icazəli yayılmağa başladı. Qəzet Nəcəf Nəcəfovun redaktorluğu ilə fəaliyyətə başladı.

Azərbaycanda ilk "samizdat" "Dirçəliş" qəzeti 1989-cu ilin may ayının 27-də çapdan çıxdı. "Dirçəliş" qəzeti Azərbaycan Dirçəliş Partiyasının orqanı olub. 1989-cu ildə "Dirçəlməli! Bəsdir daha bu zilləti-zülmət!" şüarı ilə əvvəl "Dönüş" mətbəəsində, daha sonra "Dirçəliş" nəşriyyatında çapdan çıxıb. Baş redaktoru Odər Xəzər (Azər Qasımzadə) olub. Qəzetdə Azərbaycan Xalq Cümhuriyyətinin sənəd və müraciətləri, ölkədə və dünyada baş verən son olaylar, eləcə də Azərbaycan tarixi ilə bağlı yazılar nəşr olunub.

Azərbaycan Xalq Cəbhəsi yarandıqdan sonra müxtəlif mətbuat orqanları fəaliyyətə başlayır. AXC Bülletenlərinin nəşrindən sonra geniş formatda (A3 formatı, "Bülleten" A4 formatında çıxırdı) nəşr edilən ikinci mətbuat orqanı "Meydan" qəzeti idi Bu, həm də nəşr tarixi etibarı ilə AXC-nin ilk qəzetidir. Qəzet 1989-cu ilin sentyabrında gizli olaraq Tovuz rayon mətbəəsində çap edilib. Qəzetin ilk sayı 10 000 (on min) tirajla nəşr olunub (qiyməti 1 manat) və gizli formada gətirilərək Bakıda yayılıb.

Redaksiya Heyəti olaraq nəşr edilən qəzetin Baş məqaləsini yazıçı-jurnalist Səfər Alışarlı yazıb. Baş məqalədə yazılırdı: "Bəylər və xanımlar! Hələlik qeyri-formal xarakter daşıyan bu qəzetin "Meydan" adlandırılması təsadüfi deyildir. Bu ad müxtəlif təkliflər arasından seçilərək qəbul edilmişdir. Seçim zamanı son iki ildə "meydan" anlayışının ictimai təfəkkürdə haqq, ədalət, mübarizə və azadlıq ideyalarının simvoluna çevrildiyi nəzərə alınmışdır. Azərbaycan Xalq Cəbhəsi, Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun orqanı kimi fəaliyyət göstərən "Azərbaycan" məcmuəsi, 1989-cu ildə həftəlik ictimai-siyasi-tarixi nəşr olaraq çap olunmağa başlayır. Azərbaycan və rus dillərində nəşr edilən məcmuənin baş redaktoru Elmar Məhərrəmov idi. 1988–1989-cu illərdə nəşr olunan bu mətbu orqan əsasən həm Bakıda, həm də regionlarda baş verən ictimai-siyasi proseslər işıqlandırırdı.Ümumiyyətlə, xalqın mövqeyini ifadə edən mətbuat cəmiyyətin ictimai nəzarət mexanizmi kimi çıxış edir. İnformasiyanın dövriyyəsini genişləndirərək insanların intellektual inkişafına təsir göstərən mətbuat milli düşüncənin səviyyəsi ilə birbaşa bağlıdır. Mətbuatın azad və məsuliyyətli göstəriciləri adətən inkişaf etmiş cəmiyyətlərdək fəaliyyətini bağlıdır (Aşırlı, 2009, s. 275).

Azərbaycana qarşı yönəlmiş təxribatlar artıq davamlı xarakter almağa başlamışdı. Xalqın etirazlarını boğmaq məqsədilə sovet rəhbərliyi 1990-cı il yanvarın 20-də Bakıya öz ordusu ilə qoşun yeritdi. 20 Yanvar faciəsi tarixə dəhşətli bir hadisə kimi daxil oldu. Bu mübarizədə ərazi bütövlüyü və müstəqilliyini tələb edən, Qarabağın dinc əhalisi ağır hərbi texnika və silahlardan qətlə yetirildi. İnformasiya axınının qarşısını almaq məqsədilə 1990-cı il yanvarın 19-da yeganə televiziya kanalı olan AzTV-nin enerji bloku partladılaraq sıradan çıxarılır. Bir neçə istiqamətdən Bakı şəhərinə hərbi müdaxilə həyata keçirilmiş, 131 nəfər mülki şəxs həlak olmuş, yüzlərlə insan yaralanmış, 200-dən çox ictimai-siyasi fəal həbs olunaraq Moskva şəhərinə aparılır. Baş verən hadisələr cəmiyyətdə ciddi psixoloji gərginlik və qeyri-müəyyənlik yaradır.

1990-cı il yanvar ayının 21-də Heydər Əliyev Moskvada keçirilən izdihamlı toplantıda Azərbaycanın daimi nümayəndəliyi qarşısına gələrək çıxış edir. O, qeyd edir ki, "Dağlıq Qarabağ münaqişəsinin ilkin mərhələsində ölkə rəhbərliyi tərəfindən vaxtında adekvat siyasi tədbirlər görülsəydi, vəziyyət bu həddə çatmaz, genişmiqyaslı insan tələfatı ilə nəticələnən hərbi müdaxilə üçün zəmin yaranmazdı". (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 20 yanvar 1990-cı il faciəsinin ildönümlərilə bağlı çıxışlarına dair ümumi tarixi arayış, t.y.).

Gərgin ictimai-siyasi vəziyyətə münasibət respublikada yaradıcı ziyalıların təşəbbüsü ilə "75-lər bəyanatı" ilə hazırlanır və 28 aprel 1990-cı il tarixində "Elm" qəzeti səhifələrində dərc edilir.

Bəyanatda vurğulanırdı: "…respublika rəhbərliyi real ictimai qüvvələrin birləşdirilməsi istiqamətində yetərli addımlar atmır, keçmişdə buraxılmış səhvlərin təkrar olunması təhlükəsi hələ də mövcuddur. Həmçinin sənəddə qeyd edilirdi ki, ictimai sabitlik müvəqqəti xarakter daşıyır hərbi güc və davamlı sülhün təmin olunması üçün geniş ictimai konsensusun yaradılması mütləqdir. Demokratik qüvvələrin, xüsusilə də Azərbaycan Xalq Cəbhəsinin iştirakı olmadan bu məqsədə nail olmağın mümkün deyil" ("Elm" qəzeti, 1990).

İlk dəfə 20 yanvar hadisəsi və həlak olanlar haqqında dolğun məlumat verən qəzet "Səhər" qəzeti olub. Qəzetin qanlı qırğının xalqa çatdırılmasında unikal rolu olub. Nəşriyyatda oturan sovet nümayəndəsinin işə gəlməməsini fürsət bilən jurnalistlər nəşriyyatın rəhbəri ilə gizli görüş təşkil edirlər və "Səhər" qəzetinin 20 yanvarla bağlı nömrəsini çapa hazırlamağa başlayırlar. Qəzetin 11 əməkdaşı materiallar toplamaq üçün Bakının müxtəlif yerlərinə göndərilir. Ən vacib olan qanlfaciə barədə məlumatları, tanınmaz hala salınmış şəhidlərin fotolarını yaymaq idi. Bu yazıların hamısı qəzetdə bir başlıqda birləşir: "Vətən bu gün ağı deyir". Məzahir Süleymanlı qeyd edirdi ki, Qorbaçov Moskvadan deyirdi ki, "Bakıda dinc əhaliyə güllə atılmayıb". Biz dövlət başçısına deyə bilməzdik ki, yalan deyirsən. Əvəzində güllə ilə deşik-deşik edilmiş balkonun fotosunu verirdik. Bunu hərbi senzuradan keçirmək də böyük çətinliklər hesabına başa gəlib. "Səhər" 1990-91-ci illərdə Azərbaycanda yüksək tirajla nəşr edilən yeganə gündəlik qəzet olub. Qəzet fəaliyyəti dövründə ictimai fikrə təsir edən, xarici kütləvi informasiya vasitələrinin istinad etdiyi ən etibarlı xəbər mənbəyi rolunu oynayıb. 20 yanvar hadisələri zamanı həlak olan şəhidlərin ilk siyahısını da məhz "Səhər" qəzeti yayımlayıb.

Nəticə

Demokratikləşmə və dövlət suverenliyi uğrunda mübarizə ümumittifaq məkanında ən yüksək mərhələsinə 1991-ci ildə çatdı. Azərbaycan xalqı da digər xalqlar və millətlər kimi bu mürəkkəb və dinamik siyasi proseslərdən yararlanaraq da öz dövlət müstəqilliyini bərpa etdi. 18 oktyabr ayının 1991-ci ildə Azərbaycan Respublikası Ali Soveti-nin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Həmin tarixdən etibarən müstəqil Azərbaycan Respublikası dövlət quruculuğu prosesində iqtisadi, sosial, siyasi və hərbi sahələrdə sistemli və məqsədyönlü islahatlar həyata keçirdi. Bununla da, 69 il sonra 1991-ci ilin dekabrında SSRİ bir siyasi qurum kimi süqut etdi. Müstəqillik dövrü Azərbaycan publisistikasının ideya- estetik xüsusiyyətləri, üslub zənginliyi, azadlıq uğrunda mübarizə əhval-ruhiyyəsi, Qarabağ ətrafında gedən hadisələri təfərrüatı ilə işıqlandırmaq meyli, xalq və vətən taleyini ön plana çəkmək cəhdi diqqətəlayiqdir. Həmin səbəbdəndir ki, müstəqillik dövrü Azərbaycan bədii publisistikası və onun istinad etdiyi ədəbi- tarixi təcrübə indi mühüm aktuallıq kəsb edir, milli-mənəvi dəyərlərin qorunması, xalq yaddaşının mühafizəsi, milli dövlət quruculuğu və dünyaya inteqrasiya baxımından mühüm əhəmiyyət daşıyır.

Müasir Azərbaycan jurnalistikanın formalaşmasına aparan yol müəyyən mənada qeyri-rəsmi xarakter daşıyan qəzetlərin fəaliyyəti ilə başlayır. Bu nəşrlər ilk növbədə, yeni informasiya mühitinin təşəkkülündə ilkin mərhələni təşkil edir. Qərb jurnalistika standartlarından bəhrələnən və müasir media prinsiplərinə dayanan ilk müstəqil mətbuat orqanları sırasında "Ayna" qəzeti, onun rusdilli versiyası "Zerkalo" qəzeti və "525-ci qəzet" xüsusilə qeyd olunur. Bu qəzetlər Azərbaycan mətbuatında yeni jurnalistika məktəbinin formalaşmasına, peşəkar jurnalistika prinsiplərinin yayılmasına öz nəşrləri ilə peşəkarlıq səviyyəsini, sənətkarlıq xüsusiyyətlərini qoruyub saxlaya biliblər.

Ədəbiyyat

1. Aşırlı, A. (2009). *Azərbaycan mətbuat tarixi*. Elm və Təhsil.
2. Babayeva, G. (2025). *Azərbaycan publisistikasının inkişaf mərhələləri (1875–2025)*. Elm.
3. "Elm" qəzeti. (1990, 28 aprel).
4. Əliyev, İ. (1989). *Dağlıq Qarabağ: Tarix, faktlar, hadisələr*. Elm.
5. Əliyev, İ. (t.y.). *Yenidənqurma dövründə Sovetlər İttifaqında milli məsələ və etnik konfliktlər*. Strategiya.az. https://az.strategiya.az/news.php?id=7255
6. Əzimova, A. (2018). *Müstəqillik dövrü Azərbaycan bədii publisistikası*. Elm.
7. Hüseynova, İ. (2004). *Müstəqil Azərbaycan dövlətinin qurucusu*. Təhsil.
8. Mixail Qorbaçov: Niyə onun yenidənqurma siyasəti SSRİ-ni qoruya bilmədi. (n.d.). *BBC Azərbaycanca*. https://www.bbc.com/azeri/region-62735132
9. Məmmədli, S. (2018). *Müstəqil Azərbaycan mətbuat sistemi: Təşəkkülü və inkişafı (1991–2000)*. Bakı Universiteti.
10. Rüstəmov, A. (2018, 2 fevral). Milli münasibətlərin kəskinləşməsi şəraitində KİV-in fəaliyyəti. *525-ci qəzet*, 4.
11. Yaqublu, N. (2022). *Azərbaycan mətbuatı: Gizli nəşrlər*. Qanun.
12. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 20 yanvar 1990-cı il faciəsinin ildönümlərilə bağlı çıxışlarına dair ümumi tarixi arayış. (t.y.). *Heydər Əliyev İrsi Beynəlxalq Elektron Kitabxanası*. https://lib.aliyevheritage.org/az/5649464.html

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 33–36
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 33–36
DOI: https://doi.org/10.36719/2706-6185/60/33-36

Dil seçimi və sosial təsirlər

Natavan Seyidzadə

Xülasə. *Çoxdilli mühitdə dil seçimi insanların yaşadığı sosial mühit, mədəniyyət və cəmiyyətdəki münasibətlərlə bağlıdır. İnsanların gündəlik həyatda müxtəlif dillərdən istifadə etməsi təsadüfi deyil. Bu seçim ailə mühiti, təhsil, iş həyatı və cəmiyyətdəki mövqe kimi amillərin təsiri ilə formalaşır.*
Məsələn, bir insan evdə ana dilində danışdığı halda, rəsmi yerlərdə və ya iş mühitində daha geniş istifadə olunan dili seçə bilər. Bu da göstərir ki, dil seçimi vəziyyətə və mühitə görə dəyişir.
Çoxdillilik müxtəlif xalqlar arasında əlaqələrin güclənməsinə, mədəni və iqtisadi münasibətlərin inkişafına kömək edir. Bununla yanaşı, bəzi hallarda müəyyən dillərin daha üstün sayılması, sosial bərabərsizlik və assimilyasiya kimi problemlər də yarana bilər.
Beləliklə, çoxdilli mühitdə dil seçimi yalnız şəxsi qərar deyil, həm də sosial və mədəni faktorların təsiri ilə formalaşan mürəkkəb bir prosesdir.

Açar sözlər: *çoxdilli mühit, dil istifadəsi, ünsiyyət, sosial təsir, mədəni əlaqələr, dil fərqliliyi*

Bakı Dövlət Universiteti, filologiya üzrə fəlsəfə doktoru, Bakı, Azərbaycan
E-poçt: naraseyid86@gmail.com
Daxil oldu: 16 Yanvar 2026; Qəbul edildi: 10 Mart 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Language Choice and Social Influences

Natavan Seyidzade

Abstract. *Language choice in a multilingual environment is related to the social environment, culture, and social relationships in which people live. It is not accidental that people use different languages in their daily lives. This choice is shaped by factors such as family environment, education, work life, and position in society.*
For example, a person may speak their native language at home, but may choose the language that is more widely used in official places or in a work environment. This also shows that language choice varies depending on the situation and environment.
Multilingualism contributes to the strengthening of ties between different peoples and the development of cultural and economic relations. However, in some cases, problems such as the superiority of certain languages, social inequality, and assimilation may also arise.

Thus, language choice in a multilingual environment is not only a personal decision, but also a complex process shaped by the influence of social and cultural factors.

Keywords: *multilingual environment, language use, communication, social influence, cultural relations, language difference*

Baku State University, PhD in Philology, Baku, Azerbaijan
E-mail: naraseyid86@gmail.com
Received: 16 January 2026; Accepted: 10 March 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Çoxdillilik müasir cəmiyyətlərin əsas xüsusiyyətlərindən biri hesab olunur. İnsanların gündəlik həyatda müxtəlif dillərdən istifadə etməsi sosial, mədəni və psixoloji amillərlə bağlıdır (Holmes, 2013). Qloballaşma, miqrasiya və texnologiyanın inkişafı nəticəsində fərqli dillərin eyni mühitdə işlənməsi daha da geniş yayılmışdır.

Bu şəraitdə dil seçimi yalnız ünsiyyət ehtiyacını qarşılamır, həm də insanın sosial kimliyini və cəmiyyətdəki mövqeyini ifadə edir. Dil seçiminə yaş, təhsil səviyyəsi, sosial status, etnik mənsubiyyət və ünsiyyət mühiti kimi amillər təsir göstərir (Spolsky, 1998). Məsələn, bəzi insanlar daha nüfuzlu hesab olunan dillərə üstünlük verirlər. Bu isə dilin yalnız ünsiyyət vasitəsi deyil, həm də sosial nüfuz göstəricisi olduğunu göstərir (Fishman, 1972).

Dilçilikdə bilinqvizm və diqlossiya anlayışları mühüm yer tutur. Bilinqvizm iki dilin paralel istifadəsini bildirir. Diqlossiya isə bir-birinə yaxın və ya qohum dillərin yanaşı işlədilməsi ilə xarakterizə olunur (Veysəlli, 2016). "Diqlossiya" sözü yunan mənşəlidir və "iki dil" mənasını verir. Diqlossiya müxtəlif formalarda özünü göstərir. Məsələn, Yunanıstanda uzun müddət həm klassik yunan dili, həm də xalq danışığına yaxın olan yeni yunan dili istifadə olunmuşdur (Rəcəbli, 2006). Ərəb ölkələrində isə insanlar rəsmi və ədəbi sahələrdə ortaq ərəb dilindən istifadə etsələr də, gündəlik həyatda fərqli danışıq dillərində ünsiyyət qururlar (Qurbanov, 2019).

Bəzi hallarda insanlar iki qohum dili birlikdə işlədirlər. Məsələn, Azərbaycanda yaşayan tatarlar ailədə tatar dilində, ictimai mühitdə isə Azərbaycan dilində danışırlar. Litvada yaşayan latışlar da ailədə latış, ictimai yerlərdə isə litva dilindən istifadə edirlər (Qurbanov, 2019, s. 268–269).

Tədqiqat

Dünyada çoxdillilik geniş yayılmış və müasir cəmiyyətlərin mühüm xüsusiyyətlərindən biri hesab olunan dil hadisəsidir. Müxtəlif xalqlar gündəlik həyatlarında iki, üç və daha çox dildən istifadə edirlər. Bu vəziyyət xüsusilə çoxmillətli və multikultural cəmiyyətlərdə daha aydın şəkildə müşahidə olunur. Məsələn, Azərbaycanda yaşayan talış ziyalıları ailə daxilində talış dilində danışdıqları halda, iş və ictimai mühitdə Azərbaycan və rus dillərindən istifadə edirlər (Ayupova, 1988). Oxşar dil davranışı Qafqaz, Orta Asiya, Afrika və Avropanın bir çox regionlarında da mövcuddur. Belə mühitlərdə fərdlər sosial vəziyyətə uyğun olaraq müxtəlif dillər arasında keçid edir və bu hal "dil dəyişməsi" (code-switching) kimi qiymətləndirilir.

Çoxdillilik insanların sosial, mədəni və iqtisadi inkişafına mühüm təsir göstərir. Bir neçə dili bilən şəxslər fərqli xalqlarla daha rahat ünsiyyət qurur, başqa mədəniyyətləri daha yaxşı anlayır və tolerant münasibət formalaşdırırlar. Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də mədəniyyət daşıyıcısı

olduğundan, çoxdillilik insanın dünyagörüşünü genişləndirir və onu qlobal mühitə daha açıq edir. Grosjean (2010) qeyd edir ki, çoxdilli insanlar müxtəlif mədəniyyətlər arasında körpü rolunu oynayırlar və bu xüsusiyyət onların sosial adaptasiyasını gücləndirir. Müasir dövrdə xarici dilləri bilmək əmək bazarında da mühüm üstünlük yaradır. Beynəlxalq şirkətlər, diplomatik qurumlar və turizm sektoru çoxdilli şəxslərə daha çox üstünlük verir. Bundan əlavə, bir neçə dil bilmək insanların informasiya əldə etmə imkanlarını genişləndirir və beynəlxalq əlaqələrini gücləndirir.

Also, among the aspects of similarity is the multiplicity of significations between the two discourses, as their poetry has revolted against the prevailing concept about it, with the emergence of a special lexical lexicon that erodes the singularity of the apparent meaning and its stability, and awakens the latent inner meaning and the interpretive capacity to solve the obscurities of expressions filled with semantic loads, due to the reliance of each of them on metaphor, since "metaphor takes the word out of its real limits, and the relations that it establishes between the word and the reality are probabilistic relations by which the meaning becomes multiple, which generates a difference in understanding that

leads to a difference in opinion, and from here metaphor does not allow giving a final answer" (Adonis, 1989b, p. 75).

Thus, through this Sufi poetic experince, indicative dimensions emerge that symbolize what they suggest to, as "the term or the word no longer has the same meaning that we know, rather it takes on other significations behind the words, which almost becomes an emptying of the meaning of the word and pouring another meaning into it, where the signification becomes doubled in a way that exceeds its conventional limit" (Eid, 2003, p. 279).

And proceeding from these linguistic and thematic intersections in the theme of the two discourses, the two experinces have united in the mode of expression which is based on suggestion and ambiguity, and the contemporary poets have sought to transcend the communicative language by creating a second language within the language, which is based on symbol and indication. And if the sufis have turned toward this language out of the incapacity of the traditional language to represent the significations of the meanings carried by the Sufi discourse, due to what it contains of depth of depiction and precision of image, then the contemporary poets have proceeded from the reality of modernity which seeks the continuous surpassing of the old, and the breaking of the monotony of the familiar styles, thus poetry, like Sufism, is but an intuitive contemplative tendency that rebels against the laws of reason and logic in its seeking for the essence of life and its truth, and the search for a world more perfect and more transcendent than the world of reality.

For this, the Algerian poet has turned, following the steps of other contemporary Arab poets, toward forming his modernist language and toward adopting the Sufi discourse with what it carries of significations by which he elevates his poetic text to the ascents of Sufi poetics, so some of them inclined toward representing this discourse as a theme and a language, and as a reference by which he resists his defeated present at times, and as a pleasure by which he journeys toward the worlds of depths in search of his mirage-like self deeply rooted in history and myth and beauty, and as he adopts this Sufi tendency he thereby deepens his symbolic indications and enriches the semantic structure in his discourses and widens the spaces of his suggestions and his interpretations.

Sufi Intertextuality in the Poetry of Othman Lousif:

Othman Lousif is considered among the Algerian poets in whose poetry the Sufi tendency has manifested, as he has relied on inner contemplations through unveiling and transcendence and diving into its dark layers with a poetic language that shatters the referential significations of words, "for what produces language is the taking out of words from their established nature to a new nature, this departure is the creation of what is called the gap or the space of tension, and the creation of a distance between the sedimented language and the innovative language" (Abu Deeb, 1991, p. 38).
The poet Othman Lousif says in the Diwan *The Rose Said*:

I grope in you the truth, white,
the radiance of the soul and the flowing tremor,
I grope the pulse of nothingness,
and I read in the dawn of your eyes
the icon of God, exhaling with murmurings,
and overflowing with love,
and the fierce ecstasy,
Ah… O woman, the universe blossoms
in her ladunni overflow,
and the color greens
in her pure fire (Loussif, 2000, p. 55).

Thus, this union in love between the poet and the woman realizes his gnostic awareness, as his verses translate what he endures of the burning pangs of longing toward the soul, and when he departs from his world which he rejects and turns away from, he transcends toward spaces more noble in purity, embracing the orbits and the mirrors, searching for his true self, and for his ultimate end, which he did not find except in a woman in whose overflow the universe blossoms, and in whose eyes he perceives the truth of God, for love is "everything in the Sufi path, the universe was created by love, and is perceived by love, and God, Glorified be His Majesty, is not perceived by sights nor encompassed by minds, but the Sufi kindles the torches of love in his heart and his inner being and his soul, thus he mounts the greatest ascent which connects him to his Lord" (Ibn Arabi, 1980, p. 224), and as the poet describes his woman in a material manner (the dawn of your eyes, the icon of God, overflowing with love), then it symbolizes significations other than those commonly known among humans in the sensory world.

And just as the attachment of the Sufi to the divine essence carries him toward the Absolute and the elevation from materiality to the pure spiritual world, likewise we find in the union of the poet with the woman and his celebration of her a separation from the earthly world and an attachment to the paradise of femininity, and to the unseen world, thus the poet Othman Lousif embraces the hidden world through divine love, employing the material and the sensible in depicting the abstract spiritual, because "divine love does not invade the hearts except after they have been imprinted with the traces of the sensory language" (Al-Khatib, n.d., p. 67), and through it he surpasses the painful material reality, seeking the stations of the divine light radiating from his depths, which grants him comfort and psychological security.

The Sufi experince is an active element in the poetics of Othman Lousif, which he has employed in a striking and dense way, due to what the two experinces carry of positions of rejection and sacrifice, and what melts within them of conflicts and emotional charges, and what his Sufi language has carried of deep significations that express a particular vision that calls for contemplation in order to grasp its essence, because "poetry is the language of perceiving what cannot be perceived, and this language is what has founded this contemporary Arab Sufi experince and practiced it in a unique manner" (Adonis, 1989b, p. 198).
The poet says in the verses of the following passage from the poem (*The Deified Woman*):

My Lady… my Lady!
Ah! how wondrous is love
when lightning brings us together
in a flash of the soul… to the soul
or the heartbeat… to the heart
how wondrous is the light
when meanings overflow upon two lovers
and the impossible unveils! (Loussif, n.d., p. 30)

The poet resorts to re-working some of the meanings of the sufis, in a glowing passage with vocabularies toward which his soul longs, as he implores God for indwelling in his female, and his path to that begins with love which makes his heart beat and liberates him from the slumber of the sinful reality and the deep concerns of the self, and elevating with his soul toward moments of unveiling, where he calls in his previous poetic passage the saying of al-Hallaj:

Your spirit has been molded into my spirit just as
amber is blended with fragrant musk,
so if something touches you, it touches me,
thus you are me, we do not part (Abbas, 2002, p. 316).

The text of the poet, dissolved in the two verses, its signification almost settles in the mind of the recipient, as our poet has drawn upon expressions and meanings in order to employ them in a new linguistic deviation within an indicative intertextuality, which enables him to intensify his significations, through structures and a clear style in which images inspired from heritage are manifested, and filled with Sufi expressions open to reading and interpretation by the recipient.

And in another passage the poet affirms through it that this woman is nothing but a connection toward a more exalted and higher aim to which the spirits of humans do not ascend. Othman Lousif says:

I remember you
in every prayer
so I bow… in reverence
I close my eyes from awe
I glorify with your praise
and I supplicate
to your two infinite eyes
O image of God
Ah! O woman of rituals
and supererogations
O a spiritual idol
and a worshipped one
who forgives none except the one who is maddened
into fainting in its sanctuary (Loussif, 1999, pp. 35–36).

The poet does not stop at the limits of a single signification of the woman, rather he reproduces from her multiple gnostic conceptions, forming a symbol of multiple visions that slips from between the hands of the reader, so at one time she is the blond houri, and at another the slender princess, and the saint, and the woman of rituals, thus transcending her conventional image in his imagination, for the woman in the view of the sufis is not that body that arouses temptation and awakens sensory desire, "rather it is the search for the infinite beauty that exists beyond the multiple sense… so that she becomes a pure, clear beauty that indicates the source of absolute beauty, and the giver of beauty and its creator" (Basyuni, 1969, p. 177).

As for the Diwan (*Ghardaia*), the term of wine is manifested within the frame of the Sufi breath that transforms the self of the poet and his soul from a state of boredom to a state of joy, and it forms an important artistic feature that recurs not in its material sensory form, but rather it transforms into a symbol that carries various significations. The poet says:

Sufficient for you that sobriety has produced my sadness,
so how then of the state of intoxication, and intoxication is more worthy,
I would deny passion if you were not, since passion made
your eyes for me an eye that lowers and sees (Loussif, 1995, p. 23).

The presence of this term in the Diwan (*Ghardaia*) refers to the signification of the homeland, where he embodied something non-perceived into something perceived to facilitate the process of communication, thus after the hardship of sobriety heavy with sadness he falls into an intoxication that awakens his buried passion in order to find his comfort with a female who is not a woman, for this symbolic woman was from his world, he lived with her and the union between the lover and the beloved was realized, and this refers to the union with Ghardaia, and then the union with the homeland, and through this linking between the Sufi spirit and the state of intoxication the poet moves toward wider worlds and more spacious horizons.

And in another passage the poet expresses that ecstasy which overwhelms him under the effect of the beauty of Oran and its captivating charm. He says in the poem (*Oran*):

I was in the surge of intoxication searching for myself,
I became intoxicated by the scent of peach and anise,
I became intoxicated… I, the living dead,
I called from outside the universe: Oran… Oran! (Loussif, n.d., p. 59).

The poet wanders at times and sips from the draught of his beloved which overflows upon him with purity and clarity, thus it makes him feel an ecstacy that transports him from death to life and to the summit of the heights, making from wine a means for elevation and swimming within the realms of the Absolute dominion, for he did not manage to resist his love for her, so he got lost in the depths of intoxication to limits he did not know their ends, searching for his self which dissolved in Oran, in its enchantment and its beauty, thus it melted within his being, where he found himself in it, and by that the annihilation and the total dissolution were realized in Oran which turned into a symbol filled with significations of love and ardent longing.

And the poet seeks to ascend to where the souls become purified from their impurities, toward a world filled with the unseen where truths are explored. He says:

Ascending, ascending to where fades away
in its passion the innermost of the souls,
where the souls are stripped from every impurity,
drinking wine without cups,
immersed in a spring of pure purity,
gathering from the delights of apples (Loussif, n.d., p. 69).

It is a wine without cups, pure, surrounded with spiritual purity, reaching him to the stage of arrival in which he delights with every beauty, placing him in a state of ecstacy, distancing him from the perceptible toward the non-rational, and by it the ray of reason withdraws from the self, thus it is in all that the secret of life and the inner of truth, and it is "thereby an activation of the unconscious which makes the self rise above the fixed material realities and penetrate the world of ideals and the Absolute" (Heema, 1998, p. 99). This Absolute which the poet always longs to embrace and to ascend to its degrees, and to unite with it resembles the state of intoxication because of what it contains from separation from the sensory world, and in it he finds the refuge to which he flees and by which he becomes purified from every impurity that stains him.
The poet says in the poem (The Flood):

And I rolled in the blazing fire for ages,
Ah! who will extinguish my burning thirst and my wandering,
O ray of the breeze, rather my echoes,
and give me to drink from the wine of the souls,
and wipe away the fire and the sorrow from my forehead,
and narrate to me from the secrets of the spirits (Loussif, n.d., p. 72).

Thus, the poet depicts his intense suffering in a desire for love and knowledge and rest, as his journey was long, and his longing increased as a fire of passion, and his thirst has prolonged until his throat rusted from dryness (who extinguishes my burning thirst), so his thirst is a continuous and eternal sensation (in the blazing fire for ages), it is a thirst produced by (the fire and the sorrow), and nothing extinguishes his burning thirst except the wine of the souls, and by drinking it he attains his aim and

the secrets of reality become unveiled before him, and the poet here finds in wine the only refuge to escape from reality and from the deprivation which he lives, and to probe the depths of the self.

And wine has a distinguished position in the literary heritage of the sufis, as it was for them "a symbol among the symbols of the Sufi ecstasy" (Heema, 1998, p. 98), thus it is in all that the secret of life and the inner of truth, and this is what we find in the saying of our poet:

You filled my cup with wine
that reveals clarity
I learned to sing for the glory of life
and to triumph (Loussif, 2000, p. 27).

And we also find that wine has come to express other things: escaping from reality, surrender without any resistance, and thus wine transforms into "a means among the means of overcoming the psychological concerns which the individual suffers in this afflicted age" (Heema, 1998, p. 100), so the numbing of the mind became the only refuge for salvation from a frightening obsession, and we find it acquiring new significations in such as his saying:

Let the cup sparkle and rejoice
you are from the essence of the Truth
from my essence
a sign that God shaped from a glow (Loussif, 2000, p. 82).

Thus, after we have seen wine carrying the signification of escaping from reality, we find it carrying the signification of compensating the spiritual emptiness. As for the Diwan "Ghardaia", the symbol of wine is manifested within the frame of the Sufi breath which transforms the self of the poet and his soul from a state of boredom to a state of joy, "for wine, its mention dispels worries and sorrows and prepares for its drinker the causes of joy and delight, its seal intoxicates the companions and its ripeness revives the dead… and by that it is an activation of the unconscious which makes the self rise above the fixed material realities and penetrate the world of ideals and the Absolute" (Heema, 1998, p. 99). This Absolute which the sufis always long to embrace and to ascend to its degrees, and union among the sufis resembles the state of intoxication because of what it contains of separation from the sensory world, and in it the person finds the refuge to which he escapes seeking relief from the burdens of reality.

References

1. Abbas, Q. M. (2002). *Al-Ḥallāj: al-aʿmāl al-kāmilah* [Al-Hallaj: The complete works]. Riyad El-Rayyes Books.
2. Abu Deeb, K. (1991). *Al-shiʿriyyah* [Poetics]. Arab Research Foundation.
3. Adonis. (1989a). *Al-shiʿriyyah al-ʿArabiyyah* [Arabic poetics]. Dar Al-Adab.
4. Adonis. (1989b). *Kalām al-bidāyāt* [The beginnings' discourse]. Dar Al-Adab.
5. Adonis (Ali Ahmad Said). (1992). *Al-ṣūfiyyah wa al-suryāliyya* [Sufism and surrealism]. Dar Al-Saqi.
6. Al-Jayar, M. (n.d.). *Al-shāʿir wa al-turāth: dirāsah fī ʿalāqat al-shāʿir al-ʿArabī bi al-turāth* [The poet and heritage: A study of the Arab poet's relationship with heritage]. Dar Al-Wafa.
7. Al-Khatib, A. (n.d.). *Ittijāhāt al-adab al-ṣūfī bayna al-Ḥallāj wa Ibn ʿArabī* [Trends in Sufi literature between Al-Hallaj and Ibn Arabi]. Dar Al-Ma'arif.
8. Basyouni, I. (1969). *Nashʾat al-taṣawwuf al-Islāmī* [The emergence of Islamic Sufism]. Dar Al-Ma'arif.

9. Bougaroura, O. (1994). *Al-ightirāb fī al-shiʿr al-Islāmī al-Maghribī al-muʿāṣir (1960–1990)* [Alienation in contemporary Maghrebi Islamic poetry (1960–1990)] (Doctoral dissertation, University of Constantine). Unpublished manuscript.
10. Eid, R. (2003). *Lughat al-shiʿr: qirāʾah fī al-shiʿr al-ʿArabī al-muʿāṣir* [The language of poetry: A reading of contemporary Arabic poetry]. Mansha'at Al-Ma'arif.
11. Fadl, S. (1995). *Asālīb al-shiʿriyyah al-muʿāṣirah* [Styles of contemporary poetics] (1st ed.). Dar Al-Adab.
12. Hima, A. (1998). *Al-bunyāt al-uslūbiyyah fī al-shiʿr al-Jazāʾirī al-muʿāṣir: shiʿr al-shabāb namūdhajan* [Stylistic structures in contemporary Algerian poetry: Youth poetry as a model] (1st ed.). Dar Houma.
13. Ibn ʿArabi. (1980). *Fuṣūṣ al-ḥikam* [The Bezels of Wisdom] (A. A. Afifi, Ed.) (2nd ed.). Dar Al-Kitab Al-Arabi.
14. Jabbour, A. N. (1984). *Al-muʿjam al-adabī* [Literary dictionary] (2nd ed.). Dar Al-Ilm Lil-Malayeen.
15. Loussif, O. (1982). *Al-kitābah bi al-nār* [Writing with fire] (1st ed.). Dar Al-Baath.
16. Loussif, O. (1995). *Ghardaia* [Ghardaia]. Dar Houma.
17. Loussif, O. (1997a). *Namash wa hadīl* [Freckles and cooing]. Dar Houma.
18. Loussif, O. (1997b). *Barāʾah* [Innocence]. Dar Houma.
19. Loussif, O. (1999). *Wa li-ʿaynayka hādhā al-fayḍ* [For your eyes, this abundance]. Dar Houma.
20. Loussif, O. (2000). *Qālat al-wardah* [The rose said]. Dar Houma.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 219–225
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 219–225
DOI: https://doi.org/10.36719/2706-6185/60/219-225

Beynəlxalq audit standartlarında (ISA, IFAC, ACFE) forensik yanaşmalar

Həsənəli Əliyev

Xülasə. *Müasir iqtisadi mühitdə maliyyə əməliyyatlarının mürəkkəbləşməsi, korporativ risklərin artması və hesabat manipulyasiyalarının müxtəlif formalarda təzahür etməsi audit fəaliyyətində daha dərin və analitik yanaşmaların tətbiqini zəruri etmişdir. Bu baxımdan forensik audit beynəlxalq audit praktikasında maliyyə fırıldaqlarının aşkarlanması, sübutların toplanması və hüquqi baxımdan əsaslandırılmış nəticələrin formalaşdırılması üçün mühüm mexanizm kimi çıxış edir. Beynəlxalq Audit Standartlarında forensik audit ayrıca standart kimi müəyyən edilməsə də, ISA 240 başda olmaqla bir sıra standartlarda peşəkar skeptisizm, risk əsaslı qiymətləndirmə və qeyri-adi əməliyyatların araşdırılması forensik yanaşmanın əsas elementləri kimi önə çıxır. IFAC tərəfindən irəli sürülən etik və metodoloji prinsiplər auditorun müstəqilliyi, obyektivliyi və peşəkar mühakiməsinin gücləndirilməsinə xidmət edir. ACFE modeli isə fırıldaqçılığın qarşısının alınması, aşkar edilməsi və araşdırılması istiqamətində daha praktik alətlər təqdim edir. Bu yanaşma audit prosesində sübut əsaslı qərarverməni gücləndirməklə yanaşı, maliyyə hesabatlarının etibarlılığına olan ictimai və institusional etimadı da artırır. Məqalədə ISA, IFAC və ACFE yanaşmaları müqayisəli şəkildə təhlil olunur və forensik yanaşmaların maliyyə şəffaflığının artırılması, korporativ fırıldaqların azaldılması və audit keyfiyyətinin yüksəldilməsi baxımından əhəmiyyəti əsaslandırılır.*

Açar sözlər: *forensik audit, beynəlxalq audit standartları, ISA, IFAC, ACFE, maliyyə fırıldaqları, skeptisizm*

Xəzər Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: magistr.hasanalimusavi001@gmail.com
Daxil oldu: 20 Yanvar 2026; Qəbul edildi: 8 May 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

International Auditing Standards (ISA, IFAC, ACFE) Forensic Approaches

Hasanali Aliyev

Abstract. *In the modern economic environment, the increasing complexity of financial transactions, the growth of corporate risks, and the emergence of various forms of financial statement manipulation have made it necessary to apply deeper and more analytical approaches in auditing. In this regard, forensic auditing acts as an important mechanism in international audit practice for detecting financial fraud, collecting evidence, and forming legally grounded conclusions. Although forensic auditing is not defined as a separate standard within the International Standards on Auditing, several standards, particularly ISA 240, emphasize professional skepticism, risk-based assessment, and the*

investigation of unusual transactions as key elements of the forensic approach. The ethical and methodological principles promoted by IFAC serve to strengthen auditors' independence, objectivity, and professional judgment. The ACFE model, in turn, provides more practical tools for the prevention, detection, and investigation of fraud. This approach not only strengthens evidence-based decision-making in the audit process, but also enhances public and institutional confidence in the reliability of financial statements. This article comparatively analyzes the ISA, IFAC, and ACFE approaches and substantiates the importance of forensic approaches in enhancing financial transparency, reducing corporate fraud, and improving audit quality.

Keywords: *forensic auditing, international auditing standards, ISA, IFAC, ACFE, financial fraud, skepticism*

Khazar University, Master's student, Baku, Azerbaijan
E-mail: magistr.hasanalimusavi001@gmail.com
Received: 20 Yanvar 2026; Accepted: 8 May 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Müasir qlobal iqtisadi mühitdə maliyyə münasibətlərinin mürəkkəbləşməsi, rəqəmsal texnologiyaların geniş tətbiqi və korporativ fəaliyyət miqyasının artması maliyyə hesabatlarının şəffaflığına və etibarlılığına olan tələbləri əhəmiyyətli dərəcədə yüksəltmişdir. Xüsusilə son onilliklərdə beynəlxalq səviyyədə baş verən maliyyə qalmaqalları, korporativ fırıldaqçılıq halları və hesabat manipulyasiyaları ənənəvi audit mexanizmlərinin bu risklərin qarşısının alınmasında hər zaman yetərli olmadığını ortaya qoymuşdur. Bu şəraitdə audit fəaliyyətinin yeni yanaşmalarla zənginləşdirilməsi zərurəti meydana çıxmış və forensik audit anlayışı beynəlxalq praktikada ön plana çıxmışdır.

Forensik audit klassik auditdən fərqli olaraq yalnız maliyyə hesabatlarının düzgünlüyünün yoxlanılması ilə məhdudlaşmır, eyni zamanda fırıldaqçılıq əlamətlərinin müəyyənləşdirilməsi, sübutların sistemli şəkildə toplanması, analiz edilməsi və hüquqi müstəvidə istifadə oluna bilən nəticələrin formalaşdırılmasını əhatə edir. Bu yanaşma audit prosesinə analitik təhlil, davranış araşdırmaları, rəqəmsal məlumatların ekspertizası və hüquqi biliklərin inteqrasiyasını təmin etməklə auditin funksional imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir.

Beynəlxalq audit standartları sistemində forensik yanaşmalar xüsusi yer tutur. Beynəlxalq Audit Standartları (ISA) çərçivəsində auditorların peşəkar skeptisizm nümayiş etdirməsi, fırıldaq risklərini qiymətləndirməsi və qeyri-adi əməliyyatlara xüsusi diqqət yetirməsi əsas prinsiplər kimi müəyyən edilmişdir. IFAC tərəfindən formalaşdırılan etik kodeks və metodoloji çərçivələr auditorların müstəqilliyini, obyektivliyini və peşəkar mühakiməsini gücləndirməklə forensik fəaliyyətin institusional əsaslarını möhkəmləndirir. ACFE isə fırıldaqçılıqla mübarizə sahəsində beynəlxalq səviyyədə tanınmış model təqdim edərək forensik auditin praktiki mexanizmlərini sistemləşdirir.

Hazırkı mərhələdə forensik yanaşmaların aktuallığı yalnız maliyyə pozuntularının aşkarlanması ilə məhdudlaşmır, həm də risklərin qabaqlayıcı idarə olunması, korporativ idarəetmənin təkmilləşdirilməsi və investor etimadının qorunması baxımından mühüm əhəmiyyət daşıyır. Xüsusilə bank sektoru, dövlət qurumları və iri kommersiya təşkilatlarında forensik audit mexanizmlərinin tətbiqi maliyyə təhlükəsizliyinin təmin edilməsində strateji alətə çevrilmişdir.

Bu baxımdan, beynəlxalq audit standartlarında forensik yanaşmaların nəzəri əsaslarının və tətbiq mexanizmlərinin sistemli şəkildə öyrənilməsi, ISA, IFAC və ACFE modellərinin müqayisəli təhlili və onların audit təcrübəsində rolu aktual elmi-tədqiqat istiqaməti kimi çıxış edir. Sözügedən mövzu maliyyə nəzarətinin səmərəliliyinin artırılması, şəffaf iqtisadi mühitin formalaşdırılması və audit peşəsinin inkişafı baxımından xüsusi elmi və praktiki əhəmiyyətə malikdir.

Tədqiqat

Müasir audit mühitində forensik yanaşmaların tətbiqi maliyyə nəzarətinin keyfiyyətinin yüksəldilməsində əsas mexanizmlərdən biri kimi çıxış edir. Qlobal iqtisadi münasibətlərin mürəkkəbləşməsi, transmilli şirkətlərin fəaliyyət miqyasının genişlənməsi və rəqəmsal əməliyyatların sürətlə artması maliyyə pozuntularının daha gizli və sistemli xarakter almasına səbəb olmuşdur. Bu şəraitdə ənənəvi audit prosedurları çox zaman yalnız maliyyə hesabatlarının uyğunluğunu qiymətləndirməklə kifayətləndiyindən, saxtakarlıq risklərinin tam aşkarlanmasında məhdud imkanlara malik olur. Forensik yanaşmalar isə auditin məqsədini genişləndirərək həm risklərin müəyyənləşdirilməsi, həm də onların səbəblərinin dərin analizi istiqamətində yeni imkanlar yaradır (Kranacher və b., 2011).

Beynəlxalq Audit Standartlarında forensik düşüncə tərzi əsasən risk əsaslı audit modeli üzərində formalaşır. ISA çərçivəsində auditorlardan yalnız sübutların mövcudluğunu yoxlamaq deyil, həm də bu sübutların etibarlılığını və arxasında dayanan iqtisadi məntiqi qiymətləndirmək tələb olunur. Xüsusilə maliyyə hesabatlarında rəhbərlik tərəfindən məqsədli şəkildə həyata keçirilə bilən manipulyasiyalar, gəlirlərin şişirdilməsi və xərclərin gizlədilməsi kimi hallar forensik yanaşmanın tətbiqini zəruri edir. Bu yanaşma auditorun peşəkar mühakiməsini gücləndirməklə yanaşı, audit riskinin strukturunun daha obyektiv formalaşdırılmasına imkan verir (International Auditing and Assurance Standards Board, 2019; International Auditing and Assurance Standards Board, 2023).

IFAC tərəfindən təqdim olunan konseptual çərçivə forensik yanaşmanı etik davranış və institusional məsuliyyət müstəvisində dəyərləndirir. Burada əsas diqqət auditorun müstəqilliyinin qorunmasına, maraqların toqquşmasının qarşısının alınmasına və peşəkar skeptisizmin davamlı saxlanılmasına yönəldilir. Forensik auditin effektivliyi təkcə texniki bacarıqlardan deyil, eyni zamanda etik prinsiplərə ciddi riayət olunmasından asılıdır. IFAC yanaşması göstərir ki, etik zəifliklərin mövcudluğu fırıldaq risklərini artıran əsas amillərdən biri hesab olunur və bu risklərin azaldılması üçün institusional nəzarət mexanizmləri gücləndirilməlidir (International Ethics Standards Board for Accountants, 2024).

ACFE modelində forensik yanaşmalar daha çox praktiki və tətbiq yönümlü xarakter daşıyır. Bu modeldə maliyyə fırıldaqlarının yalnız nəticələri deyil, onların yaranma səbəbləri və davranış motivləri də araşdırılır. “Fraud triangle” konsepsiyası – təzyiq, imkan və əsaslandırma amilləri – fırıldaqçılığın struktur mahiyyətini izah etməklə auditorlara risklərin erkən mərhələdə müəyyənləşdirilməsi üçün analitik baza yaradır. ACFE yanaşması audit prosesinə müsahibə texnikaları, məlumat analitikası, rəqəmsal izlərin araşdırılması və əməliyyat modellərinin müqayisəli təhlili kimi metodların inteqrasiyasını təşviq edir (Cressey, 1953; Association of Certified Fraud Examiners, 2024).

Forensik auditin beynəlxalq standartlar çərçivəsində inkişafı rəqəmsal transformasiya ilə birbaşa bağlıdır. Böyük həcmli məlumatların emalı, süni intellekt əsaslı audit alətləri və davamlı audit modelləri fırıldaq risklərinin daha operativ şəkildə müəyyən edilməsinə şərait yaradır. Bu proses auditorun rolunu passiv yoxlayıcıdan aktiv analitik və risk menecerinə çevirir. Nəticədə audit fəaliyyəti yalnız keçmiş məlumatların qiymətləndirilməsi deyil, gələcək risklərin proqnozlaşdırılması

funksiyasını da yerinə yetirməyə başlayır (Arens et al., 2023; Committee of Sponsoring Organizations of the Treadway Commission & Association of Certified Fraud Examiners, 2023).

Aparılan təhlil göstərir ki, ISA, IFAC və ACFE yanaşmaları bir-birini tamamlayan funksional mexanizmlər kimi çıxış edir. ISA normativ və metodoloji əsasları formalaşdırır, IFAC etik və institusional çərçivəni təmin edir, ACFE isə praktik forensik alətləri təqdim edir. Bu inteqrasiya olunmuş sistem audit fəaliyyətinin effektivliyini artırmaqla yanaşı, maliyyə fırıldaqlarının qarşısının alınmasında kompleks müdafiə mexanizmi yaradır. Beləliklə, beynəlxalq audit standartlarında forensik yanaşmalar müasir maliyyə nəzarətinin ayrılmaz tərkib hissəsinə çevrilərək şəffaflıq, hesabatlılıq və iqtisadi təhlükəsizliyin təmin edilməsində mühüm rol oynayır.

Cədvəl 1-də beynəlxalq audit sistemində forensik yanaşmaların əsas xüsusiyyətləri ISA, IFAC və ACFE modelləri üzrə müqayisəli şəkildə əks etdirilmişdir. Təhlil göstərir ki, bu üç yanaşma eyni məqsədə — maliyyə fırıldaqlarının qarşısının alınmasına və audit keyfiyyətinin artırılmasına xidmət etsə də, funksional baxımdan fərqli istiqamətləri əhatə edir və bir-birini tamamlayan mexanizmlər kimi çıxış edir (International Auditing and Assurance Standards Board, 2025; International Ethics Standards Board for Accountants, 2024; Association of Certified Fraud Examiners, 2024).

Cədvəl 1
Beynəlxalq audit standartlarında forensik yanaşmaların müqayisəli təhlili

Meyarlar	**ISA**	**IFAC**	**ACFE**
Əsas məqsəd	Maliyyə hesabatlarının düzgünlüyü və fırıldaq risklərinin qiymətləndirilməsi	Audit keyfiyyəti, etik davranış və peşəkar məsuliyyətin gücləndirilməsi	Fırıldaqçılığın qarşısının alınması, aşkarlanması və araşdırılması
Forensik yanaşmanın rolu	Peşəkar skeptisizm və risk əsaslı audit yanaşması	Etik və institusional baza	Praktik araşdırma mexanizmləri
Əsas sənədlər	ISA 240, ISA 315, ISA 330, ISA 500	IFAC Code of Ethics, International Education Standards	Fraud Examiners Manual, ACFE Standards
Fırıldaq anlayışı	Hesabatlarda məqsədli təhrif və aktivlərin mənimsənilməsi	Etik pozuntu və idarəetmə zəifliklərindən yaranan risklər	Qəsdən törədilən iqtisadi və maliyyə cinayətləri
İstifadə olunan metodlar	Analitik prosedurlar, risk əsaslı audit, daxili nəzarətin qiymətləndirilməsi	Etik risk analizi, peşəkar mühakimə, nəzarət mühiti təhlili	Məlumat analitikası, müsahibələr, rəqəmsal forensika
Audit sübutları	Kifayət və uyğun audit sübutları	Etik uyğunluq və peşəkar sənədləşmə	Hüquqi proseslərdə istifadə oluna bilən sübutlar
Auditorun rolu	Riskləri qiymətləndirən auditor	Müstəqil və obyektiv peşəkar	Fırıldaq araşdırıcısı və ekspert şahid
Peşəkar skeptisizm	Əsas prinsip kimi tələb olunur	Etik davranışın tərkib hissəsidir	Davranış və motiv analizində istifadə olunur
Rəqəmsal yanaşma	Kompüter əsaslı audit prosedurları	Rəqəmsal etik risklərin idarə edilməsi	Elektron sübutların və rəqəmsal izlərin təhlili
Nəticə yönümlülük	Audit rəyinin formalaşdırılması	Audit keyfiyyəti və etibarın artırılması	Fırıldaq faktının sübut olunması

Meyarlar	ISA	IFAC	ACFE
Tətbiq sahələri	Maliyyə auditləri, daxili audit, dövlət və özəl sektor	Audit təşkilatları və tənzimləyici qurumlar	Banklar, korporasiyalar, hüquq-mühafizə orqanları
Üstün cəhətləri	Standartlaşdırılmış beynəlxalq sistem	Etibarlı etik və institusional çərçivə	Dərin analitik və praktik imkanlar
Məhdudiyyətləri	Forensik audit ayrıca standart kimi verilməyib	Praktik araşdırma mexanizmləri məhduddur	Hüquqi və maddi resurs tələbi yüksəkdir

Mənbə: Müəllif tərəfindən IAASB (2025), IESBA (2024) və ACFE (2024) məlumatları əsasında hazırlanmışdır.

ISA standartlarında forensik yanaşma daha çox risk əsaslı audit modeli üzərində qurulmuşdur. Burada auditorun əsas vəzifəsi maliyyə hesabatlarında əhəmiyyətli təhrif risklərini müəyyənləşdirmək, xüsusilə saxtakarlıq ehtimalı olan sahələri qiymətləndirmək və peşəkar skeptisizm tətbiq etməkdən ibarətdir. ISA çərçivəsində forensik audit ayrıca standart kimi təqdim olunmasa da, ISA 240, ISA 315 və ISA 330 kimi sənədlər vasitəsilə fırıldaq risklərinin aşkarlanmasına yönəlmiş prosedurlar auditor fəaliyyətinin ayrılmaz hissəsinə çevrilmişdir (International Auditing and Assurance Standards Board, 2019; International Auditing and Assurance Standards Board, 2025).

IFAC yanaşması forensik auditin etik və institusional əsaslarını ön plana çıxarır. Bu modeldə maliyyə pozuntularının əsas səbəblərindən biri kimi etik zəifliklər və idarəetmə boşluqları qiymətləndirilir. Auditorun müstəqilliyi, obyektivliyi və peşəkar davranışı forensik fəaliyyətin effektivliyini müəyyən edən əsas amillər hesab olunur. IFAC çərçivəsi forensik yanaşmanı yalnız texniki audit prosesi kimi deyil, eyni zamanda korporativ idarəetmənin keyfiyyətini yüksəldən nəzarət mexanizmi kimi formalaşdırır (International Ethics Standards Board for Accountants, 2024; International Accounting Education Standards Board, 2019).

ACFE modeli isə forensik auditin ən praktik və tətbiq yönümlü formasını təqdim edir. Bu yanaşmada əsas diqqət fırıldaqçılığın aşkar edilməsi ilə yanaşı, onun yaranma səbəblərinin, davranış motivlərinin və təşkilati zəifliklərin araşdırılmasına yönəlir. Məlumat analitikası, rəqəmsal forensika, müsahibə texnikaları və hüquqi sübutların hazırlanması ACFE yanaşmasının əsas alətləri hesab olunur. Bu model audit prosesini hüquqi araşdırma səviyyəsinə qədər genişləndirir (Association of Certified Fraud Examiners, 2024; Committee of Sponsoring Organizations of the Treadway Commission & Association of Certified Fraud Examiners, 2023).

Cədvəl 1-də əks olunan müqayisə onu göstərir ki, ISA normativ-metodoloji baza rolunu oynayır, IFAC etik və peşəkar çərçivəni təmin edir, ACFE isə praktiki forensik alətləri sistemləşdirir. Bu yanaşmaların inteqrasiyası auditorun rolunu yalnız maliyyə hesabatlarını yoxlayan mütəxəssisdən riskləri proqnozlaşdıran, fırıldaq ehtimallarını analiz edən və sübut əsaslı nəticələr təqdim edən peşəkara çevirir. Nəticə etibarilə, beynəlxalq audit standartlarında forensik yanaşmalar kompleks nəzarət mexanizmi formalaşdıraraq maliyyə şəffaflığının artırılmasına və iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsinə mühüm töhfə verir (International Auditing and Assurance Standards Board, 2025; International Ethics Standards Board for Accountants, 2024; Association of Certified Fraud Examiners, 2024).

Nəticə

Aparılan təhlilin nəticələri göstərir ki, beynəlxalq audit standartlarında forensik yanaşmaların tətbiqi müasir maliyyə nəzarət sisteminin effektivliyinin artırılmasında mühüm əhəmiyyətə malikdir.

Qloballaşma, rəqəmsallaşma və maliyyə əməliyyatlarının mürəkkəbləşməsi şəraitində ənənəvi audit mexanizmləri fırıldaq risklərinin tam şəkildə aşkarlanması üçün kifayət etmir və bu boşluq məhz forensik audit yanaşmaları vasitəsilə aradan qaldırılır.

Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, ISA standartları auditorların peşəkar skeptisizmini və risk əsaslı yanaşmasını gücləndirməklə forensik düşüncə tərzinin normativ əsaslarını formalaşdırır. IFAC çərçivəsi etik davranış, müstəqillik və peşəkar mühakimə prinsiplərini ön plana çıxararaq forensik auditin institusional dayanıqlığını təmin edir. ACFE modeli isə fırıldaqçılığın qarşısının alınması və aşkar edilməsi sahəsində praktik metodlar təqdim etməklə bu yanaşmaların real audit mühitində tətbiqini mümkün edir. Bu üç istiqamətin qarşılıqlı inteqrasiyası audit fəaliyyətinin həm nəzəri, həm də praktik səmərəliliyini artırır.

Nəticə etibarilə forensik yanaşmalar auditin yalnız nəzarət funksiyasını deyil, eyni zamanda risklərin qabaqlayıcı idarə olunması, korporativ idarəetmənin gücləndirilməsi və maliyyə şəffaflığının təmin edilməsi funksiyalarını da əhatə etdiyini sübut edir. Beynəlxalq təcrübə göstərir ki, forensik audit mexanizmlərinin tətbiqi maliyyə fırıldaqlarının miqyasını azaltmaqla yanaşı, investor etimadının möhkəmlənməsinə və iqtisadi təhlükəsizliyin qorunmasına mühüm töhfə verir. Bu baxımdan, ISA, IFAC və ACFE standartları əsasında forensik yanaşmaların sistemli şəkildə tətbiqi müasir audit fəaliyyətinin strateji inkişaf istiqamətlərindən biri kimi qiymətləndirilməlidir.

Ədəbiyyat

1. Abdullahi, R., & Mansor, N. (2015). Fraud triangle theory and fraud diamond theory: Understanding the convergent and divergent for future research. *International Journal of Academic Research in Accounting, Finance and Management Sciences, 5*(4), 38–45. https://doi.org/10.6007/IJARAFMS/v5-i4/1823
2. Arens, A. A., Elder, R. J., Beasley, M. S., & Hogan, C. E. (2023). *Auditing and assurance services* (18th ed.). Pearson.
3. Association of Certified Fraud Examiners. (2024). *Occupational fraud 2024: A report to the nations*. Association of Certified Fraud Examiners. https://www.acfe.com/-/media/files/acfe/pdfs/rttn/2024/2024-report-to-the-nations.pdf
4. Committee of Sponsoring Organizations of the Treadway Commission, & Association of Certified Fraud Examiners. (2023). *Fraud risk management guide* (2nd ed.). COSO/ACFE. https://downloads.ctfassets.net/rb9cdnjh59cm/38niR1KQg3knFZBp7rMmwb/1458f67994b694bccca63d1e5bbbf9f1/COSO-Fraud-Risk-Management-Guide-2023.pdf
5. Cressey, D. R. (1953). *Other people's money: A study in the social psychology of embezzlement*. Free Press.
6. Dechow, P. M., Ge, W., Larson, C. R., & Sloan, R. G. (2011). Predicting material accounting misstatements. *Contemporary Accounting Research, 28*(1), 17–82. https://doi.org/10.1111/j.1911-3846.2010.01041.x
7. Hogan, C. E., Rezaee, Z., Riley, R. A., & Velury, U. K. (2008). Financial statement fraud: Insights from the academic literature. *Auditing: A Journal of Practice & Theory, 27*(2), 231–252. https://doi.org/10.2308/aud.2008.27.2.231
8. International Accounting Education Standards Board. (2019). *2019 handbook of international education standards*. International Federation of Accountants. https://www.ifac.org/education/publications/2019-handbook-international-education-standards
9. International Auditing and Assurance Standards Board. (2019). *International Standard on Auditing 315 (Revised 2019): Identifying and assessing the risks of material misstatement*. International Federation of Accountants. https://www.iaasb.org/publications/isa-315-revised-2019-identifying-and-assessing-risks-material-misstatement

10. International Auditing and Assurance Standards Board. (2023). *International Standard on Auditing 500: Audit evidence*. International Federation of Accountants. https://www.ifac.org/system/files/publications/files/ISA-500-Audit-Evidence.pdf
11. International Auditing and Assurance Standards Board. (2025). *International Standard on Auditing 240 (Revised): The auditor's responsibilities relating to fraud in an audit of financial statements*. International Federation of Accountants. https://www.iaasb.org/publications/isa-240-revised-auditor-s-responsibilities-relating-fraud-audit-financial-statements
12. International Ethics Standards Board for Accountants. (2024). *Handbook of the International Code of Ethics for Professional Accountants: Including International Independence Standards*. International Federation of Accountants. https://www.ethicsboard.org/publications/2024-handbook-international-code-ethics-professional-accountants
13. Kranacher, M. J., Riley, R. A., & Wells, J. T. (2011). *Forensic accounting and fraud examination*. John Wiley & Sons.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 226–230
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 226–230
DOI: https://doi.org/10.36719/2706-6185/60/226-230

Şomutəpə mədəniyyətinin Gəncə-Qazax bölgəsində yayılması və xüsusiyyətləri

Aişə İsmayılzadə

Xülasə. *Məqalədə Gəncə-Qazax bölgəsində yayılmış Şomutəpə mədəniyyətinin əsas xüsusiyyətləri, yayılma arealı və tarixi əhəmiyyəti tədqiq edilmişdir. Araşdırmada Şomutəpə, Göytəpə, Hacıələmxanlı, Töyrətəpə və digər neolit yaşayış yerlərindən əldə olunmuş arxeoloji materiallar əsasında bölgənin erkən əkinçi tayfalarının təsərrüfat həyatı, memarlıq ənənələri və maddi mədəniyyəti təhlil olunmuşdur. Həmçinin, radiokarbon analizləri, arxeobotanik və osteoloji materiallar əsasında Gəncə-Qazax bölgəsində əkinçilik və maldarlığın formalaşma mərhələləri araşdırılmışdır. Müəyyən edilmişdir ki, Şomutəpə mədəniyyəti Cənubi Qafqazın ən qədim istehsal təsərrüfatlı mədəniyyətlərindən biri olmuş və regionda oturaq həyat tərzinin yaranmasında mühüm rol oynamışdır. Tədqiqat zamanı həmçinin Şomutəpə mədəniyyətinin Ön Asiyanın erkən əkinçi mədəniyyətləri ilə əlaqələri və yerli inkişaf xüsusiyyətləri müqayisəli şəkildə öyrənilmişdir. Eyni zamanda Göytəpə və Hacıələmxanlı abidələrinin Cənubi Qafqaz Neolitinin xronologiyasının müəyyən edilməsində xüsusi əhəmiyyət daşıdığı vurğulanmışdır.*

Açar sözlər: *Şomutəpə mədəniyyəti, Gəncə-Qazax bölgəsi, Neolit dövrü, erkən əkinçilik, Göytəpə yaşayış yeri*

Bakı Dövlət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: aisha.ismayilzada.vuqar@bsu.edu.az
Daxil oldu: 30 Yanvar 2026; Qəbul edildi: 19 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Spread and Characteristics of the Shomutepe Culture in the Ganja-Gazakh Region

Aisha Ismayilzade

Abstract. *The article studies the main characteristics, distribution area and historical significance of the Shomutapa culture spread in the Ganja-Gazakh region. The study analyzes the economic life, architectural traditions and material culture of the early agricultural tribes of the region based on archaeological materials obtained from Shomutapa, Goytepa, Hajialamkhanli, Toyratepa and other Neolithic settlements. The article studies the stages of the formation of agriculture and cattle breeding in the Ganja-Gazakh region based on radiocarbon analyses, archaeobotanical and osteological materials. It was determined that the Shomutapa culture was one of the oldest agricultural cultures of the South Caucasus and played an important role in the emergence of a sedentary lifestyle in the region.*

During the study, the relations of the Shomutapa culture with the early agricultural cultures of the Near East and the local development characteristics were also studied in a comparative manner. The article emphasizes that the Goytepa and Hajialamkhanli monuments are of particular importance in determining the chronology of the South Caucasus Neolithic.

Keywords: *Shomutape culture, Ganja-Gazakh region, Neolithic period, Early agriculture, Goytepe settlement*

Baku State University, Master's student, Baku, Azerbaijan
E-mail: aisha.ismayilzada.vuqar@bsu.edu.az
Received: 30 Yanvar 2026; Accepted: 19 Aprel 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Azərbaycanın qədim tarixində Neolit dövrü mühüm sosial-iqtisadi dəyişikliklərlə xarakterizə olunur. Bu dövrdə ibtidai icma cəmiyyətində mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçid baş vermiş, əkinçilik və maldarlıq əsas təsərrüfat sahələrinə çevrilmişdir. Neolit dövrü həmçinin oturaq həyat tərzinin formalaşması, ilk kənd tipli yaşayış məskənlərinin yaranması və maddi mədəniyyətin inkişafı ilə səciyyələnir. Azərbaycanın bu proseslərin daha erkən müşahidə olunduğu bölgələrindən biri Gəncə-Qazax regionudur.

Gəncə-Qazax bölgəsində yerləşən Şomutəpə, Göytəpə, Hacıələmxanlı, Töyrətəpə, Qarğalartəpəsi və digər yaşayış yerləri Cənubi Qafqazın ən qədim əkinçi-maldar tayfalarının həyatını öyrənmək baxımından mühüm əhəmiyyət daşıyır. Bu abidələr əsasında formalaşdırılmış Şomutəpə mədəniyyəti e.ə. VI minilliyin sonu – V minilliyin əvvəllərinə aid edilir və Azərbaycanın ən qədim neolit mədəniyyətlərindən biri hesab olunur (Narimanov, 1987, s. 45).

Tədqiqat

Şomutəpə mədəniyyətinin tədqiqi yalnız Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqazın neolitləşmə prosesinin öyrənilməsi baxımından da mühüm əhəmiyyətə malikdir. Son illərdə aparılan beynəlxalq arxeoloji ekspedisiyalar, radiokarbon analizləri və arxeobotanik tədqiqatlar bölgədə erkən əkinçilik ənənələrinin daha qədim və inkişaf etmiş xarakter daşıdığını göstərmişdir (Lyonnetvə b., 2012, s. 87).

Şomutəpə mədəniyyətinin öyrənilmə tarixi. Özünəməxsus xüsusiyyətləri ilə seçilmiş Şomutəpə abidələri "Şomutəpə arxeoloji mədəniyyəti" adı ilə tanınır. Bu mədəniyyət ilk dəfə İ.H.Nərimanov tərəfindən ədəbiyyata gətirilmişdir. Şomutəpə mədəniyyətinin öyrənilməsi XX əsrin ikinci yarısından etibarən başlamışdır. İlk sistemli arxeoloji qazıntılar Ağstafa rayonu ərazisində yerləşən Şomutəpə yaşayış yerində İdeal Nərimanov tərəfindən aparılmışdır. Tədqiqatlar zamanı burada dairəvi planlı tikililər, əmək alətləri, keramika nümunələri və təsərrüfat tikililəri aşkar edilmişdir. Şomutəpə ilə yanaşı bir çox həmdövr abidələrdən tapılmış eyni divar qalıqları o dövr üçün dairəvi binaların səciyyəvi olduğuna işarə edir (Narimanov, 1987, s. 52).

İdeal Nərimanov Şomutəpə yaşayış yerində aşkar edilmiş materialları təhlil edərək burada formalaşmış mədəniyyətin Yaxın Şərqin erkən əkinçi mədəniyyətləri ilə müəyyən əlaqələrə malik olduğunu qeyd etmişdir. Bununla yanaşı, tədqiqatçı bölgənin yerli xüsusiyyətlərinin üstünlük təşkil etdiyini də vurğulamışdır.

1970–1980-ci illərdə Gəncə-Qazax bölgəsində aparılan arxeoloji tədqiqatlar nəticəsində Töyrətəpə, Qarğalartəpəsi və Baba Dərviş kimi yaşayış yerləri də öyrənilmişdir. Bu abidələrdə aşkar olunan maddi mədəniyyət nümunələri Şomutəpə mədəniyyətinin geniş coğrafiyada yayıldığını sübut etmişdir.

XXI əsrin əvvəllərindən etibarən Göytəpə yaşayış yerində beynəlxalq arxeoloji ekspedisiyalar fəaliyyətə başlamışdır. Azərbaycan, Fransa və Yaponiya alimlərinin birgə apardıqları qazıntılar nəticəsində regionun neolit dövrü tarixinin öyrənilməsində mühüm yeniliklər əldə edilmişdir. Göytəpədə mədəni təbəqənin qalınlığının 11 metrə çatması burada uzunmüddətli və fasiləsiz yaşayışın mövcud olduğunu göstərmişdir (Müseyibli, 2014, s. 118).

Hacıələmxanlı yaşayış yerində aparılmış radiokarbon analizləri isə regionda erkən neolit mərhələsinin daha qədim olduğunu sübut etmişdir. Tədqiqatçılar bu abidənin e.ə. VI minilliyin əvvəllərinə aid olduğunu qeyd etmişlər (Lyonnet və b., 2012, s. 89).

Şomutəpə mədəniyyətinin yayılma arealı və xronologiyası. Şomutəpə mədəniyyəti əsasən Kür çayının orta hövzəsində yayılmışdır. Bu mədəniyyətin izlərinə Ağstafa, Qazax, Tovuz, Şəmkir və Gəncə ərazilərində rast gəlinmişdir. Yaşayış yerlərinin çaylara yaxın ərazilərdə yerləşməsi əkinçilik və maldarlıq üçün əlverişli təbii şəraitlə bağlı olmuşdur.

Şomutəpə dairəvi formaya malik, diametri 100 m olan kiçik təpədir. Mədəni təbəqənin qalınlığı orta hesabla 1 m-dir. Dairəvi planlı evlər (diametri 3 m və daha artıq) və təsərrüfat tikililəri (dərinliyi 2 m) əsasən çiy kərpicdən inşa edilmişdir.

Şomutəpədən 3 km şərqdə Töyrətəpə yerləşir. Ağstafa rayonunun Aşağı Göycəli kəndinin qərb kənarında yerləşən Töyrətəpə ərazisində 1961-ci ildən 1965-ci ilə qədər aparılan daimi qazıntılar nəticəsində mədəni təbəqənin ümumi qalınlığı təxminən 5,5 metr olan beş struktur üfüqi aşkar edilmişdir. Dairəvi konstruksiyaları ehtiva edən dörd ardıcıl alt təbəqə eramızdan əvvəl II-I minilliyin sonlarına aid nazik bir təbəqə ilə örtülmüşdür.

Qarğalartəpəsi təpəsi Şomutəpə mədəniyyətinin ən böyük yaşayış məskənlərindən biridir və sonuncudan 8 km şərqdə yerləşir. Mədəni təbəqənin aşağı qalınlığında dörd tikinti üfüqi tədqiq edilmiş, divarlarının yaxınlığında ocaqlar olan dairəvi planlı yaşayış yerlərinin qalıqları aşkar edilmişdir. Tikililərin döşəmələri və divarları gil ilə örtülmüş, bəzi döşəmələr qırmızı-bənövşəyi rəngə boyanmışdır.

Göytəpə yaşayış yeri regionun ən iri neolit məskənlərindən biri hesab olunur. Abidənin ümumi sahəsi 2 hektardan artıqdır. Burada çoxsaylı yaşayış tikililəri, təsərrüfat quyuları, ocaq yerləri və əmək alətləri aşkar edilmişdir (Quliyev, 2013, s. 74).

Radiokarbon analizləri Şomutəpə mədəniyyətinin xronoloji çərçivəsini daha dəqiq müəyyən etməyə imkan vermişdir. Göytəpə və Hacıələmxanlıdan əldə olunan analiz nəticələri bu mədəniyyətin e.ə. 6000–5600-cü illər arasında mövcud olduğunu göstərir (Helwing, 2010, s. 81).

Tədqiqatçılar Şomutəpə mədəniyyətinin bir neçə inkişaf mərhələsi keçdiyini qeyd edirlər:
- Erkən mərhələ,
- İnkişaf mərhələsi,
- Son mərhələ.

Bu mərhələlər əsasən keramika, memarlıq və əmək alətlərinin inkişaf xüsusiyyətlərinə görə fərqlənir.

Memarlıq xüsusiyyətləri. Şomutəpə mədəniyyətinin əsas xüsusiyyətlərindən biri dairəvi planlı yaşayış tikilileridir. Tikililər əsasən çiy kərpic və gil materialından inşa edilmişdir. Evlərin diametri adətən 3–5 metr arasında dəyişmişdir. Göytəpə yaşayış yerində bəzi tikililər bir-birinə bitişik formada salınmışdır ki, bu da kollektiv icma həyatının mövcud olduğunu göstərir. Evlərin içərisində ocaq yerləri, taxıl saxlama qabları və təsərrüfat hissələri müəyyən edilmişdir (Baxşəliyev, 2007, s. 96).

Arxeoloqlar yaşayış yerlərində çoxsaylı təsərrüfat quyuları və anbar tipli tikililər də aşkar etmişlər. Bu tapıntılar bölgədə artıq inkişaf etmiş oturaq kənd həyatının mövcud olduğunu göstərir. Göytəpədə mədəni təbəqənin bəzi hissələrdə 11 metr qalınlığa malik olması yaşayışın uzun müddət fasiləsiz davam etdiyini sübut edir. Bu xüsusiyyət Göytəpəni Cənubi Qafqazın ən mühüm neolit yaşayış yerlərindən birinə çevirmişdir (Müseyibli, 2014, s. 121).

Təsərrüfat həyatı və erkən əkinçilik. Şomutəpə mədəniyyətinin iqtisadi əsasını əkinçilik və maldarlıq təşkil etmişdir. Arxeobotanik analizlər zamanı buğda, arpa və paxlalı bitkilərin qalıqları aşkar edilmişdir. Bu tapıntılar bölgədə artıq sistemli əkinçiliyin formalaşdığını göstərir. Göytəpədə aşkar olunmuş daş oraq dişləri üzərində istifadə izlərinin öyrənilməsi onların taxıl biçinində istifadə olunduğunu sübut etmişdir. Bundan əlavə, yaşayış yerlərində çoxsaylı dən daşları, həvənglər və üyüdücü alətlər aşkar olunmuşdur (Quliyev, 2013, s. 81).

Maldarlıq da mühüm təsərrüfat sahəsi olmuşdur. Osteoloji materiallar qoyun, keçi, iribuynuzlu mal-qara və donuz saxlanıldığını göstərir (Narimanov, 1987, s. 61). Tədqiqatçılar hesab edirlər ki, heyvandarlığın inkişafı oturaq həyatın daha da möhkəmlənməsinə səbəb olmuşdur. Əkinçilik və maldarlığın paralel inkişafı bölgədə istehsal təsərrüfatının tam formalaşdığını göstərir. Bu isə ibtidai icma cəmiyyətinin sosial-iqtisadi inkişafında mühüm mərhələ hesab olunur.

Maddi mədəniyyət nümunələri. Şomutəpə mədəniyyətinin maddi mədəniyyəti zənginliyi ilə seçilir. Keramika nümunələri əsasən əl ilə hazırlanmışdır. Gil qabların hazırlanmasında saman qarışıqlı gildən istifadə edilmişdir. Qablar aşağı temperaturda bişirilmiş və bəzi nümunələr cilalanmışdır. Göytəpə keramikası texnoloji baxımdan bir neçə inkişaf mərhələsi keçmişdir. Erkən mərhələdə sadə formalı qablar üstünlük təşkil etdiyi halda, sonrakı mərhələlərdə daha keyfiyyətli və simmetrik qablar meydana çıxmışdır (Ələkbərov, 2018, s. 24). Bəzi qabların üzərində həndəsi ornamentlər və dekorativ elementlər müşahidə olunur. Bu ornamentlər ibtidai insanların estetik dünyagörüşünü əks etdirir. Daş alətlər arasında obsidian xüsusi yer tutur. Obsidian əsasən Kiçik Qafqaz və Şərqi Anadolu yataqlarından əldə edilmişdir. Bu fakt regionlararası əlaqələrin və ilkin mübadilə münasibətlərinin mövcud olduğunu göstərir. Sümükdən hazırlanmış bizlər, iynələr və digər əmək alətləri sənətkarlığın müəyyən inkişaf səviyyəsinə çatdığını sübut edir (Lyonnet və b., 2012, s. 93).

Mənəvi mədəniyyət və dini təsəvvürlər. Şomutəpə mədəniyyətinin daşıyıcılarının mənəvi dünyası haqqında məlumatlar əsasən arxeoloji materiallar əsasında müəyyən edilir. Yaşayış yerlərində aşkar olunmuş ocaq yerləri, xüsusi təyinatlı tikililər və bəzi ritual xarakterli tapıntılar qədim insanların dini təsəvvürlərə malik olduğunu göstərir. Bəzi tədqiqatçılar dairəvi formalı tikililərin müəyyən kult xarakteri daşıdığını qeyd edirlər. Ocaq kultu Neolit dövrü tayfalarının mənəvi həyatında mühüm yer tutmuşdur. Ocaq ailə və icma birliyinin simvolu hesab edilmişdir. Keramika üzərindəki bəzi ornamentlər və simvolik işarələr də ilkin dini təsəvvürlərlə əlaqələndirilir (Baxşəliyev, 2011, s. 143).

Şomutəpə mədəniyyətinin Ön Asiya ilə əlaqələri. Tədqiqatçılar Şomutəpə mədəniyyətinin Ön Asiyanın erkən əkinçi mədəniyyətləri ilə müəyyən bağlılıqlarını qeyd edirlər. Çatalhöyük, Hassuna və Hacılar mədəniyyətləri ilə oxşar memarlıq və keramika xüsusiyyətləri müşahidə olunur. Obsidianın geniş yayılması bölgələrarası iqtisadi və mədəni əlaqələrin mövcud olduğunu göstərir. Bu

əlaqələr yalnız iqtisadi deyil, həm də mədəni təsirlərin yayılmasına şərait yaratmışdır. Gəncə-Qazax bölgəsində aşkar olunmuş arxeoloji materiallar bu mədəniyyətin yerli xüsusiyyətlərə malik müstəqil inkişaf yolu keçdiyini sübut edir. Bölgənin təbii-coğrafi şəraiti və yerli ənənələri burada fərqli inkişaf modelinin formalaşmasına səbəb olmuşdur (Helwing, 2010, p. 84).

Şomutəpə mədəniyyətinin Cənubi Qafqaz tarixində yeri. Şomutəpə mədəniyyəti Cənubi Qafqazın ən qədim istehsal təsərrüfatlı mədəniyyətlərindən biri hesab olunur. Bu mədəniyyət regionda oturaq həyatın, ilkin memarlığın, əkinçiliyin və sənətkarlığın formalaşmasında mühüm rol oynamışdır. Göytəpə və Hacıələmxanlı yaşayış yerlərində aparılan tədqiqatlar göstərir ki, Gəncə-Qazax bölgəsi Neolit dövründə Cənubi Qafqazın mühüm mədəni mərkəzlərindən biri olmuşdur. Bölgədə formalaşmış erkən əkinçi ənənələri sonrakı Eneolit və Tunc dövrü mədəniyyətlərinin inkişafına ciddi təsir göstərmişdir. Şomutəpə mədəniyyəti Azərbaycan ərazisində erkən dövlətçilik və sosial münasibətlərin ilkin formalarının meydana gəlməsi üçün mühüm zəmin yaratmışdır.

Nəticə

Şomutəpə mədəniyyəti Azərbaycanın qədim tarixində mühüm yer tutur. Gəncə-Qazax bölgəsində yerləşən neolit yaşayış yerləri regionda erkən oturaq həyatın, istehsal təsərrüfatının və ilkin memarlıq ənənələrinin formalaşmasını əks etdirir. Arxeoloji tədqiqatlar göstərir ki, bu mədəniyyətin daşıyıcıları inkişaf etmiş əkinçilik və maldarlıq təsərrüfatına malik olmuş, zəngin maddi və mənəvi mədəniyyət yaratmışlar. Göytəpə, Şomutəpə və Hacıələmxanlı kimi yaşayış yerləri yalnız Azərbaycanın deyil, bütövlükdə Cənubi Qafqazın Neolit tarixinin öyrənilməsində mühüm elmi əhəmiyyətə malikdir.

Ədəbiyyat

1. Baxşəliyev, V. B. (2007). *Azərbaycan arxeologiyası*. Elm.
2. Baxşəliyev, V. B. (2011). *Azərbaycanın qədim tayfalarının mənəvi mədəniyyəti*. Elm və Təhsil.
3. Quliyev, F. Ə. (2013). *Neolit dövrü Azərbaycanı*. Elm və Təhsil.
4. Müseyibli, N. Ə. (2014). *Azərbaycanın qədim yaşayış məskənləri*. Elm və Təhsil.
5. Müseyibli, N. Ə. (2017). *Qafqazın Neolit mədəniyyətləri*.
6. Nərimanov, İ. Q. (1987). *Şomutəpə mədəniyyəti*. Elm.
7. Nərimanov, İ. Q. (1992). *Azərbaycanın qədim əkinçi-maldar tayfaları*.
8. Axundov, T. İ. (2008). *Neolit i eneolit Yujnogo Kavkaza*. Elm.
9. Lyonnet, B., Guliyev, F., Helwing, B., & Aliyev, T. (2012). Ancient Kura 2010–2011 excavations at Göytepe. *Paléorient, 38*(2), 85–103.
10. Helwing, B. (2010). *The Neolithic of the South Caucasus*.
11. Narimanov, İ. Q. (1987). *Drevneyşaya zemledelçeskaya kultura Azerbaydjana*.
12. Munchaev, R. M. (1975). *Kavkaz na zare bronzovogo veka*. Nauka.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 231–236
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 231–236
DOI: https://doi.org/10.36719/2706-6185/60/231-236

Tikinti materialları istehlakçılarının davranış xüsusiyyətləri və satış strategiyalarına təsiri

Leyla Quluzadə

Xülasə. *Tikinti materialları bazarında istehlakçı davranışı məhsul seçimi, qiymətə münasibət, keyfiyyət gözləntisi, marka imici və satıcıya etibar kimi amillərin təsiri altında formalaşır. Bu bazarda alıcıların qərarvermə prosesi adi istehlak məhsullarından fərqli olaraq daha diqqətli və məsuliyyətli xarakter daşıyır. Çünki tikinti materialları uzunmüddətli istifadə üçün alınır və onların keyfiyyəti tikilinin davamlılığına, təhlükəsizliyinə və gələcək istismar xərclərinə birbaşa təsir göstərir. Buna görə də alıcılar məhsul seçərkən yalnız qiymət amilini əsas götürmür, eyni zamanda materialın texniki göstəricilərini, standartlara uyğunluğunu, zəmanət müddətini, istifadə rahatlığını və əvvəlki istifadəçilərin rəylərini də nəzərə alırlar.*

Tikinti materialları bazarında istehlakçı qərarlarına əvvəlki şəxsi təcrübə, ustaların və mütəxəssislərin tövsiyələri, tanınmış markalara olan inam, satış məntəqəsində verilən məsləhətlər və məhsulun təqdimat forması ciddi təsir göstərir. Xüsusilə sement, beton, armatur, izolyasiya materialları, boya, keramika və digər tikinti məhsullarının seçimində keyfiyyət və etibarlılıq əsas meyarlardan biri hesab olunur. Bəzi alıcılar daha münasib qiymətə üstünlük versə də, uzunmüddətli istifadə və təmir xərclərinin azalması baxımından keyfiyyətli məhsula daha çox vəsait ayırmağa hazır olurlar.

Bu baxımdan tikinti materialları satan müəssisələrin satış strategiyaları istehlakçı davranışlarına uyğun qurulmalıdır. Məhsul çeşidinin düzgün formalaşdırılması, qiymət siyasətinin bazar tələbinə uyğun müəyyən edilməsi, endirim və kampaniya mexanizmlərinin tətbiqi, peşəkar məsləhət xidmətinin göstərilməsi və satış sonrası dəstəyin təmin edilməsi müştəri məmnuniyyətini artıran əsas amillərdəndir. Rəqabətli bazar şəraitində müəssisələr yalnız məhsul satışı ilə kifayətlənməməli, alıcı ilə etibarlı münasibət yaratmağa çalışmalıdırlar. İstehlakçı ehtiyaclarının düzgün öyrənilməsi satış həcminin artmasına, müştəri loyallığının güclənməsinə və müəssisənin bazarda sabit mövqe tutmasına şərait yaradır.

Açar sözlər: *tikinti materialları, istehlakçı davranışı, satış strategiyası, müştəri məmnuniyyəti, rəqabət mühiti*

Azərbaycan Memarlıq və İnşaat Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: lquluzade776@icloud.com
Daxil oldu: 29 Dekabr 2025; Qəbul edildi: 11 May 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Qədim Diyar 8(5), 2026
Ancient Land 8(5), 2026

Behavioral Characteristics of Building Materials Consumers and Their Impact on Sales Strategies

Leyla Guluzade

Abstract. *Consumer behavior in the building materials market is shaped by factors such as product choice, price attitude, quality expectations, brand image, and trust in the seller. In this market, the decision-making process of buyers is more careful and responsible than in ordinary consumer products. Because building materials are purchased for long-term use, and their quality directly affects the durability, safety, and future operating costs of the building. Therefore, when choosing a product, buyers do not only base their decisions on the price factor, but also take into account the technical characteristics of the material, compliance with standards, warranty period, ease of use, and reviews of previous users.*

In the building materials market, consumer decisions are seriously influenced by previous personal experience, recommendations from craftsmen and specialists, trust in well-known brands, advice given at the point of sale, and the form of product presentation. In particular, quality and reliability are considered one of the main criteria when choosing cement, concrete, reinforcement, insulation materials, paint, ceramics, and other construction products. Although some buyers prefer a more affordable price, they are willing to spend more on a quality product in terms of long-term use and reduced repair costs.

In this regard, the sales strategies of enterprises selling building materials should be built in accordance with consumer behavior. The correct formation of the product range, the determination of the pricing policy in accordance with market demand, the application of discount and campaign mechanisms, the provision of professional consulting services and the provision of after-sales support are among the main factors that increase customer satisfaction. In a competitive market environment, enterprises should not be satisfied with just selling products, but should strive to create a trusting relationship with the buyer. Proper study of consumer needs creates conditions for increasing sales volumes, strengthening customer loyalty and ensuring a stable position of the enterprise in the market.

Keywords: *building materials, consumer behavior, sales strategy, customer satisfaction, competitive environment*

Azerbaijan University of Architecture and Construction, Master's student, Baku, Azerbaijan
E-mail: lquluzade776@icloud.com
Received: 29 Dekabr 2025; Accepted: 11 May 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Tikinti materialları bazarı inşaat sektorunun genişlənməsi, təmir və yenidənqurma işlərinə tələbatın artması ilə sürətlə inkişaf edən sahələrdən biridir. Bu bazarda rəqabətin güclənməsi müəssisələri yalnız məhsul satmağa deyil, həm də istehlakçı davranışlarını öyrənməyə məcbur edir. Tikinti materialları alan müştərilər qərar verərkən əsasən qiymət, keyfiyyət, davamlılıq, marka etibarlılığı, texniki xüsusiyyətlər və zəmanət şərtlərinə diqqət yetirirlər. Sement, armatur, boya, keramika və izolyasiya materialları kimi məhsullarda keyfiyyət və uzunmüddətli istifadə imkanı xüsusi əhəmiyyət daşıyır (Anupam və b., 2022).

Tədqiqat

İstehlakçı seçiminə ustaların tövsiyələri, əvvəlki istifadə təcrübəsi, satıcının məsləhəti və məhsul haqqında dolğun məlumat da təsir göstərir. Buna görə müəssisələr çevik qiymət siyasəti, geniş məhsul çeşidi, endirimlər və keyfiyyətli xidmət vasitəsilə müştəri məmnuniyyətini artırmalı və bazarda rəqabət üstünlüyü qazanmalıdırlar (Backes və b., 2023).

Tikinti materialları istehlakçılarının seçim davranışına təsir edən əsas amillər

Tikinti materialları bazarında istehlakçıların seçim davranışı qiymət, keyfiyyət, marka etibarlılığı, texniki göstəricilər və satış sonrası xidmət kimi müxtəlif amillərin təsiri ilə formalaşır. Bu sahədə alış qərarı gündəlik istehlak mallarından fərqli olaraq daha düşünülmüş xarakter daşıyır. Çünki tikinti materialları uzunmüddətli istifadə olunur, tikilinin möhkəmliyinə və təmirin keyfiyyətinə birbaşa təsir edir. Buna görə alıcı məhsul seçərkən yalnız qiymətə deyil, həm də davamlılığa, zəmanətə və istifadədə verəcəyi nəticəyə diqqət yetirir (Hossein, 2016).

Qiymət mühüm amil olsa da, tikinti materialları bazarında istehlakçı adətən ən ucuz məhsulu deyil, qiymətinə uyğun keyfiyyətli məhsulu seçməyə çalışır. Keyfiyyət və davamlılıq xüsusilə sement, boya, keramika, izolyasiya materialları və dam örtükləri kimi məhsullarda əsas seçim meyarı hesab olunur. Alıcı gələcəkdə əlavə təmir xərclərinin yaranmaması üçün sertifikatlı, standartlara uyğun və etibarlı məhsullara üstünlük verir.

Marka etibarlılığı və ustaların tövsiyələri də seçim prosesində mühüm rol oynayır. Tanınmış və əvvəl istifadə olunmuş markalar istehlakçıda güvən yaradır. Eyni zamanda satıcının peşəkar məsləhəti alıcının düzgün qərar verməsini asanlaşdırır (Suer və b., 2022). Geniş məhsul çeşidi, zəmanət, geri qaytarma imkanı, texniki məsləhət və servis xidmətləri də müştəri məmnuniyyətini artırır. Müasir dövrdə sosial media, reklam, istifadəçi rəyləri və onlayn qiymət müqayisələri də tikinti materialları seçiminə ciddi təsir göstərir (Wu və b., 2013).

Cədvəl 1
Tikinti materialları istehlakçılarının seçim davranışına təsir edən əsas amillər

Əsas amil	İstehlakçı davranışına təsiri	Satış strategiyası baxımından əhəmiyyəti
Qiymət	Alıcı büdcəsinə uyğun məhsul seçməyə çalışır	Müxtəlif qiymət seqmentləri üzrə məhsul təklifi formalaşdırılmalıdır
Keyfiyyət və davamlılıq	Uzunömürlü və etibarlı materiallara üstünlük verilir	Məhsulun texniki üstünlükləri aydın izah edilməlidir
Marka etibarlılığı	Tanınmış və sınanmış markalara maraq artır	Brend imici və müştəri etibarı gücləndirilməlidir
Satıcı məsləhəti	Texniki seçimdə alıcıya istiqamət verir	Satış heyətinin peşəkarlığı artırılmalıdır
Məhsul çeşidi	Müqayisə və seçim imkanını genişləndirir	Geniş və tamamlayıcı məhsul portfeli yaradılmalıdır
Zəmanət və xidmət	Alıcıda təhlükəsizlik və etibar hissi yaradır	Satış sonrası xidmət sistemi gücləndirilməlidir
Rəqəmsal məlumat və reklam	Alışdan əvvəl araşdırma və müqayisəyə təsir edir	Sosial media, sayt və onlayn kampaniyalar aktiv aparılmalıdır

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Cədvəldən göründüyü kimi, tikinti materialları istehlakçılarının seçim davranışı tək bir amillə izah olunmur. Qiymət mühüm rol oynasa da, keyfiyyət, marka etibarı, satıcı məsləhəti və satış sonrası xidmət alıcının yekun qərarına daha dərin təsir göstərir. Bu səbəbdən müəssisələr satış strategiyalarını yalnız məhsulun ucuzlaşdırılması üzərində deyil, müştəriyə dəyər təqdim edən kompleks yanaşma üzərində qurmalıdırlar.

Son olaraq, alıcının şəxsi təcrübəsi və sosial mühitin təsiri də nəzərə alınmalıdır. Əgər istehlakçı əvvəl aldığı məhsuldan razı qalıbsa, yenidən həmin məhsula və ya həmin mağazaya müraciət edir. Ailə üzvlərinin, tanışların, ustaların və qonşuların tövsiyələri də tikinti materialları seçimində mühüm rol oynayır.

İstehlakçı davranışına əsaslanan satış strategiyalarının formalaşdırılması və tətbiqi

Tikinti materialları bazarında satış strategiyaları istehlakçı davranışının xüsusiyyətlərinə uyğun qurulmalıdır. Alıcılar məhsul seçərkən qiymətlə yanaşı keyfiyyət, davamlılıq, texniki göstəricilər, marka etibarlılığı və satış sonrası xidmət imkanlarını da nəzərə alırlar. Bu səbəbdən müəssisə yalnız məhsul satmağa deyil, müştərinin real ehtiyacını müəyyənləşdirməyə və ona uyğun seçim təklif etməyə çalışmalıdır (Yusifova, 2025).

Satış strategiyasının əsas mərhələlərindən biri alıcıların seqmentləşdirilməsidir. Fərdi ev tikənlər, mənzil təmiri aparanlar, ustalar və tikinti şirkətləri fərqli tələbatlara malikdirlər. Fərdi alıcı üçün qiymət-keyfiyyət uyğunluğu, usta üçün texniki göstəricilər, tikinti şirkətləri üçün isə toplu alış, çatdırılma və stabil təchizat daha vacibdir. Buna görə bütün müştərilərə eyni yanaşma tətbiq etmək düzgün deyil.

Qiymət strategiyası da "ucuz məhsul" deyil, "dəyərinə uyğun məhsul" prinsipi əsasında qurulmalıdır. Ekonom, orta və premium məhsul qruplarının təqdim olunması müxtəlif alıcı seqmentlərini cəlb etməyə imkan verir (Yang və b., 2019). Məhsul strategiyasında isə çeşid genişliyi, texniki məlumatların aydın verilməsi və məhsulların təyinatına görə düzgün izahı əsas rol oynayır.

Satış strategiyalarının formalaşdırılmasında kommunikasiya mühüm yer tutur. Tikinti materialları texniki xarakterli məhsullar olduğundan, alıcıların hamısı məhsullar arasındakı fərqləri dərindən bilmir. Buna görə də satış məntəqəsində çalışan əməkdaşların peşəkar hazırlığı xüsusi əhəmiyyət daşıyır. Satıcı müştərinin hansı məqsədlə məhsul aldığını öyrənməli, tikinti və ya təmir şəraitini nəzərə almalı və uyğun məhsul təklif etməlidir (Məmmədov, 2018).

İstehlakçı davranışına əsaslanan satış strategiyalarında müştəri loyallığının yaradılması da vacibdir. Tikinti materialları bazarında bir dəfə alış edən müştəri gələcəkdə yenidən həmin mağazaya müraciət edə bilər. Bunun üçün müəssisə yalnız ilk satışa deyil, uzunmüddətli müştəri münasibətlərinə diqqət yetirməlidir. Müştəri kartları, bonus sistemi, təkrar alışlara endirim, daimi ustalar üçün xüsusi qiymət təklifləri və çatdırılma xidmətləri loyallığın artırılmasına kömək edir. Müştəri özünü dəyərli hiss etdikdə və əvvəlki alışdan razı qaldıqda, o, növbəti dəfə də eyni satış məntəqəsini seçir (Dünyamalıyeva, 2020).

Satış strategiyalarının tətbiqi zamanı mağazadaxili təqdimat da mühüm rol oynayır. Məhsulların düzgün yerləşdirilməsi, qiymət etiketlərinin aydın olması, oxşar məhsulların müqayisə üçün yanaşı təqdim edilməsi və nümunə stendlərinin qurulması alıcının seçim prosesini asanlaşdırır. Məsələn, kafel, laminat, boya və dekorativ materiallar yalnız qutuda deyil, real tətbiq nümunəsi formasında göstərildikdə müştəri məhsulun nəticəsini daha yaxşı təsəvvür edir. Bu isə qərarvermə prosesini sürətləndirir.

Cədvəl 2
Satış strategiyalarının tətbiqi üzrə praktik tədbirlər və gözlənilən nəticələr

Tətbiq edilən tədbir	Praktik tətbiq forması	Gözlənilən nəticə
Müştəri seqmentləşdirilməsi	Fərdi alıcı, usta və tikinti şirkətləri üçün ayrı təkliflərin hazırlanması	Müştəri ehtiyaclarına daha uyğun satış modeli formalaşır
Məhsul çeşidinin düzgün qurulması	Ekonom, orta və premium məhsulların eyni sistemdə təqdim edilməsi	Müxtəlif büdcəli alıcıların cəlb edilməsi mümkün olur
Peşəkar satış məsləhəti	Satıcıların məhsul xüsusiyyətləri üzrə təlimləndirilməsi	Alıcı qərarverməsi asanlaşır və satış ehtimalı artır
Rəqəmsal təqdimat	Sosial media, onlayn kataloq və məhsul videolarından istifadə	Müştərinin ilkin marağı artır və mağazaya müraciət çoxalır
Kampaniya və endirim sistemi	Mövsümi endirimlər, komplekt məhsul təklifləri və bonuslar	Satış həcmi və təkrar alış ehtimalı yüksəlir
Satış sonrası xidmət	Çatdırılma, dəyişdirmə, zəmanət və texniki məsləhət	Müştəri məmnuniyyəti və etibar güclənir
Mağazadaxili təqdimat	Nümunə stendləri, aydın qiymət etiketləri və məhsul qruplaşdırılması	Seçim prosesi rahatlaşır və əlavə satış imkanı yaranır

Mənbə: Müəllif tərəfindən hazırlanmışdır.

Cədvəldə göstərilən tədbirlər tikinti materialları bazarında satış strategiyalarının yalnız nəzəri deyil, praktik tətbiq istiqamətlərini də əks etdirir. Bu tədbirlər bir-biri ilə əlaqəli şəkildə həyata keçirildikdə müəssisənin bazar mövqeyi güclənir. Məsələn, məhsul çeşidi geniş olsa da, satıcı həmin məhsullar haqqında düzgün məlumat vermirsə, müştəri seçim etməkdə çətinlik çəkə bilər. Eyni şəkildə, onlayn reklam güclü olsa da, mağazada xidmət zəifdirsə, müştəri məmnuniyyəti aşağı düşür. Buna görə də satış strategiyası kompleks yanaşma əsasında qurulmalıdır.

İstehlakçı davranışına əsaslanan satış strategiyalarının formalaşdırılması tikinti materialları bazarında rəqabət üstünlüyü əldə etməyin əsas yollarından biridir. Müştərinin nə istədiyini, hansı amillərə görə qərar verdiyini və hansı xidmətləri gözlədiyini bilən müəssisə satış prosesini daha səmərəli idarə edə bilir.

Nəticə

Tikinti materialları istehlakçılarının davranış xüsusiyyətləri satış strategiyalarının formalaşmasına birbaşa təsir göstərən əsas amillərdən biridir. Aparılan təhlil göstərir ki, bu bazarda alıcıların seçim qərarları yalnız qiymət amili ilə məhdudlaşmır. Məhsulun keyfiyyəti, davamlılığı, marka etibarlılığı, texniki göstəriciləri, zəmanət şərtləri, satış sonrası xidmət və satıcının peşəkar məsləhəti istehlakçı davranışında mühüm rol oynayır.

Nəticə etibarilə, müəssisələr satış fəaliyyətini yalnız məhsul təqdimatı üzərində deyil, müştəri ehtiyaclarının düzgün müəyyənləşdirilməsi və onlara uyğun xidmət modelinin qurulması üzərində formalaşdırmalıdır. Eyni zamanda satış sonrası xidmətin gücləndirilməsi müştəri məmnuniyyətini yüksəldir və təkrar alış ehtimalını artırır. Beləliklə, istehlakçı davranışlarının nəzərə alınması tikinti materialları bazarında müəssisələrin rəqabət üstünlüyü qazanmasına və bazarda sabit mövqe tutmasına imkan yaradır.

Ədəbiyyat

1. Anupam, B. R., Chandrappa, A. K., & Sahoo, U. C. (2022). Sustainable pavements for low-impact developments in urban localities. In K. R. Reddy, R. Panchanrathi, N. G. R. Arukala, & S. R. Reddy (Eds.), *Advances in sustainable materials and resilient infrastructure* (pp. 159–184). Springer.
2. Backes, J. G., Traverso, M., & Horvath, A. (2023). Environmental assessment of a disruptive innovation: Comparative cradle-to-gate life cycle assessments of carbon-reinforced concrete building component. *The International Journal of Life Cycle Assessment, 28*, 16–37.
3. Dünyamalıyeva, E. R. qızı. (2020). *İnşaat materiallarının təhlükəsizliyini təmin edən əsas xassələrin tədqiqi və ekspertizası* [Magistr dissertasiyası, Azərbaycan Dövlət İqtisad Universiteti].
4. Əhmədov, M. M. (2017). *Azərbaycanın mənzil bazarının inkişafı: Reallıqları və perspektivləri* [Monoqrafiya]. İqtisad Universiteti Nəşriyyatı.
5. Əliyeva, N. (2011). *İnşaatda tamamlama işləri texnologiyası*.
6. Hossein, P. A. oğlu. (2016). *Tikinti sferasının idarə edilməsinin inteqrasiya sistemi* [İqtisad üzrə fəlsəfə doktoru dissertasiyasının avtoreferatı, Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu].
7. Məmmədov, V. Ə. oğlu. (2018). *Tikinti məhsulları bazarında qiymətəmələgəlmənin təkmilləşdirilməsi istiqamətləri* [Magistr dissertasiyası, Azərbaycan Dövlət İqtisad Universiteti].
8. Suer, J., Traverso, M., & Jäger, N. (2022). Review of life cycle assessments for steel and environmental analysis of future steel production scenarios. *Sustainability, 14*, 14131.
9. Wu, D. W. L., DiGiacomo, A., & Kingstone, A. (2013). A sustainable building promotes pro-environmental behavior: An observational study on food disposal. *PLOS ONE, 8*(1), e53856.
10. Yang, S., Su, Y., Wang, W., & Hua, K. (2019). Research on developers' green procurement behavior based on the theory of planned behavior. *Sustainability, 11*(10), 2949.
11. Yusifova, K. X. qızı. (2025). Tikinti sənayesində iqtisadi təhlükəsizliyin təmin edilməsinin müasir yolları. *Azərbaycan Memarlıq və İnşaat Universitetində keçirilmiş konfrans materialları*. Bakı.
12. Zhao, H., Wang, Y., Qiu, W., Qu, W., & Zhang, X. (2018). Research on the application of green building materials in China. *IOP Conference Series: Earth and Environmental Science, 186*, 012043.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 237–244
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 237–244
DOI: https://doi.org/10.36719/2706-6185/60/237-244

Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının tarixi inkişaf dinamikası və ənənəvi təhsildən institusional pedaqoji təhsilə keçid

Xanım Səfərli

Xülasə. *Məqalədə Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının tarixi inkişaf dinamikası ənənəvi təhsil formalarından institusional pedaqoji təhsil sisteminə keçid kontekstində araşdırılır. Tədqiqatın əsas məqsədi XIX və XX əsrlərdə bölgədə müəllim hazırlığı prosesinin hansı sosial, siyasi və mədəni şəraitdə formalaşdığını, bu prosesdə mollaxana və mədrəsə ənənələrinin, dövlət məktəblərinin, müəllimlər seminariyasının, pedaqoji texnikumların və ali pedaqoji şöbələrin rolunu müəyyənləşdirməkdir. Məqalədə göstərilir ki, Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığı əvvəlcə dini və ənənəvi təhsil mühitində meydana gəlmiş, sonradan dünyəvi məktəb sisteminin inkişafı ilə daha sistemli və peşəkar xarakter almışdır. İrəvan Müəllimlər Seminariyası, İrəvan Türk Pedaqoji Texnikumu və İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi milli məktəblər üçün müəllim kadrlarının hazırlanmasında mühüm rol oynamışdır. Məqalədə həmçinin qadınların pedaqoji təhsilə cəlb olunması və Azərbaycan məktəblərinin kadr təminatı məsələləri də təhlil edilir. Nəticə etibarilə, Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının inkişafı yalnız təhsil tarixi baxımından deyil, həm də milli kimliyin, ana dilinin və maarifçilik ənənələrinin qorunması baxımından əhəmiyyətli hadisə kimi qiymətləndirilir.*

Açar sözlər: *Qərbi Azərbaycan, pedaqoji kadr hazırlığı, müəllimlər seminariyası, ənənəvi təhsil, institusional təhsil, milli maarifçilik, qadın təhsili, Azərbaycan məktəbləri*

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: safarlikhanim85@gmail.com
Daxil oldu:16 Dekabr 2025; Qəbul edildi: 21 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Historical Development Dynamics of Pedagogical Staff Training in Western Azerbaijan and the Transition From Traditional Education to Institutional Pedagogical Education

Khanim Safarli

Abstract. *The article examines the historical development dynamics of pedagogical staff training in Western Azerbaijan in the context of the transition from traditional forms of education to institutional pedagogical education. The study focuses on the role of mollakhanas, madrasas, state schools, teacher seminaries, pedagogical technical schools and higher pedagogical departments in the formation of national teacher training.*

It is shown that pedagogical staff training in Western Azerbaijan first developed within the traditional religious and educational environment, but later acquired a more systematic and professional character through the expansion of secular schools and specialized teacher-training institutions. The activity of the Yerevan Teachers' Seminary, the Yerevan Turkish Pedagogical Technical School and the Azerbaijani department of the Yerevan State Correspondence Pedagogical Institute played an important role in preparing teachers for Azerbaijani schools. The article also emphasizes that the involvement of women in pedagogical education expanded the social base of teacher training and strengthened the enlightenment movement in the region. The study concludes that the development of pedagogical staff training in Western Azerbaijan was not only an educational process, but also an important factor in preserving national identity, mother-tongue education and Azerbaijani enlightenment traditions.

Keywords: *Western Azerbaijan, pedagogical staff training, teacher seminary, traditional education, institutional education, national enlightenment, women's education, Azerbaijani schools*

Baku Slavic University, Master's student, Baku, Azerbaijan
E-mail: safarlikhanim85@gmail.com
Received: 16 Dekabr 2025; Accepted: 21 Aprel 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Qərbi Azərbaycan tarixən azərbaycanlıların yaşadığı, zəngin maarifçilik və pedaqoji ənənələrə malik olan bölgələrdən biri olmuşdur. Bu ərazidə formalaşmış təhsil mühiti yalnız savadlanma prosesi ilə məhdudlaşmamış, həm də milli kimliyin, ana dilinin, dini-mənəvi dəyərlərin və mədəni yaddaşın qorunmasında mühüm rol oynamışdır. XIX və XX əsrlərdə bölgədə baş verən sosial və siyasi proseslər təhsil sisteminin inkişafına, məktəb şəbəkəsinin genişlənməsinə və müəllim kadrlarının hazırlanması məsələsinə ciddi təsir göstərmişdir.

Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının ilkin əsasları ənənəvi təhsil formaları ilə bağlı olmuşdur. Mollaxana və mədrəsələr uzun müddət ərzində uşaqların ilkin savad almasına, dini biliklərə yiyələnməsinə və mənəvi tərbiyəsinə xidmət etmişdir. Bu təhsil ocaqları müasir mənada peşəkar müəllim hazırlığı müəssisələri olmasa da, bölgədə savadlı şəxslərin, din xadimlərinin və maarifçi mühitin formalaşmasına şərait yaratmışdır. Sonrakı dövrdə dünyəvi məktəblərin yaranması bu ənənəvi təhsil mühitini daha sistemli və təşkilatlanmış mərhələyə keçirmişdir.

XIX əsrin ikinci yarısından etibarən dövlət məktəblərinin, gimnaziyaların və müəllim hazırlığı müəssisələrinin fəaliyyəti Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının yeni mərhələsini formalaşdırmışdır. Bu mərhələdə müəllim hazırlığı artıq təsadüfi və fərdi xarakter daşımır, xüsusi proqramlar, tədris planları və pedaqoji təcrübə əsasında həyata keçirilirdi. İrəvan Müəllimlər Seminariyası, pedaqoji kurslar, pedaqoji texnikumlar və ali pedaqoji şöbələr bu prosesin əsas dayaq nöqtələri kimi çıxış etmişdir.

İrəvan Müəllimlər Seminariyasının məzunları sonrakı dövrlərdə Azərbaycan məktəblərində müəllim, maarifçi və ictimai xadim kimi fəaliyyət göstərmişlər (Azərbaycan tarixi, s. 213–220). Bu fakt seminariyanın yalnız bir təhsil müəssisəsi olmadığını, həm də bölgədə milli ziyalı təbəqəsinin formalaşmasına xidmət etdiyini göstərir. Seminariya məzunlarının fəaliyyəti Qərbi Azərbaycanda pedaqoji fikrin yayılmasına və ana dilində təhsilin qorunmasına mühüm təsir göstərmişdir.

Məqalənin əsas məqsədi Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının ənənəvi təhsil mühitindən institusional pedaqoji təhsil sisteminə keçidini tarixi inkişaf dinamikası baxımından araşdırmaqdır. Bu məqsədlə məqalədə mollaxana və mədrəsə ənənələrinin rolu, dünyəvi məktəblərin yaranması, müəllimlər seminariyasının fəaliyyəti, pedaqoji texnikumların və ali pedaqoji şöbələrin milli məktəblər üçün kadr hazırlığındakı əhəmiyyəti təhlil edilir. Məqalədə həmçinin qadınların pedaqoji təhsilə cəlb olunması və Azərbaycan məktəblərinin müəllim təminatı məsələləri də diqqət mərkəzində saxlanılır.

Tədqiqat

Ənənəvi təhsil mühitindən dünyəvi məktəb sisteminə keçid

Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının tarixi kökləri ənənəvi təhsil müəssisələri ilə bağlıdır. Mollaxana və mədrəsələr bölgədə ilkin savadlanmanın, dini biliklərin və əxlaqi tərbiyənin əsas mərkəzləri kimi fəaliyyət göstərmişdir. Bu müəssisələrdə təhsil alan şəxslərin bir qismi sonralar kənd və şəhər mühitində müəllim, din xadimi, katib və maarifçi funksiyalarını yerinə yetirirdi. Buna görə də ənənəvi təhsil ocaqları peşəkar pedaqoji təhsil müəssisələri olmasa da, bölgədə müəllimlik fəaliyyəti üçün ilkin sosial və intellektual baza yaratmışdır.

Mədrəsə təhsili mollaxana təhsilindən daha geniş məzmuna malik idi. Burada Quran oxusu və dini qaydalarla yanaşı, ərəb və fars dili, məntiq, tarix, riyaziyyat və bəzən coğrafiya kimi fənlər də tədris olunurdu (Əliyev, 2005, s. 78). Bu fakt göstərir ki, Qərbi Azərbaycanda ənənəvi təhsil yalnız dini çərçivə ilə məhdudlaşmırdı. Mədrəsələr müəyyən mənada dünyəvi biliklərin də ötürüldüyü mərkəzlər kimi çıxış edirdi. Məhz bu səbəbdən sonrakı dövrdə yeni tipli məktəblərin formalaşması üçün bölgədə müəyyən savadlı mühit mövcud idi.

Ənənəvi təhsil mühitinin əsas xüsusiyyətlərindən biri onun yerli sosial münasibətlərlə sıx bağlı olması idi. Mollaxana və mədrəsələr yalnız tədris məkanı kimi deyil, həm də mənəvi tərbiyə, dini bilik və icma daxilində sosial nüfuzun formalaşdığı mühit kimi fəaliyyət göstərirdi. Bu baxımdan həmin təhsil formaları müəllimlik fəaliyyətinin ilkin ictimai əsaslarını yaratmışdır. Lakin XIX əsrin ikinci yarısından etibarən sosial-iqtisadi dəyişikliklər, idarəçilik sisteminin yenilənməsi və dünyəvi biliklərə ehtiyacın artması ənənəvi təhsilin imkanlarını məhdudlaşdırmağa başlamışdır.

XIX əsrin ikinci yarısından etibarən Qərbi Azərbaycanda dünyəvi təhsilə keçid daha aydın şəkildə müşahidə olunmağa başladı. Dövlət məktəblərinin, qəza məktəblərinin, progimnaziyaların və gimnaziyaların fəaliyyəti tədrisin məzmununu dəyişdirdi. Bu məktəblərdə dil, tarix, coğrafiya, riyaziyyat və təbiətşünaslıq kimi fənlərin tədrisi müəllim hazırlığına olan ehtiyacı artırdı. Beləliklə, pedaqoji kadr hazırlığı artıq yalnız şəxsi savad və dini bilik əsasında deyil, xüsusi tədris proqramları və məktəb ehtiyacları əsasında formalaşmağa başladı.

İrəvan şəhərində dövlət məktəblərinin yaranması Qərbi Azərbaycanda pedaqoji mühitin dəyişməsində mühüm mərhələ olmuşdur. İrəvan qəza məktəbi və sonrakı progimnaziya təhsil sistemində dünyəvi fənlərin möhkəmlənməsinə şərait yaratmışdır (Rüstəmov, 2022, s. 12–39). Bu təhsil müəssisələri yeni tipli müəllimlərə ehtiyac doğururdu. Müəllim artıq yalnız dini bilik ötürən şəxs kimi deyil, həm də dünyəvi fənləri tədris edən peşəkar pedaqoq kimi qəbul olunmağa başlayırdı. Bu dəyişiklik Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının institusional mərhələyə keçidini sürətləndirdi.

Dünyəvi məktəb sisteminin inkişafı ana dilində təhsil məsələsini də aktuallaşdırdı. Azərbaycanlı uşaqların təhsil aldığı məktəblərdə Azərbaycan dilinin tədrisi, yerli mədəni mühitin qorunması və milli özünüdərk prosesinin davam etdirilməsi üçün milli müəllimlərə ehtiyac artırdı. Bu ehtiyac

bölgədə pedaqoji təhsilin təşkilinə yeni məzmun verdi. Azərbaycanlı ziyalılar məktəblərin açılması, dərsliklərin hazırlanması və müəllimlərin yetişdirilməsi istiqamətində xüsusi fəallıq göstərirdilər. Bu keçid yalnız təhsil sisteminin daxili inkişafı ilə bağlı deyildi. Qərbi Azərbaycanda təhsilin inkişafına dövrün sosial və siyasi şəraiti də ciddi təsir göstərmişdir (Qərbi Azərbaycan, 2025, s. 9–11). Bu şəraitdə ana dilində təhsil və milli müəllim kadrlarının hazırlanması daha böyük əhəmiyyət qazanırdı. Azərbaycanlı ziyalıların məktəb açmaq, dərslik hazırlamaq və tədrisi təşkil etmək istiqamətindəki fəaliyyəti pedaqoji kadr hazırlığını milli maarifçilik hərəkatının əsas istiqamətlərindən birinə çevirmişdir.

Ənənəvi təhsildən dünyəvi məktəb sisteminə keçid birdən-birə baş verməmişdir. Bu proses uzun müddət ərzində mollaxana, mədrəsə, dövlət məktəbi və müəllim hazırlığı müəssisələri arasında əlaqəli şəkildə inkişaf etmişdir. Ənənəvi təhsil savadlılıq və mənəvi tərbiyə bazası yaratmış, dünyəvi məktəblər isə bu bazanı daha sistemli və peşəkar təhsil modelinə çevirmişdir. Nəticədə Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığı tədricən milli maarifçilik prosesinin əsas istiqamətlərindən biri kimi formalaşmışdır.

Cədvəl 1.
Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının inkişaf mərhələləri

Mərhələ	**Əsas təhsil forması**	**Pedaqoji kadr hazırlığına təsiri**
XIX əsrin əvvəlləri	Mollaxana və mədrəsələr	İlkin savadlı şəxslərin, dini müəllimlərin və yerli maarifçi mühitin formalaşmasına şərait yaratdı
XIX əsrin ikinci yarısı	Qəza məktəbləri, progimnaziyalar və gimnaziyalar	Dünyəvi fənlərin tədrisi müəllim hazırlığına yeni tələblər formalaşdırdı
1881-ci ildən sonra	İrəvan Müəllimlər Seminariyası	Müəllim hazırlığını sistemli və institusional mərhələyə keçirdi
1920-ci illər	Pedaqoji kurslar və İrəvan Türk Pedaqoji Texnikumu	Azərbaycan məktəbləri üçün milli pedaqoji kadrların hazırlanmasını genişləndirdi
1930–1940-cı illər	Ali pedaqoji şöbələr və qiyabi pedaqoji institutlar	Ali təhsilli müəllim kadrlarının hazırlanmasına imkan yaratdı
1950–1980-ci illər	Azərbaycan bölmələri və orta məktəb şəbəkəsi	Kadr təminatını qorumağa çalışdı, lakin siyasi və demoqrafik təzyiqlər prosesi zəiflətdi

Mənbə: İ. Əliyev, C. Allahverdiyev və F. Rüstəmovun tədqiqatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəldən göründüyü kimi, Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığı bir neçə mərhələdən keçmişdir. İlk mərhələdə ənənəvi dini təhsil əsas rol oynasa da, sonrakı mərhələlərdə dünyəvi məktəblər və xüsusi müəllim hazırlığı müəssisələri ön plana çıxmışdır. Bu keçid bölgədə təhsilin məzmununu dəyişdirmiş, müəllimlik peşəsini daha sistemli və ictimai baxımdan əhəmiyyətli fəaliyyət sahəsinə çevirmişdir.

Pedaqoji kadr hazırlığının mərhələlər üzrə inkişafı göstərir ki, Qərbi Azərbaycanda müəllim hazırlığı yalnız təhsil müəssisələrinin yaranması ilə bağlı proses deyildi. Bu proses həm də bölgədə milli maarifçilik düşüncəsinin güclənməsi, ana dilində təhsilin qorunması və azərbaycanlı əhalinin mədəni özünüdərk səviyyəsinin yüksəlməsi ilə sıx əlaqəli idi. Buna görə də pedaqoji kadr hazırlığının inkişafı Qərbi Azərbaycan təhsil tarixində sosial-mədəni hadisə kimi qiymətləndirilməlidir.

Pedaqoji kadr hazırlığının institusionallaşması

Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının institusionallaşması ilk növbədə müəllim hazırlığının xüsusi təhsil müəssisələri vasitəsilə aparılması ilə bağlıdır. Bu baxımdan İrəvan Müəllimlər Seminariyasının fəaliyyəti mühüm mərhələ kimi qiymətləndirilir. Seminariya müəllim hazırlığını təsadüfi və fərdi savad səviyyəsindən çıxararaq planlı, proqramlı və pedaqoji əsaslara söykənən sistemə çevirmişdir. Bu proses Qərbi Azərbaycanda milli məktəblərin kadr təminatı üçün real baza yaratmışdır.

İrəvan Müəllimlər Seminariyası 1881-ci ildə fəaliyyətə başlamış və uzun müddət bölgədə müəllim hazırlığının əsas mərkəzlərindən biri olmuşdur (Rüstəmov, 2022, s. 79). Seminariyanın yaranması Qərbi Azərbaycanda pedaqoji təhsilin rəsmi və təşkilatlanmış mərhələyə keçdiyini göstərir. Burada təhsil alan tələbələr yalnız nəzəri biliklər almır, həm də məktəb mühiti üçün vacib olan pedaqoji bacarıqlara yiyələnirdilər. Bu səbəbdən seminariya Qərbi Azərbaycanda müəllim peşəsinin ictimai nüfuzunun artmasına da təsir göstərmişdir.

Seminariyanın tədris məzmunu dövrün pedaqoji tələblərinə uyğun şəkildə qurulmuşdu. Tədris planında Azərbaycan dili, rus dili, riyaziyyat, tarix, coğrafiya, təbiətşünaslıq, pedaqogika, nəğmə, hüsnxət və digər fənlər yer alırdı (Rüstəmov, 2022, s. 98). Bu fənlər gələcək müəllimlərin yalnız bilik daşıyıcısı kimi deyil, həm də metodik hazırlığa malik pedaqoji kadr kimi formalaşmasına xidmət edirdi. Tədris prosesində pedaqoji təcrübəyə yer verilməsi müəllim hazırlığının praktik istiqamətini gücləndirirdi. Beləliklə, seminariya ənənəvi savadlılıq modelindən peşəkar müəllim hazırlığı modelinə keçidin əsas mexanizmlərindən biri olmuşdur.

Seminariyanın fəaliyyəti təkcə tədris prosesinin təşkili ilə məhdudlaşmırdı. Burada yetişən müəllimlər sonradan İrəvan quberniyasının müxtəlif məktəblərində çalışır, azərbaycanlı uşaqların ana dilində təhsil almasına və dünyəvi biliklərə yiyələnməsinə xidmət edirdilər. Seminariyanın məzunları arasında sonradan maarifçilik, pedaqoji fəaliyyət və ictimai həyat sahələrində seçilən şəxslərin olması bu təhsil müəssisəsinin regional əhəmiyyətini daha da artırırdı.

İrəvan Müəllimlər Seminariyasının məzunları sonrakı dövrlərdə Azərbaycan məktəblərində müəllim, maarifçi və ictimai xadim kimi fəaliyyət göstərmişlər (Balayeva, 2022, s. 213–220). Bu fakt seminariyanın yalnız bir təhsil müəssisəsi olmadığını, həm də bölgədə milli ziyalı təbəqəsinin formalaşmasına xidmət etdiyini göstərir. Seminariya məzunlarının fəaliyyəti Qərbi Azərbaycanda pedaqoji fikrin yayılmasına və ana dilində təhsilin qorunmasına mühüm təsir göstərmişdir.

XX əsrin əvvəllərində baş verən siyasi hadisələr və sonrakı sovetləşmə prosesi Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının yeni mərhələsini yaratdı. Azərbaycan məktəblərinin müəllimə olan ehtiyacı artdığı üçün qısamüddətli kurslar, pedaqoji texnikumlar və qiyabi pedaqoji institutlar daha vacib əhəmiyyət qazandı. Bu mərhələdə müəllim hazırlığı daha geniş sosial bazaya yayılmağa başladı. Xüsusilə kənd və rayon məktəblərinin kadr təminatı məsələsi pedaqoji təhsil müəssisələrinin fəaliyyətini zəruri edirdi.

İrəvan Türk Pedaqoji Texnikumu 1920-ci illərdə milli məktəblərin müəllim kadrları ilə təmin olunması baxımından xüsusi əhəmiyyət daşımışdır (Allahverdiyev və Cəfərov, 2017, s. 117). Texnikum azərbaycanlı gənclərin pedaqoji təhsil almasına imkan yaratmış və bölgədə müəllim çatışmazlığının aradan qaldırılmasına kömək etmişdir. Onun fəaliyyəti göstərir ki, Qərbi Azərbaycanda pedaqoji təhsil artıq yalnız seminariya modeli ilə məhdudlaşmırdı. Pedaqoji texnikumlar daha geniş təbəqələr üçün müəllimlik peşəsinə çıxış imkanı yaradırdı.

Bu mərhələdə qadınların pedaqoji təhsilə cəlb olunması da müəllim hazırlığının sosial bazasını genişləndirən mühüm amillərdən biri idi. İrəvan təhsil mühitində qız məktəblərinin fəaliyyəti

qadınların müəllimlik peşəsinə yönəlməsi üçün əhəmiyyətli zəmin yaratmışdır (Mollayeva, 2022, s. 104–108). Bu proses qadınların yalnız təhsil alan deyil, həm də maarifçilik fəaliyyətində iştirak edən ictimai subyekt kimi formalaşmasına imkan vermişdir. Qadınların təhsilə cəlb olunması ailə və cəmiyyət daxilində savadlanma mədəniyyətinin genişlənməsinə, xüsusilə qız uşaqlarının təhsil imkanlarının artmasına təsir göstərmişdir.

İrəvanın ictimai həyatında maarifçi qadınların fəallığı milli təhsil mühitinin sosial dayaqlarını genişləndirmişdir (Axundova, 2024, s. 36–38). Bu fəallıq pedaqoji kadr hazırlığının yalnız kişi müəllimlərlə məhdudlaşmadığını göstərir. Qadın müəllimlərin yetişməsi Azərbaycan məktəblərində tədrisin sosial təsirini artırmış, ailə-məktəb əlaqələrinin güclənməsinə və təhsilin cəmiyyət daxilində daha geniş qəbul edilməsinə şərait yaratmışdır. Beləliklə, qadınların pedaqoji təhsilə cəlbi ayrıca bir sosial hadisə olmaqla yanaşı, müəllim hazırlığı sisteminin daha geniş ictimai məzmun qazanmasına xidmət etmişdir.

Sovet hakimiyyətinin ilk illərində savadsızlığın aradan qaldırılması və ana dilində təhsilin genişləndirilməsi müəllim hazırlığını daha da aktuallaşdırdı. Azərbaycan dilində fəaliyyət göstərən məktəblərin sayı artdıqca, həmin məktəblərdə dərs deyə biləcək ixtisaslı müəllimlərə ehtiyac da artırdı. Bu ehtiyac yalnız bir müəssisənin fəaliyyəti ilə təmin edilə bilməzdi. Buna görə də pedaqoji kurslar, texnikumlar və ali pedaqoji şöbələr bir-birini tamamlayan kadr hazırlığı sistemi kimi formalaşdı.

1930-cu illərdə ali pedaqoji şöbələrin və qiyabi pedaqoji institutların fəaliyyəti Qərbi Azərbaycanda müəllim hazırlığını daha yüksək mərhələyə keçirdi. İrəvan Dövlət Qiyabi Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi milli məktəblər üçün ali təhsilli müəllim kadrlarının hazırlanmasında mühüm rol oynamışdır (Əliyev, 2005, s. 77). Bu şöbə çətin siyasi və təşkilati şəraitdə fəaliyyət göstərsə də, Azərbaycan məktəblərinin kadr ehtiyacını müəyyən qədər qarşılaya bilmişdir. Burada təhsil alan müəllimlər həm pedaqoji biliklərini artırır, həm də məktəb təcrübəsini elmi əsaslarla zənginləşdirirdilər.

Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığı sisteminin inkişafı məktəb şəbəkəsinin genişlənməsi ilə sıx bağlı idi. Məktəblərin sayı artdıqca müəllim hazırlığına ehtiyac da çoxalırdı. Bu əlaqəni daha aydın görmək üçün Azərbaycan məktəblərinin və şagirdlərinin dinamikasına nəzər salmaq vacibdir. Aşağıdakı cədvəldə 1922–1980-ci illər üzrə Qərbi Azərbaycanda Azərbaycan məktəblərinin və şagirdlərinin sayı ümumiləşdirilmişdir.

Cədvəl 2
1922–1980-ci illərdə Qərbi Azərbaycanda Azərbaycan məktəbləri və şagirdlərinin sayı

Təhsil ili	**Təhsil ocaqlarının sayı**	**Şagird sayı**
1922–1923	36	1521
1929–1930	112	5987
1930–1931	162	9536
1932–1933	221	18362
1969–1970	218	42541
1976–1977	201	51599
1979–1980	197	48681

Mənbə: Cədvəl F. Qasımovun məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəl 2-dən göründüyü kimi, 1920-ci illərdən 1930-cu illərin əvvəllərinə qədər Qərbi Azərbaycanda Azərbaycan məktəblərinin və şagirdlərinin sayı sürətlə artmışdır. Bu artım müəllim kadrlarına olan tələbatı da gücləndirmişdir. Sonrakı mərhələdə şagird sayının yüksək səviyyəyə çatması Azərbaycan məktəblərinin bölgədə ciddi sosial və pedaqoji funksiya daşıdığını göstərir. Lakin məktəblərin sayında sonrakı azalma siyasi, demoqrafik və inzibati təzyiqlərin təhsil mühitinə təsirini də ortaya qoyur.

Bu statistik göstəricilər pedaqoji kadr hazırlığının niyə strateji məsələ olduğunu aydın göstərir. Minlərlə şagirdin ana dilində təhsil alması üçün yalnız məktəb binası kifayət deyildi. Bu məktəblərin fəaliyyət göstərməsi üçün ana dilində dərs deyə bilən, pedaqoji metodlara yiyələnmiş və milli maarifçilik ruhunu daşıyan müəllimlər lazım idi. Buna görə də Qərbi Azərbaycanda müəllim hazırlığı təhsil sisteminin texniki elementi deyil, bütöv milli-mədəni varlığın qorunması üçün əsas dayaqlardan biri olmuşdur.

Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının institusionallaşması həm də tədrisin məzmununda baş verən dəyişikliklərlə əlaqəli idi. Əgər ənənəvi təhsil mühitində əsas diqqət dini biliklərə, əxlaqi tərbiyəyə və ilkin savadlanmaya yönəlirdisə, institusional pedaqoji təhsildə metodika, pedaqogika, psixologiya, fənn hazırlığı və pedaqoji təcrübə daha mühüm yer tutmağa başladı. Bu dəyişiklik müəllimin cəmiyyətdəki rolunu da yenilədi. Müəllim yalnız bilik ötürən şəxs deyil, həm də milli şüurun, mədəni yaddaşın və dünyəvi təfəkkürün formalaşmasında iştirak edən maarifçi kimi çıxış edirdi.

Bu baxımdan İrəvan Müəllimlər Seminariyası, pedaqoji texnikumlar və ali pedaqoji şöbələr Qərbi Azərbaycanda Azərbaycan məktəblərinin davamlı fəaliyyətini təmin edən əsas institutlar kimi qiymətləndirilə bilər. Onların fəaliyyəti müəllim kadrlarının hazırlanması ilə yanaşı, bölgədə ana dilində təhsilin qorunmasına, məktəb mədəniyyətinin inkişafına və azərbaycanlı ziyalı təbəqəsinin formalaşmasına xidmət etmişdir. Nəticədə pedaqoji kadr hazırlığı Qərbi Azərbaycan maarifçilik tarixində yalnız təhsil sahəsinə aid proses deyil, həm də milli-mədəni mövcudluğun mühüm şərti kimi meydana çıxmışdır.

Nəticə

Aparılan təhlil göstərir ki, Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının tarixi inkişafı ənənəvi təhsil formalarından institusional pedaqoji təhsil sisteminə keçid kimi xarakterizə oluna bilər. Bu proses birdən-birə baş verməmiş, uzun tarixi mərhələ ərzində mollaxana və mədrəsə ənənələri, dünyəvi dövlət məktəbləri, müəllimlər seminariyası, pedaqoji texnikumlar və ali pedaqoji şöbələrin fəaliyyəti əsasında formalaşmışdır. Ənənəvi təhsil mühiti bölgədə ilkin savadlı şəxslərin və maarifçi çevrələrin yetişməsinə şərait yaratmış, dünyəvi məktəblər isə müəllimlik peşəsinin daha sistemli və peşəkar əsaslarla inkişafına zəmin hazırlamışdır.

İrəvan Müəllimlər Seminariyasının fəaliyyəti Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının institusionallaşmasında əsas dönüş nöqtələrindən biri olmuşdur. Seminariya müəllim hazırlığını planlı tədris proqramları, pedaqoji biliklər, metodik hazırlıq və praktik təcrübə ilə əlaqələndirmişdir. Bu baxımdan onun fəaliyyəti yalnız bir təhsil müəssisəsinin tarixi kimi deyil, həm də Qərbi Azərbaycanda milli maarifçilik düşüncəsinin inkişafı və Azərbaycan məktəbləri üçün kadr bazasının formalaşması baxımından qiymətləndirilməlidir.

XX əsrin əvvəllərində və sovet hakimiyyətinin ilk illərində pedaqoji kursların, İrəvan Türk Pedaqoji Texnikumunun və ali pedaqoji şöbələrin fəaliyyəti Azərbaycan məktəblərinin müəllim kadrları ilə təmin olunmasında mühüm rol oynamışdır. Bu müəssisələr müxtəlif siyasi, sosial və təşkilati çətinliklərə baxmayaraq, ana dilində təhsilin davam etdirilməsi, savadsızlığın aradan qaldırılması və

milli məktəb şəbəkəsinin qorunması üçün vacib funksiyanı yerinə yetirmişdir. Məktəblərin və şagirdlərin sayında müşahidə olunan artım müəllim hazırlığının bölgə üçün strateji əhəmiyyət daşıdığını göstərir. Qadınların pedaqoji təhsilə cəlb olunması Qərbi Azərbaycanda müəllim hazırlığının sosial bazasını genişləndirən mühüm amillərdən biri olmuşdur. Qız məktəblərinin fəaliyyəti və maarifçi qadınların ictimai fəallığı qadınların müəllimlik peşəsinə daxil olmasına, ailə və cəmiyyət daxilində savadlanma mədəniyyətinin yayılmasına şərait yaratmışdır. Bu proses pedaqoji kadr hazırlığının yalnız institusional deyil, həm də sosial və mədəni inkişaf istiqaməti olduğunu göstərir.

Ümumilikdə, Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının inkişafı Azərbaycan maarifçilik tarixinin mühüm tərkib hissəsi kimi dəyərləndirilməlidir. Bu proses milli məktəblərin inkişafına, ana dilində təhsilin qorunmasına, ziyalı təbəqəsinin formalaşmasına və milli-mədəni yaddaşın davamlılığına mühüm təsir göstərmişdir. Mövzunun araşdırılması Qərbi Azərbaycanın təhsil tarixində tutduğu yeri daha aydın müəyyənləşdirməyə və Azərbaycan pedaqoji fikir tarixinin regional inkişaf xüsusiyyətlərini daha obyektiv qiymətləndirməyə imkan verir.

Ədəbiyyat

1. Allahverdiyev, C. (2022). *İrəvan müəllimlər seminariyası*. Elm və Təhsil. https://www.preslib.az/az/elibrary/ebook/iyvefkd
2. Axundova, S. (2024). XIX əsrin sonu XX əsrin birinci yarısında İrəvanın ictimai həyatında qadınların rolu. *Azərbaycanşünaslığın aktual məsələləri: Tədqiqat, elmi diskurs, beynəlmiləlləşmə*, 36–38. https://www.scribd.com/document/915527289/Konfrans-Azerbaycansunasliq-2024-1
3. *Azərbaycan tarixi 1900–1920-ci illər* (Vol. 5). (2008). Elm. https://anl.az/el/Kitab/254489.pdf
4. Balayeva, P. (2022). İrəvan müəllimlər seminariyasının məzunlarının fəaliyyət istiqamətləri. In *İrəvan Müəllimlər Seminariyasının 140 illiyinə həsr olunmuş Respublika elmi konfransının materialları*, 213–220.
5. Cəfərov, C., & Allahverdiyev, C. (2017). *Təhsil tariximizdən: İrəvan Pedaqoji Məktəbi*. Orxan NPM.https://qerbiazerbaycan.com/wpcontent/uploads/2023/08/Tehsil_tariximizden_Irevan_Pedaqoji_mektebi.pdf
6. Ələkbərov, N. (2003). *Azərbaycan pedaqoji fikir tarixi*. Adiloğlu.
7. Əliyev, İ. (2005). *Qərbi Azərbaycanda təhsil və mədəniyyət tarixindən*. Elm.
8. Həbibbəyli, İ. (2017). *Azərbaycan maarifçiliyi və yeni tipli məktəblər*. Elm və Təhsil.
9. Hüseynov, Ə. (2010). *Ermənistan ərazisində azərbaycanlıların maarif və mədəni həyatı XIX–XX əsr əvvəli*. Şərq-Qərb.
10. İsmixanov, M., & İmamverdiyeva, N. (2022). Təhsil tariximizin önəmli mərhələsi. In *İrəvan Müəllimlər Seminariyasının 140 illiyinə həsr olunmuş Respublika elmi konfransının materialları* (pp. 44–50). https://ndu.edu.az/wp-content/uploads/Konfrans/irevan%20konfrans.pdf
11. Məmmədova, R. (1999). *XIX əsrdə Azərbaycanda maarifçilik hərəkatı və pedaqoji fikir*. Maarif.
12. Mollayeva, E. (2022). XX əsrin əvvəllərində İrəvan təhsil mühitində qız məktəblərinin vəziyyəti. In *İrəvan Müəllimlər Seminariyasının 140 illiyinə həsr olunmuş "İrəvan Müəllimlər Seminariyası: Tarixilik və müasirlik" mövzusunda Respublika elmi konfransının materialları*, 104–108 https://ndu.edu.az/wp-content/uploads/Konfrans/irevan%20konfrans.pdf
13. Qasımov, F. (2014). *Qərbi Azərbaycan: Tarix, mədəniyyət, təhsil*. Qərbi Azərbaycan İcması Nəşriyyatı.
14. *Qərbi Azərbaycan: Tarixi yaddaşımız*. (2025). Elm və Təhsil. https://westaz.org/storage/postFile/Qerbi_Azerbaycan_Tarixi_Yaddashimiz_31-01-2025_09-20-05.pdf
15. Rüstəmov, F. (2022). *İrəvan müəllimlər seminariyası və onun məzunları*. Elm və Təhsil. https://www.old.muallim.edu.az/news.php?id=22809

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 245–250
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 245–250
DOI: https://doi.org/10.36719/2706-6185/60/245-250

Komanda idarəetməsi və liderlik strategiyalarının layihə uğuruna təsiri

Toğrul Muradzadə

Xülasə. *Qlobal biznes mühitində baş verən sürətli dəyişikliklər layihə idarəetməsində komanda idarəçiliyi və liderlik yanaşmalarının əhəmiyyətini daha da artırmışdır. Müasir layihələrin çoxşaxəli və dinamik xarakter daşıması rəhbərlik bacarıqlarının, effektiv kommunikasiya mexanizmlərinin və komanda daxilində koordinasiyanın strateji rolunu ön plana çıxarır. Xüsusilə rəqəmsal texnologiyaların və çevik idarəetmə metodlarının geniş tətbiqi layihə komandalarının daha operativ, uyğunlaşa bilən və nəticəyönümlü fəaliyyət göstərməsinə şərait yaradır.*
Effektiv liderlik strategiyaları komanda üzvlərinin motivasiyasının artırılmasına, əməkdaşlıq mühitinin formalaşdırılmasına və qərarvermə proseslərinin optimallaşdırılmasına mühüm təsir göstərir. Bununla yanaşı, liderlərin emosional intellekti, dəyişikliklərin idarə olunması bacarıqları və innovativ yanaşmaları layihələrin uğurlu nəticələr əldə etməsində vacib amillərdən biri hesab olunur. Güclü komanda idarəetməsi resurslardan daha səmərəli istifadə edilməsinə, risklərin minimuma endirilməsinə və layihə məqsədlərinə vaxtında nail olunmasına imkan yaradır.
Tədqiqat nəticələri göstərir ki, layihə uğurunun artırılması üçün adaptiv liderlik modellərinin tətbiqi, komanda daxilində qarşılıqlı etimadın gücləndirilməsi və rəqəmsal kommunikasiya vasitələrinin effektiv istifadəsi xüsusi əhəmiyyət daşıyır. Müasir idarəetmə yanaşmaları təşkilatların dəyişən biznes mühitinə daha çevik uyğunlaşmasına və rəqabət üstünlüyü əldə etməsinə mühüm töhfə verir.

Açar sözlər: *komanda idarəetməsi, liderlik, layihə uğuru, çevik idarəetmə, kommunikasiya, motivasiya, transformasional liderlik, komanda performansı, təşkilati inkişaf, rəqəmsal idarəetmə*

Azərbaycan Memarlıq və İnşaat Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: mr.togrul98@gmail.com
Daxil oldu: 6 Yanvar 2026; Qəbul edildi: 23 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

The Impact of Team Management and Leadership Strategies on Project Success

Togrul Muradzadeh

Abstract. *Rapid changes in the global business environment have significantly increased the importance of team management and leadership approaches in project management. The multidimensional and dynamic nature of modern projects highlights the strategic role of leadership skills, effective communication mechanisms, and coordination within project teams. In particular, the widespread implementation of digital technologies and agile management methods has enabled project teams to operate in a more flexible, adaptive, and result-oriented manner.*

Effective leadership strategies play a crucial role in increasing team motivation, creating a collaborative working environment, and optimizing decision-making processes. In addition, leaders' emotional intelligence, change management capabilities, and innovative approaches are considered essential factors in achieving successful project outcomes. Strong team management contributes to more efficient use of resources, minimization of risks, and timely achievement of project objectives. The findings of the study demonstrate that the application of adaptive leadership models, strengthening mutual trust within teams, and the effective use of digital communication tools are critical factors in enhancing project success. Modern management approaches also support organizations in adapting more effectively to changing business environments and gaining sustainable competitive advantages.

Keywords: *team management, leadership, project success, agile management, communication, motivation, transformational leadership, team performance, organizational development, digital management*

Azerbaijan University of Architecture and Construction, Master's student, Baku, Azerbaijan
E-mail: mr.togrul98@gmail.com
Received: 6 Yanvar 2026; Accepted: 23 Aprel 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Müasir rəqabət mühitində layihələrin uğurlu şəkildə idarə olunması təşkilatların davamlı inkişafı və bazarda mövqelərinin qorunması baxımından strateji əhəmiyyət daşıyır (Turner və Müller, 2005). Qlobal iqtisadi mühitdə artan rəqabət təşkilatları layihələrin effektiv planlaşdırılmasına, resursların düzgün idarə olunmasına və nəticəyönümlü idarəetmə yanaşmalarının tətbiqinə yönləndirir. Bu baxımdan layihə uğuruna təsir edən əsas amillərin araşdırılması idarəetmə elminin prioritet istiqamətlərindən biri hesab olunur. Tədqiqat çərçivəsində layihə uğurunun formalaşmasına təsir edən liderlik yanaşmaları, komanda işi və idarəetmə strategiyaları sistemli şəkildə təhlil edilir.

Liderlik nəzəriyyələri layihə idarəetməsində mühüm yer tutur və müxtəlif yanaşmalar layihə uğurunun effektiv rəhbərlik modeli ilə birbaşa əlaqəli olduğunu göstərir (Higgs və Dulewicz, 2003). Emosional intellekt, adaptiv liderlik, strateji idarəetmə və davranış əsaslı liderlik modelləri layihə komandalarının fəaliyyətinə əhəmiyyətli təsir göstərən əsas amillər kimi qiymətləndirilir. Aparılmış elmi araşdırmalar göstərir ki, layihə rəhbərinin idarəetmə bacarıqları, qərarvermə qabiliyyəti və kommunikasiya strategiyası layihənin nəticələrinə birbaşa təsir edir (Yang, 2011). Bununla yanaşı, komanda üzvləri arasında qarşılıqlı etimadın formalaşdırılması və əməkdaşlıq mühitinin gücləndirilməsi layihələrin uğurla tamamlanmasını sürətləndirən mühüm faktorlardan hesab olunur. Bir çox tədqiqatlarda layihə menecerinin liderlik xüsusiyyətlərinin layihənin ümumi performansına təsiri xüsusi vurğulanır (Turner və Müller, 2005). Müasir yanaşmalara əsasən layihə rəhbərliyi yalnız idarəetmə funksiyası deyil, həm də komandanın motivasiya olunması, dəyişikliklərə uyğunlaşması və innovativ düşüncə mühitinin formalaşdırılması prosesidir. Effektiv liderlik və güclü komanda işi layihə risklərinin azaldılmasına, resurslardan daha səmərəli istifadəyə və layihə məqsədlərinə vaxtında nail olunmasına imkan yaradır. Bu baxımdan layihə idarəetməsində liderlik və komanda idarəçiliyinin qarşılıqlı əlaqəsinin araşdırılması həm nəzəri, həm də praktik aspektdən mühüm aktuallıq kəsb edir.

Tədqiqat

Tədqiqatın əsas məqsədi layihə rəhbərliyinin və komanda əməkdaşlığının layihələrin ümumi uğur göstəricilərinə təsir səviyyəsini müəyyənləşdirməkdir (Brainin və b., 2000). Bu istiqamətdə araşdırma bir neçə mərhələ əsasında həyata keçirilmişdir. İlk mərhələdə layihə uğuru, liderlik yanaşmaları və komanda idarəçiliyi ilə bağlı elmi mənbələr təhlil olunmuş, daha sonra praktik məlumatların əldə edilməsi üçün sorğu və analitik qiymətləndirmə üsullarından istifadə edilmişdir. Toplanmış məlumatlar statistik metodlarla emal olunaraq nəticələr sistemli şəkildə müqayisə edilmişdir. Aparılan təhlillər göstərir ki, effektiv liderlik və düzgün qurulmuş komanda münasibətləri layihələrin uğurla tamamlanmasına birbaşa təsir göstərən əsas amillər sırasındadır.

Layihə idarəetməsi sahəsində formalaşmış elmi yanaşmalar layihə uğurunun yalnız texniki göstəricilərlə deyil, eyni zamanda idarəetmə keyfiyyəti ilə bağlı olduğunu göstərir (Pinto və Slevin, 1988; Sounder və Young, 1979). Müxtəlif tədqiqatçılar layihə nəticələrinin liderlik üslubu, komanda motivasiyası və təşkilati əməkdaşlıq səviyyəsindən ciddi şəkildə asılı olduğunu vurğulamışlar (Rubinstein və b., 1985). Bu baxımdan layihə rəhbərinin qərarvermə bacarıqları, strateji düşüncə qabiliyyəti və insan resurslarını düzgün istiqamətləndirməsi uğurlu idarəetmənin əsas komponentləri hesab olunur. Araşdırmalar həmçinin göstərir ki, hər bir layihənin özünəməxsus xüsusiyyətləri mövcuddur və buna görə də vahid idarəetmə modelinin bütün layihələr üçün eyni nəticə verməsi mümkün deyil (Shenhar və b., 1996; Shenhar və b., 1998).

Müasir yanaşmalarda layihə uğuru çoxölçülü anlayış kimi qiymətləndirilir. Bu anlayış yalnız layihənin vaxtında və müəyyən edilmiş büdcə çərçivəsində tamamlanması ilə məhdudlaşmır, həm də təşkilati məqsədlərə nail olunması, maraqlı tərəflərin məmnunluğu və uzunmüddətli strateji nəticələrin əldə olunması ilə əlaqələndirilir (De Wit, 1988). Bu səbəbdən layihə idarəetməsində liderlik və komanda idarəçiliyi təşkilati effektivliyin formalaşmasında mühüm rol oynayır.

Bundan əlavə, kommunikasiya, əməkdaşlıq və qarşılıqlı etimad layihə komandalarının fəaliyyətinə birbaşa təsir edən əsas faktorlar hesab edilir (Verma, 1996). Effektiv informasiya mübadiləsi və düzgün koordinasiya layihə risklərinin azaldılmasına, resurslardan daha səmərəli istifadəyə və problemlərin operativ həllinə imkan yaradır. Müasir layihə idarəetmə sistemlərində liderlik və komanda işi təşkilatların rəqabət üstünlüyü qazanmasına, innovasiya potensialının güclənməsinə və layihələrin daha dayanıqlı nəticələr verməsinə mühüm töhfə verir (Rockart, 1979; Dickel və b., 1982). Layihə idarəetməsi sahəsində komanda quruculuğu layihələrin uğurla həyata keçirilməsinə təsir göstərən əsas idarəetmə faktorlarından biri hesab olunur (Thamhain və Wilemon, 1983). Müasir idarəetmə yanaşmalarında komanda əməkdaşlığı yalnız iş bölgüsü deyil, həm də bilik paylaşımı, koordinasiya və qarşılıqlı etimada əsaslanan strateji proses kimi qiymətləndirilir. Xüsusilə mürəkkəb və çoxşaxəli layihələrdə komanda üzvləri arasında effektiv əməkdaşlığın qurulması layihələrin nəticələrinə birbaşa təsir göstərir. Bu səbəbdən layihə uğurunun təmin olunmasında komanda anlayışının mahiyyəti və onun idarəetmə mexanizmlərinin düzgün formalaşdırılması mühüm əhəmiyyət daşıyır.

Qlobal biznes mühitində beynəlxalq layihələrin və transmilli əməkdaşlıq modellərinin genişlənməsi komanda idarəetməsində yeni yanaşmaların tətbiqini zəruri etmişdir. Müxtəlif ixtisas sahələrindən olan əməkdaşların vahid məqsəd ətrafında birləşdirilməsi layihə rəhbərlərinin əsas idarəetmə funksiyalarından biri hesab edilir. Layihə lideri komanda üzvlərinin potensialını düzgün istiqamətləndirməli, onların fəaliyyətini əlaqələndirməli və təşkilati məqsədlərə uyğun koordinasiya sistemi yaratmalıdır. Bu yanaşma layihə komandalarının çevikliyini artırmaqla yanaşı, innovativ qərarvermə imkanlarını da gücləndirir.

Layihə yönümlü təşkilatlarda komanda strukturu layihənin mərhələlərinə uyğun şəkildə dəyişə bilir. Müxtəlif mərhələlərdə mühəndislər, texniki mütəxəssislər, hüquq məsləhətçiləri və digər peşə sahibləri layihə prosesinə cəlb olunur. Bəzi hallarda podratçı və subpodratçı təşkilatlar da layihənin müəyyən hissələrinin icrasında iştirak edir. Layihə tamamlandıqdan sonra komandaların yenidən formalaşdırılması isə komanda üzvlərinin uzunmüddətli bağlılığına və motivasiyasına müəyyən təsir göstərə bilir (Maylor, 1996).

Elmi araşdırmalar göstərir ki, layihə komandasının effektiv fəaliyyəti layihənin vaxtında, büdcə çərçivəsində və müəyyən edilmiş keyfiyyət standartlarına uyğun şəkildə tamamlanmasına mühüm təsir edir. Layihə məqsədlərinin əvvəlcədən dəqiq müəyyənləşdirilməsi, düzgün planlaşdırma və komanda üzvləri arasında koordinasiyanın təmin edilməsi layihə performansını yüksəldən əsas amillər sırasındadır. Əks halda vaxt itkisi, maliyyə riskləri və texniki problemlər layihənin ümumi nəticələrinə mənfi təsir göstərə bilər.

Effektiv komanda idarəetməsi ilə bağlı aparılan tədqiqatlarda əməkdaşlıq, kommunikasiya və təşkilati mühitin xüsusi rolu vurğulanır. Dumaine, Drucker, Peters, Boatman, Kanter və Thamhain kimi tədqiqatçılar komanda işinin yalnız texniki fəaliyyət deyil, eyni zamanda sosial və psixoloji münasibətlər sistemi olduğunu qeyd etmişlər. Bu baxımdan layihə komandalarında qarşılıqlı etimadın formalaşdırılması, açıq kommunikasiya və koordinasiyanın təmin olunması layihə uğurunun əsas strateji elementlərindən biri hesab edilir.

Liderlik anlayışı tarix boyu idarəetmə və sosial münasibətlər sisteminin əsas tədqiqat mövzularından biri olmuşdur. Müxtəlif dövrlərdə filosoflar və idarəetmə nəzəriyyəçiləri uğurlu liderin hansı xüsusiyyətlərə malik olduğunu müəyyənləşdirməyə çalışmışlar. Qərb fəlsəfəsində Platon, Hobbs və Locke kimi mütəfəkkirlər liderliyin idarəetmə və cəmiyyətlə əlaqəsini araşdırmışlar (Collinson, 1998). Şərq fəlsəfəsində isə Konfutsi liderliyin etik prinsiplər, sosial harmoniya və mənəvi dəyərlər əsasında qurulmasını ön plana çıxarmışdır (Collinson, Plan və Wilkinson, 2000). Konfutsi təlimində sevgi, düzgün davranış, hörmət və balans anlayışları liderliyin əsas dayaqları kimi təqdim olunmuşdur. Bu yanaşma uzun illər ərzində Şərq idarəetmə sistemlərinin formalaşmasına təsir göstərmişdir.
XX əsrdə liderlik nəzəriyyələri daha geniş şəkildə inkişaf etməyə başlamış və idarəetmə elminin mühüm istiqamətlərindən birinə çevrilmişdir. Bu dövrdə liderlik yalnız şəxsi keyfiyyətlər toplusu kimi deyil, həm də təşkilati davranış və idarəetmə proseslərinin vacib elementi kimi qiymətləndirilmişdir. Tədqiqatlar göstərmişdir ki, liderin qərarvermə bacarıqları, kommunikasiya üsulları və komanda ilə münasibətləri təşkilati fəaliyyətin nəticələrinə birbaşa təsir göstərir. Eyni zamanda təşkilati mədəniyyət və komanda davranışlarının liderlik üslubuna uyğunlaşdırılması idarəetmənin effektivliyini artıran əsas faktorlar sırasında yer alır.

Barnard (1938) liderliyin əsas funksiyalarını koordinasiya, istiqamətləndirmə və təşkilati qərarların idarə olunması ilə əlaqələndirmişdir. Onun yanaşmasına əsasən lider yalnız inzibati idarəedici deyil, həm də kollektiv daxilində sosial münasibətləri tənzimləyən və motivasiya yaradan əsas şəxs hesab olunur. Liderin etik davranışı, əməkdaşlarla qarşılıqlı etimada əsaslanan münasibət qurması və komandanı ümumi məqsədlərə yönləndirməsi təşkilati uğurun formalaşmasına mühüm təsir göstərir. Müasir liderlik nəzəriyyələri müxtəlif idarəetmə modelləri əsasında formalaşdırılmışdır. Handy (1982), Dulewicz və Higgs (2003), həmçinin Tritington (2003) liderlik yanaşmalarını xüsusiyyətlər nəzəriyyəsi, davranış modeli, situasiya yanaşması, vizioner liderlik və emosional intellekt kimi istiqamətlər üzrə təsnif etmişlər. Bu yanaşmalar göstərir ki, müasir lider yalnız idarəetmə funksiyasını yerinə yetirmir, eyni zamanda dəyişikliklərə uyğunlaşma, innovativ düşüncə və insan resurslarının effektiv idarə olunması kimi bacarıqlara da malik olmalıdır.

Cədvəl 1
Liderlik üslubları, layihə komandalarının növləri və layihənin həyat dövrü

Liderlik üslubu	**Mərhələ**	**Komanda növü**	**Komandanın xarakteri**
Liberal (Laissez-faire)	Texniki-iqtisadi əsaslandırma	Eqosuz komanda	Məsuliyyəti paylaşan ekspertlər
Demokratik	Layihələndirmə	Matris komanda	Müxtəlif ixtisas sahələrinin bir neçə tapşırıq üzrə birgə fəaliyyəti
Avtoritar	İcra mərhələsi	Tapşırıq yönümlü komanda	Ayrı-ayrı tapşırıqlar üzərində çalışan tək ixtisaslı əməkdaşlar
Bürokratik	Bağlanış mərhələsi	Cərrahi tipli komanda	Bir tapşırıq üzərində çalışan qarışıq ixtisaslı qrup

Nəticə

Tədqiqatın nəticələri göstərir ki, layihə idarəetməsində liderlik və komanda işi layihələrin effektiv həyata keçirilməsini müəyyən edən əsas faktorlar sırasında yer alır. Müasir biznes və idarəetmə mühitində layihələrin daha mürəkkəb xarakter alması rəhbərlik bacarıqlarının, çevik idarəetmə yanaşmalarının və komanda koordinasiyasının əhəmiyyətini artırmışdır. Layihə rəhbərinin strateji düşüncə qabiliyyəti, düzgün qərarvermə mexanizmi və əməkdaşları ümumi məqsədlər ətrafında birləşdirməsi layihələrin nəticələrinə birbaşa təsir göstərən vacib elementlərdən hesab olunur.

Araşdırma çərçivəsində müəyyən edilmişdir ki, komanda daxilində sağlam kommunikasiya mühitinin formalaşdırılması, qarşılıqlı etimadın gücləndirilməsi və vəzifə bölgüsünün düzgün təşkili layihələrin daha səmərəli idarə olunmasına imkan yaradır. Xüsusilə çevik idarəetmə metodlarının tətbiqi layihə komandalarının dəyişən şərtlərə daha tez uyğunlaşmasını və yaranan problemlərin operativ şəkildə həll edilməsini təmin edir. Eyni zamanda emosional intellektə və motivasiya bacarıqlarına malik liderlərin komanda performansına müsbət təsir göstərdiyi müşahidə olunur.

Tədqiqat nəticələri onu da göstərir ki, layihə uğuru yalnız texniki və maliyyə göstəriciləri ilə qiymətləndirilməməlidir. Müasir yanaşmalarda layihənin uğurlu hesab olunması maraqlı tərəflərin məmnunluğu, təşkilati məqsədlərin reallaşdırılması, innovativ imkanların genişləndirilməsi və davamlı inkişaf prinsiplərinin təmin olunması ilə də əlaqələndirilir. Bu səbəbdən liderlik və komanda idarəçiliyi təşkilatların strateji inkişafında mühüm rol oynayan idarəetmə mexanizmlərindən biri kimi çıxış edir.

Ümumilikdə, effektiv liderlik yanaşmalarının tətbiqi, rəqəmsal kommunikasiya vasitələrinin düzgün istifadəsi və komanda əməkdaşlığının inkişaf etdirilməsi layihələrin uğur səviyyəsinin yüksəldilməsinə əhəmiyyətli təsir göstərir. Müasir təşkilatlar üçün güclü komanda idarəçiliyi və peşəkar liderlik yalnız layihələrin icrası baxımından deyil, həm də rəqabət üstünlüyünün qorunması və uzunmüddətli inkişaf strategiyalarının formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Ədəbiyyat

1. Barnard, C. I. (1938). *The functions of the executive*. Harvard University Press.
2. Brainin, E., et al. (2000). Leadership and teamwork in project success. *International Journal of Project Management*.
3. Collinson, D. (1998). *Fifty major thinkers on organizations*. Routledge.
4. Collinson, D., Plan, J., & Wilkinson, A. (2000). *Understanding leadership*. Sage Publications.

5. De Wit, A. (1988). Measurement of project success. *International Journal of Project Management, 6*(3), 164–170.
6. Dickel, K. E., Rowe, A. J., & Mason, R. O. (1982). Management of project success factors. *Project Management Quarterly, 13*(2), 49–54.
7. Drucker, P. F. (1954). *The practice of management*. Harper & Row.
8. Dulewicz, V., & Higgs, M. (2003). *Leadership dimensions questionnaire*. NFER-Nelson Publishing.
9. Dumaine, B. (1990). How managers can succeed through teamwork. *Fortune*.
10. Handy, C. (1982). *Understanding organizations*. Penguin Books.
11. Higgs, M., & Dulewicz, V. (2003). Leadership at the top: The need for emotional intelligence in organizations. *International Journal of Organizational Behaviour, 5*(3), 193–210.
12. Kanter, R. M. (1983). *The change masters*. Simon & Schuster.
13. Maylor, H. (1996). *Project management*. Pitman Publishing.
14. Peters, T. J., & Waterman, R. H. (1982). *In search of excellence*. Harper & Row.
15. Pinto, J. K., & Slevin, D. P. (1988). Critical success factors across the project life cycle. *Project Management Journal, 19*(3), 67–75.
16. Rockart, J. F. (1979). Chief executives define their own data needs. *Harvard Business Review, 57*(2), 81–93.
17. Rubinstein, A. H., Chakrabarti, A. K., O'Keefe, R. D., Might, R. J., & Fischer, W. A. (1985). Factors influencing innovation success at the project level. *Research Management, 28*(3), 15–20.
18. Shenhar, A. J., & Dvir, D. (1998). Project success: A multidimensional strategic concept. *Long Range Planning, 31*(6), 913–919.
19. Shenhar, A. J., Tishler, A., Lipovetsky, S., & Dvir, D. (1996). Refining the search for project success factors: A multivariate, typological approach. *R&D Management, 27*(2), 111–126.
20. Souder, W. E., & Young, R. K. (1979). Project management effectiveness and project success. *IEEE Transactions on Engineering Management, EM-26*(2), 65–72.
21. Thamhain, H. J., & Wilemon, D. L. (1983). Team building in project management. *Project Management Journal, 14*(1), 73–81.
22. Tritington, D. (2003). *Leadership theories and practice*. Oxford University Press.
23. Turner, J. R., & Müller, R. (2005). The project manager's leadership style as a success factor on projects: A literature review. *Project Management Journal, 36*(1), 49–61.
24. Verma, V. K. (1996). *Human resource skills for the project manager*. Project Management Institute.
25. Yang, L. R. (2011). Project leadership and team performance: The role of team communication and trust. *International Journal of Project Management, 29*(7), 889–899.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 251–258
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 251–258
DOI: https://doi.org/10.36719/2706-6185/60/251-258

İqtisadi təhlükəsizliyin təmin edilməsində institusional mexanizmlərin rolu və təkmilləşdirilməsi istiqamətləri: Azərbaycan təcrübəsi

Fizuli Kərimov

Xülasə. *Milli iqtisadiyyatın dayanıqlığı yalnız iqtisadi artımın göstəriciləri ilə deyil, həm də makroiqtisadi sabitlik və sosial rifahı qoruyan institusional mexanizmlərlə ölçülür. İqtisadi təhlükəsizlik konsepti daxili və xarici təhdidlərə qarşı iqtisadi sistemin davamlılığını, milli maraqlara uyğun iqtisadi inkişafın təmin olunmasını və milli istehsal potensialının qorunmasını əhatə edir. Azərbaycan müstəqillik dövründə iqtisadi təhlükəsizlik siyasətini formalaşdırarkən enerji resurslarına əsaslanan iqtisadiyyatın risklərini dərk etmiş, buna görə də uzunmüddətli inkişafı üçün qeyri-neft sektorunun genişlənməsinə, fiskal və monetar siyasətin koordinasiyasına, strateji ehtiyatların yaradılmasına və xarici ticarət əlaqələrinin diversifikasiyasına yönəlib. Müasir qlobal qeyri-sabitlik şəraitində rəqəmsal transformasiya, innovasiya potensialının artırılması, kibertəhlükəsizliyin təmin edilməsi və beynəlxalq iqtisadi inteqrasiyanın gücləndirilməsi kimi yeni çağırışlar ön plana çıxır. Məqalə iqtisadi təhlükəsizliyin nəzəri əsaslarını və Azərbaycan təcrübəsində institusional mexanizmlərin tərkibini araşdırır, mövcud mexanizmlərin səmərəliliyini dəyərləndirir və təkmilləşdirmə istiqamətlərinə dair təkliflər irəli sürür. Təhlillər göstərir ki, iqtisadi təhlükəsizlik sisteminin inkişafı sosial rifahın yüksəldilməsi, makroiqtisadi sabitliyin qorunması, innovasiya və rəqəmsal iqtisadiyyatın dəstəklənməsi, regional bərabərsizliyin azaldılması və hüquqi-institusional strukturun gücləndirilməsi ilə sıx bağlıdır.*

Açar sözlər: *iqtisadi təhlükəsizlik, institusional mexanizmlər, dayanıqlı inkişaf, rəqəmsal transformasiya, fiskal siyasət, innovasiya, xarici ticarət*

Bakı Dövlət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: kerimov99fizuli@gmail.com
Daxil oldu: 20 Yanvar 2026; Qəbul edildi: 19 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Qədim Diyar 8(5), 2026
Ancient Land 8(5), 2026

The Role of Institutional Mechanisms in Ensuring Economic Security and Directions for Their Improvement: The Case of Azerbaijan

Fizuli Kerimov

Abstract. *The resilience of a national economy is measured not only by growth rates but also by institutional mechanisms that safeguard macroeconomic stability and social welfare. The concept of economic security encompasses the ability of the economic system to withstand internal and external threats, to maintain development in line with national interests and to protect domestic productive capacity. Since gaining independence Azerbaijan has recognised the risks of an energy-dependent economy and has therefore oriented its long-term policy toward expanding non-oil sectors, coordinating fiscal and monetary policy, building strategic reserves and diversifying foreign trade. Under conditions of global volatility new challenges such as digital transformation, boosting innovation, ensuring cybersecurity and deepening international economic integration have become central. This paper examines the theoretical foundations of economic security and analyses the composition of institutional mechanisms in Azerbaijan's practice, evaluates their efficiency and proposes directions for improvement. The analysis shows that the development of the economic security system is closely linked to raising social welfare, safeguarding macroeconomic stability, supporting innovation and the digital economy, reducing regional disparities and strengthening the legal and institutional framework.*

Keywords: *economic security, institutional mechanisms, sustainable development, digital transformation, fiscal policy, innovation, foreign trade*

Baku State University, Master's student, Baku, Azerbaijan
E-mail: kerimov99fizuli@gmail.com
Received: 20 Yanvar 2026; Accepted: 19 Aprel 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Azərbaycanın milli inkişaf modelində iqtisadi təhlükəsizlik anlayışı siyasi, sosial və iqtisadi proseslərin mərkəzində dayanır. İqtisadi təhlükəsizlik dövlətin iqtisadi sisteminin sabitliyini, daxili və xarici təhdidlərə qarşı davamlılığını və milli maraqlara uyğun inkişafın təmin olunmasını ehtiva edən kompleks anlayışdır. Bu kateqoriya təkcə iqtisadi artım göstəricilərinin qorunması deyil, eyni zamanda makroiqtisadi balansın saxlanılması, əhalinin sosial rifahı və istehsal resurslarının qorunması ilə bağlıdır. Qloballaşma proseslərinin sürətləndiyi, iqtisadiyyatların bir-birinə daha çox bağlı olduğu müasir dövrdə iqtisadi təhlükəsizlik milli təhlükəsizlik sisteminin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Dünyada geopolitik gərginliklərin, maliyyə bazarlarında dalğalanmaların, enerji və ərzaq qiymətlərində kəskin dəyişikliklərin artması ölkələrin iqtisadi dayanıqlığını sınağa çəkir və iqtisadi siyasətin çevik, çevrildikdə dayanıqlı olmasını tələb edir.

Azərbaycan üçün iqtisadi təhlükəsizlik həm enerji ehtiyatlarının həddindən artıq dominantasının yaratdığı riskləri idarə etmək, həm də qeyri-neft sektorunun inkişafı ilə iqtisadiyyatı şaxələndirmək zərurəti kimi təzahür edir. Müstəqilliyin ilk illərində iqtisadi sistemdə baş verən turbulentlik, inflyasiya və məzənnə dalğalanmaları, habelə regionda gedən münaqişələr milli təhlükəsizliyin iqtisadi aspektlərinə xüsusi diqqət yetirilməsini gündəmə gətirdi. Sonrakı dövrlərdə həyata keçirilən

neft strategiyası ölkəyə mühüm maliyyə ehtiyatları toplamağa imkan verdi. Bununla belə, dünya enerji bazarlarındakı qeyri-sabitlik və yaşıl keçid kimi qlobal tendensiyalar iqtisadi təhlükəsizlik strategiyasının yenilənməsini şərtləndirir. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədi uzunmüddətli dövrdə qeyri-neft sektorunun inkişafı, rəqəmsal iqtisadiyyatın genişlənməsi, innovasiya və insan kapitalının gücləndirilməsini prioritet kimi müəyyən etmişdir (World Bank, 2023).

Tədqiqat

İqtisadi təhlükəsizliyin təmin edilməsində institusional mexanizmlərin rolu həlledicidir. Bu mexanizmlər hüquqi çərçivə, iqtisadi siyasət və idarəetmə strukturları kimi müxtəlif komponentlərdən ibarətdir. Dövlətin tənzimləmə funksiyası, müstəqil monetar siyasət, fiskal sabitlik, strateji ehtiyatların formalaşdırılması, sosial müdafiə sistemi, innovasiya və rəqəmsal transformasiya siyasətləri iqtisadi təhlükəsizlik üçün əsas sütunlardır. Qloballaşmanın dərinləşməsi, rəqəmsal iqtisadiyyatın sürətli inkişafı, iqlim dəyişiklikləri və sosial bərabərsizlik kimi çağırışlar institusional mexanizmlərin daima təkmilləşdirilməsini tələb edir. İqtisadi təhlükəsizlik yalnız iqtisadiyyatın öz göstəriciləri ilə deyil, həm də milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasının səviyyəsi, xarici ticarət əlaqələrinin balansı və regional əməkdaşlıqla ölçülür (United Nations Development Programme, 2021). Bu girişdən sonra məqalədə əvvəlcə iqtisadi təhlükəsizliyin konseptual əsasları nəzərdən keçiriləcək, sonra Azərbaycan təcrübəsində institusional mexanizmlərin rolu təhlil ediləcək və sonda bu mexanizmlərin təkmilləşdirilməsi üzrə istiqamətlərə dair təkliflər təqdim ediləcək.

İqtisadi təhlükəsizlik və konseptual əsaslar

İqtisadi təhlükəsizlik geniş məzmunlu anlayış olmaqla dövlətin iqtisadi sisteminin sabit və dayanıqlı fəaliyyət göstərməsini, sosial rifahı təmin etməsini və milli maraqlara uyğun inkişaf kursunu qorumasını tələb edir. Bu konseptual çərçivədə təhlükəsizlik daxili və xarici təhdidlərə qarşı adaptiv mexanizmləri, mənbələrin mühafizəsini və iqtisadi potensialın səmərəli istifadəsini ehtiva edir. Müasir tədqiqatlar iqtisadi təhlükəsizliyi yalnız iqtisadi göstəricilərin sabitliyi kimi deyil, həm də siyasi, sosial və ekoloji amillərin qarşılıqlı təsirinin nəticəsi kimi qiymətləndirir. Davamlı inkişaf, rəqabətqabiliyyətlilik, resursların səmərəli idarə olunması və beynəlxalq inteqrasiya bu anlayışın əsas elementləridir (İbrahimov, 2021).

Nəzəri tədqiqatlar göstərir ki, iqtisadi təhlükəsizlik dinamik xarakter daşıyır. Burada statik tərəf makroiqtisadi sabitliyin, istehsal və maliyyə resurslarının qorunmasının və sosial təminatın davamlılığının saxlanılmasına yönəlir, dinamik tərəf isə iqtisadi sistemin qlobal dəyişikliklərə, texnoloji yeniliklərə və qeyri-ənənəvi təhdidlərə uyğunlaşmaq qabiliyyətini əhatə edir [8]. Bu yanaşma iqtisadi təhlükəsizliyi yalnız mövcud vəziyyətin qorunması kimi deyil, həm də gələcək dəyişikliklərə hazır olmaq kimi qiymətləndirir. Pandemiya, enerji qiymətlərinin dəyişməsi və logistik böhranlar kimi hadisələr son illərdə bu dinamik elementin əhəmiyyətini artırmışdır (Macrotrends, 2026).

İqtisadi təhlükəsizliyin tərkib hissələri arasında makroiqtisadi sabitlik, maliyyə sabitliyi, ərzaq və enerji təhlükəsizliyi, sosial rifah, informasiya və texnoloji müstəqillik kimi istiqamətlər önə çıxır. Bu komponentlərin hər biri spesifik siyasət alətləri və göstəricilər ilə qiymətləndirilir. Məsələn, inflyasiya dərəcəsinin kontrol altında saxlanması, büdcə kəsirinin optimallaşdırılması və valyuta ehtiyatlarının idarə edilməsi makroiqtisadi sabitliyin təminatıdır. Sosial rifahın qorunması əhalinin minimum yaşayış standartlarının təmin edilməsi, işlək əmək bazarı və səmərəli sosial müdafiə mexanizmlərinin tətbiqi ilə həyata keçirilir (Vəliyeva, 2026).

Tədqiqatlarda iqtisadi təhlükəsizliyin subyektiv və obyektiv ölçüləri fərqləndirilir. Subyektiv ölçülər dövlətin strategiyaları və siyasətlərindən, ictimaiyyətin iqtisadi təhlükəsizlik hissindən asılıdır. Obyektiv ölçülər isə konkret makroiqtisadi göstəricilərə (ÜDM artımı, inflyasiya, xarici borc yükü, işsizlik və s.) əsaslanır. Bu göstəricilərin müəyyən həddlər daxilində qalması iqtisadi təhlükəsizliyin minimal səviyyəsini təmin edir. Həddlərin aşılması isə milli maraqlara zidd proseslərin başlandığını və müdaxilə ehtiyacını göstərir (Qurbanova, 2024).

Qloballaşma və iqtisadi inteqrasiya milli iqtisadiyyatların xarici amillərə həssaslığını artırır. Bu baxımdan iqtisadi təhlükəsizlik yalnız daxili faktorların idarə olunmasına deyil, həm də xarici təhdid və imkanların analizinə əsaslanır. Azərbaycanın iqtisadi maraqları regional və qlobal enerji bazarları, tranzit kommunikasiya şəbəkələri və xarici ticarət tərəfdaşları ilə sıx bağlıdır. Məhz bu səbəbdən iqtisadi təhlükəsizliyin təmin edilməsində milli maraqlara əsaslanan xarici siyasət, regional əməkdaşlıq və beynəlxalq razılaşmaların düzgün balansı xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycanın iqtisadi təhlükəsizlik konsepsiyasında insan kapitalı və innovasiya potensialı xüsusi yer tutur. İqtisadi təhlükəsizlik həm də təhsil, sağlamlıq və elmi tədqiqatların inkişafı ilə bağlıdır; çünki yüksək ixtisaslı kadrlar və innovativ texnologiyalar milli iqtisadiyyatın rəqabətqabiliyyətini artırır və yeni təhdidlərə qarşı çevik cavab verir. Rəqəmsal transformasiya və dördüncü sənaye inqilabının sürətlənməsi bu istiqamətin vacibliyini daha da artırır (Qasımlı və b., 2023).

Azərbaycanın iqtisadi təhlükəsizlik sisteminin institusional mexanizmləri

Milli iqtisadi təhlükəsizliyin təmin olunması dövlətin iqtisadi siyasətinin müxtəlif istiqamətlərini bir araya gətirən kompleks institusional strukturu tələb edir. Azərbaycan iqtisadiyyatında bu struktura hökumət orqanları, tənzimləyici qurumlar, maliyyə institutları, strateji ehtiyatlar və regional idarəetmə mexanizmləri daxildir. Hər bir mexanizm öz vəzifələri ilə iqtisadi təhlükəsizliyin müəyyən komponentlərini qoruyur.

Fiskal və monetar siyasət. İqtisadi təhlükəsizlik sisteminin əsas dayağı fiskal və monetar siyasətin koordinasiyasıdır. Dövlət büdcəsinin dayanıqlığı, vergi bazasının genişləndirilməsi və sərmayə xərclərinin optimallaşdırılması iqtisadi sabitliyin qorunmasına yönəlir. Monetar siyasət isə qiymət sabitliyi və maliyyə sektorunun dayanıqlığı üçün mühüm alətdir. Son illər Azərbaycan Mərkəzi Bankının siyasəti inflyasiyanı tənzimləmək və manatın məzənnə sabitliyini qorumaq məqsədi daşıyır. Qlobal maliyyə bazarlarında dalğalanmaların artması fonda məzənnə ehtiyatlarının artırılması, valyuta likvidliyinin yüksək saxlanması və faiz dərəcələrinin çevik idarə olunması mühüm məsələdir (Vəliyeva, 2026).

Strateji ehtiyatların formalaşdırılması. Enerji gəlirlərinin böyük hissəsi Dövlət Neft Fonduna yönəldilir və bu fondun aktivləri gələcək nəsillər üçün strateji ehtiyat rolunu oynayır. Paralel olaraq qızıl-valyuta ehtiyatları makroiqtisadi şoklara qarşı "təhlükəsizlik yastığı" funksiyasını yerinə yetirir. Dünya bazarlarında neft qiymətlərinin dəyişkənliyi Azərbaycan iqtisadiyyatını həssas edir və bu səbəbdən ehtiyatların diversifikasiya olunması və qeyri-neft gəlirlərinin artırılması prioritetdir. Strateji ehtiyatların idarə edilməsində şəffaflıq və hesabatlılıq iqtisadi təhlükəsizliyin əsas şərtidir (Qurbanova, 2024).

Qeyri-neft sektorunun diversifikasiyası və regional inkişaf. İqtisadi təhlükəsizlik sisteminin uğuru üçün mənbələrin şaxələndirilməsi zəruridir. Aqrar sektorun, turizmin, nəqliyyat-logistika xidmətlərinin və yüksək texnologiya sahələrinin inkişafı üçün dövlət proqramları icra edilir. Regionlarda yaradılan sənaye parkları, aqroparklar və logistika mərkəzləri yerli istehsal və məşğulluğu artırır və iqtisadiyyatın bütövlükdə dayanıqlığını gücləndirir. Regionlararası bərabərsizlik azaldıqca sosial sabitlik də möhkəmlənir (Ölkənin iqtisadi təhlükəsizlik konsepsiyası, 2026).

Xarici ticarət və gömrük siyasəti. Azərbaycan dünya bazarlarına inteqrasiya olunarkən xarici ticarət əlaqələrində risklərin minimallaşdırılması və ixracın diversifikasiyası ön plana çıxır. Xarici ticarət əlaqələrinin səmərəliliyinin artırılması üçün gömrük-tarif tənzimlənməsi, anti-dumpinq tədbirləri və sərhəd prosedurlarının sadələşdirilməsi həyata keçirilir. Tədqiqatlar göstərir ki, xarici ticarətin təşkilinə dair klassik və müasir nəzəriyyələrin yaradıcısı olan müəlliflər xarici ticarətin iqtisadi təhlükəsizlik baxımından həlledici rolunu vurğulayırlar (Talibova, 2023). Xarici ticarət əlaqələrinin genişləndirilməsi beynəlxalq əmək bölgüsünün dərinləşməsinə, məhsuldarlığın artmasına və milli iqtisadiyyatın innovativ inkişafına imkan yaradır.

İnvestisiya və innovasiya siyasəti. İqtisadi təhlükəsizliyin möhkəmləndirilməsi üçün investisiya iqliminin yaxşılaşdırılması, mülkiyyət hüquqlarının qorunması və rəqəmsal innovasiyaların stimullaşdırılması əhəmiyyətlidir. Dövlət innovasiya mərkəzlərinin və startap ekosisteminin inkişafını dəstəkləyir, elmi-tədqiqat və təhsil müəssisələri ilə əməkdaşlığı gücləndirir. Rəqəmsal iqtisadiyyat dərsliyi rəqəmsal meqatrendlərin, rəqəmsal təhlükəsizliyin və elektron ticarətin milli iqtisadi inkişafa təsirlərini geniş təhlil edir (Qasımlı və b., 2023). Bu yanaşma ölkənin informasiya-kommunikasiya infrastrukturu, kibertəhlükəsizlik standartları və data analitikası üzrə institusional mexanizmlərinin gücləndirilməsinə xidmət edir.

Sosial müdafiə və insan kapitalının inkişafı. İqtisadi təhlükəsizlik dayanıqlı sosial rifah olmadan mümkün deyil. Əhalinin gəlir bölüşdürülməsi, məşğulluq imkanları, təhsil və səhiyyə xidmətlərinə əlçatanlıq sosial sabitlik üçün vacibdir. Dövlət minimum əməkhaqqının tənzimlənməsi, əmək bazarına daxil olma imkanlarının genişləndirilməsi və sosial sığorta sisteminin gücləndirilməsi kimi mexanizmlərlə sosial riskləri azaldır. İnsan kapitalına yatırımlar iqtisadi sistemin innovativ potensialını artırır və modern texnologiyalara uyğunlaşmasını asanlaşdırır (İbrahimov, 2021).

Rəqəmsal transformasiya və kibertəhlükəsizlik. Müasir iqtisadi təhlükəsizlik rəqəmsal platformaların və data mühitinin təhlükəsizliyinə də bağlıdır. Elektron hökumət və rəqəmsal xidmətlərin genişləndirilməsi idarəetmənin effektivliyini artırsa da, eyni zamanda kibertəhlükələrə məruz qalma riskini yüksəldir. Rəqəmsal iqtisadiyyat kitabında rəqəmsal təhlükəsizliyin və kibertəhlükəsizlik infrastrukturunun gücləndirilməsinin vacibliyi vurğulanır (Qasımlı və b., 2023). Bu kontekstdə dövlətin kibertəhlükəsizlik strategiyası, rəqəmsal savadlılığın artırılması və fərdi məlumatların qorunması iqtisadi təhlükəsizlik mexanizmlərinin ayrılmaz hissəsidir.

İqtisadi təhlükəsizliyin təkmilləşdirilməsi istiqamətləri

Azərbaycan iqtisadi təhlükəsizlik sisteminin davamlılığı üçün institusional mexanizmlərin təkmilləşdirilməsinə dair bir sıra istiqamətlər müəyyənləşdirilə bilər. Birinci istiqamət iqtisadi diversifikasiyanın dərinləşdirilməsidir. Qeyri-neft sektorunun inkişafı üzrə dövlət proqramları daha məqsədyönlü şəkildə icra olunmalı, kənd təsərrüfatı, turizm, nəqliyyat-logistika və yaradıcı sənaye kimi sahələrdə əlavə stimul paketləri hazırlanmalıdır. Regionların iqtisadi potensialının reallaşdırılması məqsədilə infrastruktur, logistika və insan kapitalına yönəlik sərmayələr artırılmalıdır. Bu yolla iqtisadi fəaliyyətin ərazi üzrə balanslı paylanması, sosial rifahın yüksəldilməsi və məşğulluğun artırılması təmin edilə bilər (Vəliyeva, 2026).

İkinci istiqamət fiskal və monetar siyasətin qabaqlayıcı və riskyönümlü xarakter almasıdır. Büdcə gəlirlərinin qeyri-neft mənbələri hesabına genişləndirilməsi, kölgə iqtisadiyyatının azaldılması və vergi inzibatçılığının təkmilləşdirilməsi dövlətin maliyyə dayanıqlığını gücləndirir. Mərkəzi Bank inflyasiya hədəflənməsi sistemini daha da inkişaf etdirməli, faiz dərəcələrinin bazar siqnallarına əsasən çevik tənzimlənməsini təmin etməlidir. Valyuta ehtiyatlarının diversifikasiyası və istiqraz bazarının genişləndirilməsi xarici şokların təsirini azaldar (Macrotrends, 2026).

Üçüncü istiqamət investisiya mühitinin yaxşılaşdırılması və innovasiyanın təşviqidir. Əlverişli biznes mühiti, mülkiyyət hüquqlarının qorunması və güvənli məhkəmə sistemi yerli və xarici sərmayədarların marağını artırır. Startapların maliyyələşdirilməsi üçün risk kapitalı fondları və biznes inkubatorları yaradılmalıdır. Elm, təhsil və biznes arasında əlaqələrin gücləndirilməsi, universitet və elmi mərkəzlərin innovativ layihələrə cəlb edilməsi innovasiya ekosisteminin inkişafına təkan verər. Rəqəmsal transformasiya prosesini sürətləndirmək üçün dövlət və özəl sektor arasında strateji tərəfdaşlıqlar qurulmalıdır (Qasımlı və b., 2023).

Dördüncü istiqamət xarici ticarət və beynəlxalq iqtisadi inteqrasiyanın gücləndirilməsi ilə bağlıdır. Azərbaycan öz tranzit potensialını artırmaq üçün beynəlxalq nəqliyyat dəhlizlərinə və logistika layihələrinə aktiv şəkildə qoşulmalıdır. Gömrük prosedurlarının rəqəmsallaşdırılması, sərhəd keçidlərinin sürətləndirilməsi və ixracatçılar üçün stimulların artırılması xarici ticarətin səmərəliliyini yüksəldir. Xarici ticarət əlaqələrinin risklərini diversifikasiyalı bazar strukturu və yeni ixrac məhsullarının yaradılması vasitəsilə azaltmaq mümkündür. Klassik və müasir xarici ticarət nəzəriyyələrinin təhlili göstərir ki, beynəlxalq əmək bölgüsündən düzgün istifadə edən ölkələr iqtisadi təhlükəsizliklərini daha yaxşı qoruyurlar (Talibova, 2023).

Beşinci istiqamət rəqəmsal təhlükəsizlik və kibermüdafiənin gücləndirilməsidir. Dövlət orqanlarının və biznes strukturlarının rəqəmsal təhlükəsizlik standartlarına uyğunluğunun artırılması, milli CERT-in fəaliyyətinin gücləndirilməsi və kibertəhlükəsizlik üzrə milli strategiyanın icrası vacibdir. İnformasiya sistemlərinin dayanıqlığı və şəxsi məlumatların qorunması vətəndaşların güvənini artırır və rəqəmsal iqtisadiyyatın genişlənməsinə töhfə verir. Rəqəmsal iqtisadiyyat dərsliyində göstərildiyi kimi, kibertəhlükəsizlik infrastrukturu rəqəmsal transformasiyanın ayrılmaz tərkib hissəsidir (Qasımlı və b., 2023).

Altıncı istiqamət hüquqi və institusional islahatların davam etdirilməsidir. İqtisadi təhlükəsizliyin təminində hüquqi çərçivə vacibdir; iqtisadi münasibətləri tənzimləyən qanunvericiliyin modernləşdirilməsi, şəffaflıq və hesabatlılıq mexanizmlərinin təkmilləşdirilməsi korrupsiyanın qarşısını alır və investisiya mühitini yaxşılaşdırır. Dövlət orqanlarının səlahiyyət bölgüsü, hesabatlılıq və nəzarət mexanizmlərinin optimallaşdırılması institusional sistemin çevikliyini artırır.

Nəhayət, sosial müdafiə siyasətinin gücləndirilməsi və insan kapitalına yatırımlar davam etdirilməlidir. Əhalinin gəlir bərabərsizliyinin azaldılması, tibbi və təhsil xidmətlərinin keyfiyyətinin artırılması sosial sabitliyi təmin edir və insan resurslarının effektivliyini yüksəldir. Gənclərin rəqəmsal bacarıqlarının inkişaf etdirilməsi və peşə təhsili proqramlarının genişləndirilməsi yeni iqtisadi çağırışlara uyğun kadr potensialı yaradır (İbrahimov, 2021). Bu tədbirlər iqtisadi təhlükəsizliyin uzunmüddətli əsasını təşkil edir.

Cədvəl 1
Azerbaycanda ÜDM artımı və inflyasiya göstəriciləri (2020–2025)

İl	ÜDM artımı (%)	İnflyasiya (%)
2020	–4.30	2.76
2021	5.62	6.65
2022	4.71	13.85
2023	1.12	8.79
2024	4.07	2.21
2025	4.30	5.60

Mənbə: Araşdırma nəticəsində müəllif tərəfindən tərtib edilmişdir.

Bu cədvəl göstərir ki, 2020-ci ildə pandemiya və beynəlxalq şoklar səbəbilə iqtisadiyyat kəskin daralmış, inflyasiya isə aşağı səviyyədə qalmışdır. 2021–2022-ci illərdə ÜDM artımının sürətlənməsi müşahidə olunsa da, inflyasiyanın yüksəlməsi əhalinin alıcılıq qabiliyyətinə təzyiq göstərmişdir. 2023-cü ildə artım tempi xeyli yavaşlamış, 2024-cü ildə isə yenidən orta səviyyədə bərpa olunmuşdur. 2025-ci ildə iqtisadi artımın 4 faizdən yuxarı səviyyədə qalması iqtisadi aktivliyin sabitləşdiyini göstərir. Eyni zamanda inflyasiyanın yenidən müəyyən qədər artaraq 5.6 faizə çatması daxili tələbin canlanması və qiymət tənzimlənməsi ilə bağlı amillərlə izah oluna bilər. Bu dinamika göstərir ki, makroiqtisadi sabitlik qorunsa da, qiymət sabitliyinin saxlanılması üçün monetar siyasətin davamlı şəkildə optimallaşdırılması vacib olaraq qalır (International Monetary Fund, 2022).

Cədvəl 2
İqtisadi təhlükəsizliyin təminatında institusional mexanizmlər

Mexanizm	**Təsviri və funksiyası**
Fiskal və monetar siyasət	Büdcə gəlirlərinin diversifikasiyası, vergi siyasətinin təkmilləşdirilməsi, inflyasiyanın tənzimlənməsi və faiz dərəcələrinin çevik idarə olunması.
Strateji ehtiyatlar	Dövlət Neft Fondu və qızıl-valyuta ehtiyatları kimi vəsaitlər vasitəsilə iqtisadi şoklara qarşı "təhlükəsizlik yastığı" yaratmaq, gələcək nəsillər üçün resurs toplamaq.
Qeyri-neft sektorunun diversifikasiyası	Aqrar sektor, turizm, nəqliyyat-logistika, yüksək texnologiyalar və yaradıcılıq sənayelərinin inkişafı üçün dövlət proqramları və regional layihələr.
Xarici ticarət və gömrük siyasəti	Gömrük tarifləri, qeyri-tarif tənzimlənməsi, sərhəd prosedurlarının sadələşdirilməsi, ixracın və idxalın diversifikasiyası.
İnvestisiya və innovasiya siyasəti	Yerli və xarici sərmayədarların cəlb olunması, startap ekosisteminin dəstəklənməsi, intellektual mülkiyyət hüquqlarının qorunması və rəqəmsal innovasiyaların təşviqi.
Sosial müdafiə	Əhalinin gəlir bərabərsizliyinin azaldılması, məşğulluğun artırılması, minimum əməkhaqqının tənzimlənməsi, sosial sığorta sisteminin gücləndirilməsi və insan kapitalına sərmayələr.
Rəqəmsal transformasiya və kibertəhlükəsizlik	Elektron hökumət və rəqəmsal xidmətlərin inkişafı, kibertəhlükəsizlik standartlarının tətbiqi, məlumatların mühafizəsi və rəqəmsal savadlılıq proqramları.
Hüquqi və institusional islahatlar	Qanunvericiliyin müasirləşdirilməsi, şəffaflığın artırılması, korrupsiyaya qarşı mübarizə, dövlət idarəetməsində hesabatlılıq və vətəndaş iştirakının genişləndirilməsi.

Bu mexanizmlər bir-biri ilə qarşılıqlı əlaqədə işləyərək milli iqtisadi təhlükəsizlik sistemini formalaşdırır. Onların hər birinin səmərəli fəaliyyəti üçün koordinasiya, şəffaflıq və mütərəqqi islahatlar vacibdir.

Qrafik 1.
ÜDM artımı və inflyasiya göstəricilərinin dinamikası (2020–2024)



Mənbə: Dünya Bankının statistik məlumatları və Macrotrends məlumat bazası əsasında müəllif tərəfindən hazırlanmışdır.

Qrafik 1: 2020–2024-cü illər üzrə ÜDM artımı və inflyasiya dərəcələrinin dəyişməsi təsvir edilmişdir. Mavi xətt iqtisadi artımın, qırmızı xətt isə inflyasiyanın illər üzrə dinamikasını göstərir. 2020-ci ildə pandemiyanın təsiri ilə ÜDM artımı mənfi olmuş, 2021–2022-ci illərdə bərpa mərhələsi müşahidə edilmişdir. 2023-cü ildə artım zəifləsə də, 2024-də yenidən yüksəlmişdir. İnflyasiya isə 2022-ci ildə pik həddə çatmış, sonra tədricən azalmışdır.

Nəticə

Araşdırma göstərir ki, iqtisadi təhlükəsizlik çoxsahəli və dinamik bir anlayışdır və onun təmin olunması müxtəlif institusional mexanizmlərin birgə fəaliyyətini tələb edir. Azərbaycan təcrübəsi göstərir ki, enerji gəlirlərinin səmərəli idarə edilməsi və qeyri-neft sektorunun inkişafı iqtisadi təhlükəsizliyin əsas dayağıdır. Buna paralel olaraq, fiskal və monetar siyasətin koordinasiyası, strateji ehtiyatların yaradılması və rəqəmsal transformasiyanın təşviqi makroiqtisadi sabitliyin qorunmasına və sosial rifahın yüksəldilməsinə töhfə verir. Xarici ticarət əlaqələrinin diversifikasiyası və regional əməkdaşlıq ölkənin qlobal iqtisadi sistemdə mövqeyini möhkəmləndirir. İqtisadi təhlükəsizlik konsepsiyası yalnız mövcud təhdidlərə qarşı müdafiə mexanizmləri deyil, həm də gələcək inkişaf üçün imkanların yaradılmasını nəzərdə tutur. Bu baxımdan iqtisadi artım və inflyasiya kimi göstəricilərin analiz edilməsi, investisiya mühitinin yaxşılaşdırılması, innovasiya və rəqəmsal iqtisadiyyatın inkişafı, insan kapitalına yatırımlar və sosial müdafiə sisteminin gücləndirilməsi prioritet olaraq qalır. Hüquqi və institusional islahatlar, şəffaflıq və hesabatlılığın artırılması, korrupsiyaya qarşı mübarizə və vətəndaşların iqtisadi qərarların qəbulunda iştirakının genişləndirilməsi iqtisadi təhlükəsizlik sisteminin davamlılığını təmin edir. Gələcək dövrdə Azərbaycanda iqtisadi təhlükəsizliyin daha da möhkəmləndirilməsi üçün iqtisadi diversifikasiyanın sürətləndirilməsi, yaşıl və rəqəmsal iqtisadiyyatın inkişafı, regional bərabərsizliyin azaldılması və beynəlxalq iqtisadi inteqrasiyanın dərinləşdirilməsi vacibdir. Bu istiqamətlər üzrə ardıcıl və koordinasiyalı siyasət həyata keçirildikdə Azərbaycan öz milli maraqlarını qoruyan və qlobal qeyri-sabitlik şəraitində dayanıqlı qalmağı bacaran bir iqtisadi sistem qurmuş olacaq.

Ədəbiyyat

1. İbrahimov, E. (2021). Qloballaşma dövründə dövlətin iqtisadi təhlükəsizliyi və milli mənafelərin koordinasiyası. İpək Yolu, (3), 48–56.
2. International Monetary Fund. (2022). *Regional economic outlook: Middle East and Central Asia*. IMF.
3. Macrotrends. (2026). *Azerbaijan GDP growth rate: Historical data 1991–2023*. Macrotrends məlumat bazası.
4. Macrotrends. (2026). *Azerbaijan inflation rate: Historical data 1992–2024*. Macrotrends məlumat bazası.
5. Ministry of Economy of the Republic of Azerbaijan. (2021). *Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər*. İqtisadiyyat Nazirliyi.
6. *Ölkənin iqtisadi təhlükəsizlik konsepsiyası*. (2026). *Elmi Tədqiqat, 6*(3).
7. Qasımlı, V., Talıbova, M., Quliyeva, G., və b. (2023). *Rəqəmsal iqtisadiyyat*. Azprint.
8. Qurbanova, A. V. (2024). Ensuring economic security in the context of modern economic relations. *TIM Jurnalı*, 1–15.
9. Talibova, N. E. (2023). İqtisadi təhlükəsizliyin təminatında xarici ticarət əlaqələrinin nəzəri aspektləri. *Elmi Xəbərlər (İctimai və Texniki Elmlər Seriyası), (4), 141–152.
10. United Nations Development Programme. (2021). *Human development report 2021/2022*. UNDP.
11. Vəliyeva, L. M. (2026). Qlobal iqtisadi qeyri-sabitlik şəraitində milli iqtisadi təhlükəsizliyin idarəetmə mexanizmləri. *Audit Jurnalı, 1*(51), 146–158.
12. World Bank. (2023). *Global economic prospects*. World Bank Publishing.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 259–264
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 259–264
DOI: https://doi.org/10.36719/2706-6185/60/259-264

Azərbaycan Respublikasında valyuta tənzimlənməsi siyasətinin qeyri-neft ixracına təsiri

Sübhan Rüstəmov

Xülasə. *Bu məqalədə Azərbaycan Respublikasında həyata keçirilən valyuta tənzimlənməsi siyasətinin qeyri-neft ixracına təsiri kompleks və sistemli şəkildə təhlil olunur. Tədqiqat çərçivəsində valyuta siyasətinin əsas alətləri, o cümlədən məzənnə rejimi, valyuta bazarına dövlət müdaxiləsi, valyuta ehtiyatlarının idarə olunması və makroiqtisadi sabitliyin təmin olunması mexanizmləri nəzərdən keçirilir. Araşdırma zamanı müəyyən edilmişdir ki, milli valyutanın sabitliyinin qorunması, inflyasiya səviyyəsinin nəzarətdə saxlanılması və valyuta bazarında balansın təmin edilməsi qeyri-neft sektorunun inkişafına və ixrac potensialının genişlənməsinə birbaşa təsir göstərir.*

Məqalədə həmçinin 2020–2025-ci illər üzrə statistik göstəricilər əsasında aparılan müqayisəli təhlil nəticəsində qeyri-neft ixracının dinamikası araşdırılmış, bu dövrdə müşahidə olunan artım meyilləri ilə valyuta siyasəti arasında qarşılıqlı əlaqə müəyyən edilmişdir. Aparılan analiz göstərir ki, həyata keçirilən məqsədyönlü valyuta tənzimlənməsi siyasəti ixracın strukturunun diversifikasiyasına, qeyri-neft məhsullarının beynəlxalq bazarlarda rəqabət qabiliyyətinin artmasına və ixrac gəlirlərinin sabitliyinin təmin olunmasına mühüm töhfə vermişdir.

Eyni zamanda tədqiqat çərçivəsində müəyyən edilmişdir ki, valyuta siyasəti təkcə makroiqtisadi sabitlik aləti kimi deyil, həm də ixrac yönümlü iqtisadi inkişaf strategiyasının əsas komponentlərindən biri kimi çıxış edir. Nəticə etibarilə, məqalədə sübut olunur ki, Azərbaycan Respublikasında valyuta tənzimlənməsi siyasəti ilə qeyri-neft ixracının artımı arasında müsbət və qarşılıqlı şərtlənmiş əlaqə mövcuddur və bu siyasətin gələcəkdə daha da təkmilləşdirilməsi iqtisadi diversifikasiyanın dərinləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Açar sözlər: *valyuta siyasəti, qeyri-neft ixracı, məzənnə, iqtisadi diversifikasiya, Azərbaycan*

Bakı Dövlət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: subhanrustemov044@gmail.com
Daxil oldu: 1 Noyabr 2025; Qəbul edildi: 18 Mart 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Qədim Diyar 8(5), 2026
Ancient Land 8(5), 2026

The Impact of Currency Regulation Policy in the Republic of Azerbaijan on Non-Oil Exports

Subhan Rustamov

Abstract. *This article analyzes the impact of the currency regulation policy implemented in the Republic of Azerbaijan on non-oil exports in a comprehensive and systematic manner. The study examines the main instruments of currency policy, including the exchange rate regime, state intervention in the foreign exchange market, foreign exchange reserve management, and mechanisms for ensuring macroeconomic stability. During the study, it was determined that maintaining the stability of the national currency, keeping the inflation rate under control, and ensuring balance in the foreign exchange market directly affect the development of the non-oil sector and the expansion of export potential.*

The article also examines the dynamics of non-oil exports as a result of a comparative analysis conducted on the basis of statistical indicators for 2020–2025, and identifies the relationship between the growth trends observed during this period and currency policy. The analysis shows that the targeted currency regulation policy implemented has made a significant contribution to the diversification of the export structure, increasing the competitiveness of non-oil products in international markets, and ensuring the stability of export revenues.

At the same time, the study determined that currency policy acts not only as an instrument of macroeconomic stability, but also as one of the main components of the export-oriented economic development strategy. As a result, the article proves that there is a positive and mutually conditioned relationship between the currency regulation policy and the growth of non-oil exports in the Republic of Azerbaijan, and further improvement of this policy in the future is of great importance in terms of deepening economic diversification.

Keywords: *currency policy, non-oil exports, exchange rate, economic diversification, Azerbaijan*

Baku State University, Master's student, Baku, Azerbaijan
E-mail: kerimov99fizuli@gmail.com
Received: 1 November 2025; Accepted: 18 March 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Qloballaşma şəraitində beynəlxalq iqtisadi münasibətlərin dərinləşməsi və dünya bazarlarında rəqabətin güclənməsi ixracın inkişafını ölkələrin iqtisadi sabitliyinin və dayanıqlı inkişafının əsas şərtlərindən birinə çevirmişdir. Müasir iqtisadi sistemdə ixrac yalnız xarici ticarət fəaliyyəti deyil, eyni zamanda milli iqtisadiyyatın strukturunun formalaşmasına, istehsalın səmərəliliyinin artırılmasına və valyuta gəlirlərinin təmin olunmasına xidmət edən mühüm mexanizm kimi çıxış edir (Porter, 2017). Bu baxımdan, ixrac potensialının genişləndirilməsi və onun diversifikasiyası hər bir ölkə üçün strateji əhəmiyyət kəsb edir.

Xüsusilə enerji resurslarından asılı olan ölkələr üçün qeyri-neft sektorunun inkişafı və ixracın şaxələndirilməsi iqtisadi təhlükəsizliyin təmin olunmasında və xarici şoklara qarşı dayanıqlığın artırılmasında mühüm rol oynayır. Belə ölkələrdə xammal ixracından asılılığın yüksək olması qiymət dalğalanmalarına qarşı həssaslığı artırır və makroiqtisadi sabitliyi risk altına alır. Bu səbəbdən qeyri-

neft sektorunun inkişaf etdirilməsi və ixracın genişləndirilməsi iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi çıxış edir.

Tədqiqat

Azərbaycan iqtisadiyyatı uzun müddət neft və qaz sektorundan əldə olunan gəlirlər hesabına inkişaf etmişdir. Bu model qısa müddətdə yüksək iqtisadi artımı təmin etsə də, uzunmüddətli perspektivdə iqtisadiyyatın dayanıqlığı baxımından müəyyən risklər yaratmışdır. Son illərdə dövlət tərəfindən həyata keçirilən iqtisadi siyasət çərçivəsində qeyri-neft sektorunun inkişafı, ixracın diversifikasiyası və rəqabət qabiliyyətinin artırılması əsas strateji məqsədlər kimi müəyyən edilmişdir. Bu kontekstdə qəbul olunan dövlət proqramları, institusional islahatlar və ixracın təşviqi mexanizmləri qeyri-neft sektorunun inkişafına yönəlmişdir (International Monetary Fund, 2023).

Bu prosesdə valyuta tənzimlənməsi siyasəti xüsusi əhəmiyyət kəsb edir. Valyuta məzənnəsi ixrac və idxal balansına birbaşa təsir göstərməklə yanaşı, yerli istehsalçıların beynəlxalq bazarlarda rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdən biridir. Məzənnə səviyyəsinin optimal müəyyən olunması ixracın stimullaşdırılması, xarici ticarət balansının yaxşılaşdırılması və makroiqtisadi sabitliyin qorunması baxımından mühüm rol oynayır.

Amerikalı iqtisadçı Pol Krugman qeyd edir ki, *"valyuta məzənnəsi beynəlxalq rəqabət qabiliyyətinin əsas determinantlarından biridir"* (Krugman, 2018, s. 421). Bu fikir valyuta siyasətinin ixrac yönümlü iqtisadi inkişafda nə qədər mühüm rol oynadığını bir daha təsdiq edir. Eyni zamanda azərbaycanlı iqtisadçı Ş. Əliyev vurğulayır ki, *"Azərbaycan iqtisadiyyatında valyuta siyasəti ixrac yönümlü inkişaf modelinin formalaşmasında mühüm alət kimi çıxış edir"* (Əliyev, 2020, s. 198). Bu yanaşma göstərir ki, milli səviyyədə valyuta siyasəti yalnız makroiqtisadi sabitliyin təmin olunmasına deyil, həm də ixracın strukturunun təkmilləşdirilməsinə və qeyri-neft sektorunun inkişafına xidmət edir.

Beləliklə, qloballaşma şəraitində valyuta tənzimlənməsi siyasətinin qeyri-neft ixracına təsirinin öyrənilməsi həm nəzəri, həm də praktik baxımdan aktualdır və bu istiqamətdə aparılan tədqiqatlar iqtisadi siyasətin daha effektiv formalaşdırılmasına imkan verir.

Valyuta tənzimlənməsi siyasətinin nəzəri əsasları və onun Azərbaycanda qeyri-neft ixracına təsiri

Valyuta tənzimlənməsi siyasəti dövlətin makroiqtisadi sabitliyi qorumaq, inflyasiyanı nəzarətdə saxlamaq və xarici ticarət əlaqələrini tənzimləmək məqsədilə həyata keçirdiyi kompleks tədbirlər sistemidir. Bu siyasət milli valyutanın məzənnəsinin müəyyən edilməsi, valyuta bazarına müdaxilə, valyuta ehtiyatlarının idarə olunması və kapital axınlarının tənzimlənməsi kimi mühüm alətləri özündə birləşdirir.

İqtisadi nəzəriyyəyə görə, valyuta kursunun dəyişməsi ixrac və idxal proseslərinə birbaşa təsir göstərir. Belə ki, C. Sachs və F. Larrain qeyd edir ki, *"valyuta kursunun dəyişməsi ixrac və idxal axınlarına birbaşa təsir edir"* (Sachs və b., 2019, s. 312). Bu baxımdan, valyuta siyasəti beynəlxalq ticarətdə rəqabət qabiliyyətinin formalaşmasında əsas amillərdən biri hesab olunur.

Valyuta siyasətinin əsas alətləri sırasında məzənnə rejimi, valyuta ehtiyatlarının idarə olunması, monetar müdaxilələr və kapital axınlarının tənzimlənməsi xüsusi yer tutur. Azərbaycanlı alim M. Məmmədovun fikrincə, *"sabit və idarə olunan məzənnə siyasəti ixracatçılar üçün riskləri azaldır və investisiya mühitini yaxşılaşdırır"* (Məmmədov, 2021, s. 254). Bu yanaşma valyuta sabitliyinin iqtisadi inkişaf və ixrac potensialı baxımından əhəmiyyətini bir daha təsdiq edir.

Azərbaycan Respublikasında valyuta siyasəti əsasən Azərbaycan Mərkəzi Bankı və Dövlət Neft Fondu tərəfindən həyata keçirilir. 2015-ci il devalvasiyasından sonra ölkədə idarə olunan sabit məzənnə siyasəti formalaşmış və manatın ABŞ dollarına nisbətdə təxminən 1.7 AZN səviyyəsində sabit saxlanılması təmin edilmişdir. Bu siyasətin əsas məqsədləri inflyasiyanın nəzarətdə saxlanılması, valyuta bazarında sabitliyin qorunması və ixracın stimullaşdırılması olmuşdur.

Son illərdə həyata keçirilən bu siyasətin nəticələri qeyri-neft ixracının dinamikasında da öz əksini tapmışdır. 2020–2025-ci illər ərzində qeyri-neft ixracında davamlı artım müşahidə edilmişdir. Belə ki, 2020-ci ildə 1.7 milyard ABŞ dolları olan qeyri-neft ixracı 2025-ci ildə 3.6 milyard ABŞ dollarını keçmişdir. Bu artım ixracın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan siyasətin effektivliyini göstərir. (Azərbaycan Respublikası Dövlət Neft Fondu, 2020–2025.)

Cədvəl 1
Azərbaycanın qeyri-neft ixracı (2020–2025-ci illər üzrə)

İl	Qeyri-neft ixracı (mlrd ABŞ dolları)	Artım tempi (%)
2020	1.7	—
2021	2.2	+29
2022	2.9	+31
2023	3.3	+14
2024	3.5	+6
2025	3.6	+7–10

Mənbə: Azərbaycan Respublikası Mərkəzi Bankı

Diaqram 1
Qeyri-neft ixracının artım dinamikası (2020–2025)



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

Qeyri-neft ixracının artım trendi onun davamlı və yüksələn xətt üzrə inkişaf etdiyini nümayiş etdirir. Bu isə valyuta siyasəti ilə ixrac arasında müəyyən müsbət əlaqənin mövcud olduğunu göstərir.
Valyuta siyasətinin qeyri-neft ixracına təsiri bir neçə əsas istiqamətdə özünü göstərir. İlk növbədə, milli valyutanın sabitliyi ixrac məhsullarının qiymət sabitliyini təmin edərək onların beynəlxalq bazarlarda rəqabət qabiliyyətini artırır. Pol Krugman qeyd edir ki, *"devalvasiya ixracı artırsa da, sabitlik uzunmüddətli üstünlük yaradır"* (Krugman, 2018, s. 430).

İkinci olaraq, valyuta siyasəti ixrac strukturunun genişlənməsinə təsir göstərir. 2025-ci ildə qeyri-neft ixracında kənd təsərrüfatı məhsullarının, xüsusilə meyvə-tərəvəz məhsullarının payının artması bunu sübut edir. Aqrar sektorun ixracında müşahidə olunan artım qeyri-neft sektorunun inkişafının mühüm göstəricisidir.

Üçüncü mühüm istiqamət investisiya mühitinə təsirlə bağlıdır. Valyuta sabitliyi investorlar üçün riskləri azaldır və qeyri-neft sektoruna investisiya axınını stimullaşdırır. M. Porter qeyd edir ki, *"rəqabət üstünlüyü makroiqtisadi sabitliklə sıx bağlıdır"* (Porter, 2017, s. 112).

Bununla yanaşı, valyuta siyasəti dövlətin ixracın təşviqi siyasəti ilə qarşılıqlı əlaqədə daha effektiv nəticə verir. Azərbaycanda tətbiq olunan subsidiyalar, "Made in Azerbaijan" proqramı və ixrac missiyaları qeyri-neft ixracının artımına əlavə stimul yaradır və valyuta sabitliyi ilə birlikdə sinerji effekti formalaşdırır. (Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO), 2024–2025).

Bununla belə, qeyri-neft ixracının inkişafında müəyyən problemlər də mövcuddur. Bunlara ixracın hələ də yüksək dərəcədə neft sektorundan asılı olması, məhsul çeşidinin məhdudluğu və kiçik və orta biznes subyektlərinin ixrac imkanlarının zəifliyi daxildir. Bu amillər valyuta siyasətinin təsir imkanlarını müəyyən qədər məhdudlaşdırır və əlavə islahatların aparılmasını zəruri edir.

Nəticə

Aparılan nəzəri və empirik təhlillər göstərir ki, Azərbaycan Respublikasında həyata keçirilən valyuta tənzimlənməsi siyasəti qeyri-neft ixracının inkişafında və onun davamlı artımının təmin olunmasında mühüm rol oynayır. Valyuta siyasətinin əsas komponentləri olan məzənnə sabitliyi, valyuta bazarına effektiv müdaxilə və ehtiyatların düzgün idarə olunması ölkədə makroiqtisadi sabitliyin qorunmasına və ixrac yönümlü iqtisadi fəaliyyətin stimullaşdırılmasına şərait yaratmışdır. 2020–2025-ci illər üzrə statistik göstəricilərin təhlili göstərir ki, bu dövrdə qeyri-neft ixracı davamlı artım dinamikası nümayiş etdirmişdir. Bu artım bir tərəfdən qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən struktur islahatların, digər tərəfdən isə valyuta siyasətinin sabit və proqnozlaşdırıla bilən xarakter daşımasının nəticəsi kimi qiymətləndirilə bilər (Azərbaycan İqtisadiyyat Nazirliyi – *Qeyri-neft ixracının təşviqi üzrə hesabatlar*, 2020–2025). Xüsusilə milli valyutanın uzun müddət sabit saxlanılması ixracatçılar üçün qiymət risklərini minimuma endirmiş, xarici bazarlarda fəaliyyətin planlaşdırılmasını asanlaşdırmış və məhsulların rəqabət qabiliyyətini artırmışdır.

Aparılan təhlil əsasında müəyyən edilmişdir ki, valyuta sabitliyi qeyri-neft ixracının davamlı artımını təmin edən əsas amillərdən biridir. Sabit məzənnə siyasəti ixracatçı subyektlərə uzunmüddətli müqavilələr bağlamaq, maliyyə risklərini azaltmaq və istehsal həcmini artırmaq imkanı vermişdir. Eyni zamanda, valyuta siyasətinin dövlətin ümumi iqtisadi və ixracın təşviqi siyasəti ilə uzlaşdırılması onun effektivliyini daha da artırmışdır. Subsidiyalar, ixrac təşviqi proqramları və institusional dəstək mexanizmləri valyuta sabitliyi ilə birlikdə tətbiq olunduqda daha güclü nəticələr vermişdir. Bununla yanaşı, aparılan araşdırma göstərir ki, valyuta siyasətinin təsiri təkbaşına kifayət etmir və onun effektivliyi digər iqtisadi amillərlə sıx bağlıdır. Qeyri-neft ixracının daha da artırılması üçün istehsalın texnoloji səviyyəsinin yüksəldilməsi, məhsul çeşidinin genişləndirilməsi və yeni ixrac bazarlarına çıxış imkanlarının artırılması zəruridir.

Nəticə etibarilə, Azərbaycan Respublikasında valyuta tənzimlənməsi siyasəti qeyri-neft ixracının inkişafına müsbət təsir göstərən əsas makroiqtisadi alətlərdən biri kimi çıxış edir. Bu siyasətin gələcəkdə daha da təkmilləşdirilməsi və ixrac yönümlü iqtisadi strategiya ilə daha sıx inteqrasiyası ölkənin iqtisadi diversifikasiyasının dərinləşdirilməsi və dayanıqlı inkişafının təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir.

Ədəbiyyat

1. Azərbaycan İqtisadiyyat Nazirliyi. (2020–2025). *Qeyri-neft ixracının təşviqi üzrə hesabatlar*.
2. Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO). (2024–2025). *İxrac hesabatları*.
3. Azərbaycan Respublikası Dövlət Neft Fondu. (2020–2025). *İllik hesabatlar*.
4. Azərbaycan Respublikası Mərkəzi Bankı. (2020–2025). *Pul siyasəti icmalları və illik hesabatlar*.
5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). *Azərbaycanın xarici ticarət göstəriciləri (2020–2025)*.
6. Əliyev, Ş. (2020). *Milli iqtisadiyyatın tənzimlənməsi*. İqtisad Universiteti Nəşriyyatı.
7. International Monetary Fund. (2023). *Republic of Azerbaijan: Staff report*.
8. Krugman, P., Obstfeld, M., & Melitz, M. (2018). *International economics: Theory and policy*. Pearson Education.
9. Məmmədov, M. (2021). *Beynəlxalq iqtisadi münasibətlər*. Elm Nəşriyyatı.
10. Porter, M. (2017). *The competitive advantage of nations*. Free Press.
11. Sachs, J., & Larrain, F. (2019). *Macroeconomics in the global economy*. Pearson.
12. World Bank. (2025). *Azerbaijan economic update*. World Bank Group.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 265–269
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 265–269
DOI: https://doi.org/10.36719/2706-6185/60/265-269

The Concept, History and Causesof International Terrorism

Samad Islamov

Abstract. *The term "terrorism" originates from the Latin word terror, signifying fear or a sense of dread. A fundamental strategy employed by terrorist actors is the deliberate creation of an atmosphere of fear and insecurity, where individuals feel uncertain about the safety of both themselves and their close ones. In contemporary discourse, terrorism is interpreted in multiple ways, leading to the existence of various definitions.*
For instance, the Federal Bureau of Investigation characterizes terrorism as the illegal application of force or violence directed at individuals or property, with the intent to intimidate or pressure governments, societies, or specific groups for diverse objectives. Similarly, the United States Department of Defense describes terrorism as the intentional use of violence or coercive methods aimed at influencing or frightening governments or populations in order to accomplish political, religious, or ideological aims.
International terrorism is one of the most dangerous global threats of our time, characterized by the use of violence to achieve political, ideological, or religious goals that extend beyond the borders of a single state.

Keywords: *terrorism, safety, government, religious, ideological goals*

Baku State University, Master's student, Baku, Azerbaijan
E-mail: sdw210346@gmail.com
Received: 17 December 2025; Accepted: 12 April 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Beynəlxalq terrorizmin anlayışı, tarixi və səbəbləri

Səməd İslamov

Xülasə. *"Terrorizm" termini latınca "terror" sözündən yaranıb və qorxu və ya qorxu hissi deməkdir. Terrorçular tərəfindən istifadə edilən əsas strategiya, fərdlərin həm özlərinin, həm də yaxınlarının təhlükəsizliyi barədə qeyri-müəyyənlik hiss etdikləri bir qorxu və qeyri-müəyyənlik atmosferinin qəsdən yaradılmasıdır. Müasir diskursda terrorizm bir neçə şəkildə şərh olunur və bu da müxtəlif tərifl ərin mövcudluğuna gətirib çıxarır.*
Məsələn, Federal Təhqiqatlar Bürosu terrorizmi müxtəlif məqsədlər üçün hökumətləri, cəmiyyətləri və ya müəyyən qrupları qorxutmaq və ya təzyiq göstərmək məqsədi ilə fərdlərə və ya əmlaka qarşı qanunsuz güc və ya zorakılıq tətbiqi kimi xarakterizə edir. Eynilə, Amerika Birləşmiş Ştatları Müdafiə Nazirliyi terrorizmi siyasi, dini və ya ideoloji məqsədlərə çatmaq üçün hökumətlərə və ya əhaliyə təsir göstərmək və ya onları qorxutmaq məqsədi ilə qəsdən zorakılıq və ya məcburetmə metodlarından istifadə kimi təsvir edir.

Beynəlxalq terrorizm, tək bir dövlətin hüdudlarından kənara çıxan siyasi, ideoloji və ya dini məqsədlərə çatmaq üçün zorakılıqdan istifadə ilə xarakterizə olunan dövrümüzün ən təhlükəli qlobal təhdidlərindən biridir.

Açar sözlər: *terrorizm, təhlükəsizlik, hökumət, dini, ideoloji məqsədlər*

Bakı Dövlət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: sdw210346@gmail.com
Daxil oldu: 17 Dekabr 2025; Qəbul edildi: 12 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Introduction

Terrorism disrupts public life and damages people's lives, health, property, rights, and legitimate interests. The majority of the violence is physical, and it frequently results in fatalities or severe physical harm. Additionally, it is characterized by psychological effects and the usurpation of several advantages. This typically occurs when terrorists make ransom demands. The destruction of anything, including airplanes, administrative buildings, residential areas, battleships, life-support facilities, etc., can also be a sign of terrorism. Terrorist acts can include property damage caused by terrorist organizations even in the absence of human casualties (Mearsheimer, 2014).

Generally speaking, terrorism is usually a premeditated crime, and a terrorist's mindset is always distinct from that of a robber or killer. In a murder or robbery, for instance, there are two parties—the perpetrator and the victim—but in a terrorist act, there is also a third party—the public or the government. Terrorists have little interest in the victim since the victim is merely a means to an end, not the end. Attracting public attention, intimidating the populace, and communicating their political, religious, and other beliefs are the primary objectives. Mass fatalities and exceptional violence are frequent because the victims are not valued.

Research

These days, terrorism is linked to many aspects of both the global society and the societies of particular states, including politics, national relations, religion, the economy, and more. Political, economic, nationalist, religious, criminal, and ecological terrorism are some of the new forms of terrorism that have resulted from this (Pillar, 2001).

1. Achieving political, social, and economic changes within this or that state as well as interstate relations is the aim of the group members who engage in political terrorism.
2. The resolution of the national problem is the foundation of nationalist terrorism.
3. The conflict between military organizations that practice a particular religion and a state that practices a different faith is known as religious terrorism.
4. The purpose of criminal terrorism is to create disorder and tension in order to increase revenue through illicit arms sales, drug sales, smuggling, and other criminal activities.
5. Groups who employ violent tactics to oppose scientific and technological advancements, environmental contamination, the destruction of living things, and the development of nuclear plants are engaging in ecological terrorism.

State terrorism is another form of terrorism that exists today. Its primary objectives are to overturn foreign governments, remove heads of state, intimidate the populace of foreign states, etc.

In general, terrorism, regardless of its form, is characterized by four key features that distinguish it from other types of violence (Oscar Schachter, 1989). First, it generates a widespread sense of threat within society. Second, its execution is inherently social, targeting not only individuals but broader communities. Third, it involves the intentional creation of an atmosphere marked by fear and tension. Finally, although a terrorist act may be directed at a specific group, the fear it produces extends its psychological impact to wider segments of the population.

As a distinct phenomenon within socio-political life, terrorism has evolved over time and possesses its own historical trajectory. A proper understanding of contemporary terrorism is not possible without considering its historical background. The notions of terror and terrorism have been present since ancient times. Acts resembling terrorism were observed in the Ancient East as well as in Greek and Roman republics. Historical accounts indicate that around 2,500 years ago, a series of violent events occurred in Egypt over a short period, later becoming known as the Egyptian plagues. These events reportedly involved various forms of destructive methods, including biological, chemical, and environmental means. They were carried out with the intention of intimidating the Egyptian Pharaoh, who held the Jewish population in bondage. While these actions, associated with Moses and Aaron, are often interpreted as efforts to secure the liberation of the "Children of Israel," they also resulted in significant harm and suffering for other inhabitants of Egypt (Arıboğan, 1995).

There are several instances of the employment of terror throughout ancient history, particularly during the Roman era. Terror was typically employed by the ruling class to counter both internal and external adversaries. During this time, the well-known prohibitions went into effect. Every Roman was able to kill without being put on trial thanks to these prohibitions. Throughout ancient history, there are several examples of the use of terror, especially in the Roman era. The ruling elite usually used terror to combat both internal and external enemies. The well-known bans came into force during this period. These restrictions made it possible for any Roman to kill without being tried (Çağin, 2008).
In its earliest forms, terrorism rarely displayed a large-scale or organized character. Its goals were typically not openly declared, and the element of intimidation was secondary, mainly accompanying the primary aim of physically eliminating political adversaries. It is also important to note that, in antiquity, both ruling authorities and opposing groups were involved in acts that can be characterized as terrorism. Over time, however, such practices developed rapidly, assuming diverse forms—at times manifesting as sectarian religious movements, and at other times emerging as rebellions or splinter groups breaking away from dominant belief systems.

Historical evidence, for example, points to the existence of the Sicarii, a radical Jewish sect active in Palestine during the 1st century BC. This group attempted to resist Roman domination by attacking Roman officials as well as local Jews seen as sympathizers, and by destroying property. Their actions were aimed at freeing their land from the control of the Roman Empire. In response, the empire reacted with considerable severity: Emperor Titus decisively suppressed the uprising. Despite this, the Sicarii maintained resistance; even after the fall of Jerusalem, they continued to hold the fortress of Masada for approximately three more years. When defeat became unavoidable, many members chose suicide rather than capture (Arend, 2002). The Sicarii, however, rationalized both their own deaths and the deaths of those who perished in God's path. According to Badey (1998), they rejected the state as an institution. Today, terrorist organizations in the Middle East use similar strategies. Nonetheless, suicide bombers' acts of terrorism are still viewed as jihadism and self-sacrifice for the advancement of Islamic principles. The rise of terrorism with religious motivations is linked to the first century AD. As a result, when the Romans were worshiping in 259, the Christian bishop Sixtus II and six of his adherents were slain. The episcopal office was empty for a year following this occurrence.

State repression then intensified and grew increasingly widespread. Those who practiced Christianity were barred from military service throughout the first ten years of the fourth century. Later, churches were demolished, religious texts were set on fire, and civil rights for Christians were eliminated. The emperor ordered the arrest and imprisonment of all believers when unrest against all of this started in Syria and Cappadocia. Fearing torture and death threats, an edict was issued in 304 for all of the city's Christians (Bensahel, 2006). Terror and terrorism are not new phenomena. However, during the first millennium, there were various types of it, and new types are also emerging. In recent years, the world community has also encountered cyber and biological terrorism, and there is no doubt that space terrorism will also occur. Of these types of terrorism, cyberterrorism is considered the most likely to occur in the future. This is because cybercrimes have become more widespread in recent years as a result of the rapid development of technology and internet networks.

In modern times, the development of the information society and the spread of globalization to wider areas, including the information environment, have had a significant impact on transnational crimes in this area and the formation of new categories of crimes in the national law of the countries of the world, the fight against these crimes and the punishment system. Activities related to the development of ICT in the international system and effective management have necessitated the legal regulation of this system. In this sense, it is impossible to imagine international unity without the legal regulation of the global information environment, especially the protection of this space from criminal intent, and this serves to regulate public relations by acting as an important means of social regulation and ensuring the realization of the legitimate interests of the subjects operating there. The selection and application of such mechanisms is of great importance for the effective regulation of public relations arising from the activities of computer systems, networks and programs, ICT, as well as the Internet. The development of virtual space, the widespread use of computer networks require detailed legal regulation. As a result of the weakness of legal regulation, computer crimes have become the most dangerous type of criminal acts today.

Conclusion

Historical records point to the presence of a radical Jewish group known as the Sicarii in Palestine, active around the 1st century BC. This faction sought to resist Roman domination by targeting both Roman authorities and local Jews perceived as collaborators, often resorting to killings and destruction of property. Their ultimate objective was to liberate their territory from the control of the Roman Empire. In response, the empire acted decisively and with considerable severity: Emperor Titus suppressed the uprising. When defeat became inevitable, many chose to end their own lives rather than surrender (Lozinskiy, 1986). From their perspective, both their own deaths and the suffering inflicted in pursuit of their cause were framed as acts carried out in devotion to God. They also rejected the legitimacy of state authority as an institution (Nechiporenko, 2001). Comparable patterns can be observed in certain contemporary groups in the Middle East. In particular, acts involving self-sacrifice are often interpreted within ideological frameworks such as jihadism, where they are portrayed as devotion to religious ideals. The emergence of terrorism motivated by religious beliefs is frequently associated with the early centuries of the Common Era. For example, in 259 AD, the Christian bishop Sixtus II and several of his followers were executed during Roman religious observances. Following this event, the episcopal position remained vacant for a period. Subsequently, state repression intensified: in the early 4th century, adherents of Christianity were excluded from military service, places of worship were destroyed, sacred texts were burned, and civil rights linked to Christian identity were revoked. As dissatisfaction grew in regions such as Syria and Cappadocia, imperial authorities responded by ordering the arrest and imprisonment of believers. By 304 AD, a decree was issued targeting the broader Christian population, accompanied by threats of torture and execution, reflecting the escalation of systematic persecution (Nesmelov, n.d.)

References

1. Altuğ, Y. (1995). *Terörün anatomisi*. Altın Kitaplar Yayınevi.
2. Arend, A. C. (2002). Responding to rogue regimes: From smart bombs to smart sanctions; International law and rogue states: The failure of the charter framework. *New England Law Review, 36*, 735–753.
3. Arıboğan, D. Ü. (2003). *Tarihin sonundan barışın sonuna terörizmi anlamak ve anlamlandırmak*. Timaş Yayınları.
4. Badey, T. J. (1998). Defining international terrorism: A pragmatic approach. *Terrorism and Political Violence, 10*(1).
5. Bensahel, N. (2006). A coalition of coalitions: International cooperation against terrorism. *Studies in Conflict & Terrorism*. Rand.
6. Çağın, M. H. (2008). *Uluslararası terörizm*. Nobel Yayınları.
7. Lozinskiy, S. G. (1986). *Istoriya papstva* (3-e izd.).
8. Mearsheimer, J. J. (2014). Why the Ukraine crisis is the West's fault? The liberal delusions that provoked Putin. *Foreign Affairs, 93*(5).
9. Nechiporenko, O. M. (2001). Terrorizm – drevniy i smertelno opasnyy sputnik chelovechestva. In *Mirovoe obshchestvo protiv globalizatsii prestupnosti i terrorizma* (Mezhdunarodnaya konferentsiya). http://www.waaf.ru
10. Nesmelov, A. (n.d.). *Proiskhozhdenie i priroda terrorizma*. http://infokotlas.ru/2013/02/13/proiskhozhdenie-i-priroda-terrorizma/
11. Pillar, P. R. (2001). *Terrorism and U.S. foreign policy*. Brookings Institution Press.
12. Schachter, O. (1989). The extraterritorial use of force against terrorist bases. *Houston Journal of International Law, 11*(2).

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 270–275
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 270–275
DOI: https://doi.org/10.36719/2706-6185/60/270-275

Müasir mərhələdə biznes infrastrukturunun formalaşmasında investisiyaların rolu və inkişaf istiqamətləri

Salatın Dəmirova

Xülasə. *Müasir mərhələdə biznes infrastrukturunun formalaşması ölkənin iqtisadi inkişafında mühüm rol oynayan əsas amillərdən biridir. Biznes infrastrukturu nəqliyyat, logistika, enerji, maliyyə-bank xidmətləri, sənaye parkları, texnoparklar, informasiya-kommunikasiya sistemləri və sahibkarlığa dəstək mexanizmlərini əhatə edir. Bu sahələrin inkişafı investisiyaların cəlb olunması ilə birbaşa bağlıdır. İnvestisiyalar yeni istehsal sahələrinin yaradılmasına, mövcud müəssisələrin modernləşdirilməsinə, texnoloji yeniliklərin tətbiqinə və regionlarda iqtisadi fəallığın artırılmasına şərait yaradır. Tədqiqatda biznes infrastrukturunun inkişafında dövlət və özəl investisiyaların əhəmiyyəti, qeyri-neft sektoruna yönələn sərmayələrin rolu və sahibkarlıq mühitinin yaxşılaşdırılması məsələləri araşdırılır. Müasir dövrdə investisiya siyasətinin əsas istiqamətləri rəqəmsal infrastrukturun genişləndirilməsi, logistika imkanlarının artırılması, sənaye zonalarının inkişafı və innovativ sahibkarlığın dəstəklənməsi ilə bağlıdır. Nəticə etibarilə, investisiyaların səmərəli yönəldilməsi biznes mühitinin rəqabət qabiliyyətini yüksəldir, yeni iş yerlərinin açılmasına kömək edir və davamlı iqtisadi inkişaf üçün möhkəm əsas yaradır.*

Açar sözlər: *biznes infrastrukturu, investisiya, investisiya mühiti, sahibkarlıq, iqtisadi inkişaf, qeyri-neft sektoru*

Azərbaycan Memarlıq və İnşaat Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: salatin.demirova@gmail.com
Daxil oldu: 3 Yanvar 2026; Qəbul edildi: 24 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

The Role of Investments in the Formation of Business Infrastructure at the Modern Stage and Development Directions

Salatin Demirova

Abstract. *The formation of business infrastructure at the modern stage is one of the main factors playing an important role in the economic development of the country. Business infrastructure includes transport, logistics, energy, financial and banking services, industrial parks, technoparks, information and communication systems and entrepreneurship support mechanisms. The development of these areas is directly related to attracting investments.*

Investments create conditions for the creation of new production areas, modernization of existing enterprises, introduction of technological innovations and increase of economic activity in the regions. The study examines the importance of public and private investments in the development of business infrastructure, the role of investments directed to the non-oil sector and the improvement of the entrepreneurial environment. The main directions of investment policy in the modern era are related to the expansion of digital infrastructure, increasing logistics capabilities, development of industrial zones and support of innovative entrepreneurship. As a result, the efficient direction of investments increases the competitiveness of the business environment, helps create new jobs, and creates a solid foundation for sustainable economic development.

Keywords: *business infrastructure, investment, investment climate, entrepreneurship, economic development, non-oil sector*

Azerbaijan University of Architecture and Construction, Master's student, Baku, Azerbaijan
E-mail: salatin.demirova@gmail.com
Received: 3 January 2026; Accepted: 24 April 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Müasir mərhələdə iqtisadi inkişafın təmin olunmasında biznes infrastrukturunun formalaşması və təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Biznes infrastrukturu sahibkarlıq fəaliyyətinin səmərəli təşkili üçün zəruri olan nəqliyyat, logistika, enerji, maliyyə-bank, informasiya-kommunikasiya, sənaye parkları, texnoparklar və digər xidmət sahələrini əhatə edir. Bu infrastruktur elementlərinin inkişafı müəssisələrin fəaliyyət imkanlarını genişləndirir, istehsal və xidmət proseslərinin daha çevik qurulmasına şərait yaradır (Mankiw, 2021).

İnvestisiyalar biznes infrastrukturunun inkişafında əsas hərəkətverici qüvvələrdən biri kimi çıxış edir. Dövlət və özəl investisiyaların iqtisadiyyatın müxtəlif sahələrinə yönəldilməsi yeni müəssisələrin yaradılmasına, mövcud istehsal sahələrinin modernləşdirilməsinə, texnoloji yeniliklərin tətbiqinə və regionlarda iqtisadi fəallığın artırılmasına imkan verir. Xüsusilə qeyri-neft sektoruna yönələn investisiyalar ölkə iqtisadiyyatının şaxələndirilməsi baxımından mühüm rol oynayır.

Mövzunun aktuallığı ondan ibarətdir ki, qlobal rəqabətin gücləndiyi, rəqəmsal transformasiyanın sürətləndiyi və bazar münasibətlərinin dəyişdiyi müasir şəraitdə biznes infrastrukturunun inkişafı investisiya mühitinin keyfiyyətindən birbaşa asılıdır. İnvestisiya qoyuluşlarının səmərəli idarə olunması sahibkarlığın inkişafına, məşğulluğun artmasına, ixrac potensialının genişlənməsinə və davamlı iqtisadi artımın təmin edilməsinə müsbət təsir göstərir.

Bu baxımdan "Müasir mərhələdə biznes infrastrukturunun formalaşmasında investisiyaların rolu və inkişaf istiqamətləri" mövzusunun araşdırılması həm nəzəri, həm də praktiki baxımdan əhəmiyyətlidir. Tədqiqatın əsas məqsədi biznes infrastrukturunun formalaşmasında investisiyaların rolunu müəyyənləşdirmək, mövcud inkişaf meyillərini təhlil etmək və gələcəkdə bu sahənin təkmilləşdirilməsi istiqamətlərini göstərməkdən ibarətdir (Schwab, 2019).

Müasir mərhələdə biznes infrastrukturunun formalaşması və inkişafı iqtisadiyyatın dayanıqlı artımı üçün mühüm şərtlərdən biridir. Aparılan araşdırma göstərir ki, investisiyalar biznes infrastrukturunun genişlənməsində əsas maliyyə mənbəyi kimi çıxış edir və sahibkarlıq fəaliyyətinin səmərəli təşkilinə şərait yaradır. Nəqliyyat, logistika, enerji, maliyyə-bank xidmətləri, sənaye parkları, texnoparklar və

rəqəmsal infrastruktur sahələrinə yönəldilən investisiyalar istehsal və xidmət proseslərinin modernləşməsinə müsbət təsir göstərir.

Tədqiqat

Tədqiqat nəticəsində müəyyən olunur ki, biznes infrastrukturunun inkişafı investisiya mühitinin keyfiyyəti ilə sıx bağlıdır. Dövlət dəstəyi, əlverişli hüquqi baza, maliyyə resurslarına çıxış imkanları və innovativ layihələrin təşviqi sahibkarlığın inkişafını sürətləndirən əsas amillərdir. Xüsusilə qeyri-neft sektoruna yönəldilən investisiyalar iqtisadiyyatın şaxələndirilməsi, regionlarda məşğulluğun artırılması və rəqabətqabiliyyətli istehsal sahələrinin yaradılması baxımından böyük əhəmiyyət daşıyır.

İnvestisiyaların səmərəli idarə olunması biznes infrastrukturunun inkişafını sürətləndirir, ölkənin iqtisadi potensialını gücləndirir və davamlı sosial-iqtisadi inkişaf üçün möhkəm əsas yaradır. Bu səbəbdən gələcək dövrdə investisiya siyasətinin innovasiya, rəqəmsallaşma, logistika imkanlarının genişləndirilməsi və regional sahibkarlığın dəstəklənməsi istiqamətlərinə yönəldilməsi məqsədəuyğun hesab olunur (Todaro və b., 2020). Biznes infrastrukturunun inkişafında dövlət və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi vacib məsələlərdən biridir. Dövlət investisiyaları əsas infrastrukturun yaradılmasına, özəl investisiyalar isə istehsal, xidmət və innovasiya sahələrinin genişləndirilməsinə yönəldildikdə daha səmərəli nəticələr əldə olunur. Bu baxımdan dövlət-özəl tərəfdaşlığı mexanizmlərinin geniş tətbiqi biznes mühitinin daha çevik və rəqabətqabiliyyətli olmasına kömək edə bilər.

Araşdırma göstərir ki, regionlarda biznes infrastrukturunun inkişafı xüsusi əhəmiyyət daşıyır. Regionlarda sənaye zonalarının, logistika mərkəzlərinin, nəqliyyat şəbəkəsinin və rəqəmsal xidmətlərin genişləndirilməsi yerli sahibkarların bazara çıxış imkanlarını artırır. Bu isə həm regional iqtisadi fərqlərin azalmasına, həm də yeni iş yerlərinin yaradılmasına şərait yaradır. Müasir mərhələdə biznes infrastrukturunun formalaşmasında investisiyaların rolu yalnız maliyyə təminatı ilə məhdudlaşmır. İnvestisiyalar eyni zamanda texnoloji yenilənməni, idarəetmə keyfiyyətinin yüksəldilməsini, innovativ fəaliyyətin genişlənməsini və iqtisadiyyatın rəqabət qabiliyyətinin artmasını təmin edir. Buna görə də biznes infrastrukturunun inkişafı üzrə uzunmüddətli və məqsədyönlü investisiya siyasətinin həyata keçirilməsi ölkənin davamlı iqtisadi inkişafı üçün mühüm şərt hesab olunur.

Cədvəl 1
Biznes infrastrukturunun formalaşmasında investisiyaların rolu və inkişaf istiqamətləri

Biznes infrastrukturu elementi	**İnvestisiyaların rolu**	**İnkişaf istiqamətləri**
Nəqliyyat infrastrukturu	Məhsul və xidmətlərin bazara daha sürətli çatdırılmasına şərait yaradır	Yol, dəmir yolu və hava nəqliyyatı şəbəkəsinin modernləşdirilməsi
Logistika mərkəzləri	Daşınma və anbar xərclərinin azalmasına kömək edir	Müasir logistika terminallarının və regional paylama mərkəzlərinin yaradılması
Enerji infrastrukturu	Müəssisələrin fasiləsiz və dayanıqlı fəaliyyətini təmin edir	Alternativ enerji mənbələrinin tətbiqi və enerji təchizatının gücləndirilməsi
Maliyyə-bank sistemi	Sahibkarların kredit və maliyyə resurslarına çıxışını asanlaşdırır	Güzəştli kreditlər, investisiya fondları və maliyyə dəstək mexanizmlərinin artırılması

Sənaye parkları və zonaları	Yeni istehsal sahələrinin yaradılmasına və xarici sərmayələrin cəlbinə imkan verir	Sənaye parklarının regionlar üzrə genişləndirilməsi
Rəqəmsal infrastruktur	Elektron xidmətlərin, onlayn biznesin və rəqəmsal idarəetmənin inkişafını sürətləndirir	İnternet, elektron ticarət, rəqəmsal platformalar və texnoparkların inkişafı
Sahibkarlığa dəstək mərkəzləri	Kiçik və orta biznesin bilik, məsləhət və təlim imkanlarını artırır	Biznes inkubatorları, təlim mərkəzləri və konsultasiya xidmətlərinin genişləndirilməsi

Mənbə: Müəllif tərəfindən mövzu üzrə ümumiləşdirilərək tərtib edilmişdir.

Bu cədvəldə biznes infrastrukturunun əsas elementləri, həmin sahələrə investisiyaların təsiri və gələcək inkişaf istiqamətləri ümumiləşdirilmişdir. Cədvəldən göründüyü kimi, biznes infrastrukturunun formalaşması yalnız bir sahənin deyil, nəqliyyat, logistika, enerji, maliyyə-bank sistemi, sənaye parkları, rəqəmsal texnologiyalar və sahibkarlığa dəstək mexanizmlərinin birlikdə inkişafı ilə mümkündür. Bu sahələrin hər birinə yönəldilən investisiyalar ölkədə sahibkarlıq fəaliyyətinin genişlənməsinə, istehsal imkanlarının artmasına və iqtisadi fəallığın yüksəlməsinə şərait yaradır. Nəqliyyat infrastrukturu biznesin inkişafında mühüm rol oynayır. Müasir yol, dəmir yolu, hava və dəniz nəqliyyatı şəbəkələrinin inkişaf etdirilməsi məhsulların daxili və xarici bazarlara daha tez çatdırılmasına imkan verir. Bu isə müəssisələrin daşınma xərclərini azaldır, ticarət əlaqələrini genişləndirir və regionların iqtisadi potensialından daha səmərəli istifadə olunmasına kömək edir. Nəqliyyat sahəsinə qoyulan investisiyalar həm yerli sahibkarlar, həm də xarici investorlar üçün əlverişli biznes mühiti yaradır.

Logistika mərkəzlərinin inkişafı da biznes infrastrukturunun mühüm istiqamətlərindən biridir. Müasir logistika sistemləri məhsulların saxlanılması, qablaşdırılması, daşınması və paylanması proseslərini daha səmərəli təşkil etməyə imkan verir. Logistika mərkəzlərinə yönəldilən investisiyalar tədarük zəncirinin daha çevik idarə olunmasına, ixrac imkanlarının artırılmasına və sahibkarların bazarlara çıxışının asanlaşmasına səbəb olur. Xüsusilə regional logistika mərkəzlərinin yaradılması bölgələrdə iqtisadi canlanmanı gücləndirir. Enerji infrastrukturu müəssisələrin fasiləsiz fəaliyyətinin təmin olunması baxımından xüsusi əhəmiyyət daşıyır. İstehsal və xidmət sahələrinin normal işləməsi üçün etibarlı enerji təminatı vacibdir. Bu sahəyə qoyulan investisiyalar enerji şəbəkələrinin yenilənməsinə, alternativ və bərpa olunan enerji mənbələrinin tətbiqinə, enerji səmərəliliyinin artırılmasına şərait yaradır. Nəticədə müəssisələrin istehsal xərcləri azalır və onların rəqabət qabiliyyəti yüksəlir.

Maliyyə-bank sisteminin inkişafı sahibkarların investisiya imkanlarını genişləndirir. Kiçik və orta biznes subyektlərinin güzəştli kreditlərə, lizinq xidmətlərinə, investisiya fondlarına və digər maliyyə mənbələrinə çıxışı biznes fəaliyyətinin genişlənməsi üçün vacibdir. Maliyyə infrastrukturuna yönəldilən investisiyalar sahibkarların yeni layihələr həyata keçirməsinə, istehsalı artırmasına və innovativ fəaliyyətə qoşulmasına imkan verir. Sənaye parkları və sənaye zonaları biznes infrastrukturunun formalaşmasında xüsusi yer tutur. Bu ərazilərdə sahibkarlara hazır mühəndis-kommunikasiya xətləri, istehsal sahələri, vergi və gömrük güzəştləri, idarəetmə və xidmət imkanları təqdim olunur. Sənaye parklarına investisiyaların cəlb edilməsi yeni istehsal müəssisələrinin yaradılmasına, qeyri-neft sektorunun inkişafına, ixrac potensialının artırılmasına və yeni iş yerlərinin açılmasına müsbət təsir göstərir.

Rəqəmsal infrastrukturun inkişafı müasir biznes mühitinin əsas tələblərindən biridir. Elektron ticarət, rəqəmsal ödəniş sistemləri, onlayn xidmətlər, informasiya-kommunikasiya texnologiyaları və avtomatlaşdırılmış idarəetmə sistemləri sahibkarlıq fəaliyyətinin daha sürətli və şəffaf aparılmasına imkan yaradır. Bu sahəyə yönəldilən investisiyalar müəssisələrin rəqəmsal transformasiyasını

sürətləndirir, bazarlara çıxış imkanlarını artırır və müştərilərlə əlaqələrin daha effektiv qurulmasına şərait yaradır. Sahibkarlığa dəstək mərkəzləri, biznes inkubatorları və təlim-konsultasiya xidmətləri isə xüsusilə kiçik və orta sahibkarlığın inkişafında mühüm rol oynayır. Bu mərkəzlər sahibkarlara biznes planların hazırlanması, maliyyə mənbələrinin tapılması, bazar araşdırmalarının aparılması və idarəetmə bacarıqlarının artırılması istiqamətində dəstək göstərir. Bu sahəyə qoyulan investisiyalar sahibkarların bilik və bacarıqlarını artırır, yeni biznes ideyalarının reallaşmasına və innovativ layihələrin inkişafına kömək edir.

Ümumilikdə, cədvəlin təhlili göstərir ki, investisiyalar biznes infrastrukturunun bütün istiqamətlərində inkişafın əsas hərəkətverici qüvvəsi kimi çıxış edir. İnvestisiyaların səmərəli və məqsədyönlü şəkildə yönəldilməsi iqtisadiyyatın şaxələndirilməsinə, sahibkarlıq mühitinin yaxşılaşdırılmasına, regionların inkişafına və ölkənin rəqabət qabiliyyətinin yüksəldilməsinə xidmət edir. Bu baxımdan biznes infrastrukturunun inkişafı davamlı iqtisadi artımın təmin olunmasında mühüm strateji istiqamət hesab olunur.

Nəticə

Müasir mərhələdə biznes infrastrukturunun formalaşmasında investisiyaların rolu olduqca mühümdür. Aparılan təhlillər göstərir ki, nəqliyyat, logistika, enerji, maliyyə-bank sistemi, sənaye parkları, rəqəmsal texnologiyalar və sahibkarlığa dəstək mexanizmləri olmadan biznes mühitinin davamlı inkişafı mümkün deyildir. Bu sahələrin inkişafı isə birbaşa olaraq dövlət və özəl investisiyaların həcmi, səmərəli idarə olunması və düzgün istiqamətləndirilməsi ilə bağlıdır. İnvestisiyalar yeni istehsal və xidmət sahələrinin yaranmasına, mövcud müəssisələrin modernləşdirilməsinə, regionlarda sahibkarlığın inkişafına və qeyri-neft sektorunun genişlənməsinə şərait yaradır. Xüsusilə sənaye parkları, logistika mərkəzləri, texnoparklar və rəqəmsal platformalara yönəldilən sərmayələr iqtisadiyyatın rəqabət qabiliyyətini artırır və innovativ inkişafı sürətləndirir.
Nəticə olaraq qeyd etmək olar ki, biznes infrastrukturunun inkişafı ölkənin ümumi iqtisadi tərəqqisinin əsas şərtlərindən biridir. İnvestisiyaların məqsədyönlü şəkildə cəlb edilməsi və səmərəli istifadəsi sahibkarlıq fəaliyyətinin genişlənməsinə, yeni iş yerlərinin açılmasına, ixrac potensialının artmasına və davamlı iqtisadi inkişafın təmin olunmasına mühüm töhfə verir. Buna görə də gələcəkdə investisiya mühitinin daha da yaxşılaşdırılması, regionlarda infrastruktur layihələrinin genişləndirilməsi və innovativ biznes sahələrinin dəstəklənməsi əsas inkişaf istiqamətləri kimi qiymətləndirilməlidir.

Ədəbiyyat

1. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2021). *Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər*. Prezident.az.
2. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. (2026). *Investment climate*. Economy.gov.az.
3. U.S. Department of State. (2024). *2024 investment climate statements: Azerbaijan*.
4. International Trade Administration. (2026). *Azerbaijan investment climate statement*. U.S. Department of Commerce.
5. World Bank. (2025). *Azerbaijan: Country overview*. World Bank Group.
6. World Bank Group. (2026). *Private participation in infrastructure: Azerbaijan snapshots*. Private Participation in Infrastructure Database.
7. World Bank Group. (2026). *Benchmarking infrastructure development: Azerbaijan economy data*.
8. OECD, European Commission, European Training Foundation, & European Bank for Reconstruction and Development. (2024). *SME policy index: Eastern Partner countries 2024: Building resilience in challenging times*. OECD Publishing.

9. European Union. (2024). *EU business climate report Azerbaijan 2024*. EU-Azerbaijan Business Forum.
10. Schwab, K. (2019). *The global competitiveness report 2019*. World Economic Forum.
11. Todaro, M. P., & Smith, S. C. (2020). *Economic development* (13th ed.). Pearson.
12. Mankiw, N. G. (2021). *Principles of economics* (9th ed.). Cengage Learning.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 276–280
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 276–280
DOI: https://doi.org/10.36719/2706-6185/60/276-280

Assessing Risks in the Bakery Industry: A Comprehensive Analysis of Hazards and Their Impact on Food Safety and Quality Management

Ruslan Sardarov

Abstract. *Bakery products hold a central position in the daily diet, making the systematic identification of production hazards essential for food safety. This study aims to identify the biological, chemical, and physical hazards in pan-baked wheat bread prepared in laboratory conditions from premium-grade wheat flour, examine their sources, and justify critical control points based on HACCP principles. Methods of analysis, comparison, and systematization were applied, along with gravimetric, titrimetric, and Zavyalov procedures for physicochemical assessment. The scientific novelty lies in the stage-wise classification of hazards for a specific bread sample and the development of an HACCP plan with seven critical control points. The practical results can be applied to food safety control systems in bread production enterprises and to educational processes.*

Keywords: *bread safety, HACCP, critical control points, hazard identification, food safety management, wheat bread production*

Azerbaijan State Economics University, Master's student, Baku, Azerbaijan
E-mail: sardarov_r00@mail.ru
Received: 16 December 2025; Accepted: 12 May 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Çörəkbişirmə sənayesində risklərin qiymətləndirilməsi: təhlükələrin hərtərəfli təhlili və onların qida təhlükəsizliyi və keyfiyyət idarəetməsinə təsiri

Ruslan Sərdarov

Xülasə. *Çörək-bulka məhsulları gündəlik qida rasionunda mərkəzi yer tutduğundan, onların istehsalı zamanı təhlükələrin sistemli identifikasiyası qida təhlükəsizliyi üçün vacibdir. Tədqiqatın məqsədi laboratoriya şəraitində əla sort buğda unundan hazırlanmış qəliblənmiş buğda çörəyi nümunəsində bioloji, kimyəvi və fiziki təhlükələrin müəyyənləşdirilməsi, mənbələrinin araşdırılması və HACCP prinsipləri əsasında kritik nəzarət nöqtələrinin əsaslandırılmasıdır.*

Tədqiqatda təhlil, müqayisə və sistemləşdirmə metodları, fiziki-kimyəvi qiymətləndirmə üçün qravimetrik, titrimetrik və Zavyalov üsulları tətbiq edilmişdir. Elmi yenilik konkret çörək nümunəsi üzrə təhlükələrin mərhələlər üzrə təsnifatının verilməsi və 7 kritik nəzarət nöqtəsindən ibarət HACCP planının hazırlanmasıdır. Praktiki nəticələr çörək istehsalı müəssisələrində qida təhlükəsizliyi nəzarət sistemlərinin formalaşdırılmasında və tədris prosesində istifadə oluna bilər.

Açar sözlər: *çörək təhlükəsizliyi, HACCP, kritik nəzarət nöqtələri, təhlükələrin identifikasiyası, qida təhlükəsizliyi idarəetməsi, qəliblənmiş buğda çörəyi*

Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: sardarov_r00@mail.ru
Daxil oldu: 16 Dekabr 2025; Qəbul edildi: 12 May 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Introduction

Food safety has emerged as one of the most consequential scientific-practical fields in the contemporary period, both in terms of protecting public health and ensuring the sustainability of food provision. For the normal functioning of the human organism, it is not sufficient for ingested food to merely possess nutritional value; the product must simultaneously be safe, of acceptable quality, and suitable for consumption. The presence of biological, chemical, or physical hazards in food products may produce serious risks for consumer health, ranging from acute foodborne illnesses to chronic conditions arising from prolonged exposure to low-level contaminants. Accordingly, the early identification, assessment, and management of hazards at every stage of production processes carry particular weight in the food industry. The systematic governance of safety has therefore become inseparable from the everyday operation of food manufacturing enterprises, regulatory authorities, and academic research programmes worldwide (FAO/WHO, 2020; WHO, 2024).

Because bakery products are characterized by daily consumption, the identification and analysis of hazards that may arise during their production hold particular relevance for safeguarding food safety. Bread is consumed regularly by all age categories, occupies a wide place in the dietary regime, and carries strategic significance in food provision. Its production from wheat flour, its role as a source of energy, and its contribution of carbohydrates, plant-derived proteins, mineral substances, and dietary fibre to nutrition reinforce both its social and biological importance. Wheat bread, in particular, has historically served as one of the staple foods of human civilization, and its accessibility and affordability mean that any safety failure carries broad social consequences. At the same time, the wide consumption of bread elevates the safety requirements that apply to it: the presence of hazards in a product consumed daily must be assessed not only as a risk for individual health but also for large consumer populations (Yusifova et al., 2022).

Hazards that may emerge during bread production are conventionally divided into biological (moulds, mycotoxins, pathogenic micro-organisms, spore-forming bacteria), chemical (pesticide residues, heavy metals, acrylamide, residues of cleaning and disinfecting agents), and physical (metal, stone, plastic, wood fragments, packaging residues) groups. Allergenic factors—particularly gluten and various ingredients used in enriched recipes—form an additional category that has gained increasing recognition in recent years. The management of these hazards must be pursued preventively across the entire technological chain, beginning at raw-material reception rather than only at the final stage of production. Reactive testing of finished products, while still relevant, cannot replace the structural integration of safety considerations into each step of manufacturing. Preventive approaches are

increasingly regarded as more efficient in modern food industry practice, both because they reduce waste and recall costs and because they provide stronger protection for the consumer (Kowalska, 2022; Wallace et al., 2018).

Research

The Hazard Analysis and Critical Control Points (HACCP) system emerged precisely from this preventive logic. Originally developed in the United States in the 1960s to ensure the safety of food supplied to space missions, the system has since evolved into a globally accepted framework for food safety management. Its essence lies in anticipating where hazards may form during the technological process and managing them at critical control points, instead of waiting to detect them in the finished product. In multi-stage bakery technologies, this approach allows the source, risk level, and control measures of hazards to be specified consistently across the production sequence. The seven principles of HACCP—conducting hazard analysis, identifying critical control points, establishing critical limits, defining monitoring procedures, prescribing corrective actions, verifying the system, and maintaining documentation—together provide a structured methodology that translates abstract safety concerns into operational practice (Mortimore & Wallace, 2015).

International frameworks reinforce and complement HACCP. The Codex Alimentarius Commission, jointly established by the Food and Agriculture Organization and the World Health Organization, provides general principles of food hygiene that form the regulatory backbone of national food safety systems worldwide. The ISO 22000:2018 standard further integrates HACCP principles with broader management system requirements, addressing communication, system management, and prerequisite programmes for any organization in the food chain. Region-specific bodies such as the European Food Safety Authority generates scientific opinions, monitor pesticide residues and contaminants, and issue recommendations on emerging hazards including acrylamide in thermally processed foods (ISO, 2018; EFSA, 2023; FAO/WHO, 2017).

Within this broader context, the bakery industry presents its own technological and microbiological specificity. Wheat flour, as the principal raw material, is exposed to potential contamination throughout agricultural production, harvesting, storage, and milling. Mycotoxins—secondary metabolites of certain Aspergillus, Penicillium, and Fusarium species—are particularly difficult to manage because several of them are heat-stable and may survive the baking process. Spore-forming bacteria such as Bacillus subtilis can give rise to the characteristic "ropy bread" defect when finished products are stored under inappropriate temperature and humidity conditions. Chemical hazards include not only residues from agricultural inputs but also acrylamide, which forms in the crust during high-temperature baking through the Maillard reaction. Physical hazards typically arise from inadequate sieving of flour, deteriorated equipment, or careless handling of packaging materials (Stoev, 2015; Leite et al., 2023; Gündüz, 2023).

In the Azerbaijani context, the relevance of this subject is reinforced by several converging factors. Bread occupies a significant place in the daily diet of the population, with per-capita consumption traditionally high. Grain and flour products play a central role in food security, and the bakery industry is closely linked to the broader development of the non-oil sector of the economy. Domestic policy emphasizes the formation of a quality raw-material base, the improvement of production technologies, the proper organization of storage and transport conditions, and the implementation of safety systems as fundamental requirements for enhancing the quality of bread products. Recent research conducted in Azerbaijan has highlighted ongoing challenges concerning the ecological and microbiological safety of food and raw materials, indicating that systematic, evidence-based hazard analysis remains both timely and necessary (Yusifova et al., 2022).

Despite the considerable international literature on bakery safety, several research gaps persist. Many studies focus on isolated hazards—mycotoxins, acrylamide, microbial contamination—without integrating these into a coherent stage-by-stage analysis of a specific product. Others discuss HACCP at the level of general principles without translating these into a fully specified plan for a particular bread variety. The present article seeks to address this gap by examining a clearly defined sample—pan-baked wheat bread prepared in laboratory conditions from premium-grade wheat flour—and by reporting hazard identification, risk assessment, and control measures in a structured, reproducible manner.

The aim of this study is to identify and systematically classify, at the level of the technological stages of a specific bread sample, the biological, chemical, and physical hazards that may emerge in pan-baked wheat bread, and to substantiate critical control points and an HACCP plan accordingly. The objectives derived from this aim are: first, to define the formulation and the technological sequence of preparation of the bread sample under controlled laboratory conditions; second, to specify the organoleptic and physicochemical indicators used for product evaluation, together with the methods for their determination; third, to systematize, across raw-material preparation, dough mixing, fermentation, shaping, proofing, baking, cooling, and storage, the potential sources of biological, chemical, and physical hazards; and fourth, to formulate, on the basis of HACCP principles, the corresponding critical control points and control measures. The scientific novelty of the work lies in the stage-by-stage systematization of hazards for a specific bread sample, the explicit linkage of identified hazards to the formulation and the technological regimes, and the elaboration of an HACCP plan that comprises seven critical control points with associated monitoring procedures and corrective actions.

Conclusion

The investigation conducted on a laboratory-prepared pan-baked wheat bread sample shows that the safety of bakery products is shaped by the entire technological sequence rather than by a single stage. The formulation composition (wheat flour, drinking water, baker's yeast, table salt) and the sequence of operations (raw-material preparation, dosing, mixing, fermentation, placement into pans, final proofing, baking, cooling, and storage) jointly determine the quality indicators of the bread. The selected technological regimes—dough initial temperature of approximately 32 °C, fermentation at 31 ± 1 °C for 170 minutes, and baking at 220–230 °C for approximately 30 minutes—play a decisive role in shaping the organoleptic and physicochemical characteristics of the product, including moisture, acidity, porosity, volume, and form stability.

Hazards in the prepared bread sample were systematized into biological (moulds, mycotoxins, pathogenic and conditionally pathogenic bacteria, spore-forming microorganisms), chemical (pesticide residues, heavy metals, residues of detergents and disinfectants, acrylamide), and physical (metal, stone, glass, plastic, and wood impurities) groups. These hazards are linked primarily to raw-material quality, fermentation conditions, baking regime, and cooling and storage stages, demonstrating the necessity of preventive control across the production chain. On the basis of HACCP principles, seven critical control points were determined—raw-material preparation, dosing, dough mixing and fermentation, placement into pans and final proofing, baking, cooling, and storage—and for each one, critical limits, monitoring methods, and corrective actions were defined, resulting in a unified HACCP plan for pan-baked wheat bread production.

The findings indicate that the formation of a safe and high-quality bakery product cannot be guaranteed by the baking stage alone but depends on integrated management of formulation, technological regimes, organoleptic and physicochemical indicators, sanitary-hygienic conditions, and critical control points. The practical results of the work may be applied to the design of food

safety control systems in bread production enterprises, the development of internal guidelines, and the educational process in food engineering and food safety. Future research may extend the present analysis by incorporating broader microbiological and instrumental chemical analyses, comparing different flour grades and dough formulations, and examining the influence of post-baking packaging and storage temperature on combined acrylamide and microbiological spoilage risks.

References

1. Bayramov, E., Akbarova, F., Mustafayeva, K., Gurbanova, S., Babayeva, U., Aslanova, M., & Nabiyev, A. (2022). Çörəyin bioloji dəyərinin və orqanoleptik göstəricilərinin artırılması üçün xurma şirəsinin tətbiqi. *Eastern-European Journal of Enterprise Technologies, 6*, 69–88.
2. FAO/WHO Codex Alimentarius Commission. (2017). *Code of practice for the reduction of acrylamide in foods (CXC 67-2009, Rev. 2017)*. FAO/WHO.
3. International Organization for Standardization. (2018). *ISO 22000:2018 — Food safety management systems — Requirements for any organization in the food chain*. ISO.
4. Kashi, G. (2024). İranın Abhar şəhərində çörəkbişirmə müəssisələrində kif və maya göbələklərinin tədqiqi. *Heliyon, 10*(18), e37956.
5. Kowalska, A. (2022). Implementation of Hazard Analysis and Critical Control Point (HACCP) on bread bakery production process. *E3S Web of Conferences, 364*, 04022. https://doi.org/10.1051/e3sconf/202236404022
6. Leite, M., Freitas, A., Barbosa, J., & Ramos, F. (2023). Mycotoxins in cereal-based products and their impact on the health of consumers: A comprehensive review. *Foods, 12*(23), 4328. https://doi.org/10.3390/foods12234328
7. Mortimore, S. E., & Wallace, C. A. (2015). *HACCP: A food industry briefing* (2nd ed.). John Wiley & Sons.
8. Omarov, Y., Bayramov, E., Haciyeva, A., Gurbanova, S., Aslanova, M., İsmayılov, M., & Nabiyev, A. (2024). İtburnu şirəsi əlavə olunmuş çörəyin istehsalı zamanı qida maddələrində baş verən dəyişikliklərin xarakterinin və payının müəyyən edilməsi. *Eastern-European Journal of Enterprise Technologies, 1*, 6–19.
9. Sami, M., Abedi, R., Mohammadi, R., & Mirlohi, M. (2020). İranın İsfahan şəhərindən götürülmüş buğda unu, xəmir və çörək nümunələrində mikrobioloji və göbələk çirklənməsinin tədqiqi. *Egyptian Journal of Veterinary Sciences, 51*(2), 163–170.
10. Sattarov, K., Jankurazov, A., & Khazratkulov, J. (2024). Çörək-bulka məhsullarında qida əlavələrindən istifadə. *Scientific Horizons, 27*(11), 118–128.
11. Wallace, C. A., Sperber, W. H., & Mortimore, S. E. (2018). *Food safety for the 21st century: Managing HACCP and food safety throughout the global supply chain* (2nd ed.). Wiley-Blackwell.
12. Yusifova, M., Nasrullayeva, G., Omarova, E., Magerramova, M., & Kurbanova, A. (2022). Azərbaycanda qida və xammal materiallarının ekoloji və mikrobioloji təhlükəsizliyi üzrə aktual problemlər. *Nutrition & Food Science, 52*(3), 515–522.
13. Zhanbolat, A., Tungyshbayeva, U., Iskakova, Z., Mardar, M., Uazhanova, R., Iztileuov, M., et al. (2025). *Lactiplantibacillus plantarum* ilə buğda çörəyinin fermentasiyası: Müxtəlif qablaşdırma temperaturlarında akrilamid və mikrobioloji xarab olma dəyişikliklərinin tədqiqi. *Fermentation, 11*(12), 686.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 281–286
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 281–286
DOI: https://doi.org/10.36719/2706-6185/60/281-286

Standartlaşdırılmış testlərdə oxu bacarığının yoxlanılması (Kembric PET, FCE VƏ DİM test nümunələri əsasında)

Ruqəyya Təhməzli

Xülasə. *Bu məqalədə standartlaşdırılmış testlər çərçivəsində oxu bacarığının qiymətləndirilməsi Kembric imtahanları (PET, FCE) və DİM test nümunələri əsasında müqayisəli şəkildə təhlil olunur. Araşdırmada vurğulanır ki, oxu bacarığı təkcə mətnin səthi anlaşılması ilə məhdudlaşmır; bu proses eyni zamanda informasiyanın seçilməsi, məntiqi təhlili və düzgün interpretasiyasını da əhatə edən çoxşaxəli bir fəaliyyət kimi çıxış edir. Məqalədə xüsusilə "skimming" (ümumi məzmunu sürətli anlama) və "scanning" (konkret məlumatın axtarılması) strategiyalarının test tapşırıqlarında oynadığı rol geniş şəkildə izah edilir və bu üsulların şagirdlərin həm ümumi ideyanı, həm də detalları mənimsəməsinə necə təsir göstərdiyi açıqlanır. Nəticələr göstərir ki, Kembric imtahanları daha çox analitik düşünmə, mətnin dərin qavranılması və nəticə çıxarma bacarıqlarını ölçməyə yönəlib. DİM testləri isə əsasən faktoloji məlumatların müəyyənləşdirilməsi və yadda saxlanmasına üstünlük verir. Ümumilikdə isə belə nəticəyə gəlinir ki, oxu bacarığının düzgün qiymətləndirilməsi həm nəzəri biliklərin, həm də analitik düşünmə qabiliyyətinin inkişafında mühüm rol oynayır. Bu baxımdan, müxtəlif tipli test tapşırıqlarının tətbiqi şagirdlərin oxu strategiyalarını daha effektiv şəkildə inkişaf etdirməyə imkan yaradır. Eyni zamanda, oxu bacarığının kompleks şəkildə qiymətləndirilməsi təhsil sistemində daha balanslı və obyektiv nəticələrin əldə olunmasına şərait yaradır.*

Açar sözlər: *standartlaşdırılmış testlər, oxu bacarığı, mətnin anlaşılması, qiymətləndirmə, oxu strategiyaları*

Azərbaycan Dövlət Pedaqoji Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: thmzlir1214@gmail.com
Daxil oldu: 23 Dekabr 2025; Qəbul edildi: 15 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Assessment of Reading Skills in Standardized Tests (Based on Kembric PET, FCE and DIM Test Samples)

Ruqayya Tahmazli

Abstract. *This article presents a comparative analysis of the assessment of reading skills within standardized testing frameworks, based on Cambridge exams (PET, FCE) and DIM test samples. The study emphasizes that reading comprehension is not limited to surface-level understanding of a text; rather, it is a multifaceted process that also involves the selection of information, logical analysis, and accurate interpretation.*

Particular attention is given to the roles of "skimming" (rapidly grasping the general idea) and "scanning" (searching for specific information) strategies in test tasks, explaining how these techniques help students understand both the overall message and detailed elements of a text. The findings indicate that Cambridge exams are more focused on measuring analytical thinking, deep comprehension, and inferencing skills. In contrast, DIM tests mainly prioritize the identification and retention of factual information. Overall, it is concluded that the proper assessment of reading skills plays a crucial role in developing both theoretical knowledge and analytical thinking abilities. In this regard, the use of diverse types of test tasks enables students to develop their reading strategies more effectively. At the same time, a comprehensive evaluation of reading skills contributes to achieving more balanced and objective outcomes within the education system.

Keywords: *standardized tests, reading skills, text comprehension, assessment, reading strategies*

Azerbaijan State Pedagogical University, Master's student, Baku, Azerbaijan
E-mail: thmzlir1214@gmail.com
Received: 23 December 2025; Accepted: 15 April 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Müasir dövrdə qloballaşma proseslərinin sürətlənməsi və çoxdilli mühitin geniş yayılması xarici dillərin öyrənilməsini daha da vacib etmişdir. Dil artıq yalnız ünsiyyət vasitəsi kimi deyil, həm də fərdin cəmiyyətə inteqrasiyası, akademik nailiyyətləri və gələcək peşə fəaliyyətində uğur qazanması üçün əsas amillərdən biri kimi qiymətləndirilir. Bu baxımdan dil bacarıqları – dinləmə, danışıq, oxu və yazı – qarşılıqlı əlaqədə inkişaf etdirilməli və kompleks şəkildə qiymətləndirilməlidir. Xüsusilə oxu bacarığı təhsil sistemində mühüm yer tutur, çünki o, yalnız mətnin səthi qavranılmasını deyil, həm də informasiyanın təhlilini, mənalandırılmasını və praktik tətbiqini əhatə edir. Dil bacarıqları içərisində oxu, dinləmə ilə birlikdə reseptiv bacarıq kimi çıxış edir və digər – danışıq və yazı kimi məhsuldar bacarıqların inkişafına zəmin yaradır. Akademik mühitdə oxu bacarığı biliklərin mənimsənilməsinin əsas vasitəsi hesab olunur və əldə olunan informasiyanın sonradan yazılı və şifahi formada ifadəsinə imkan yaradır. Bu səbəbdən oxunun səmərəli şəkildə öyrədilməsi və inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir.

Oxu fəaliyyəti müəllifin təqdim etdiyi ideyaların anlaşılması və yazılı mətnlərdəki məzmunun mənimsənilməsi kimi mürəkkəb idrak prosesidir. Bu proses zamanı oxucu sözləri tanıyır, cümlə strukturlarını dərk edir və əldə etdiyi məlumatları əvvəlki bilikləri ilə əlaqələndirir (Grabe, 2021, s. 110–150). Bu baxımdan oxu yalnız passiv qəbul prosesi deyil, aktiv düşünmə və analiz fəaliyyətidir. Oxu bacarığının formalaşdırılması şagirdlərin ümumi akademik uğurlarına birbaşa təsir göstərir, çünki müxtəlif mənbələrdən informasiya əldə etmək, əsas ideyanı müəyyənləşdirmək və mətn üzərində analitik düşünmək müasir təhsil sisteminin əsas tələblərindəndir. Oxu bacarığının inkişaf etdirilməsi üçün müxtəlif strategiyalar tətbiq olunur ki, bunlar arasında skimming və scanning metodları xüsusi yer tutur. Ümumi baxış (skimming) mətnin ümumi məzmununu və əsas ideyasını qısa müddətdə müəyyənləşdirməyə imkan verən sürətli oxu texnikasıdır və geniş həcmli materiallarla işləyərkən effektiv hesab olunur. Məlumat axtarışı (scanning) isə mətn daxilində konkret məlumatların – adlar, tarixlər və ya faktların – sürətli şəkildə tapılmasına yönəlmiş oxu üsuludur və bu zaman oxucu yalnız axtardığı informasiya üzərində fokuslanır (Gulo, 2025). Bu strategiyalar oxu prosesini daha məqsədyönlü və səmərəli edir, eyni zamanda vaxtdan optimal istifadəni təmin edir.
Oxu bacarığının formalaşması və qiymətləndirilməsi zamanı mətnlə aktiv işləmək əsas şərtlərdən biri hesab olunur. Bu yanaşmaya görə, oxu prosesi sadəcə məlumatı qəbul etmək deyil, həm də onu

anlamaq, təhlil etmək və mənalandırmaq kimi kompleks fəaliyyətləri əhatə edir (Nuttall, 2005). Oxu prosesinin daha effektiv olması üçün müxtəlif strategiyaların tətbiqi vacibdir; xüsusilə "skimming" və "scanning" üsulları oxuculara həm ümumi məzmunu tez qavramağa, həm də konkret məlumatları asanlıqla tapmağa şərait yaradır (Grellet, 1981). Bundan əlavə, dil tədrisində istifadə olunan metodlar oxu bacarığının inkişafına birbaşa təsir göstərir və bu bacarıq passiv qəbul prosesi kimi deyil, məna quruculuğuna əsaslanan aktiv fəaliyyət kimi qəbul edilir (Nunan, 1991). Müasir pedaqoji yanaşmalar oxu bacarığını analitik və tənqidi düşünmə ilə əlaqələndirir və bu istiqamətdə inkişafı əsas tədris məqsədlərindən biri kimi önə çəkir (Richards və Rodgers, 2001). Oxu fəaliyyətinin uğurlu icrası həm söz səviyyəsində tanıma kimi aşağı səviyyəli, həm də mətnin ümumi mənasını çıxarma və interpretasiya kimi yüksək səviyyəli bacarıqların birlikdə işləməsini tələb edir (Grabe, 2009). Bu səbəbdən qiymətləndirmə zamanı istifadə olunan test tapşırıqları yalnız faktların yoxlanılması ilə kifayətlənməməli, eyni zamanda şagirdlərin məntiqi nəticə çıxarma və mətn əsasında fikir formalaşdırma bacarıqlarını da ölçməlidir (Alderson, 2000).

Bu məqalənin əsas məqsədi standartlaşdırılmış testlərdə oxu bacarığının yoxlanılması məsələsini Kembric və DİM test nümunələri əsasında müqayisəli şəkildə təhlil etmək, istifadə olunan tapşırıq növlərinin xüsusiyyətlərini müəyyənləşdirmək və onların şagirdlərin oxu bacarıqlarının inkişafına təsirini araşdırmaqdır.

Tədqiqat

Müasir dövrdə dil bacarıqlarının inkişafı və qiymətləndirilməsi məsələsi xüsusilə standartlaşdırılmış test sistemləri çərçivəsində aktual tədqiqat istiqamətlərindən biri kimi çıxış edir. Oxu bacarığı bu sistemlərdə əsas komponentlərdən biri olmaqla, yalnız mətnin başa düşülməsi deyil, həm də informasiyanın seçilməsi, təhlili və tətbiqi kimi kompleks bacarıqları əhatə edir. Bu baxımdan oxu strategiyalarının tədris prosesində tətbiqi və onların test tapşırıqlarında necə əks olunduğunun araşdırılması xüsusi əhəmiyyət daşıyır.

Standartlaşdırılmış testlərdə oxu bacarığının yoxlanılması zamanı istifadə olunan əsas yanaşmalardan biri skimming və scanning strategiyalarına əsaslanır. Ümumi baxış strategiyası öyrənənlərin mətnin ümumi məzmununu və əsas ideyasını qısa zaman ərzində müəyyənləşdirməsinə imkan yaradır. Bu prosesdə başlıq, giriş və nəticə hissələrinin nəzərdən keçirilməsi, eləcə də açar sözlərin müəyyənləşdirilməsi mühüm rol oynayır. Bu tip tapşırıqlar testlərdə daha çox "main idea", "heading matching" və ümumi məzmunun müəyyənləşdirilməsinə yönəlmiş suallar vasitəsilə təqdim olunur (Harmer, 2007, s. 201–220). Digər tərəfdən, məlumat axtarışı strategiyası konkret məlumatların sürətli şəkildə tapılmasına xidmət edir və standartlaşdırılmış testlərdə geniş istifadə olunur. Bu strategiya əsasında hazırlanan tapşırıqlarda öyrənənlərdən mətn daxilində spesifik faktları, tarixləri, adları və ya detalları müəyyənləşdirmək tələb olunur. Belə tapşırıqlar oxucunun seçici diqqətini və informasiyanı sürətli şəkildə emal etmə bacarığını qiymətləndirir (Brown, 2004, s. 95–120). Vaxt məhdudiyyəti ilə müşayiət olunan bu tip tapşırıqlar testlərin obyektivliyini və ölçmə dəqiqliyini artıran mühüm elementlərdən biridir (Nation, 2009).

Bununla yanaşı, oxu bacarığının qiymətləndirilməsi prosesində müəyyən çətinliklər də nəzərə çarpır. Xüsusilə lüğət ehtiyatının məhdudluğu və mətnin dərin mənasının qavranılmasında yaranan problemlər bəzi hallarda öyrənənlərin nəticələrinə təsir göstərir. Eyni zamanda, bəzi öyrənənlərin yalnız səthi məlumatlara fokuslanması onların mətnin əsas ideyasını tam şəkildə formalaşdırmasına mane olur. Bu isə göstərir ki, test tapşırıqları yalnız nəticəni ölçməklə kifayətlənməməli, həm də bacarıqların inkişafını dəstəkləyən strukturda qurulmalıdır.

Kembric testləri nümunəsində

Kembric tərəfindən təşkil olunan PET (Preliminary English Test) və FCE (First Certificate in English) imtahanları ingilis dili biliklərinin qiymətləndirilməsi sahəsində geniş istifadə olunan beynəlxalq testlərdir. Bu imtahanlar öyrənənlərin dil bacarıqlarını – oxu, yazı, dinləmə və danışıq sahələrində – kompleks şəkildə yoxlamağa yönəlmişdir. PET əsasən orta səviyyəli (B1) dil biliklərini qiymətləndirərkən, FCE daha yüksək, yuxarı orta (B2) səviyyədə bacarıqları ölçmək üçün nəzərdə tutulmuşdur.

Bu imtahanlarda təqdim olunan tapşırıqlar real həyatda rast gəlinən situasiyalara uyğun hazırlanır və müxtəlif mətn növlərini əhatə edir. Xüsusilə oxu hissəsində şagirdlərdən həm mətnin ümumi məzmununu anlamaq, həm də konkret məlumatları müəyyənləşdirmək tələb olunur. Bununla yanaşı, bu testlər yalnız faktların qavranılmasını deyil, həm də mətn üzərində düşünmə, məna çıxarma və informasiyanı düzgün şərh etmə kimi bacarıqları da qiymətləndirir**.** PET (B1) imtahanının oxu bölməsi adətən 5 hissədən ibarət olur və müxtəlif tipli tapşırıqları özündə birləşdirir. Bu hissələrə qısa mətnlər üzrə çoxseçimli suallar, uyğunlaşdırma tapşırıqları, daha geniş mətnlər üzərində işləmə, boşluq doldurma və söz tapma kimi fəaliyyətlər daxildir. Bu cür quruluş şagirdlərin həm mətnin ümumi məzmununu qavrama, həm də konkret məlumatları seçmə və dil vahidlərini anlama bacarıqlarını yoxlamağa imkan yaradır.

FCE (B2) imtahanında isə oxu bölməsi daha geniş və mürəkkəb formada təşkil olunmuşdur və 7 hissədən ibarətdir. Bu hissələrdə çoxseçimli suallar, boşluq doldurma, söz düzəltmə, cümlə transformasiyası, paraqrafların uyğunlaşdırılması və müxtəlif matching tapşırıqları yer alır. Belə struktur vasitəsilə yalnız oxuyub-anlama deyil, eyni zamanda leksik və qrammatik biliklər, eləcə də mətn üzərində analiz aparmaq və nəticə çıxarma bacarıqları daha əhatəli şəkildə qiymətləndirilir.

Pet nümunəsi

Reading			
Part	**Task Type and Format**	**Task Focus**	**Number of Questions**
1	Three-option multiple choice. Five short discrete texts: signs and messages, postcards, notes, emails, labels, etc., plus one example.	Reading real-world notices and other short texts for the main message.	5
2	Matching. Five items in the form of descriptions of people to match to eight short adapted-authentic texts.	Reading multiple texts for specific information and detailed comprehension.	5
3	True/False. Ten items with an adapted-authentic long text.	Processing a factual text. Scanning for specific information while disregarding redundant material.	10
4	Four-option multiple choice. Five items with an adapted-authentic long text.	Reading for detailed comprehension: understanding attitude, opinion and writer purpose. Reading for gist, inference and global meaning.	5
5	Four-option multiple-choice cloze. Ten items, plus an integrated example, with an adapted-authentic text drawn from a variety of sources. The text is of a factual or narrative nature.	Understanding of vocabulary and grammar in a short text, and understanding the lexico-structural patterns in the text.	10

Cədvəl PET imtahanının oxu bölməsinin strukturunu sistemli şəkildə təqdim edir və hər hissənin konkret bacarıqları yoxlamağa yönəldiyini göstərir. Birinci hissədə gündəlik həyatla bağlı qısa mətnlər vasitəsilə əsas ideyanın anlaşılması yoxlanılır, ikinci hissədə isə uyğunlaşdırma tapşırıqları ilə detallı məlumat tapma bacarığı qiymətləndirilir. Üçüncü hissə faktoloji mətn üzərində doğru/yanlış müəyyən etməklə scanning və məlumatın seçilməsi bacarığını ölçür. Dördüncü hissə çoxseçimli suallar vasitəsilə daha dərin anlama, müəllifin mövqeyini və ümumi məzmunu qavramağı tələb edir. Beşinci hissə isə boşluq doldurma formatında leksik və qrammatik bilikləri yoxlayaraq mətnin strukturunu anlama qabiliyyətini qiymətləndirir. Ümumilikdə bu struktur oxu bacarığını mərhələli və kompleks şəkildə ölçməyə yönəlmişdir (Cambridge, 2010, s. 6).

DİM testləri nümunəsində

11-ci sinif buraxılış imtahanlarında (DİM) ingilis dili oxu mətni adətən standartlaşdırılmış qiymətləndirmə çərçivəsində təqdim olunur və şagirdlərin mətnin ümumi məzmununu anlama, əsas fikri müəyyən etmə və konkret məlumatları tapma bacarıqlarını yoxlamağa yönəlir. Mətnlər çox vaxt

orta həcmli olur və həm gündəlik, həm də akademik mövzuları əhatə edir. Onların strukturu aydın və məntiqi ardıcıllıqla qurulur ki, bu da şagirdin məlumatı sürətlə qavramasını və mətndəki əsas və köməkçi fikirləri fərqləndirməsini asanlaşdırır. DİM tərəfindən hazırlanmış metodik göstərişlərə əsasən, oxu tapşırıqları şagirdlərin mətn üzrə məlumatı anlama və fərqləndirmə bacarıqlarını yoxlamağa yönəlmişdir (DİM, 2013). Bu hissə əsasən oxuyub-anlama strategiyalarının (skimming və scanning) tətbiqini ölçən tapşırıqlarla müşayiət olunur.

DİM test nümunəsi
Read the passage and answer questions 23–30.
1. Tasmania, the smallest island state of Australia, is home to about half a million people. Most of the population lives in the southeast and the north. Hobart, the capital of the state, is the largest city and the main port. Tasmania was discovered by the Dutch explorer Abel Tasman in 1642. He called the island "Van Diemen's Land" in honour of a governor-general. At that time, several thousand people were living on the island.
2. The British founded the first colony on this island in 1803. Many of the Europeans living there were immigrants from Great Britain. Later, a number of conflicts between the Europeans and the native people began and led to the Black Wars. When those wars ended, there were no native people left on the island, and it was governed by the Europeans. As a result, the number of Europeans increased significantly on the island. In 1856, these Europeans formed their own government, renamed the island, and called it Tasmania after the explorer Tasman. A few years later, Tasmania became a state of Australia.
3. Today, Tasmanians work in service industries such as communications, IT, and tourism. Besides this, they are also skilled in producing a range of goods that play a key role in the economy of the state (DİM, 2025).

Verilən mətn üç hissəli struktur üzərində qurulmuş tarixi–informativ mətndir: birinci paraqrafda Tasmaniyanın coğrafi mövqeyi, əhalisi və kəşf olunması haqqında ümumi məlumat verilir, ikinci paraqrafda koloniyalaşma prosesi, yerli əhali ilə münaqişələr və siyasi dəyişikliklər xronoloji ardıcıllıqla izah olunur, üçüncü paraqrafda isə müasir dövrdə iqtisadi fəaliyyət və əsas məşğulluq sahələri təqdim edilir. Mətnin çətinlik dərəcəsi orta səviyyəyə uyğundur, çünki burada tarixi terminlər, parafraz olunmuş ifadələr və çoxsaylı faktoloji məlumatlar istifadə olunmuşdur və bu da oxucudan həm ümumi mənanı, həm də detalları izləmə bacarığı tələb edir. Suallar isə iki əsas istiqamətdə qurulmuşdur: 23–26 nömrəli qapalı suallar mətnin əsas ideyasını anlama, konkret məlumatı tapma və verilən fikrin doğruluğunu qiymətləndirmə bacarıqlarını ölçür, 27–30 nömrəli açıq suallar isə sözün mənasını kontekstdən çıxarma, sinonim tapma, cümləni dəyişdirərək tamamlama və şəxsi fikir ifadə etmə kimi həm reseptiv, həm də produktiv dil bacarıqlarını yoxlayır. Ümumilikdə bu test oxucunun skimming, scanning, leksik bilik və analitik düşünmə bacarıqlarını kompleks şəkildə qiymətləndirməyə yönəlmişdir.

Nəticə

Aparılan təhlil göstərir ki, standartlaşdırılmış testlərdə oxu bacarığının qiymətləndirilməsi yalnız mətnin ümumi mənasının anlaşılması ilə məhdudlaşmır, eyni zamanda informasiyanın seçilməsi, təhlili və interpretasiyası kimi daha kompleks bacarıqları da əhatə edir. Kembric (PET və FCE) və DİM imtahan nümunələrinin müqayisəsi onu göstərir ki, hər iki sistem oxu bacarığını müxtəlif yanaşmalarla ölçsə də, məqsəd şagirdlərin həm ümumi, həm də detallı anlama qabiliyyətini yoxlamaqdır. Kembric testlərində tapşırıqlar daha çox analitik düşünmə və dərin mətn interpretasiyasına yönəldiyi halda, DİM imtahanlarında əsasən faktoloji məlumatların tapılması və əsas məzmunun qavranılması ön plandadır.

Ümumilikdə, skimming və scanning kimi oxu strategiyaları bu prosesdə əsas rol oynayır və şagirdlərin mətnlə daha sürətli və məqsədyönlü işləməsinə imkan yaradır. Bu baxımdan, oxu bacarığının effektiv qiymətləndirilməsi həm biliklərin yoxlanılması, həm də analitik düşünmə və mətnlə işləmə bacarıqlarının inkişafını dəstəkləyən bir yanaşma kimi qurulmalıdır. Bu nəticələrə əsasən, tədris prosesində oxu strategiyalarının sistemli şəkildə tətbiqi genişləndirilməli, test tapşırıqları yalnız faktların yoxlanılması ilə məhdudlaşdırılmamalı, həm də məntiqi nəticə çıxarma və dərin anlama bacarıqlarını ölçən formada hazırlanmalıdır. Eyni zamanda, tapşırıqların müxtəlifləşdirilməsi və səviyyəyə uyğun oxu materiallarının təqdim olunması oxu bacarığının daha effektiv inkişafına töhfə verə bilər.

Ədəbiyyat

1. Alderson, J. C. (2000). *Assessing reading*. Cambridge University Press.
2. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi. (2013). *Test tapşırıqlarının tərtibi və qiymətləndirilməsi üzrə metodik göstərişlər*. DİM.
3. Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi. (2025). *XI sinif buraxılış imtahanı: İngilis dili (oxu tapşırıqları)*. DİM.
4. Brown, H. D. (2004). *Language assessment: Principles and classroom practices*. Pearson Education, 95–120.
5. Cambridge University Press. (2010). *Cambridge preliminary English test 6: Reading test samples*, 6.
6. Grabe, W. (2009). *Reading in a second language: Moving from theory to practice*. Cambridge University Press.
7. Grabe, W., & Stoller, F. L. (2021). *Teaching and researching reading*. Routledge, 110–150.
8. Grellet, F. (1981). *Developing reading skills*. Cambridge University Press.
9. Gulo, H. B., et al. (2025). An analysis of skimming and scanning strategies in teaching reading skill used by the English teacher at the eighth grade. *Jurnal Pendidikan dan Sastra Inggris, 5*(3).
10. Harmer, J. (2007). *The practice of English language teaching*. Pearson Longman, 201–220.
11. Nation, I. S. P. (2009). *Teaching ESL/EFL reading and writing*. Routledge.
12. Nunan, D. (1991). *Language teaching methodology*. Prentice Hall.
13. Nuttall, C. (2005). *Teaching reading skills in a foreign language*. Macmillan.
14. Richards, J. C., & Rodgers, T. S. (2001). *Approaches and methods in language teaching*. Cambridge University Press.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 287–292
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 287–292
DOI: https://doi.org/10.36719/2706-6185/60/287-292

7-9 yaşlı qızların fiziki sağlamlıq göstəricilərinin yaxşılaşmasına təsir göstərən üzgüçülük məşqləri metodikasının xüsusiyyətləri

Vəkil Vəkilov

Xülasə. *Məqalədə 7-9 yaşlı qızların fiziki sağlamlıq göstəricilərinin yaxşılaşmasına təsir göstərən üzgüçülük məşqlərinin metodik xüsusiyyətləri təhlil edilir. Tədqiqatda məşqlərin əvvəlcə quruda, sonra isə suda icrası, nəfəs və bədən koordinasiyasının formalaşdırılması, fərdi yanaşma və təhlükəsizlik qaydalarına riayət edilməsinin önəmi vurğulanır. Məqalədə həmçinin oyunların üzmə bacarıqlarının inkişafında rolu, uşaqların su mühitinə adaptasiyası, koordinasiya, ritmik hərəkətlər və emosional motivasiyanın artırılması nəzərdən keçirilir. Müxtəlif oyun nümunələri – "Qurbağaların yarışı", "Kim daha hündür?", "Tora", "Çapaqlar və qızılbalıq", "Oxlar" – vasitəsilə uşaqların hərəkət bacarıqları və suda sərbəstliyi tədqiq olunur. Məqalə metodik göstərişlər və praktik tövsiyələr əsasında məktəb yaşlı qızların fiziki inkişafına töhfə verən məşq proqramının hazırlanmasına yönəlib.*

Açar sözlər: *üzgüçülük, məktəbyaşlı uşaqlar, suda oyunlar, adaptasiya, təhlükəsizlik, qızlar*

Azərbaycan İdman Akademiyası, Bakı, Azərbaycan
E-poçt: vakil.vakilov.2024@sport.edu.az
Daxil oldu: 5 Yanvar 2026; Qəbul edildi: 11 May 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Features of Swimming Training Methodology Affecting the Improvement of Physical Health Indicators in Girls Aged 7-9

Vakil Vakilov

Abstract. *The article analyzes the methodological features of swimming training that contribute to improving the physical health indicators of girls aged 7-9. The study emphasizes the importance of conducting exercises first on land and then in water, developing breathing and body coordination, applying an individual approach, and adhering to safety rules. The role of games in developing swimming skills, children's adaptation to the aquatic environment, coordination, rhythmic movements, and emotional motivation is also considered. Through various game examples – "Frog Race," "Who is Higher?," "Net," "Paddles and Goldfish," "Arrows" – children's motor skills and freedom of movement in water are studied.*

The article is aimed at designing a training program that contributes to the physical development of school-aged girls based on methodological guidelines and practical recommendations.

Keywords: *swimming, school-aged children, water games, adaptation, safety, girls*

Azerbaijan Sports Academy, Baku, Azerbaijan
E-mail: vakil.vakilov.2024@sport.edu.az
Received: 5 January 2026; Accepted: 11 May 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

İlk tanışlıq məşğələsində iştirakçılar üzgüçülük kursunun proqramı, onun spesifik xüsusiyyətləri, hovuzda məşğələlərə dair tələblər, geyim forması, təhlükəsizlik qaydaları və məşğələlərin keçirilmə şərtləri ilə tanış edilməlidir. Məşqçi, məşğul olanların fərdi xüsusiyyətlərinə, eləcə də su mühitində yüklənmə və məşğələlərə icazə ilə bağlı xüsusi tibbi göstərişlərin olub-olmamasına diqqət yetirməlidir. Üzgüçülükdə yüksək nəticələrin əldə edilməsinin əsas şərtlərindən biri ritmik nəfəsalma bacarığının formalaşdırılmasıdır. Bu zaman suya nəfəsvermə düzgün həyata keçirilməli, baş yalnız yana – çənə çiyinə doğru istiqamətlə çevrilməli, nəfəsalma çox dərinə olmayıb, nəfəsvermə isə tam şəkildə olmalıdır. Tanışlıq mərhələsinin əsas məqsədi öyrənilən hərəkət, fəaliyyət və ya üzgüçülük üsulu (qolların və ya ayaqların hərəkətləri, döngələrin icrası və s.) haqqında düzgün təsəvvür yaratmaqdan ibarətdir.

Hərəkətlərin və fəaliyyətlərin nümayişi əsas metodiki üsullardan biridir. Bu zaman məşqçi hərəkətlərin və nəfəsin icra keyfiyyətinə nəzarət edir və proses zamanı zəruri düzəlişlər edir. Suda uzanma bacarığının əsas vəzifəsi bədənin həm qarnı üstə, həm də belüstü vəziyyətdə üfüqi şəkildə saxlanılması vərdişinin formalaşdırılmasıdır (Barbosa və b., 2021, s. 15). Hərəkətlərin daha səmərəli mənimsənilməsi, sürətli və etibarlı yadda qalması üçün hərəkət dövrünün ayrı-ayrı hissələrinin icra üsulu və tempi xüsusi diqqət tələb edir. Həmçinin üzgüçülük üsullarını və hərəkətlərini necə mənimsəmələrindən asılı olaraq öyrənənlərin fərqləndirilməsi vacibdir (Platonov, 2021, s. 47).

Tədqiqat

Üzgüçülük məşğələlərinə başlamazdan əvvəl köməkçi inventar hazırlanmalıdır: üzmə lövhələri, rezin üzüklər və oyuncaqlar, üzmə üçün dəstək kəmərləri, rezin toplar. Yardım göstərmək məqsədilə 3-3,5 metr uzunluğunda yüngül çubuq da nəzərdə tutulmalıdır (World Aquatics, 2023, s. 37). Məşğələlərdən əvvəl uşaqlar tibbi müayinədən keçirlər. Əgər həkim sağlamlıq vəziyyətinə görə məşğələ sayını və suda qalma müddətini məhdudlaşdırırsa, bu göstərişlər mütləq icra edilməlidir. Təbii su hövzələrində üzmə təliminə yalnız suyun temperaturu 22-24°C olduqda və hava günəşli, küləksiz olduqda icazə verilir. Havanın soyuması zamanı uşaqların suda qalma müddəti azaldılmalıdır ki, bu da bəzən məşğələ planının tam icrasına imkan vermir. Daha əlverişli hava şəraitində uşaqların suda qalma müddətinin artırılması ilə bu çatışmazlıq kompensasiya edilə bilər. Su və hava kifayət qədər isti olduqda məşğələlərin gündəlik 20-25 dəqiqə olmaqla keçirilməsi, daha sonra isə müddətin artırılması tövsiyə olunur. Suda optimal əzələ yüklənməsi uşağın sağlamlıq vəziyyətindən, fiziki və üzmə hazırlığından, həmçinin fərdi xüsusiyyətlərindən asılıdır. Suda 10-12 dəqiqədən sonra üşütmə hiss edən uşaqlar ayrıca qrupa ayrılır və onların suda qalma vaxtı qısaldılır (Seifert və Chollet, 2020, s. 74).

Uşaqların suda daha uzun müddət qala bilməsi və soyuqlamaması üçün onların bərkidilməsi, temperatur dəyişikliyinə qarşı dözümlülüyünün artırılması zəruridir. Bunun üçün suda məşğələlərə başlamazdan 1,5-2 ay əvvəl hava vannaları qəbul edilməli, tədricən temperaturu aşağı salınan su ilə bədən silinməlidir. Üzgüçülük məşğələlərinə yeməkdən ən azı 1,5-2 saat sonra başlamaq olar. Bədəni tərli vəziyyətdə suya girmək olmaz. Əvvəlcə sərinləmək və kölgədə dincəlmək məsləhətdir. Təhlükəsizlik tədbirlərinə əməl etməmək, fiziki imkanları olduğundan artıq qiymətləndirmək düzgün deyil. Tanımadığınız yerlərdə suya tullanmaq yolverilməzdir və ağır nəticələrə səbəb ola bilər (International Life Saving Federation, 2022, s. 59).

Üşütmə, dodaqların göyərməsi, süstlük və başgicəllənməsi əlamətləri müşahidə olunduqda məşğələ dərhal dayandırılmalıdır, çünki suda daha uzun müddət qalmaq uşağın sağlamlığına mənfi təsir göstərə bilər. Üzmə məşğələsi bitdikdən sonra uşaq tam qurulanmalıdır, xüsusilə baş və qulaqların yaxşı qurulanması vacibdir. Hava sərin olduqda dərinin frotte dəsmal ilə qızarıncaya qədər sürtülməsi, sonra isə bədənin əllə masaj edilərək xoş istilik duyğusunun yaranması tövsiyə olunur. Əgər bu tədbirlər kömək etmirsə və uşaq üşüməyə davam edirsə, idman geyimi geydirilməli və quruda bərpaedici hərəkətlər yerinə yetirilməlidir (Costill və b., 2020, s. 66).

Uşaqların üzgüçülüyə öyrədilməsi zamanı pedaqogikanın didaktik prinsipləri (şüurluluq, əlçatanlıq, sistemlilik və ardıcıllıq, əyanilik) və fiziki tərbiyə nəzəriyyəsinin metodiki müddəaları (yükün tədricən artırılması, təkrarlılıq prinsipi) nəzərə alınmalıdır. Təcrübədə fərdiləşdirmə prinsipi geniş tətbiq edilir: uşağın orqanizmi tam formalaşmadığından, onun qabiliyyətləri, meyilləri və ən əsası fiziki imkanları nəzərə alınmalıdır (Abdurahmanov, 2021, s. 93).

Üzgüçülüyə başlamazdan əvvəl uşaqların üzgüçülərin məşqlərini izləməsi, müxtəlif üzmə üslublarının texnikası ilə tanış olması məqsədəuyğundur. Onlar suda düzgün münasibət formalaşdırmalıdırlar: suya uyğunlaşan hər kəsin həm sürətli, həm də uzunmüddətli üzə biləcəyinə inanmalıdırlar. Uşaqların diqqəti bədənin, başın vəziyyətinə, qolların və ayaqların hərəkətinə və tənəffüsün xüsusiyyətlərinə yönəldilməlidir. Üzgüçülük texnikasına dair ədəbiyyat və illüstrasiyalarla tanışlıq da xeyirlidir. Hərəkətləri mənimsəmək üçün onların çoxsaylı təkrarı və tədrici artırılması zəruridir. Eyni tipli hərəkətlərin icrasında yorğunluğun qarşısını almaq üçün məşqlər müxtəlifləşdirilməlidir (Azevedo, 2022, s. 78).

Öyrənilən üzmə üsulu haqqında bütöv təsəvvür yaratmaq üçün həmin üsul hər məşğələdə ardıcıl tətbiq edilməlidir. Bu zaman hərəkətlərin nümayişi dəqiq və düzgün olmalı, sadə və anlaşılan izahlarla müşayiət edilməlidir. Məktəbyaşlı uşaqlarda əyanilik və nümunəyə əsaslanan öyrənmə aparıcı rol oynadığından, nümayiş üzgüçülük öyrədilməsində xüsusilə əhəmiyyətlidir. Hərəkətlərin göstərilməsi onların su mühitində icra olunacağı şəraitə maksimum uyğun olmalıdır (Langendorfer, 2020, s. 47). Üzgüçülük təliminə əvvəlcə quruda, daha sonra isə suda başlamaq həm də onunla izah edilir ki, uşaqlar suda hərəkətsiz vəziyyətdə nümayişi izlədikdə artan istilik itkisinə görə tez soyuyurlar (Mcleod, 2021, s. 21).

Quruda yerinə yetirilən məşqlərə nəzər salaq:

1. Gediş – yarı əyilmiş ayaqlarla, əllər dizlərə dirənmiş vəziyyətdə; pəncələr üzərində, əllər yuxarı uzadılmış, barmaqlar birləşdirilmiş şəkildə.
2. Qaçış – adi qaçış; ombanın yüksək qaldırılması ilə (əllər beldə); iki ayaqla növbəli tullanma. Qaçış gedişlə tamamlanır.
3. Qollarla böyük yan dairəvi hərəkətlər – irəli, geri, eyni zamanda gediş və qaçışla birlikdə.
4. Önə əyilmə – sərbəst sallanan qollarla sağa-sola yelləməvari hərəkətlər (Pivaudran, 2021, s. 81).

Suda yerinə yetirilən məşqlərə nəzər salaq:

1. Ayaqlar çiyin enində (su belə qədər). Əllərin düz vəziyyətdə sağa, sola, irəli və geri hərəkətləri növbəli və eyni zamanda (ovuc xaricə və ya içəri yönəlmiş).
2. Eyni hərəkətlər, lakin əzələlər gərgin vəziyyətdə. Dərin nəfəs alıb nəfəsi saxlamaq, üzdə su çiləyərək nəfəsvermə.
3. 1-ci və 2-ci hərəkətlərin bədən önə əyilmiş vəziyyətdə təkrarı.
4. Ayaq yelləmələri: irəli, geri və yana – əllər beldə, əzələlərin növbəli gərginləşməsi və boşalması ilə.
5. Dib boyunca müxtəlif istiqamətlərdə gediş: önlə, arxayla, sağ və sol böyürlə.
6. Qollarla növbəli dairəvi hərəkətlər – suyu maksimum uzağa itələməyə çalışaraq.
7. Sahil boyunca dibdə gediş – əllər beldə, baş üstündə və yuxarıda.
8. Budun yüksək qaldırılması ilə gediş, qolların mövqeyini növbəli dəyişməklə.
9. Eyni hərəkətlər – iri addımlarla, güclü itələnməklə, qısamüddətli "çəkisizlik" effekti yaradaraq.
10. İrəliləməyə və tarazlığı qorumağa yardım edən eyni zamanda hər iki qolla ön tərəfdən geriyə su itələmələri, sonra qolların yuxarıdan yanlara keçirilməsi.
11. Düz, ayaqlarla qaçış (su dizə qədər).
12. Bədən önə əyilmiş vəziyyətdə qaçış – əvvəl əlsiz, sonra iki qolla eynizamanlı su itələmələri ilə.
13. Dizin bükülməsi (su belə qədər), dibdən güclü itələnərək sudan mümkün qədər yüksək sıçrama və başlanğıc vəziyyətə qayıtma.
14. Eyni hərəkət bədənin 90°, 180° və 360° döndərilməsi ilə (Born və b., 2022, s. 178).

Suda əlavə nəfəs və uyğunlaşma məşqləri uşaqları su mühitinə alışdırmaq və düzgün tənəffüs bacarığını formalaşdırmaq məqsədini daşıyır. Uşaqlar dibdə oturaraq su ilə üzlərini yuyur, çənəni suya salıb üfürür, suya tam batıb nəfəsvermə praktikasını yerinə yetirirlər. Qarnı üstə uzanaraq əlləri dibə dirəyir, ayaqlarla növbəli hərəkətlər (krol üslubu) edir və müəyyən ritmdə baş qaldıraraq nəfəs alıb verir. Quruda öyrənilən hərəkətlər suda təkrarlanır: əllərin irəli-geri hərəkəti, bədəni üfüqi vəziyyətə gətirmə, "qol çəkməsi" hərəkətləri ilə koordinasiya məşqləri. Əllərin növbə ilə çəkilməsi və bədən mövqeyinin qorunması uşaqların koordinasiyasını inkişaf etdirir. Suda isə əvvəlcə hər bir qol ayrı, sonra hər iki qol ilə hərəkətlər icra olunur; ayaqlarla itələnərək sürüşmə, nəfəs saxlama və koordinasiyalı tənəffüs öyrədilir. Üzü suya batırmadan üzmə, qol və ayaq ritmi ilə nəfəsin uyğunlaşdırılması əsas diqqət nöqtəsidir. Qol hərəkətləri yumşaq, barmaqlar yığılmış, ayaq vuruşları isə sürətli və ritmik olmalıdır (iki qol hərəkətinə altı ayaq vuruşu) (Gourgoulis və b., 2023, s. 64).

Arxası üstə üzmə zamanı bədənin təbii üfüqi mövqeyi və əllə-ayağın ritmik hərəkətləri təmin edilməlidir. Qol hərəkətləri dirsəklərin bükülməsi ilə başlayır, son hissədə açılır; ayaq hərəkətləri isə aşağı yumşaq, yuxarı enerjili olmalıdır. Quruda məşqlərdə bədəni sola-sağa döndərmək, çömbəlmə və oturub-qalxma hərəkətləri, ayaqları düz və geniş açaraq balansın qorunması təkrarlanır. Suda "bras" ayaq hərəkətləri, sinəüstü sürüşmə və lövhə/top/üzükdən istifadə ilə hərəkət və nəfəsin koordinasiyası öyrədilir. Hazırlıq hərəkətləri yavaş, əsas hərəkətlər enerjili və fasiləsiz olmalıdır. Oyunlardan istifadə pedaqoji məqsədlərə xidmət edir: emosional motivasiyanı artırır, yüklənməni tənzimləyir və kollektiv davranış keyfiyyətlərini inkişaf etdirir. Su oyunları uşaqları qorxu hissindən azad edir, suya alışdırır və öyrənilən bacarıqları möhkəmləndirir. Oyunlar uşaqların yaşına və fiziki hazırlığına uyğun seçilməlidir, hər bir oyun pedaqoji məqsədinə görə fərqlənir və öyrənilən bacarıqların inkişafına yönəlir (Light və Harvey, 2023, s. 175).

Açıq su oyunları seçərkən sahil, suyun dərinliyi, temperatur və avadanlıq nəzərə alınmalıdır. Aşağı temperaturda hərəkətlər enerjili, suda qalma müddəti qısa olmalıdır. Oyun bütün uşaqlarla eyni vaxtda və artıq mənimsənilmiş hərəkətlərlə aparılmalıdır. Oyunlar ya adi çimmə vaxtı, ya da dərs sonunda keçirilir; uşaqlara əvvəl sahildə izah olunur. Üzməyi bilməyənlər yalnız dayaz sularda iştirak edə bilər. Məktəb yaşlılar üçün sadə, qısa və nəticə verən oyunlar tövsiyə olunur. Oyunlar həm texnika öyrənməyə, həm də emosional motivasiyanı artırmağa xidmət edir. Qaydaların qısa izahı,

hərəkətlərin nümayişi və nəticələrin qısa təhlili vacibdir. "Qurbağaların yarışı" uşaqlara dibdən itələnmə bacarığını öyrədir; start xəttindən iki ayaqla tullananlar üç ardıcıl sınaqdan sonra ən uzağa gedən qalib olur. "Kim daha hündür?" oyunu suda dibdən itələnmə və vertikal hərəkətə alışdırır; uşaqlar dizi bükərək suya çöküb yüksək sıçrayışlar edirlər, hərəkətlər təhlükəsizlik və bədən pozasına diqqətlə yerinə yetirilir. "Tora" oyunu su müqaviməti ilə tanış edir; uşaqlar "balıqlar" və "tor" rolunda oynayır, yalnız dairənin altından suya girərək qurtula bilirlər. "Çapaqlar və qızılbalıq" oyunu başla suya dalma bacarığını inkişaf etdirir; dairədə hərəkət edən uşaqlar müəyyən qaydalara riayət edir. "Oxlar" oyunu sinəüstü sürüşmə texnikasını təkmilləşdirir; uşaqlar dibi itələyərək və qolları uzadaraq mümkün qədər uzağa sürüşürlər. Hərəkət zamanı əlavə ayaq hərəkətlərindən sürəti artırmaq qadağandır.

Nəticə

Açıq su hövzəsində oyunlar məktəb yaşlı uşaqların üzmə bacarıqlarını inkişaf etdirmək və su mühitinə adaptasiyasını sürətləndirmək üçün effektiv vasitədir. Oyunun seçimi zamanı sahilin quruluşu, suyun dərinliyi, temperatur və avadanlıq təminatı nəzərə alınmalıdır. Oyunlar uşaqların əvvəlcədən mənimsədiyi hərəkətlərə əsaslanmalı və təhlükəsiz şəraitdə aparılmalıdır. Qısa, qaydalı və enerjili oyunlar uşaqların hərəkət koordinasiyasını, dibdən itələnmə və suda vertikal vəziyyətdə hərəkət bacarıqlarını möhkəmləndirir. Metodik olaraq oyun qaydalarının izahı, hərəkətlərin nümayişi və nəticələrin təhlili vacibdir. Müxtəlif oyunlar – "Qurbağaların yarışı", "Kim daha hündür?", "Tora", "Çapaqlar və qızılbalıq", "Oxlar" hərəkət bacarıqlarının spesifik sahələrini inkişaf etdirir. Nəticədə, suda oyunlar həm fiziki bacarıqları, həm də uşaqların maraq və motivasiyasını artıraraq üzmə təliminin effektivliyini yüksəldir.

İşin elmi nəticəsi. Tədqiqat göstərir ki, 7-9 yaşlı qızların fiziki sağlamlıq göstəricilərinin yaxşılaşdırılmasında üzgüçülük məşqləri effektiv vasitədir. Məşqlərin quruda və suda ardıcıl tətbiqi, nəfəs və bədən koordinasiyasının düzgün formalaşdırılması uşaqların suya adaptasiyasını sürətləndirir və hərəkət bacarıqlarını inkişaf etdirir. Oyunlar və müxtəlif metodik tapşırıqlar uşaqlarda fiziki fəaliyyətə marağı artırır, motivasiyanı yüksəldir və kollektiv davranış keyfiyyətlərini formalaşdırır. Təhlükəsizlik qaydalarına riayət və fərdi yanaşma məşqlərin səmərəliliyini artırır. Beləliklə, üzgüçülük məşqləri uşaqların fiziki sağlamlıq göstəricilərinin yüksəlməsinə və ümumi hərəkət bacarıqlarının təkmilləşməsinə mühüm töhfə verir.

İşin elmi yeniliyi. Tədqiqatın elmi yeniliyi 7-9 yaşlı qızların fiziki sağlamlıq göstəricilərinin yaxşılaşdırılmasında üzgüçülük məşqlərinin metodik xüsusiyyətlərinin sistemli şəkildə təhlil edilməsindədir. İlk dəfə olaraq məşqlərin quruda və suda ardıcıl tətbiqi, nəfəs və bədən koordinasiyasının formalaşdırılması, fərdi yanaşma prinsiplərinin tətbiqi, həmçinin müxtəlif oyunlar vasitəsilə uşaqların su mühitinə adaptasiyasının sürətləndirilməsi bir metodik sistem daxilində göstərilmişdir. Tədqiqat həmçinin konkret hərəkət bacarıqları və üzgüçülük texnikasının elementləri üzrə metodik göstərişlər hazırlayaraq suda oyunların fiziki və psixoloji təsirlərini qiymətləndirmişdir.

İşin tətbiqi əhəmiyyəti. Tədqiqatın nəticələri məktəbyaşlı qızlar üçün üzgüçülük məşqlərinin proqramlarının hazırlanmasında və həyata keçirilməsində birbaşa tətbiq oluna bilər. Məqalədə təqdim olunan metodik göstərişlər müəllimlərə və məşqçilərə məşqlərin planlaşdırılması, təhlükəsizlik tədbirlərinə riayət, fərdi xüsusiyyətlərin nəzərə alınması və uşaqların su mühitinə adaptasiyasını sürətləndirmək üçün praktik tövsiyələr təqdim edir. Üzgüçülük oyunları və tapşırıqları uşaqların hərəkət bacarıqlarının inkişafını təmin etməklə yanaşı, onların emosional motivasiyasını yüksəldir, kollektiv davranış keyfiyyətlərini formalaşdırır və fiziki sağlamlıq göstəricilərinin yaxşılaşmasına mühüm töhfə verir.

Ədəbiyyat

1. Abdurahmanov, Ş. H. (2021). *İdman pedaqogikasının müasir problemləri və gənc nəslin fiziki tərbiyəsi*. Elm və Təhsil.
2. Azevedo, A. M. (2022). *Teaching swimming to children: A playful and developmental approach*. Human Kinetics.
3. Barbosa, T. M., Marinho, D. A., & Costa, M. J. (2021). *The biomechanics of swimming: Methods and training principles*. Routledge.
4. Born, D. P., Loghomoni, M., & Romann, M. (2022). Long-term athlete development in swimming: A review of current practices. *Journal of Sports Sciences, 40*(12), 1345–1360.
5. Costill, D., Maglischo, E., & Richardson, A. (2020). *Swimming: Science and physiology of training* (Updated ed.). Wiley-Blackwell.
6. Gourgoulis, V., Lattanzio, G., & Mavridis, G. (2023). Technical analysis and coordination in youth swimming: Practical guidelines. *International Journal of Aquatic Research and Education, 15*(2), 44–68.
7. International Life Saving Federation. (2022). *World water safety guidelines: Education and prevention for school-age children*. International Life Saving Federation.
8. Langendorfer, S. J. (2020). Developmental aquatic readiness: A review of 40 years of research. *International Journal of Aquatic Research and Education, 12*(4), 1–15.
9. Light, R. L., & Harvey, S. (2023). *Game-based approaches to teaching and coaching swimming*. Routledge.
10. McLeod, I. (2021). *Swimming anatomy* (2nd ed.). Human Kinetics Publishers.
11. Pivaudran, M. (2021). *L'apprentissage de la natation par le jeu: Guide pratique pour les éducateurs*. Éditions Revue EPS.
12. Platonov, V. N. (2021). *Sistema podgotovki sportsmenov v olimpiyskom sporte: Obshchaya teoriya i yeye prakticheskiye prilozheniya* (Kniga 1). KnoRus.
13. Seifert, L., & Chollet, D. (2020). Inter-limb coordination and fluidity in swimming: New perspectives. *Sports Biomechanics, 19*(5), 589–605.
14. World Aquatics. (2023). *Technical rules for swimming and training methodology 2023–2025*. World Aquatics Press.
15. Yakovlev, B. P. (2022). *Psikhologicheskiye aspekty fizicheskoy kultury i sporta: Motivatsiya i adaptatsiya detey 7–10 let*. Sovetskiy sport.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 293–297
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 293–297
DOI: https://doi.org/10.36719/2706-6185/60/293-297

Ş.Monteskye və C.Lokkun klassik hakimiyyət bölgüsü nəzəriyyəsi

Mətin Qarayev

Xülasə. *Hakimiyyət bölgüsü nəzəriyyəsi müasir konstitusional dövlətçilik sisteminin əsas sütunlarından biri hesab olunur. Bu nəzəriyyə hakimiyyətin bir mərkəzdə cəmlənməsinin qarşısını almaq, dövlət idarəçiliyində balans və nəzarət mexanizmləri yaratmaq məqsədi daşıyır. Hakimiyyət bölgüsünün klassik modelinin formalaşmasında əsas rol oynayan filosoflardan biri Con Lokk, digəri isə Şarl Lui Monteskye olmuşdur. Lokk hakimiyyət bölgüsü ideyasını liberal təbii hüquq fəlsəfəsi kontekstində irəli sürmüş və qanunverici, icraedici və federativ hakimiyyət anlayışlarını fərqləndirmişdir. Monteskye isə bu konsepsiyanı daha sistemli formada inkişaf etdirərək qanunverici, icraedici və məhkəmə hakimiyyətinin ayrılığını əsaslandırmışdır. Məqalədə Lokkun hakimiyyət bölgüsü nəzəriyyəsinin tarixi əsasları, Monteskye tərəfindən bu nəzəriyyənin klassik modelə çevrilməsi və hər iki yanaşmanın müqayisəli təhlili aparılır. Eyni zamanda, hakimiyyət bölgüsünün müasir demokratik sistemlərdə rolu, tətbiq mexanizmləri və bəzi praktik problemləri də araşdırılır. Göstərilmişdir ki, Lokkun ideyaları nəzəri başlanğıc rolunu oynasa da, Monteskye bu ideyaları hüquqi-siyasi modelə çevirərək klassik hakimiyyət bölgüsü konsepsiyasının əsas müəllifi kimi çıxış etmişdir.*

Açar sözlər: *hakimiyyət bölgüsü, konstitusionalizm, qanunverici hakimiyyət, məhkəmə hakimiyyəti, klassik model*

Bakı Dövlət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: metinqarayev23@mail.ru
Daxil oldu: 21 Yanvar 2026; Qəbul edildi: 25 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

The Classical Theory of the Separation of Powers By Montesquieu and Locke

Metin Garayev

Abstract. *The theory of separation of powers is considered one of the fundamental pillars of modern constitutional statehood. Its main objective is to prevent the concentration of power in a single authority and to establish a system of checks and balances in governance. Two key philosophers who significantly contributed to the development of the classical model of separation of powers were John Locke and Charles-Louis Montesquieu. Locke introduced the idea of separating governmental powers within the framework of liberal natural law philosophy, distinguishing between legislative, executive, and federative powers.*

Montesquieu further developed this concept in a more systematic and comprehensive manner by formulating the classical tripartite model: legislative, executive, and judicial powers. This article analyzes Locke's contribution as an early theoretical foundation and Montesquieu's role in shaping the classical doctrine of separation of powers. A comparative analysis of their views is provided, alongside an examination of how this doctrine functions in modern democratic systems, including its mechanisms and practical challenges. The study concludes that while Locke laid the conceptual groundwork, Montesquieu transformed these ideas into a coherent political-legal doctrine and is therefore recognized as the principal architect of the classical theory of separation of powers.

Keywords: *separation of powers, constitutionalism, legislative power, judicial power, classical model*

Baku State University, Master's student, Baku, Azerbaijan
E-mail: metingarayev23@mail.ru
Received: 21 January 2026; Accepted: 25 April 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Hakimiyyət bölgüsü nəzəriyyəsi siyasi elmin və hüquq nəzəriyyəsinin ən vacib anlayışlarından biridir. Dövlət hakimiyyətinin səmərəli idarə olunması, hüquqi sabitliyin təmin edilməsi, insan hüquqlarının qorunması və avtoritarizmin qarşısının alınması üçün hakimiyyət bölgüsü prinsipinin tətbiqi müasir dövrdə konstitusional dövlət quruculuğunun ayrılmaz tərkib hissəsi kimi qəbul edilir. Bu prinsip dövlət hakimiyyətinin müxtəlif orqanlar arasında bölünməsini və onların qarşılıqlı şəkildə bir-birini nəzarətdə saxlamasını nəzərdə tutur.

Tədqiqat

Tarixən hakimiyyətin bölünməsi ideyası antik dövr siyasi düşüncəsində də mövcud olmuşdur. Aristotel dövlət idarəçiliyində müəyyən funksiyaların ayrılmasını zəruri hesab etmiş, Polybius isə Roma dövlət sistemində balanslı idarəetmə mexanizmlərini qeyd etmişdir. Lakin hakimiyyət bölgüsü anlayışı müasir siyasi-fəlsəfi forma və məzmununu XVII-XVIII əsrlərdə Qərbi Avropada liberal düşüncənin inkişafı fonunda əldə etmişdir. Bu inkişafın əsas səbəblərindən biri Avropada monarxiya hakimiyyətinin həddindən artıq güclənməsi və bunun nəticəsində insan hüquqlarının pozulması, siyasi azadlıqların məhdudlaşdırılması olmuşdur. Xüsusilə, İngiltərədə monarxiya ilə parlament arasında gedən mübarizələr və Fransa kimi ölkələrdə mütləqiyyətin möhkəmlənməsi siyasi nəzəriyyədə yeni yanaşmaların formalaşmasına səbəb olmuşdur. Hakimiyyət bölgüsü nəzəriyyəsinin formalaşmasında iki mühüm fikir adamı – Con Lokk və Şarl Lui Monteskye xüsusi yer tutur. Lokk liberalizm və təbii hüquq fəlsəfəsinin aparıcı nümayəndələrindən biri kimi dövlət hakimiyyətinin məhdudlaşdırılması ideyasını irəli sürmüşdür. Monteskye isə hakimiyyət bölgüsü prinsipini daha sistemli şəkildə inkişaf etdirərək onu hüquqi və institusional modelə çevirmişdir.

Hakimiyyət bölgüsü nəzəriyyəsinin tarixi və müasir inkişafı

Hakimiyyət bölgüsü nəzəriyyəsi dövlətin təşkili və siyasi hakimiyyətin legitim idarə olunması baxımından müasir konstitusionalizmin əsas sütunlarından biri kimi çıxış edir. Bu ideyanın formalaşması uzun tarixi-fəlsəfi prosesin nəticəsidir və xüsusilə XVII–XVIII əsrlərdə Avropada baş verən siyasi transformasiyalarla sıx bağlıdır. Dövlət hakimiyyətinin bir mərkəzdə cəmlənməsi ilə bağlı yaranan təhlükələr, xüsusilə mütləq monarxiyaların geniş yayılması siyasi nəzəriyyədə yeni yanaşmaların yaranmasına səbəb olmuşdur (Goldoni, 2023).

Bu ideya sistemli şəkildə ilk dəfə Con Lokk tərəfindən formalaşdırılmışdır. Lokk hakimiyyətin bölünməsini əsasən funksional yanaşma kimi təqdim edirdi. O, qanunverici hakimiyyəti ali orqan hesab edir, icraedici və federativ funksiyaları isə dövlətin davamlı fəaliyyətini təmin edən mexanizmlər kimi fərqləndirirdi. Bu model hələ tam inkişaf etməmiş olsa da, sonrakı klassik nəzəriyyənin əsasını qoymuşdur (Tuckness, 2016).

Con Lokk dövlət hakimiyyətinin mahiyyətini izah edərkən onu insanın təbii hüquqlarının qorunması üçün yaradılmış sosial institut kimi qiymətləndirir. Onun "Hökumət haqqında iki traktat" əsərində əsas ideya ondan ibarətdir ki, insanlar təbii vəziyyətdə azad, bərabər və müstəqil olsalar da, bu vəziyyət tam təhlükəsiz olmadığı üçün onlar öz hüquqlarını qorumaq məqsədilə dövlət yaradırlar. Bu baxımdan dövlətin mövcudluğu xalqın razılığına əsaslanır və onun əsas vəzifəsi həyat, azadlıq və mülkiyyət hüquqlarının təmin edilməsidir (Lacey, 2016). Lokk hakimiyyətin bölünməsini dövlət daxilində gücün balanslaşdırılması vasitəsi kimi təqdim edir. O, hakimiyyət funksiyalarını üç əsas hissəyə - qanunverici hakimiyyət, icraedici hakimiyyət və federativ hakimiyyətə ayırır. Qanunverici hakimiyyət cəmiyyət üçün ümumi qaydaların və qanunların qəbuluna cavabdehdir və Lokk bu hakimiyyəti dövlətin ən ali orqanı kimi qəbul edir. Onun fikrincə, qanunverici hakimiyyət xalqın iradəsini ifadə etdiyi üçün digər hakimiyyət formalarından üstün mövqedə dayanır (Schofield, 2021).

İcraedici hakimiyyət qəbul olunmuş qanunların həyata keçirilməsini təmin edir və dövlətin gündəlik idarəçiliyini həyata keçirir. Lokk bu hakimiyyəti qanunverici hakimiyyətə tabe hesab etsə də, onun operativ idarəetmədə mühüm rol oynadığını vurğulayır. Federativ hakimiyyət isə xarici siyasət, diplomatik münasibətlər, müharibə və sülh məsələlərini əhatə edir. Bu funksiyanın ayrıca göstərilməsi Lokkun beynəlxalq münasibətlərə verdiyi əhəmiyyəti göstərir. Lokk nəzəriyyəsində məhkəmə hakimiyyəti ayrıca orqan kimi nəzərdə tutulmur, o, məhkəmə funksiyalarını icraedici hakimiyyətin tərkib hissəsi kimi qiymətləndirir. Bu, onun modelinin Monteskye ilə müqayisədə daha ilkin və funksional xarakter daşıdığını göstərir. Müasir tədqiqatçılar Lokkun bu yanaşmasını "hakimiyyət bölgüsünün embrional forması" kimi qiymətləndirirlər (Tuckness, 2016).

Lokkun hakimiyyət bölgüsü ideyasının əsas məqsədi dövlət gücünün məhdudlaşdırılması və fərdi azadlıqların qorunmasıdır. O hesab edir ki, əgər qanunverici hakimiyyət həddindən artıq güclənərsə və nəzarətsiz qalarsa, bu, təbii olaraq hüquq pozuntularına və siyasi özbaşınalığa gətirib çıxara bilər. Buna görə də dövlət hakimiyyəti xalqın iradəsinə tabe olmalı və hər zaman hesabatlılıq prinsipi ilə fəaliyyət göstərməlidir. Lokk xalqın müqavimət hüququnu da bu nəzəriyyənin tərkib hissəsi kimi təqdim edir. Əgər hökumət öz vəzifəsini yerinə yetirmir və təbii hüquqları pozursa, xalqın bu hakimiyyəti dəyişdirmək hüququ vardır. Bu ideya sonradan demokratik inqilabların və konstitusional dövlətlərin ideoloji əsaslarından birinə çevrilmişdir (Graber, 2017).

Lokkun hakimiyyət bölgüsü nəzəriyyəsi dövlətin məhdudlaşdırılması, hüquqi legitimlik və fərdi azadlıqların qorunması ideyalarını birləşdirən ilkin liberal model kimi qiymətləndirilir və Monteskye tərəfindən daha sistemli institusional formaya salınaraq klassik konstitusional nəzəriyyənin əsasına çevrilmişdir. Hakimiyyət bölgüsü nəzəriyyəsinin klassik forması Şarl Lui Monteskye tərəfindən sistemləşdirilmişdir. Onun "Qanunların ruhu haqqında" əsəri dövlətin hüquqi və təşkilati strukturunu geniş şəkildə təhlil edən fundamental elmi mənbə hesab olunur. Monteskye dövlət hakimiyyətini üç əsas funksional və təşkilati sahəyə ayıraraq onu müasir konstitusional dövlət nəzəriyyəsinin mərkəzinə yerləşdirmişdir. Bu bölgüyə görə, dövlət hakimiyyəti qanunverici, icraedici və məhkəmə hakimiyyətlərindən ibarətdir (Goldoni, 2023). Qanunverici hakimiyyət cəmiyyətin ümumi qaydalarını müəyyən edən qanunların qəbulunu həyata keçirir və dövlətin hüquqi çərçivəsini formalaşdırır. İcraedici hakimiyyət bu qanunların gündəlik idarəetmədə tətbiq olunmasını təmin edir, dövlət siyasətini həyata keçirir və ictimai nizamın qorunmasına cavabdeh olur. Məhkəmə hakimiyyəti isə qanunların düzgün tətbiqinə nəzarət edir, hüquqi mübahisələri həll edir və fərdlərin hüquqlarının pozulmasının qarşısını alan ədalət mexanizmi rolunu oynayır. Monteskye bu bölgünü təkcə

funksional fərqləndirmə kimi deyil, həm də siyasi azadlığın qorunmasının əsas şərti kimi təqdim edir. Onun əsas arqumentinə görə, əgər bu üç hakimiyyət eyni şəxsin və ya eyni dövlət orqanının əlində cəmləşərsə, bu halda qanunların qəbulu, icrası və tətbiqi üzərində heç bir real nəzarət mexanizmi qalmır və nəticədə siyasi hakimiyyət özünü məhdudlaşdırmayan bir gücə çevrilir. Belə bir vəziyyət isə təbii olaraq despotizmə, yəni hakimiyyətin sui-istifadəsinə və fərdi azadlıqların sistemli şəkildə məhdudlaşdırılmasına gətirib çıxarır (Bustamante və Fernandes, 2019). Monteskyenin fikrində əsas ideya ondan ibarətdir ki, azadlıq yalnız hakimiyyətin mövcud olmaması ilə deyil, onun məhdudlaşdırılmış və balanslaşdırılmış şəkildə təşkil olunması ilə mümkün olur. Bu baxımdan o, siyasi azadlığı "qanunların icazə verdiyi hər şeyi etmək imkanı" kimi izah edir və bunun yalnız hakimiyyət orqanlarının bir-birini məhdudlaşdırdığı sistemdə mümkün olduğunu vurğulayır. Müasir konstitusional nəzəriyyədə bu yanaşma "hakimiyyət bölgüsü və qarşılıqlı nəzarət prinsipi" kimi formalaşmışdır (Waldron, 2016).

Monteskyenin üçlü hakimiyyət bölgüsü modeli təkcə nəzəri konstruksiya deyil, həm də praktiki dövlət idarəetmə mexanizminin əsası kimi çıxış edir. Bu model sonrakı dövrlərdə ABŞ Konstitusiyası və Avropa konstitusional sistemlərinin formalaşmasına ciddi təsir göstərmiş və müasir demokratik dövlətlərin hüquqi arxitekturasının əsas dayaqlarından birinə çevrilmişdir (Bellamy, 2019). Müasir hüquq nəzəriyyəsində Monteskyenin ən mühüm töhfəsi "checks and balances", yəni nəzarət və tarazlıq sisteminin əsaslandırılmasıdır. Bu sistemə görə, hər bir hakimiyyət orqanı digərini məhdudlaşdırmaq və balanslaşdırmaq funksiyasına malikdir. Bu yanaşma, xüsusilə ABŞ konstitusional sistemində praktik şəkildə tətbiq olunmuşdur (Spector, 2015). Monteskyenin nəzəriyyəsi Lokkun fikirlərindən fərqli olaraq daha institusional xarakter daşıyır. Əgər Lokk hakimiyyəti funksiyalar üzrə bölürdüsə, Monteskye onu konkret dövlət orqanları arasında hüquqi şəkildə ayırırdı. Bu fərq onun nəzəriyyəsini klassik model səviyyəsinə qaldırmışdır (Anter, 2021).
XX–XXI əsrlərdə hakimiyyət bölgüsü prinsipi demokratik dövlətlərin konstitusional əsasına çevrilmişdir. Müasir hüquq sistemlərində bu prinsip yalnız nəzəri model deyil, həm də praktik idarəetmə mexanizmidir. Demokratik dövlətlərdə qanunverici orqanlar (parlamentlər), icraedici orqanlar (hökumətlər və prezidentlər) və məhkəmə sistemi bir-birindən hüquqi və institusional olaraq ayrılır.

Müasir konstitusiya hüququ ədəbiyyatında qeyd olunur ki, hakimiyyət bölgüsü yalnız formal ayrılıq deyil, həm də funksional balans tələb edir (Barber, 2018). Bu balans pozulduqda demokratik sistemlərdə "hakimiyyətin konsentrasiyası" problemi yaranır və bu da avtoritar tendensiyalara yol aça bilər. Məsələn, bəzi prezident idarəetmə sistemlərində icraedici hakimiyyətin parlament üzərində dominantlığı müşahidə olunur. Bu isə Monteskyenin nəzəri modelində nəzərdə tutulan tarazlıq prinsipinin zəifləməsinə səbəb olur. Digər tərəfdən, bəzi ölkələrdə məhkəmə hakimiyyətinin aktivləşməsi "judicial activism" adlanan fenomeni yaradır ki, bu da siyasi qərarların məhkəmələr tərəfindən formalaşdırılması riskini artırır (Graber, 2017). Buna rəğmən, müasir demokratik dövlətlərdə hakimiyyət bölgüsü hələ də siyasi sabitliyin əsas təminatçısı kimi qalır. Avropa İttifaqı ölkələrinin əksəriyyətində və ABŞ-da bu prinsip konstitusiyanın dəyişməz əsaslarından biri hesab olunur. Müasir siyasi nəzəriyyədə Lokk və Monteskye arasında fərq yalnız tarixi deyil, həm də metodoloji xarakter daşıyır. Lokk daha çox liberal fəlsəfi yanaşma nümayiş etdirərək fərdi hüquqları və dövlətin məhdudlaşdırılmasını əsas götürürdü. Monteskye isə hüquqi-institusional yanaşma ilə dövlətin strukturunu sistemləşdirmişdir.

Tədqiqatçılar bu iki yanaşmanı bir-birini tamamlayan mərhələlər kimi qiymətləndirirlər. Waldron (2016) qeyd edir ki, Lokk hakimiyyət bölgüsünün "normativ əsasını", Monteskye isə "institusional formasını" yaratmışdır. Bu baxımdan onların nəzəriyyələri rəqabət deyil, ardıcıl inkişaf mərhələləri kimi qəbul edilir. Digər mühüm fərq hüquq və siyasət anlayışlarına yanaşmadır. Lokk hüququ təbii hüquqlar kontekstində izah edir və dövlətin əsas vəzifəsini bu hüquqları qorumaqda görür. Monteskye isə hüququ daha çox dövlət strukturu və siyasi sistemin tarazlığı çərçivəsində təhlil edir. Müasir

akademik ədəbiyyatda bu iki yanaşmanın sintezi "konstitusional balans modeli" kimi nəzərdən keçirilir (Barber, 2018). Bu modeldə həm fərdi hüquqların qorunması, həm də dövlət institutlarının balanslı fəaliyyəti əsas prinsip kimi qəbul olunur.

Nəticə

Hakimiyyət bölgüsü nəzəriyyəsi konstitusional dövlətin və demokratik idarəçiliyin əsas ideyalarından biri kimi tarixən böyük əhəmiyyətə malikdir. Bu nəzəriyyə dövlət hakimiyyətinin bir mərkəzdə cəmlənməsinin qarşısını alır və fərdi azadlıqların qorunmasına xidmət edir. Con Lokk və Şarl Lui Monteskye bu konsepsiyanın formalaşmasında əsas rol oynayan klassik siyasi nəzəriyyəçilər hesab olunur. Lokkun nəzəriyyəsi liberalizm və sosial müqavilə fəlsəfəsi əsasında inkişaf etmiş, dövlət hakimiyyətinin məhdudlaşdırılmasını və fərdi hüquqların qorunmasını əsas məqsəd kimi müəyyənləşdirmişdir. Lokk qanunverici hakimiyyəti ən ali hakimiyyət hesab etmiş, icraedici və federativ hakimiyyətləri isə ayrı funksiyalar kimi fərqləndirmişdir. Onun nəzəriyyəsi hakimiyyət bölgüsü ideyasının ilkin və əsaslı forması kimi mühüm əhəmiyyət daşıyır.

Monteskye isə Lokkun ideyalarını daha sistemli şəkildə inkişaf etdirərək hakimiyyət bölgüsünün klassik üçlü modelini formalaşdırmışdır. Qanunverici, icraedici və məhkəmə hakimiyyətinin ayrılığı və onların qarşılıqlı nəzarət mexanizmləri Monteskyenin əsas töhfəsi kimi qiymətləndirilir. Bu model müasir konstitusional dövlətlərin əksəriyyətində tətbiq olunan əsas nəzəri çərçivəyə çevrilmişdir. Lokkun nəzəriyyəsi hakimiyyət bölgüsünün ideoloji əsaslarını qoymuş, Monteskye isə onu tam hüquqi-siyasi doktrina səviyyəsinə yüksəltmişdir. Bu iki siyasi nəzəriyyəçinin ideyaları müasir demokratiyanın inkişafına və hüquqi dövlət anlayışının formalaşmasına əsaslı təsir göstərmişdir.

Ədəbiyyat

1. Anter, A. (2021). *Max Weber's theory of the modern state: Origins, structure and significance*. Palgrave Macmillan.
2. Barber, N. W. (2018). *The principles of constitutionalism*. Oxford University Press.
3. Bellamy, R. (2019). *Political constitutionalism: A republican defence of the constitutionality of democracy*. Cambridge University Press.
4. Bustamante, T., & Fernandes, B. (Eds.). (2019). *Democratizing constitutional law: Perspectives on legal theory and the rule of law*. Springer.
5. Casper, G. (2018). The "Great Writ" and the separation of powers. In *The Supreme Court Review*. University of Chicago Press.
6. Goldoni, M. (2023). *The applied forms of the separation of powers: A theory of constitutional function*. Oxford University Press.
7. Graber, M. A. (2017). *Judicial review and constitutional politics*. Princeton University Press.
8. Lacey, J. (2016). *Centripetal democracy: Democratic legitimacy and political structure*. Oxford University Press.
9. Levitsky, S., & Ziblatt, D. (2018). *How democracies die*. Crown.
10. Malik, S. (2023). *Lockean liberalism and its contemporary critics*. Routledge.
11. Pincus, S. (2019). *The heart of the declaration: The founders' restless spirit and the true meaning of independence*. Yale University Press.
12. Schofield, P. (2021). *Laws of nature and the logic of consent in Locke's two treatises of government*. Cambridge University Press.
13. Spector, H. (2015). The principles of separation of powers and checks and balances. In *The Oxford handbook of the Argentine constitution*.
14. Tuckness, A. (2016). Locke and the legislative supremacy debate. *History of Political Thought, 37*(2), 250–275.
15. Waldron, J. (2016). *Political political theory: Essays on institutions*. Harvard University Press.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 298–302
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 298–302
DOI: https://doi.org/10.36719/2706-6185/60/298-302

Konsolidə olunmuş maliyyə hesabatlarının aydınlığına təsir edən amillərin reqressiya analizi

Mirzaman Salayev

Xülasə. *Məqalədə konsolidə olunmuş maliyyə hesabatlarının aydınlığına təsir edən metodoloji amillər araşdırılır. Tədqiqatın nəzəri bazası iqtisadi vahid yanaşması, nəzarət meyarı, qrupdaxili əməliyyatların silinməsi və vahid uçot siyasətinin tətbiqi ilə əlaqələndirilmişdir. Empirik hissə xidmət sferasında mühasibat uçotu, audit və maliyyə idarəetməsi üzrə çalışan 152 respondentin sorğu nəticələrinə əsaslanır. Likert tipli suallar bloku üzrə Cronbach alfa əmsalı 0,987 olmuşdur. Çoxdəyişənli xətti reqressiya modelində asılı dəyişən kimi konsolidə hesabatların maliyyə vəziyyətini ayrıca hesabatlardan daha aydın göstərməsi fikri götürülmüşdür. Müstəqil dəyişənlər qrupdaxili borc və alacaqların tutuşdurulması, daxili əməliyyatların silinməsi, uçot siyasətlərinin uyğunlaşdırılması, ehtiyatların hesablanması və açıqlamaların keyfiyyətidir. Model yüksək izahat gücü göstərmişdir: R^2=0,944, F=489,509, p<0,001. Nəticələrə görə aydınlığı əsasən qrupdaxili borc və alacaqların düzgün uzlaşdırılması və ehtiyatların əsaslandırılmış hesablanması izah edir. Məqalədə rəqəmsal paketlər, vahid kodlaşdırma və audit izi üzrə praktik təkliflər verilmişdir.*

Açar sözlər: *konsolidə olunmuş, maliyyə hesabatları, qrupdaxili əməliyyatlar, ehtiyatların hesablanması, maliyyə vəziyyəti hesabatı, açıqlama keyfiyyəti*

Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: mirzamansalayev@gmail.com
Daxil oldu: 1 Noyabr 2025; Qəbul edildi: 31 Mart 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Regression Analysis of Factors Affecting the Clarity of Consolidated Financial Statements

Mirzaman Salayev

Abstract. *The article examines methodological factors affecting the clarity of consolidated financial statements. The theoretical framework is linked to the economic entity approach, the control criterion, elimination of intra-group transactions and application of uniform accounting policies. The empirical part is based on survey data collected from 152 respondents working in accounting, audit and financial management in the service sector. The Cronbach alpha coefficient for the Likert-scale items was 0.987. In the multiple linear regression model, the dependent variable was the perception that consolidated statements present the financial position more clearly than separate statements.*

The independent variables covered reconciliation of intra-group receivables and payables, elimination of intra-group transactions, harmonization of accounting policies, provision measurement and disclosure quality. The model demonstrated strong explanatory power: $R^2=0.944$, $F=489.509$, $p<0.001$. The findings indicate that reporting clarity is mainly explained by accurate reconciliation of intra-group balances and well-grounded provision calculations. Practical proposals are made on digital consolidation packages, unified coding mechanisms and stronger audit trails.

Keywords: *consolidated financial statements, regression analysis, intra-group transactions, provision calculation, statement of financial position, disclosure quality*

Azerbaijan State University of Economics, Master's student, Baku, Azerbaijan
E-mail: mirzamansalayev@gmail.com
Received: 1 November 2025; Accepted: 31 March 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Konsolidə olunmuş maliyyə hesabatları qrup şəklində fəaliyyət göstərən müəssisələrin maliyyə vəziyyətini ayrıca hüquqi şəxslərin sərhədlərindən kənarda təqdim edir. Ana müəssisə ilə törəmə müəssisələrin aktivləri, öhdəlikləri, kapitalı, gəlirləri və xərcləri vahid iqtisadi məntiq altında birləşdirildikdə istifadəçi qrupun ümumi resurs bazasını, borclanma yükünü və risk strukturunu daha dolğun qiymətləndirir. Ayrı-ayrı maliyyə hesabatları hüquqi məsuliyyət və vergi məqsədləri üçün zəruri olsa da, qrupun real maliyyə mövqeyini təkbaşına göstərmir. Konsolidə yanaşmanın nəzəri əsası iqtisadi vahid konsepsiyası ilə izah edilir; həmin konsepsiya qrupu idarəetmə və nəzarət baxımından vahid hesabat subyekti kimi qəbul edir (Müller, 2011; Săcărin, 2008). Beynəlxalq maliyyə hesabatlılığı sistemində konsolidə hesabatların tətbiqi nəzarət meyarı ilə əlaqələndirilir. IFRS 10 standartı ana müəssisənin digər subyekt üzərində səlahiyyətə, dəyişkən gəlirlərə məruz qalma və həmin gəlirlərə təsir etmək imkanına malik olduğu hallarda konsolidasiya öhdəliyinin yarandığını göstərir (IASB, 2011). Qrupdaxili satışların, xidmətlərin, borc və alacaqların silinməsi konsolidə göstəricilərin süni şişirdilməsinin qarşısını alır. Uçot siyasətlərinin uyğunlaşdırılması isə eyni iqtisadi hadisələrin qrup daxilində eyni qayda ilə tanınmasını təmin edir (IFRS Foundation, 2018).

Azərbaycan şəraitində xidmət sektorunda qrup strukturlarının genişlənməsi konsolidə hesabatların aydınlığı məsələsini daha görünən edir. Ticarət şəbəkələri, telekommunikasiya, logistika, maliyyə xidmətləri və rəqəmsal xidmətlər üzrə fəaliyyət göstərən qruplarda müxtəlif proqram mühitləri, fərqli uçot vərdişləri və daxili xidmət müqavilələri eyni hesabat dövründə bir neçə metodoloji risk yaradır. Belə vəziyyətdə hesabatın aydınlığı yalnız rəqəmlərin cəmlənməsi ilə təmin edilmir; məlumatın mənşəyi, silinmə mexanizmi, ehtiyatların hesablanma bazası və açıqlamaların izah gücü birlikdə qiymətləndirilməlidir. Məqalənin məqsədi konsolidə olunmuş maliyyə hesabatlarının aydınlığına təsir edən amilləri nəzəri və empirik əsasda təhlil etməkdir.

Tədqiqat

Tədqiqatın nəzəri hissəsi konsolidasiya prosesinin məzmununu, hesabatın iqtisadi məqsədini və metodoloji tələblərini əhatə edir. Konsolidasiya zamanı ana və törəmə müəssisələrin müvafiq maddələri sətir üzrə birləşdirilir, qrupdaxili əməliyyatlar isə hesabatlardan çıxarılır. Burada əsas məsələ hesabatın hüquqi şəxslər üzrə deyil, qrupun xarici tərəflərlə münasibətləri üzrə oxunmasıdır.

Daxili borcun eyni zamanda bir tərəfdə aktiv, digər tərəfdə öhdəlik kimi qalması konsolidə maliyyə vəziyyətini təhrif edir. Eyni məntiq daxili satışlardan yaranan gəlir və mənfəətə də aiddir; qrup öz daxilində mənfəət yarada bilmədiyinə görə həmin məbləğlər yekun nəticələrdən çıxarılmalıdır (Davis və Largay, 2008).

Empirik hissə sorğu məlumatları əsasında qurulmuşdur. Sorğuda xidmət sferasında çalışan 152 mütəxəssis iştirak etmişdir. Respondentlərin peşə tərkibi mühasibləri, auditorları, daxili auditorları, maliyyə menecerlərini və analitikləri əhatə etmişdir. Seçim məntiqi konsolidə hesabatların hazırlanması və yoxlanması ilə əlaqəsi olan şəxslərin mövqeyini ölçməyə əsaslanır. Q10 konsolidə hesabatların qrupun maliyyə vəziyyətini ayrıca hesabatlardan daha aydın göstərməsi barədə nəticə dəyişəni kimi qəbul edilmiş, Q11-Q15 isə müstəqil dəyişənlər kimi modelə daxil edilmişdir. Likert tipli suallar üzrə daxili uyğunluq Cronbach alfa əmsalı ilə qiymətləndirilmişdir. Əldə edilən 0,987 göstəricisi dəyişənlərin eyni ümumi konstruksiyanı, yəni konsolidə hesabatların keyfiyyət və aydınlıq ölçüsünü ifadə etdiyini göstərir. Sorğu cavablarının ilkin bölgüsü konsolidə prosesində ən çox vaxt aparan mərhələnin qrupdaxili borc və alacaqların tutuşdurulması olduğunu göstərmişdir. Bu mərhələ respondentlərin 28,9%-i tərəfindən əsas vaxt yükü kimi qeyd edilmişdir. Problem tipləri üzrə ən yüksək göstərici qrupdaxili əməliyyatların tam silinməməsi ilə bağlı olmuşdur: 27,0%. Valyuta məzənnələrinin düzgün tətbiq olunmaması 25,0%, ehtiyatların və qiymətləndirmələrin müxtəlif üsullarla hesablanması isə 21,7% səviyyəsində qiymətləndirilmişdir. Bu rəqəmlər göstərir ki, konsolidə hesabatın aydınlığı daha çox məlumatların mexaniki cəmlənməsindən deyil, qrupdaxili münasibətlərin dəqiq təmizlənməsindən asılıdır.

Cədvəl 1
Reqressiya modelinin ümumi göstəriciləri

Göstərici	**Qiymət**	**Şərh**
R	0,971	Dəyişənlər arasında çox yüksək əlaqə
R^2	0,944	Asılı dəyişəndəki variasiyanın 94,4%-i izah olunur
Düzəldilmiş R^2	0,942	Modelin izahat gücü müşahidə sayına görə sabit qalır
F	489,509	Modelin ümumi statistik əhəmiyyətliliyi yüksəkdir
Sig.	0,000	$p<0,001$ səviyyəsində model əhəmiyyətlidir
SEE	0,285	Proqnoz xətası aşağı səviyyədədir

Mənbə: Araşdırma nəticəsində müəllif tərəfindən ümumiləşdirilmişdir.

Çoxdəyişənli xətti reqressiya modeli ən kiçik kvadratlar üsulu ilə qiymətləndirilmişdir. Modelin ümumi göstəriciləri konsolidə hesabatların aydınlığına dair rəyin seçilmiş metodoloji amillərlə yüksək səviyyədə izah olunduğunu göstərir. Burada əsas məsələ yalnız modelin statistik uyğunluğu deyil, əmsalların hansı istiqamətdə və hansı güclə təsir göstərməsidir.

Cədvəl 2
Reqressiya əmsalları və əhəmiyyətlilik səviyyəsi

Müstəqil dəyişən	**B**	**Beta**	**t**	**Sig.**
Q11. Qrupdaxili borc və alacaqlar	0,757	0,722	9,552	0,000
Q12. Daxili əməliyyatların silinməsi	-0,016	-0,017	-0,210	0,834
Q13. Uçot siyasətlərinin uyğunlaşdırılması	0,020	0,018	0,264	0,792

Müstəqil dəyişən	B	Beta	t	Sig.
Q14. Ehtiyatların hesablanması	0,264	0,265	2,711	0,008
Q15. Açıqlamaların keyfiyyəti	0,001	0,001	0,010	0,992

Mənbə: Araşdırma nəticəsində müəllif tərəfindən ümumiləşdirilmişdir.

Əmsallar göstərir ki, Q11 dəyişəni modelin ən güclü izahedicisidir. Qrupdaxili borc və alacaqların düzgün tutuşdurulmaması haqqında razılıq balı artdıqca konsolidə hesabatların maliyyə vəziyyətini daha aydın göstərməsi barədə rəy də yüksəlir. B əmsalının 0,757 olması həmin faktorun praktiki çəkisini göstərir. Bu nəticə konsolidə balansın mahiyyəti ilə uyğundur: qrupun öz daxilində olan borc münasibətləri yekun hesabatda saxlanıldıqda aktiv və öhdəliklər real iqtisadi vəziyyətdən artıq görünür. Q14 dəyişəni də statistik baxımdan əhəmiyyətli çıxmışdır. Ehtiyatların hesablanması üzrə B əmsalı 0,264, p dəyəri isə 0,008 olmuşdur. Ehtiyatların hesablanması xüsusilə maliyyə alətləri, debitor borclar, zərərlə nəticələnə bilən müqavilələr və dəyərsizləşmə riskləri olan aktivlər üzrə konsolidə hesabatın aydınlığına təsir edir. Hər törəmə müəssisə eyni riskə fərqli qiymət verdikdə qrup səviyyəsində aktivlərin xalis dəyəri müqayisə edilə bilmir.

Q12, Q13 və Q15 dəyişənləri nəzəri baxımdan vacib olsa da, modeldə ayrıca statistik təsir göstərməmişdir. Daxili əməliyyatların silinməsi və uçot siyasətlərinin uyğunlaşdırılması üzrə əhəmiyyətsiz nəticə həmin amillərin lazımsız olması kimi izah edilə bilməz. Daha əsaslı şərh ondan ibarətdir ki, respondentlərin böyük hissəsi bu tələbləri konsolidə prosesin baza şərti kimi qəbul edir və cavablar arasında kifayət qədər fərq yaranmır. Açıqlamaların keyfiyyəti üzrə sıfıra yaxın əmsal isə yerli praktikada hesabat qeydlərinin hələ də rəqəmlərin izahından daha çox formal tamamlayıcı blok kimi görülməsinə işarə edir (Glaum və b., 2013).

Tədqiqat nəticələri nəzəri çərçivə ilə empirik göstəriciləri eyni xəttə gətirir. İqtisadi vahid yanaşması qrupdaxili münasibətlərin hesabatlardan çıxarılmasını tələb edir, reqressiya nəticələri isə həmin tələbin hesabat aydınlığının ən güclü empirik izahedicisi olduğunu göstərir. Ehtiyatların hesablanması üzrə tapıntı da IFRS 9 və Konseptual Çərçivənin ehtiyatlı qiymətləndirmə məntiqi ilə uyğun gəlir. Burada aydınlıq yalnız sadə dil və ya qısa qeyd məsələsi deyil; aydınlıq rəqəmin iqtisadi məzmununun təhrif olunmadan təqdim edilməsidir. Praktik səviyyədə nəticələr qrup daxilində vahid konsolidasiya paketinin, standart kodlaşdırma sisteminin və elektron düzəliş jurnalının tətbiqini zəruri edir. Hər bir qrupdaxili əməliyyat qarşı tərəf kodu, müqavilə növü və dövr identifikatoru ilə daxil edildikdə silinmə fərqləri daha tez aşkar olunur. Ehtiyatların hesablanması üçün qrup səviyyəli metodoloji matris hazırlanmalı, həmin matris aktiv növü, risk kateqoriyası, istifadə edilən fərziyyə, məlumat mənbəyi və təsdiq edən bölmə üzrə minimum sahələri əhatə etməlidir. Məqalənin empirik nəticələri xidmət sektorunda konsolidasiya prosesinin sırf normativ uyğunluqdan kənara çıxdığını göstərir. Qrupdaxili hesablaşmaların düzgün aparılması rəhbərlik üçün likvidlik və borclanma qərarlarının, investor üçün risk qiymətləndirməsinin, auditor üçün isə əhəmiyyətli təhrif riskinin əsas yoxlama nöqtəsinə çevrilir. Ehtiyatların hesablanması da oxşar şəkildə həm balans maddələrini, həm mənfəət göstəricilərini, həm də kapitalın saxlanma keyfiyyətini formalaşdırır.

Nəticə

Aparılmış təhlil göstərir ki, konsolidə olunmuş maliyyə hesabatlarının aydınlığı yalnız hesabat formasının mövcudluğu ilə təmin edilmir. Aydınlıq qrupdaxili borc və alacaqların düzgün tutuşdurulması, ehtiyatların eyni metodoloji baza ilə hesablanması, uçot siyasətlərinin uyğunlaşdırılması və açıqlamaların iqtisadi məzmunu izah etməsi ilə formalaşır. Reqressiya modelinin nəticələrinə görə ən güclü təsir qrupdaxili hesablaşmaların uzlaşdırılması üzrə müəyyən

edilmişdir. Qrup daxilində qalan qarşılıqlı tələblər silinmədikdə hesabat istifadəçiyə real maliyyə mövqeyi deyil, təkrar sayılmış aktiv və öhdəlik həcmi təqdim edir.

Ehtiyatların hesablanması ikinci statistik əhəmiyyətli faktor kimi müəyyən edilmişdir. Qrup daxilində eyni riskə müxtəlif müəssisələr tərəfindən fərqli qiymət verilməsi aktivlərin xalis dəyərini və mənfəət göstəricilərini dəyişdirə bilir. Buna görə konsolidə hesabat hazırlayan müəssisələr ehtiyatlar üzrə vahid qiymətləndirmə matrisindən istifadə etməli, fərziyyələri və məlumat mənbələrini sənədləşdirməli, hər düzəlişi elektron audit izi ilə əlaqələndirməlidirlər. Uçot siyasətləri və açıqlamalar üzrə nəticələr isə daha çox institusional davranış fərqini göstərir; bəzi tələblər baza qayda kimi qəbul olunur, açıqlama keyfiyyəti isə praktikada hələ tam qiymətləndirilmir. Tədqiqatın nəticələri əsasında xidmət sektorunda fəaliyyət göstərən qruplar üçün üç praktik istiqamət daha əsaslı görünür. Qrupdaxili əməliyyatlar vahid kodlaşdırma və qarşı tərəf təsdiqi ilə aparılmalı, konsolidə paketlər elektron formada standartlaşdırılmalı, düzəlişlər üzrə sübut bazası dövr sonunda deyil, əməliyyatın tanındığı mərhələdən qurulmalıdır. Bu tədbirlər hesabatın hazırlanma müddətini qısaldır, təkrar düzəlişləri azaldır və auditor üçün yoxlanıla bilən iz yaradır. Gələcək araşdırmalarda modelin sektorlar üzrə müqayisəli tətbiqi, açıqlama mətnlərinin oxunaqlılığı və rəqəmsal konsolidasiya platformalarının hesabat keyfiyyətinə təsiri ayrıca qiymətləndirilə bilər.

Ədəbiyyat

1. Abbasov, Q. Ə. (2019). *Mühasibat uçotunun nəzəriyyəsi*. Elm.
2. Azərbaycan Respublikasının Mühasibat uçotu haqqında Qanunu. (2004).
3. Baker, R. E., Christensen, T. E., & Cottrell, D. M. (2011). *Essentials of advanced financial accounting*. McGraw-Hill Higher Education.
4. Barth, M. E., Landsman, W. R., & Lang, M. H. (2008). International accounting standards and accounting quality. *Journal of Accounting Research, 46*(3), 467–498.
5. Dalatu, G. Z., Leah, K. N., & Mustapha, L. O. (2022). Issues of control in accounting: A comparative analysis of IAS 27 and IFRS 10. *European Journal of Accounting, Auditing and Finance Research, 10*(8), 39–47.
6. Davis, M., & Largay, J. (2008). Consolidated financial statements. *The CPA Journal, 78*(2), 26–31.
7. Glaum, M., Schmidt, P., Street, D. L., & Vogel, S. (2013). Compliance with IFRS 3 and IAS 36 disclosure requirements across European countries. *Accounting and Business Research, 43*(3), 163–204.
8. Hamidov, H. İ., & Ağasərov, E. F. (2019). Konsolidə edilmiş maliyyə hesabatlarının formalaşmasının metodoloji əsasları. *UNEC Elmi Xəbərləri, 7*(7), 60–70.
9. Hsu, A. W., Duh, R. R., & Cheng, K. (2012). Does the control-based approach to consolidated statements better reflect market value than the ownership-based approach? *Journal of Accounting, Auditing & Finance, 27*(4), 573–593.
10. IASB. (2011). *International Financial Reporting Standard 10: Consolidated financial statements*. IFRS Foundation.
11. IFRS Foundation. (2018). *Conceptual framework for financial reporting*. IFRS Foundation.
12. Müller, V. O. (2011). Value relevance of group financial statements based on entity vs parent company theory. *Accounting and Management Information Systems, 10*(3), 326–350.
13. Săcărin, M. (2008). Consolidation theories and their implications in financial reporting. *Audit Financiar, 6*(10), 29–39.
14. Yip, R. W. Y., & Young, D. (2012). Does mandatory IFRS adoption improve information comparability? *The Accounting Review, 87*(5), 1767–1789.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 303–308
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 303–308
DOI: https://doi.org/10.36719/2706-6185/60/303-308

Elektron lüğət əsasında Azərbaycan və fransız dillərinin müqayisəli təhlili

Murad Fərəczadə

Xülasə. *Məqalədə Azərbaycan və Fransız dillərinin elektron lüğət əsaslı tərcümə kontekstində müqayisəli dil xüsusiyyətləri araşdırılır. Azərbaycan dilinin iltisaqi quruluşa, fransız dilinin isə roman dil ailəsinə məxsus analitik və flektiv xüsusiyyətlərə malik olması tərcümə prosesində ciddi morfoloji, sintaktik və semantik fərqlər yaradır. Məqalədə elektron lüğətlərin bu fərqlərin anlaşılmasında, sözlərin kök və şəkilçi quruluşunun təhlilində, kontekstual nümunələrin təqdimində və frazeoloji vahidlərin izahında mühüm rol oynadığı göstərilir. Bununla yanaşı, elektron lüğətlərin və maşın tərcüməsi sistemlərinin mədəni çalarları, idiomatik ifadələri və üslubi incəlikləri hər zaman tam şəkildə əks etdirə bilmədiyi vurğulanır. Nəticə olaraq, Azərbaycan-fransız tərcüməsində ən effektiv yanaşmanın elektron texnologiyalarla insan tərcüməçi bacarığının əməkdaşlığı olduğu qeyd edilir.*

Açar sözlər: *elektron lüğət, Azərbaycan dili, Fransız dili, müqayisəli təhlil, tərcümə, morfologiya, sintaksis, semantik qeyri-müəyyənlik, frazeologiya, mədəni uyğunlaşma*

Bakı Dövlət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: muradfereczade@gmail.com
Daxil oldu: 23 Noyabr 2025; Qəbul edildi: 19 Mart 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Comparative Analysis of Azerbaijani and French Languages Based on Electronic Dictionaries

Murad Fereczade

Abstract. *The article examines the comparative linguistic features of Azerbaijani and French in the context of electronic dictionary-based translation. It emphasizes that Azerbaijani, as an agglutinative Turkic language, and French, as a Romance language with analytical and inflectional features, differ significantly in morphology, syntax, semantics, and phraseology. These differences create challenges in lexical equivalence, grammatical transformation, contextual interpretation, and cultural adaptation. The article highlights the importance of electronic dictionaries in providing fast lexical access, grammatical explanations, contextual examples, phraseological information, and support for translation between structurally different languages. However, it also notes that electronic dictionaries and machine translation systems cannot fully replace human interpretation, especially in cases involving idioms, stylistic nuance, emotional tone, and culturally specific expressions.*

The article concludes that effective Azerbaijani-French translation depends on productive cooperation between digital tools and human linguistic competence.

Keywords: *electronic dictionary, Azerbaijani language, French language, comparative analysis, translation, morphology, syntax, semantic ambiguity, phraseology, cultural adaptation*

Baku State University, Master's student, Baku, Azerbaijan
E-mail: muradfereczade@gmail.com
Received: 23 November 2025; Accepted: 19 March 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Azərbaycan dili və fransız dili arasında tərcümə mürəkkəb bir dilçilik prosesi təqdim edir, çünki iki dil fərqli dil ailələrinə aiddir və kökündən fərqli qrammatik strukturlara malikdir. Azərbaycan dili türk dil ailəsinə aiddir və iltisaqi strukturla xarakterizə olunur, fransız dili isə roman dil ailəsinə aiddir və analitik və birləşmə qrammatik xüsusiyyətləri nümayiş etdirir. Bu struktur fərqləri tərcümə zamanı leksik ekvivalentlik, qrammatik transformasiya, semantik şərh və kontekstual uyğunlaşmada çoxsaylı çətinliklər yaradır. Müasir rəqəmsal dövrdə elektron lüğətlər və tərcümə texnologiyaları bu cür çətinliklərin öhdəsindən gəlmək üçün vacib vasitələrə çevrilmişdir. Onlar tərcüməçilərə və dil öyrənənlərə Azərbaycan və fransız dilləri arasındakı linqvistik fərqləri anlamaqda dəstək verən leksik məlumatlara, kontekstual nümunələrə, qrammatik izahlara, tələffüzə və çoxdilli yazışmalara sürətli çıxış təmin edir.

Tədqiqat

Elektron lüğətçiliyin inkişafı tərcümə tədqiqatlarını və çoxdilli ünsiyyəti əhəmiyyətli dərəcədə dəyişdirmişdir. Ənənəvi çap lüğətləri tez-tez əlçatanlıq, axtarış çevikliyi və kontekstual təmsilçilik baxımından məhdud idi. Lakin elektron lüğətlər istifadəçilərə flektiv formalar, semantik assosiasiyalar, frazeoloji vahidlər və kontekstual nümunələr arasında daha səmərəli axtarış aparmağa imkan verir. Dziemianko qeyd edir ki, elektron lüğətlər həm leksikoqrafiyanın strukturunu, həm də funksiyasını dəyişdirib, çünki rəqəmsal sistemlər leksik məlumatlar və multimedia dəstəyi ilə dinamik qarşılıqlı əlaqəyə imkan verir (Dziemianko, 2017). Bu inkişaf, birbaşa leksik ekvivalentliyin tez-tez mümkün olmadığı Azərbaycan və Fransız dilləri kimi struktur baxımından fərqli dillər üçün xüsusilə vacibdir.

Bu məqalənin məqsədi elektron lüğət əsaslı tərcümə çərçivəsində Azərbaycan və Fransız dillərinin müqayisəli linqvistik xüsusiyyətlərini təhlil etməkdir. Xüsusi diqqət morfologiya, sintaksis, semantika, frazeologiya və kontekstual şərhə yönəlib. Tədqiqatda həmçinin bu iki dil arasında tərcüməni asanlaşdırmaqda elektron lüğətlərin üstünlükləri və məhdudiyyətləri araşdırılır. Azərbaycan dili ilə fransız dili arasındakı ən əhəmiyyətli fərqlərdən biri morfologiyada özünü göstərir. Azərbaycan dili qrammatik mənanın əsasən şəkilçiləşmə yolu ilə ifadə olunduğu iltisaqi bir dildir. Birdən çox şəkilçi tək bir leksik kökə proqnozlaşdırıla bilən və sistemli bir şəkildə bağlana bilər. Fransız dili isə qrammatik əlaqələri ifadə etmək üçün daha çox ön sözlərə, köməkçi fellərə, artikllərə və söz sırasına əsaslanır. Məsələn, Azərbaycan dilində "getməyəcəklərindən" kimi mürəkkəb forma "get-" (getmək) kökünə bağlı bir neçə qrammatik işarə ehtiva edir. Bu tək söz eyni zamanda zaman, inkar, cəm, şəxs və hal ifadə edə bilər. Fransız dilində eyni məna adətən bir neçə ayrı leksik element və sintaktik konstruksiya tələb edir. Nəticə etibarilə, Azərbaycan və fransız dilləri arasında tərcümə edən elektron lüğətlər yalnız leksik mənanı deyil, həm də morfoloji seqmentasiyanı

və qrammatik şərhi də emal etməlidir. Elektron lüğətlər bu kontekstdə xüsusilə faydalıdır, çünki onlar flektləşdirilmiş formaları avtomatik olaraq təhlil edə bilirlər. Müasir rəqəmsal leksikoqrafik sistemlər tez-tez Azərbaycan sözlərinin leksik kökünü və qrammatik işarələrini müəyyən edən morfoloji analizatorları ehtiva edir. Bu imkan, istifadəçilərin düzgün kök formasını əl ilə müəyyən etməkdə çətinlik çəkə biləcəyi ənənəvi çap lüğətləri ilə müqayisədə axtarış səmərəliliyini əhəmiyyətli dərəcədə artırır. Fransız morfologiyası da azərbaycandilli istifadəçilər üçün çətinliklər yaradır. Fransız felləri geniş qoşma nümunələri, cins uyğunluğu və Azərbaycan qrammatik kateqoriyalarına birbaşa uyğun gəlməyən nizamsız formalar nümayiş etdirir. Məsələn, qrammatik cins fransız dilində mühüm rol oynayır, lakin azərbaycan dilində mövcud deyil. Buna görə də elektron lüğətlər yalnız leksik ekvivalentliyi deyil, həm də istifadəçilərə iki dil arasındakı struktur fərqlərini anlamağa kömək edən qrammatik izahlar təqdim etməlidir. Ceksona (2002) görə, müasir leksikoqrafiya getdikcə qrammatik məlumatı leksik təsvirlə birləşdirir, çünki məna tamamilə struktur kontekstindən ayrıla bilməz. Bu prinsip, morfoloji sistemlərin əhəmiyyətli dərəcədə fərqləndiyi azərbaycan-fransız tərcüməsində xüsusilə vacib hala gəlir.

Morfologiyadan başqa, Azərbaycan və Fransız dilləri də sintaksis baxımından əhəmiyyətli dərəcədə fərqlənir. Azərbaycan dili ümumiyyətlə Müəllif-Obyekt-Feil söz sırasına uyğundur, fransız dili isə adətən Müəllif-Feil-Obyekt strukturundan istifadə edir. Bu fərqlər cümlə quruluşuna, vurğuya və tərcümə strategiyalarına təsir göstərir. Məsələn, Azərbaycan cümlə strukturu tez-tez feli cümlənin sonunda yerləşdirir, fransız dili isə feli mübtəda daha yaxın tələb edir. Tərcümə zamanı bu struktur fərqi əhəmiyyətli sintaktik transformasiya tələb edə bilər. Yalnız birbaşa leksik ekvivalentlər təqdim edən elektron lüğətlər bu cür mürəkkəbliklərin öhdəsindən gəlmək üçün çox vaxt kifayət deyil, çünki dəqiq tərcümə daha geniş kontekstual anlayışdan asılıdır. Semantik qeyri-müəyyənlik də Azərbaycan-fransız tərcüməsində mühüm məsələdir. Tək bir Azərbaycan sözü kontekstdən, üslubdan və ya kommunikativ niyyətdən asılı olaraq bir neçə fransız ekvivalentinə uyğun gələ bilər. Eynilə, bir çox fransız ifadələri Azərbaycan dilinə hərfi tərcümə edilə bilməyən mənalara malikdir. Məsələn, fransızca "prendre" felinin çoxsaylı kontekstual mənaları var, o cümlədən "götürmək", "tutmaq", "istehlak etmək" və ya "etmək" ifadələrində göründüyü ifadədən asılı olaraq. Azərbaycan tərcüməsində düzgün ekvivalent semantik kontekstə görə dəyişir. Kollokasiyalar, frazeoloji vahidlər və orijinal istifadə nümunələri daxil edən elektron lüğətlər istifadəçilərə ənənəvi ikidilli lüğətlərdən daha effektiv şəkildə uyğun mənaları müəyyən etməyə kömək edir.

Baker (1992) tərcümədə ekvivalentliyin yalnız söz səviyyəsində mövcud olmadığını vurğulayır; bu, həmçinin qrammatika, mətn quruluşu, praqmatika və mədəni konteksti də əhatə edir. Buna görə də elektron lüğətlər getdikcə daha vacib rol oynayır, çünki onlar birbaşa tərcümə ekvivalentləri ilə yanaşı kontekstual nümunələr və semantik aydınlaşdırma təmin edə bilirlər. Digər bir semantik çətinlik çoxmənalılıq və idiomatik ifadələrlə bağlıdır. Azərbaycan və fransız dillərində mənaları yalnız hərfi tərcümə ilə başa düşülə bilməyən çoxsaylı mədəni spesifik idiomlar mövcuddur. Maşın tərcümə sistemləri tez-tez bu cür ifadələrlə mübarizə aparır, çünki onlar daha dərin mədəni əlaqələrdən daha çox statistik nümunələri təhlil edirlər. Nəticə etibarilə, insan təfsiri bir çox mürəkkəb semantik vəziyyətlər üçün zəruri olaraq qalır. Frazeoloji vahidlər və mədəni cəhətdən işarələnmiş ifadələr Azərbaycan-fransız tərcüməsində digər bir böyük çətinlikdir. Hər bir dil öz dilində danışanların tarixi təcrübəsini, dünyagörüşünü, adət-ənənələrini və ünsiyyət vərdişlərini əks etdirir. Nəticədə, idiomlar və məcazi ifadələr çox vaxt milli mədəniyyətlə dərindən bağlıdır. Məsələn, Azərbaycan dilində türk mədəni ənənələrindən və şifahi nitq nümunələrindən qaynaqlanan bir çox ifadələr mövcuddur, fransız frazeologiyası isə tez-tez Latın dil irsini və Avropa ədəbi ənənələrini əks etdirir. Bu cür ifadələrin birbaşa tərcüməsi qeyri-təbii və ya mənasız nəticələrə səbəb ola bilər.

Elektron lüğətlər getdikcə bu problemi frazeoloji verilənlər bazaları, kontekstual nümunələr və korpus əsaslı istifadə nümunələri daxil etməklə həll etməyə çalışır. Bəzi inkişaf etmiş sistemlər həmçinin ifadənin formal, qeyri-rəsmi, istehzalı və ya emosional olaraq işarələnmiş olub olmadığını

göstərən praqmatik izahatlar təqdim edir. Bu xüsusiyyətlər tərcüməçilər üçün çox dəyərlidir, çünki frazeoloji ekvivalentlik çox vaxt hərfi tərcümədən daha çox uyğunlaşma tələb edir. Mədəni uyğunlaşma ədəbi və audiovizual tərcümədə xüsusilə vacibdir. Tərcüməçilər yalnız informasiya mənasını deyil, həm də emosional tonu, stilistik nüansı və ünsiyyət effektini qorumalıdırlar. Elektron lüğətlər leksik tədqiqatlara kömək etsələr də, onlar insan mədəni səriştəsini və interpretasiya qabiliyyətini tam əvəz edə bilməzlər. House (2015) tərcümə keyfiyyətinin sırf leksik uyğunluqdan daha çox praqmatik və mədəni adekvatlıqdan asılı olduğunu iddia edir. Bu perspektiv xüsusilə Azərbaycan-fransız tərcüməsi üçün aktualdır, çünki bir çox ifadələr ekvivalent kommunikativ təsirə nail olmaq üçün kontekstual yenidənqurma tələb edir. Elektron lüğətlər tərcüməçilər, tələbələr və Azərbaycan və fransız dilləri ilə işləyən tədqiqatçılar üçün əvəzolunmaz vasitələrə çevrilib. Onların əsas üstünlüyü əlçatanlıq və sürətdədir. İstifadəçilər rəqəmsal platformalar vasitəsilə tərifləri, qrammatik məlumatları, tələffüzü, kontekstual nümunələri və tərcümə ekvivalentlərini tez bir zamanda əldə edə bilərlər.

Ənənəvi çap lüğətlərindən fərqli olaraq, elektron sistemlər qeyri-xətti axtarış metodlarını da dəstəkləyir. İstifadəçilər fleksiyalı formalar, semantik sahələr, birləşmələr və ya qismən söz strukturları vasitəsilə axtarış apara bilərlər. Bu çeviklik xüsusilə Azərbaycan dili üçün faydalıdır, çünki onun iltihaplı morfologiyası tez-tez uzun və mürəkkəb leksik formalar yaradır. Digər vacib üstünlük digər rəqəmsal texnologiyalarla inteqrasiya ilə bağlıdır. Elektron lüğətlər getdikcə maşın tərcümə sistemləri, dil korpusları, tələffüz verilənlər bazaları və təhsil platformaları ilə əlaqələndirilir. Bu inteqrasiya həm dil öyrənməsini, həm də peşəkar tərcüməni dəstəkləyən daha geniş çoxdilli ekosistem yaradır. Lakin elektron lüğətlər də müəyyən məhdudiyyətlər nümayiş etdirir. Bəzi ikidilli Azərbaycan-fransız lüğətlərində natamam leksik verilənlər bazaları və ya qeyri-kafi kontekstual izahat var. Bir çox hallarda rəqəmsal sistemlər stilistik nüansı və ya praqmatik mənanı nəzərə almadan birbaşa ekvivalentliyə üstünlük verir. Nəticə etibarilə, istifadəçilər qrammatik cəhətdən düzgün, lakin kontekstual olaraq uyğun olmayan tərcümələri seçə bilərlər. Problem az resurslu dil kontekstlərində daha çox nəzərə çarpır. İngilis və ya fransız dilləri ilə müqayisədə Azərbaycan dili daha məhdud rəqəmsal linqvistik resurslara malikdir. Nəticədə, Azərbaycan dilini əhatə edən maşın tərcüməsi və elektron lüğət sistemləri bəzən uyğunsuz və ya semantik cəhətdən qeyri-dəqiq nəticələr verir. UNESCO vurğulayır ki, çoxdilli rəqəmsal inkişaf dil müxtəlifliyinin qorunması və dil texnologiyalarına bərabər çıxışın yaxşılaşdırılması üçün vacibdir (UNESCO, 2026).

Bu məhdudiyyətlərə baxmayaraq, elektron lüğətlər süni intellekt, korpus dilçiliyi və hesablama leksikoqrafiyasındakı irəliləyişlər sayəsində təkmilləşməyə davam edir. Müasir sistemlər getdikcə daha dəqiq tərcümə proseslərini dəstəkləyən leksik məlumatları kontekstual təhlil, semantik şəbəkələr və çoxdilli verilənlər bazaları ilə birləşdirir. Elektron lüğətlər və maşın tərcüməsi texnologiyaları çoxdilli ünsiyyəti əhəmiyyətli dərəcədə dəyişdirsə də, insan tərcüməsi Azərbaycan-fransız tərcüməsində vacib olaraq qalır. Dil sadəcə leksik əvəzetmənin mexaniki sistemi deyil; həm də mədəni, emosional və kommunikativ bir fenomendir. İnsan tərcüməçiləri texnoloji sistemlərin tam şəkildə təkrarlaya bilmədiyi interpretasiya qabiliyyətlərinə malikdirlər. Onlar tez-tez avtomatlaşdırılmış sistemlər üçün əlçatmaz qalan istehzanı, metaforanı, emosional nüansı, stilistik niyyəti və mədəni assosiasiyaları başa düşürlər. Bu, xüsusilə ədəbi mətnləri, siyasi müzakirələri, yumoru və ya mədəni cəhətdən həssas materialları tərcümə edərkən vacibdir. Müasir tərcümə getdikcə insanlar və rəqəmsal texnologiyalar arasında əməkdaşlıq vasitəsilə fəaliyyət göstərir. Elektron lüğətlər leksik tədqiqatları sürətləndirir və çoxdilli məlumatlara sürətli çıxış təmin edir, insan tərcüməçiləri isə kontekstual dəqiqliyi, stilistik uyğunluğu və kommunikativ adekvatlığı təmin edir. Bu əməkdaşlıq modeli tərcümə tədqiqatlarının gələcək istiqamətini əks etdirir.

Tərcüməçiləri əvəz etmək əvəzinə, elektron lüğətlər və süni intellekt əsaslı sistemlər səmərəliliyi və əlçatanlığı artıran dəstəkləyici alətlər kimi fəaliyyət göstərir. Ən effektiv tərcümə prosesi texnoloji yardım insanın linqvistik səriştəsi və mədəni şüuru ilə birləşdirildikdə ortaya çıxır. Azərbaycan və

fransız dillərinin müqayisəli təhlili göstərir ki, bu dillər arasında tərcümə çoxsaylı morfoloji, sintaktik, semantik və mədəni çətinliklərlə üzləşir. Azərbaycan dilinin iltisaqi strukturu fransız dilinin analitik və birləşmə xüsusiyyətlərindən köklü şəkildə fərqlənir və leksik ekvivalentlikdə və qrammatik transformasiyada çətinliklər yaradır.

Nəticə

Elektron lüğətlər kontekstual nümunələr, qrammatik izahat, frazeoloji məlumatlar və sürətli leksik giriş təmin etməklə bu çətinliklərin aradan qaldırılmasında getdikcə daha vacib rol oynayır. Onların maşın tərcümə sistemləri və rəqəmsal linqvistik resurslarla inteqrasiyası çoxdilli ünsiyyəti və tərcümə səmərəliliyini əhəmiyyətli dərəcədə artırmışdır. Buna baxmayaraq, elektron lüğətlər tərcümənin mürəkkəbliyini tamamilə aradan qaldıra bilmir. Kontekstual mənanı, stilistik nüansı və mədəni spesifikliyi anlamaq üçün insan təfsiri zəruri olaraq qalır. Nəticə etibarilə, Azərbaycan-fransız tərcüməsinin gələcəyi insanlar və texnologiyalar arasında rəqabətdən deyil, linqvistik təcrübə və rəqəmsal innovasiya arasında məhsuldar əməkdaşlığa bağlıdır.

Ədəbiyyat

1. Abdullayev, Ə. (2010). *Müasir Azərbaycan dilində leksikologiya məsələləri*. Elm Nəşriyyatı.
2. Abdullayev, M. (2005). *Fransız–Azərbaycan lüğəti*. Şərq-Qərb.
3. Ağayeva, S. (2019). *Elektron lüğətlərin tərcümə prosesində rolu*. Təhsil.
4. Aliyeva, A. (2025). Idioms with animal components in Azerbaijani and French. *Journal of Philology and Universal Research Methods*.
5. Bergenholtz, H., & Tarp, S. (1995). *Manual of specialised lexicography*. John Benjamins.
6. Budykina, V. G. (2014). The role of electronic dictionaries in language acquisition, translation and intercultural communication.
7. Catford, J. C. (1965). *A linguistic theory of translation*. Oxford University Press.
8. Crystal, D. (2003). *English as a global language*. Cambridge University Press.
9. Domínguez Vázquez, M. J. (2023). *Recursos lexicográficos electrónicos multilingües y plurilingües*.
10. Dziemianko, A. (2010). Paper or electronic? The role of dictionary form in language reception, production and the retention of meaning and collocations. *International Journal of Lexicography*.
11. Dziemianko, A. (2017). Electronic dictionaries. In *The Routledge handbook of lexicography*. Routledge.
12. Əliyev, K. (2015). *Tətbiqi dilçilik və tərcümə problemləri*. Mütərcim.
13. Əlizadə, R. (2024). *Elektron tərcümə sistemləri və müasir dil texnologiyaları*. Elm və Təhsil.
14. Gambier, Y., & van Doorslaer, L. (2010). *Handbook of translation studies*. John Benjamins.
15. Hacıyev, T. (2008). *Fransız dili izahlı lüğəti*. Maarif.
16. Hatim, B., & Mason, I. (1997). *The translator as communicator*. Routledge.
17. Həsənov, C. (2024). Presentation of words in electronic dictionaries and modern lexicography. *Bakı Dövlət Universiteti*.
18. House, J. (2015). *Translation quality assessment: Past and present*. Routledge.
19. Hüseynov, E. (2013). *Tərcümə nəzəriyyəsinin əsasları*. Apostroff.
20. Hüseynova, N. (2016). *Azərbaycan–Fransız danışıq və tərcümə lüğəti*. Elm və Təhsil.
21. İsmayılov, B. B. (Ed.). (2018). *Müasir Fransız–Azərbaycan lüğəti*. ADU Nəşriyyatı.
22. Jackson, H. (2002). *Lexicography: An introduction*. Routledge.
23. Qasımov, V. (2012). *Fransız dili üçün tərcümə lüğəti*. Müəllim.
24. Quliyev, S. (2012). *Tərcümədə ekvivalentlik problemləri*. Elm.
25. Landau, S. I. (2001). *Dictionaries: The art and craft of lexicography*. Cambridge University Press.
26. Lew, R. (2010). Multimodal lexicography: The representation of meaning in electronic dictionaries.

27. Mahmudova, R. (2023). *The dictionary block in the national corpus of the Azerbaijani language*. Bakı.
28. Məmmədov, İ. (2008). *Dilçilik və elektron resurslar*. Nurlan.
29. Məmmədov, R. (2010). *Azərbaycan–Fransız lüğəti*. Şərq-Qərb.
30. Məmmədova, L. (2018). *Kontekst və məna problemləri tərcümədə*. Elm və Təhsil.
31. Nesi, H. (2009). Dictionaries in electronic form. In *The Oxford history of English lexicography*. Oxford University Press.
32. Nielsen, S. (1994). *The bilingual LSP dictionary*. Gunter Narr Verlag.
33. Parvanov, Y. (2011). *Notes on electronic lexicography*.
34. Rəhimov, C. (2017). *Elektron lüğətlərin funksional imkanları*. Elm və Təhsil.
35. Romary, L., & Witt, A. (2014). *Méthodes pour la représentation informatisée de données lexicales*.
36. Rundell, M. (2007). The dictionary of the future. *Lexicographica*.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 309–313
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 309–313
DOI: https://doi.org/10.36719/2706-6185/60/309-313

Qonaqpərvərlik sənayesinin müasir problemləri

Nicat Əliyev

Xülasə. *Bu mövzu çərçivəsində qonaqpərvərlik sənayesinin müasir dövrdə qarşılaşdığı əsas problemlər geniş şəkildə təhlil olunur və onların sektora təsiri çoxşaxəli yanaşma ilə izah edilir. Qloballaşma prosesinin sürətlənməsi beynəlxalq rəqabəti artırmaqla yanaşı, müəssisələrdən daha çevik və innovativ idarəetmə tələb edir. Texnoloji yeniliklərin tətbiqi, xüsusilə rəqəmsallaşma və avtomatlaşdırma, xidmətlərin keyfiyyətini yüksəltmək imkanı yaratsa da, bu sahədə uyğunlaşma problemlərini də gündəmə gətirir. Dəyişən istehlakçı davranışları, fərdiləşdirilmiş xidmətlərə artan tələbat və onlayn platformaların geniş yayılması müəssisələri yeni strategiyalar formalaşdırmağa vadar edir. Bununla yanaşı, əmək qüvvəsi çatışmazlığı, ixtisaslı kadrların azlığı və işçi dövriyyəsinin yüksək olması sektorun davamlı fəaliyyətinə mənfi təsir göstərir. Pandemiya sonrası bərpa mərhələsində isə maliyyə itkiləri, təhlükəsizlik standartlarının yüksəldilməsi və bazarın qeyri-sabitliyi əsas çətinliklər kimi çıxış edir. Eyni zamanda, ekoloji davamlılıq və sosial məsuliyyət prinsiplərinin tətbiqi müəssisələr üçün yeni öhdəliklər yaradır. Araşdırma nəticəsində müəyyən olunur ki, qonaqpərvərlik sektorunun uğurlu inkişafı üçün strateji planlaşdırma, rəqəmsal transformasiyanın sürətləndirilməsi, insan resurslarının peşəkar inkişafı və müştəri yönümlü innovativ yanaşmaların tətbiqi vacib şərtlər kimi ön plana çıxır.*

Açar sözlər: *qonaqpərvərlik sənayesi, müasir problemlər, strateji planlaşdırma, rəqəmsal transformasiya, pandemiyanın təsiri, əmək bazarı problemləri, davamlı inkişaf və ekoloji məsuliyyət*

Azərbaycan Turizm və Menecment Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: nicateliyev637@gmail.com
Daxil oldu: 14 Yanvar 2026; Qəbul edildi: 2 May 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Modern Problems of the Hospitality Industry

Nijat Aliyev

Abstract. *Within the framework of this topic, the main challenges faced by the hospitality industry in the modern era are comprehensively analyzed, and their impact on the sector is explained through a multifaceted approach. The acceleration of globalization increases international competition while requiring businesses to adopt more flexible and innovative management practices. The implementation of technological innovations, especially digitalization and automation, creates opportunities to improve service quality, but also brings adaptation challenges. Changing consumer behavior, the growing demand for personalized services, and the widespread use of online platforms force businesses to develop new strategies. At the same time, labor shortages, the lack of qualified personnel, and high employee turnover negatively affect the sustainable operation of the sector.*

In the post-pandemic recovery phase, financial losses, the need to enhance safety standards, and market instability emerge as major difficulties. Additionally, the implementation of environmental sustainability and social responsibility principles creates new obligations for enterprises. The research concludes that for the successful development of the hospitality industry, key priorities should include strategic planning, accelerating digital transformation, developing human resources, and adopting customer-oriented and innovative approaches.

Keywords: *hospitality industry, modern problems, strategic planning, digital transformation, impact of the pandemic, labor market challenges, sustainable development, environmental responsibility*

Azerbaijan University of Tourism and Management, Master's student, Baku, Azerbaijan
E-mail: nicateliyev637@gmail.com
Received: 14 January 2026; Accepted: 2 May 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Qonaqpərvərlik sənayesi müasir dövrdə qlobal iqtisadiyyatın ən dinamik və strateji sahələrindən biri kimi çıxış edir. Turizm, otelçilik, ictimai iaşə və əyləncə kimi alt sahələri özündə birləşdirən bu sektor yalnız iqtisadi baxımdan deyil, həm də sosial və mədəni baxımdan cəmiyyətlərin inkişafına mühüm töhfələr verir. Lakin sürətlə dəyişən dünya şəraitində bu sahənin üzləşdiyi problemlər də getdikcə daha çox mürəkkəbləşir və çoxşaxəli xarakter daşıyır (Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi, 2023). Son illər ərzində qonaqpərvərlik sənayesində ciddi transformasiyalar müşahidə olunur. Qloballaşma, texnoloji yeniliklər və rəqəmsallaşma prosesi, istehlakçı davranışlarında baş verən dəyişikliklər, əmək bazarındakı çatışmazlıqlar və pandemiya sonrası dövr bu sahənin üzərinə bir sıra yeni məsuliyyətlər və təzyiqlər qoymuşdur. Xüsusilə COVID-19 pandemiyası qonaqpərvərlik sektorunun dayanıqlılığını sınağa çəkmiş, fəaliyyət modellərinin və idarəetmə yanaşmalarının yenidən nəzərdən keçirilməsinə səbəb olmuşdur. Bu dövrdə sektor həm maliyyə baxımından, həm də insan resurslarının idarə edilməsi və müştəri münasibətləri sahəsində dərin sarsıntılar yaşamışdır (Səhratlı, 2025).

Bundan əlavə, müasir dövrün əsas tələblərindən biri olan davamlı inkişaf konsepsiyası da qonaqpərvərlik sənayesinin fəaliyyətində mühüm yer tutmağa başlamışdır. Ətraf mühitin qorunması, yerli icmalarla qarşılıqlı faydalı əlaqələrin qurulması, sosial məsuliyyət və enerji səmərəliliyi kimi faktorlar artıq sektorda uğur qazanmaq üçün sadəcə əlavə üstünlük deyil, zəruri şərtə çevrilmişdir. Müştərilərin artan gözləntiləri və fərdiləşdirilmiş xidmətlərə olan tələbat isə xidmət keyfiyyətinin, innovativ yanaşmaların və rəqəmsal alətlərin tətbiqinin vacibliyini daha da önə çıxarır (Əliyev, 2020). Bu tədqiqat işində məqsəd, qonaqpərvərlik sənayesinin mövcud vəziyyətini qiymətləndirmək, onun qarşılaşdığı əsas problemləri müəyyənləşdirmək və bu problemlərin aradan qaldırılması üçün mümkün strategiyaları təhlil etməkdir. Mövcud çağırışlara uyğun effektiv həll yollarının hazırlanması və tətbiqi, bu sahənin gələcək inkişafı və dayanıqlılığı baxımından həyati əhəmiyyət kəsb edir (Qafarlı, 2025).

Tədqiqat

Bu tədqiqat işinin əsas məqsədi müasir dövrdə qonaqpərvərlik sənayesinin qarşılaşdığı əsas problemləri dərin şəkildə araşdırmaq, bu problemlərin səbəblərini və təsir dairələrini təhlil etmək, eyni zamanda onların həlli yollarını müəyyənləşdirərək sektorun davamlı inkişafına töhfə verməkdir. Tədqiqat çərçivəsində qloballaşma, texnoloji yeniliklər, pandemiyanın nəticələri, əmək bazarındakı

dəyişikliklər, dəyişən müştəri davranışları və ekoloji tələblər kimi amillərin qonaqpərvərlik sahəsinə təsiri qiymətləndirilmişdir. Eyni zamanda, sektorun strukturu, idarəetmə modelləri və innovativ yanaşmaları nəzərdən keçirilmiş, mövcud vəziyyətin obyektiv qiymətləndirilməsi aparılmışdır (United Nations World Tourism Organization (UNWTO), 2022). Tədqiqat zamanı həm nəzəri, həm də empirik yanaşmalardan istifadə olunmuşdur. Mövcud elmi ədəbiyyatın təhlili, beynəlxalq təcrübələrin müqayisəsi, sistemli və müqayisəli analiz metodları tətbiq edilmişdir. Əldə edilən nəticələr əsasında strateji planlaşdırma, rəqəmsal transformasiya, insan resurslarının inkişafı və müştəri yönümlü xidmətlərin artırılması istiqamətində konkret elmi əsaslandırılmış tövsiyələr hazırlanmışdır (Ivanov və Webster, 2017).

Bu araşdırma həm elmi-nəzəri, həm də praktiki baxımdan əhəmiyyətlidir. Belə ki, tədqiqat nəticələri qonaqpərvərlik müəssisələrinin strateji qərar qəbuletmə prosesində istifadə oluna bilər, dövlət və özəl sektor arasında əməkdaşlığın inkişafına, eləcə də yeni idarəetmə modellərinin formalaşdırılmasına yardımçı ola bilər. Azərbaycan və digər oxşar inkişaf mərhələsində olan ölkələr üçün bu tədqiqat, qonaqpərvərlik sektorunun rəqabətqabiliyyətli, dayanıqlı və müasir tələblərə uyğun şəkildə inkişaf etdirilməsi baxımından praktik əhəmiyyət daşıyır (Hüseynova, 2019). Qonaqpərvərlik sənayesi müasir dövrdə çoxsaylı çağırışlarla üzləşir ki, bunlar sektorun dayanıqlı inkişafına və rəqabət qabiliyyətinə ciddi təsir göstərir. Əvvəlcə, qloballaşmanın sürətlənməsi və texnoloji inqilab sektorun fəaliyyət prinsiplərini köklü şəkildə dəyişdirir. Rəqəmsal transformasiya otel və restoran xidmətlərinin təşkili, müştəri münasibətlərinin idarə olunması və marketinq strategiyalarında yeni imkanlar yaratsa da, bununla yanaşı, rəqabətin intensivləşməsinə və bazarda fərqlənmək üçün innovativ yanaşmaların zəruriliyinə səbəb olur (Pizam, 2021). Əmək bazarındakı dəyişikliklər və ixtisaslı kadr çatışmazlığı qonaqpərvərlik sənayesinin ən aktual problemlərindən biridir. Bu sektor yüksək xidmət keyfiyyəti üçün peşəkar və motivasiyalı işçi qüvvəsi tələb edir, lakin əmək şəraitinin çətinliyi, aşağı maaşlar və pandemiya sonrası iqtisadi qeyri-müəyyənliklər işçi qüvvəsinin azalmasına gətirib çıxarmışdır. Nəticədə, müəssisələr insan resurslarının idarə edilməsində yeni yanaşmalar və stimullaşdırıcı mexanizmlər tətbiq etməyə məcbur olurlar (Sirdaov, 2018).

COVID-19 pandemiyası qonaqpərvərlik sektorunda həm qısa, həm də uzunmüddətli problemlər yaratmışdır. Pandemiya dövründə qapalı qalan otel və restoranlar böyük maliyyə itkiləri ilə üzləşmiş, müştəri tələbatının kəskin azalması biznes modellərinin yenidən qurulmasını zəruri etmişdir. Pandemiya sonrası dövrdə isə bərpa prosesindəki çətinliklər, yeni sanitariya normalarına uyğunlaşma və müştəri inamının bərpası əsas vəzifələr kimi önə çıxır (Kandampully və b., 2018). Bundan əlavə, davamlılıq və ekoloji məsuliyyət qonaqpərvərlik sənayesinin müasir gündəmində xüsusi yer tutur. İstehlakçıların ətraf mühitə və sosial məsuliyyətə dair artan tələbləri müəssisələri daha ekoloji təmiz texnologiyalar tətbiq etməyə, tullantıların azaldılmasına və enerji səmərəliliyinin artırılmasına təşviq edir. Bu isə uzunmüddətli perspektivdə həm iqtisadi, həm də sosial faydalar yaradır (Rashid və b., 2020). Müştəri davranışlarında baş verən dəyişikliklər də sektorda strateji dönüş nöqtəsi kimi qiymətləndirilir. Rəqəmsal kanalların geniş yayılması, fərdiləşdirilmiş xidmətlərə olan tələbatın artması, təhlükəsizlik və sağlamlıq standartlarına yüksək önəm verilməsi müəssisələrin fəaliyyətində yeni yanaşmalar tələb edir. Xidmət keyfiyyətinin yüksəldilməsi, innovasiyaların tətbiqi və müştəri məmnuniyyətinin təmin edilməsi rəqabətdə üstünlük qazanmaq üçün əsas amillərə çevrilmişdir.

Bütün bu amillər qonaqpərvərlik sənayesində strateji planlaşdırmanın, insan resurslarının inkişaf etdirilməsinin və rəqəmsal texnologiyaların tətbiqinin vacibliyini vurğulayır. Mövcud problemlərin aradan qaldırılması üçün beynəlxalq təcrübənin öyrənilməsi və yerli şəraitə uyğunlaşdırılması önəmlidir. Bununla yanaşı, sektor iştirakçıları arasında əməkdaşlığın gücləndirilməsi və dövlət dəstəyinin artırılması dayanıqlı inkişafın təmin olunmasında mühüm rol oynayır (Zeng, Carter, & De Lacy, 2019).

Nəticə

Qonaqpərvərlik sənayesi müasir dövrdə sürətlə dəyişən iqtisadi, sosial və texnoloji şəraitin təsiri altında bir sıra mürəkkəb problemlərlə üzləşir. Qloballaşma və rəqəmsal transformasiya bu sektorda innovasiyaların sürətlə tətbiqini tələb etsə də, eyni zamanda rəqabətin güclənməsinə və bazar iştirakçıları üçün davamlı təzyiqlərin yaranmasına səbəb olur. Əmək bazarında ixtisaslı kadr çatışmazlığı isə xidmət keyfiyyətinin qorunması və artırılması üçün ciddi çağırışlar yaradır, bu da insan resurslarının idarə olunması sahəsində yeni yanaşmaların tətbiqini labüd edir.

Pandemiya qonaqpərvərlik sektoruna ağır zərbə vuraraq onun iqtisadi dayanıqlılığını sınağa çəkdi, lakin bu dövr eyni zamanda yenidənqurma və bərpa üçün imkanlar yaratdı. Yeni sanitariya normaları, müştəri təhlükəsizliyinə daha yüksək diqqət və dəyişən istehlakçı davranışları sektorun fəaliyyət mexanizmlərini köklü şəkildə yenidən qurmağa vadar edir. Bu prosesdə rəqəmsal xidmətlərin və innovativ texnologiyaların rolu daha da artır, müəssisələr üçün rəqəmsal adaptasiya zərurətə çevrilir. Davamlı inkişaf və ekoloji məsuliyyət anlayışları qonaqpərvərlik sektorunda strateji prioritetlərdən birinə çevrilmişdir. Müştərilərin artan ekoloji şüuru və beynəlxalq tələblər müəssisələri ekoloji təmiz texnologiyaların tətbiqinə, tullantıların idarə olunmasına və enerji səmərəliliyinin artırılmasına yönəldir. Bu isə yalnız ətraf mühitin qorunmasına deyil, həm də uzunmüddətli iqtisadi faydaların əldə edilməsinə şərait yaradır. Araşdırmanın nəticələri göstərir ki, qonaqpərvərlik sənayesində müasir problemlərin həlli üçün inteqrativ yanaşma tələb olunur. Strateji planlaşdırma, rəqəmsal transformasiya, insan resurslarının inkişafı və müştəri yönümlü xidmətlərin artırılması bu yanaşmanın əsas komponentləridir. Beynəlxalq təcrübələrin öyrənilməsi və yerli şəraitə uyğunlaşdırılması da sektorda rəqabət qabiliyyətinin yüksəldilməsi və dayanıqlı inkişafın təmin olunmasında mühüm əhəmiyyət kəsb edir.

Nəticə olaraq, qonaqpərvərlik sənayesinin müasir çağırışlarına adekvat cavab vermək üçün sektorun bütün iştirakçılarının – müəssisə rəhbərləri, dövlət orqanları, əməkdaşlar və müştərilərin birgə səyi və qarşılıqlı dəstəyi vacibdir. Bu sahədə müasir idarəetmə yanaşmaları və innovativ həllər tətbiq edilərsə, qonaqpərvərlik sektoru ölkənin iqtisadi inkişafında mühüm rol oynamağa davam edəcək və beynəlxalq səviyyədə rəqabət üstünlüyü qazanacaqdır.

Ədəbiyyat

çevikliyini artırmağı və fərdiləşmiş öyrənmə mühitlərinin yaradılmasını zəruri etmişdir. Onlayn təhsil isə bu ehtiyacı ödəməklə, tədrisin məkan və zaman məhdudiyyətlərini aradan qaldırır və biliklərə universal çıxış imkanı yaradır. Web əsaslı kurslarda müəllimlərin səyahət etməsinə ehtiyac olmur və onlar evdən işləyə bilirlər, həmçinin tələbələr dərsləri öz cədvəllərinə uyğun şəkildə keçə bildikləri üçün tədris xərcləri də azala bilir. (Hannay və Newvine, 2006).) Bu mövzunun aktuallığı ondan irəli gəlir ki, müasir təhsil siyasəti rəqəmsal savadlılığı, texnoloji bacarıqları və distant öyrənmə qabiliyyətlərini əsas kompetensiyalar kimi qəbul edir (Means və b., 2010). Buna görə də onlayn və ənənəvi təhsil formalarının müqayisəsi yalnız pedaqoji aspektdən deyil, həm də sosial, iqtisadi və psixoloji baxımdan əhəmiyyət kəsb edir. Tədqiqatın məqsədi ondan ibarətdir ki, hər iki təhsil formasının üstünlükləri və məhdudiyyətləri sistemli şəkildə təhlil edilsin, tədris keyfiyyətinə, tələbə nailiyyətlərinə və təhsil prosesinin səmərəliliyinə təsiri müəyyənləşdirilsin. Onlayn və ənənəvi təhsil formalarının inteqrasiyası müasir dövrün təhsil islahatlarının əsas istiqamətlərindən birinə çevrilmişdir. Texnologiyanın inkişafı və tədris prosesində rəqəmsal vasitələrin tətbiqi müəllim və tələbə arasında yeni münasibət modeli formalaşdırır. Artıq tədris yalnız fiziki sinif məkanında deyil, virtual platformalarda da həyata keçirilir. Bu, təhsilin çevikliyini, əlçatanlığını və fərdiləşmə səviyyəsini artırmaqla yanaşı, bilik mübadiləsinin daha geniş miqyasda aparılmasına imkan yaradır (Yadav və Singh, 2024).

Tədqiqat

Onlayn təhsilin ənənəvi öyrənmə və tədrislə müqayisədə əsas problemi sosial mövcudluğun olmaması hesab olunur və eyni zamanda tələbələrin akademik göstəriciləri, inkişafı və onların həm tam vaxtlı, həm də distant təhsildə qiymətləndirilməsi də əsas narahatlıq doğuran məsələlərdəndir (Makarova, 2021). Ənənəvi təhsil modeli insan ünsiyyətinə, sosial təcrübəyə və kollektiv öyrənmə prosesinə əsaslandığı üçün tələbələrdə emosional və sosial bacarıqların formalaşmasında hələ də əvəzolunmaz rol oynayır. Müxtəlif uzaqdan təhsil üsullarını ənənəvi üzbəüz anatomiya tədrisi ilə müqayisə edən bəzi araşdırmalar göstərdi ki, tələbələr üçün ən çox seçilən və ən effektiv tədris metodu hələ də ənənəvi tədris üsuludur (Totlis və b., 2021). Bu səbəbdən təhsil mütəxəssisləri və pedaqoqlar qeyd edirlər ki, rəqəmsal təhsilin inkişafı heç də ənənəvi sistemin tam əvəz olunması anlamına gəlmir. Əksinə, bu iki modelin sintezi — blended learning və ya hibrid təhsil adlanan yanaşma — müasir pedaqogikanın ən effektiv istiqamətlərindən biri kimi qəbul edilir. Bu modeldə tələbə bilikləri həm müəllimlə canlı qarşılıqlı əlaqə vasitəsilə, həm də onlayn resurslardan müstəqil şəkildə mənimsəyir. Bunun nəticəsində öyrənmə prosesi daha elastik, interaktiv və innovativ xarakter alır. Belə yanaşma təhsil sisteminin keyfiyyət göstəricilərini artırmaqla yanaşı, fərdi öyrənmə strategiyalarının formalaşmasına və ömürboyu təhsil konsepsiyasının reallaşmasına da töhfə verir. Beləliklə, onlayn və ənənəvi təhsilin müqayisəsi yalnız fərqləri müəyyənləşdirmək üçün deyil, həm də gələcək təhsil modellərinin optimal strukturunu qurmaq baxımından mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə aparılan tədqiqatlar göstərir ki, ən səmərəli nəticələr məhz bu iki təhsil formasının qarşılıqlı tamamlanması və inteqrasiyası yolu ilə əldə edilir (Kusmaryono və b., 2021).

Müasir Təhsil Sistemində Onlayn və Ənənəvi Tədris Modellərinin İnkişaf Tendensiyaları

Cəmiyyətin sürətli informasiya və texnologiya inkişafı nəticəsində təhsil anlayışı yeni məzmun qazanmışdır. Artıq bilik yalnız dərs otaqlarında deyil, müxtəlif rəqəmsal mühitlərdə formalaşır və ötürülür. Bu dəyişikliklər təhsil modellərinin yenilənməsini zəruri etmiş, nəticədə ənənəvi və onlayn tədris formaları paralel şəkildə inkişaf etməyə başlamışdır. Tədris prosesinin bu iki istiqaməti bir-birinə rəqib deyil, əksinə, bir-birini tamamlayan pedaqoji sistemlər kimi qəbul olunur. Müasir təhsil siyasəti tələbələrin bilik qazanmaqdan çox, bilik yaratmaq və tətbiq etmək bacarığını formalaşdırmağa yönəlmişdir. Bu baxımdan, onlayn təhsil modelləri çeviklik, fərdiləşmə və rəqəmsal resurslardan səmərəli istifadə baxımından üstünlük təşkil edir. Ənənəvi təhsil isə insan ünsiyyətinə, sinifdaxili əməkdaşlığa və sosial öyrənməyə əsaslanaraq, şəxsiyyətin hərtərəfli inkişafına xidmət edir. Təhsil mühitində bu iki modelin qarşılıqlı əlaqəsi və sintezi təlimin keyfiyyətinə, tələbə

motivasiyasına və öyrənmə səmərəliliyinə birbaşa təsir göstərir. Hazırkı mərhələdə dünya təhsil sistemlərinin çoxunda hibrid tədris formaları tətbiq olunur və bu, həm texnoloji yeniliklərə uyğunlaşma, həm də sosial əlaqələrin qorunması baxımından optimal yanaşma hesab edilir (Trietiak, 2020).

Onlayn təhsil modellərinin genişlənməsi distant tədrisin keyfiyyətinin artırılması, müəllimlərin rəqəmsal bacarıqlarının təkmilləşdirilməsi və tədris prosesində süni intellekt, adaptiv öyrənmə sistemləri kimi texnologiyaların tətbiqini stimullaşdırmışdır. Bu proses eyni zamanda təhsildə şəffaflığın, məlumat mübadiləsinin və akademik resurslara bərabər çıxışın təmin olunmasına yönəlmişdir. Ənənəvi təhsil sistemi isə hələ də sosial öyrənmənin, kollektiv fəaliyyətin və insan amilinin qorunmasında mühüm rol oynayır. Tədrisin canlı müzakirə mühiti, müəllimlə birbaşa ünsiyyət və praktik təcrübə qazanmaq imkanı bu modelin əsas üstünlükləridir. Lakin onun sabit strukturu və resurs məhdudiyyətləri rəqəmsal dövrün çevik tələblərinə tam cavab vermir. Bu baxımdan, müasir təhsil strategiyalarının əsas məqsədi bu iki model arasında optimal tarazlıq yaratmaqdan ibarətdir. Təhsilin gələcək inkişafı hibrid sistemlərin səmərəli tətbiqi, rəqəmsal innovasiyaların sosial öyrənmə mühiti ilə uzlaşdırılması və fərdiləşdirilmiş öyrənmə yanaşmalarının genişləndirilməsi istiqamətində formalaşır.

Cədvəl 1
Müasir təhsil formalarının effektivlik göstəriciləri üzrə müqayisəsi

Tədris forması	**Tədrisə cəlb olunan tələbələrin payı (%)**	**Məmnunluq səviyyəsi (%)**	**Resurslardan istifadə intensivliyi (%)**	**Tədris keyfiyyətinə təsir göstəricisi (orta bal 5 üzərindən)**
Ənənəvi təhsil	48	76	62	4.1
Onlayn təhsil	35	68	89	3.9
Hibrid təhsil	17	82	93	4.5

Mənbə: Yadav, R., & Singh, P. (2024). A study that compares traditional classroom teaching with online learning and using traditional textbooks with online learning in middle schools. IAR Journal of Education and Literature (IARJEL). https://iarconsortium.org/iarjel/29/561/a-study-that-compares-traditional-classroom-teaching-with-online-learning-and-using-traditional-textbooks-with-online-learning-in-middle-schools-4517/

Cədvəl müasir təhsil sistemində tətbiq olunan üç əsas modelin — ənənəvi, onlayn və hibrid təhsil formalarının effektivlik göstəricilərini müqayisəli şəkildə əks etdirir. Məlumatlara əsasən, ənənəvi təhsil hələ də tələbələrin əsas hissəsi tərəfindən üstün tutulur (48%), lakin rəqəmsal resurslardan istifadə səviyyəsi aşağıdır. Onlayn təhsil forması yüksək texnoloji imkanlara və geniş resurslara malik olsa da, sosial qarşılıqlı əlaqənin məhdudluğu səbəbindən məmnunluq səviyyəsi nisbətən aşağı (68%) olmuşdur. Ən yüksək göstəricilər hibrid təhsil modelinə məxsusdur: həm tələbə məmnunluğu (82%), həm də tədris keyfiyyəti (4.5 bal) baxımından bu model üstünlük təşkil edir. Bu nəticələr göstərir ki, təhsilin gələcək inkişafı məhz ənənəvi və onlayn tədrisin balanslaşdırılmış birləşməsinə — yəni hibrid yanaşmaya əsaslanmalıdır. Bu yanaşma həm rəqəmsal səmərəliliyi, həm də sosial öyrənmənin psixoloji və pedaqoji üstünlüklərini özündə birləşdirir.

Cədvəl 2
Onlayn, ənənəvi və hibrid təhsil modellərinin üstün və zəif tərəflərinin müqayisəli analizi

Tədris modeli	Əsas üstünlüklər	Əsas çatışmazlıqlar
Ənənəvi təhsil	- Müəllim-tələbə arasında canlı ünsiyyət - Sosial və emosional bacarıqların inkişafı - Praktiki dərslərin effektiv təşkili - Davamlı intizam və motivasiya	- Məkan və zaman məhdudiyyəti - İştirak xərclərinin yüksək olması - Rəqəmsal resurslara çıxışın məhdudluğu
Onlayn təhsil	- Zaman və məkan sərbəstliyi - Fərdi öyrənmə imkanı - Rəqəmsal resurslara geniş çıxış - Təhsildə inklüzivlik və əlçatanlıq	- Sosial əlaqələrin zəifləməsi - Motivasiya və nizam-intizam problemləri - Texnoloji asılılıq və bərabərsizlik - Praktiki biliklərin məhdud qazanılması
Hibrid təhsil	- Hər iki modelin üstün cəhətlərinin birləşməsi - Tədris prosesinin elastikliyi və çevikliyi - Rəqəmsal və sosial bacarıqların paralel inkişafı - Təhsil keyfiyyətinin yüksəlməsi	- İnfrastruktur və texnoloji təminat tələbləri - Müəllimlərin əlavə hazırlıq ehtiyacı - Koordinasiya və idarəetmə çətinlikləri

Mənbə: Kumari, S. (2021). Online classes versus traditional classes? Comparison of student satisfaction and performance. PMC. https://pmc.ncbi.nlm.nih.gov/articles/PMC8826787

Bu cədvəl müasir təhsil sistemində üç əsas modelin — ənənəvi, onlayn və hibrid təhsil formalarının — müqayisəli təhlilini təqdim edir. Ənənəvi model sosial və psixoloji baxımdan güclü tərəflərə malik olsa da, çeviklik və texnoloji yeniliklər baxımından zəif qalır. Onlayn təhsil biliklərə asan çıxış və sərbəst öyrənmə imkanı versə də, tələbələrin sosial və praktiki bacarıqlarını məhdudlaşdırır. Hibrid təhsil bu iki yanaşmanın sintezi kimi çıxış edir və həm rəqəmsal imkanlardan, həm də canlı təlim mühitinin üstünlüklərindən səmərəli istifadə etməyə imkan verir. Bu baxımdan, hibrid model müasir pedaqogikanın ən perspektivli və dayanıqlı inkişaf istiqaməti kimi qiymətləndirilir.

Cədvəl 3
Onlayn, ənənəvi və hibrid təhsil modelləri üzrə tələbə göstəricilərinin statistik müqayisəsi

Tədris modeli	Dərsə davamiyyət səviyyəsi (%)	Akademik nailiyyət göstəricisi (orta bal, 100 üzərindən)	Fərdi öyrənmə motivasiyası (%)	Texnoloji bacarıq inkişafı (%)	Sosial qarşılıqlı əlaqə səviyyəsi (%)
Ənənəvi təhsil	92	83	68	45	88
Onlayn təhsil	78	79	74	91	52
Hibrid təhsil	87	88	81	86	76

Mənbə: Shambour, M. K. Y., & Abu-Shanab, E. (2021). Analysing lecturers' perceptions on traditional vs. distance teaching. PMC. https://pmc.ncbi.nlm.nih.gov/articles/PMC8444535/

Cədvəl göstərir ki, müxtəlif təhsil modelləri tələbələrin akademik və sosial fəaliyyətinə fərqli təsir göstərir. Ənənəvi təhsil forması davamiyyət və sosial əlaqə baxımından yüksək nəticələr verir, lakin texnoloji bacarıqların inkişafında məhduddur. Onlayn təhsil texnoloji və fərdi öyrənmə motivasiyasını artırsa da, sosial qarşılıqlı əlaqəni zəiflədir. Hibrid təhsil isə bu göstəricilər arasında balans yaradır — həm yüksək akademik nəticə (88 bal), həm də motivasiya və texnoloji savadlılıq baxımından optimal səviyyə təmin edir. Bu səbəbdən hibrid model müasir təhsil sistemində ən uyğun və dayanıqlı yanaşma hesab olunur.

Cədvəl 4
Müasir təhsil modelləri üzrə müəllim və tələbə baxışlarının statistik müqayisəsi

Tədris modeli	Müəllimlərin metodik rahatlıq dərəcəsi (%)	Tədris yükünün azaldılması göstəricisi (%)	Tələbələrin dərs materiallarını mənimsəmə səviyyəsi (%)	Geri əlaqə (feedback) effektivliyi (%)	Ümumi tədris məmnunluğu (%)
Ənənəvi təhsil	84	41	88	72	80
Onlayn təhsil	67	79	74	69	73
Hibrid təhsil	78	65	86	83	

Mənbə: Means, B., Toyama, Y., Murphy, R., Bakia, M., & Jones, K. (2010). Evaluation of evidence-based practices in online learning: A meta-analysis and review of online learning studies. U.S. Department of Education. https://www.ed.gov/media/document/evaluation-of-evidence-based-practices-online-learning-meta-analysis-and-review-of-online-learning-studies-revised-september-2010-107159.pdf

Cədvəl 4-də müasir təhsil sistemində tətbiq olunan üç model — ənənəvi, onlayn və hibrid tədris formaları üzrə müəllim və tələbə baxışları müqayisə olunmuşdur. Məlumatlar göstərir ki, ənənəvi təhsil forması dərs materiallarının mənimsənilməsi baxımından ən yüksək nəticəni (88%) təmin etsə də, metodik rahatlıq və tədris yükü baxımından məhduddur. Onlayn təhsil modeli müəllimlər üçün daha az tədris yükü (79%) və daha çox texnoloji çeviklik yaratsa da, məmnunluq göstəriciləri nisbətən aşağıdır (73%). Hibrid təhsil forması bu iki yanaşmanın tarazlaşdırılmış sintezi kimi çıxış edir. Hibrid modeldə həm tələbələrin mənimsəmə səviyyəsi (86%), həm də ümumi məmnunluq göstəriciləri (88%) yüksək olmuşdur. Bu nəticələr göstərir ki, hibrid təhsil XXI əsr təhsil sistemində həm pedaqoji, həm də psixoloji baxımdan ən optimal və dayanıqlı tədris modelidir.

Müasir dövrdə təhsil prosesinin mahiyyəti sadəcə bilik ötürməkdən ibarət deyil; o, həm də yaradıcılıq, analitik düşüncə və texnoloji bacarıqların inkişafını hədəfləyən kompleks sosial sistemə çevrilmişdir. Rəqəmsal transformasiya təhsil strukturunu dəyişdirməklə yanaşı, müəllim və tələbə münasibətlərinə, təlim metodlarına və qiymətləndirmə mexanizmlərinə də yeni məzmun gətirmişdir. Onlayn və ənənəvi təhsil modelləri arasında formalaşan fərqlər artıq tədris prosesində tamamlayıcı xarakter daşıyır. Ənənəvi model emosional qarşılıqlı əlaqə, birbaşa rəhbərlik və sosial mühitlə öyrənməni təmin edir. Onlayn model isə informasiya axınını sürətləndirərək biliklərin əldə olunmasını daha çevik və sərhədsiz edir. Bu baxımdan, müasir təhsil siyasəti bu iki istiqaməti rəqabət müstəvisində deyil, inteqrativ inkişaf çərçivəsində dəyərləndirir. Rəqəmsal mühitdə yaradılan təhsil platformaları (Moodle, Coursera, Microsoft Teams, Zoom və s.) müəllimlərə dərs materiallarını fərdiləşdirmək, interaktiv müzakirələr aparmaq və qiymətləndirməni avtomatlaşdırmaq imkanı verir. Bu, həm tədris prosesinin səmərəliliyini artırır, həm də tələbələrin məsuliyyət hissini və özünüidarə bacarığını gücləndirir. Digər tərəfdən, bir çox tədqiqatlar göstərir ki, e-learning tələbələrin nailiyyətlərinə mənfi

təsir göstərə bilər, çünki şagirdlər təcrid olunmuş hiss edə, valideynlər sosial inkişafla bağlı narahatlıq keçirə və dil çətinliyi olan tələbələr mətn əsaslı onlayn mühitdə çətinlik yaşaya bilərlər (Elfaki və b., 2019).Tədrisin gələcək inkişaf tendensiyası artıq "blended learning" (qarışıq və ya hibrid təhsil) konsepsiyası üzərində qurulmaqdadır. Bu model hər iki sistemin üstün cəhətlərini birləşdirərək tədris prosesini daha elastik və tələbəyönümlü edir. Hibrid modeldə dərsin bir hissəsi virtual platformalarda, digər hissəsi isə sinif mühitində həyata keçirilir. Belə yanaşma biliklərin həm nəzəri, həm də praktiki mənimsənilməsini təmin edir və fərdi öyrənmə strategiyalarını dəstəkləyir.

Eyni zamanda, bu dəyişikliklər təhsil idarəçiliyinə də təsir göstərir. Müəllimlər üçün rəqəmsal pedaqogika, qiymətləndirmə analitikası və onlayn dərs dizaynı üzrə yeni bacarıqlar zərurətə çevrilmişdir (Kumari, 2021). Tələbələr isə fərdi öyrənmə məsuliyyəti daşımaq, vaxtı səmərəli bölmək və müstəqil qərar vermək bacarıqlarını inkişaf etdirməyə yönəlirlər. Bütün bunlar göstərir ki, müasir təhsil sistemində uğurlu nəticə yalnız texnologiyanın tətbiqi ilə deyil, həm də pedaqoji adaptasiyanın dərinləşməsi ilə mümkündür. Rəqəmsal savadlılıq, sosial adaptasiya və innovativ tədris metodlarının harmoniyası təhsil keyfiyyətinin yüksəlməsi üçün əsas şərt sayılır. Müasir təhsil sistemində innovativ texnologiyalar və metodoloji yeniliklər öyrənmə prosesinin əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. Təhsil müəssisələri artıq yalnız bilik ötürən mərkəz deyil, eyni zamanda innovasiya və tədqiqat yönümlü öyrənmə mühitləri kimi fəaliyyət göstərir. Bu mühitlərdə tələbə mərkəzli yanaşma, fərdi inkişaf planları və layihə əsaslı öyrənmə metodları daha geniş tətbiq edilir. Onlayn və hibrid təhsil formatları bu dəyişikliklər üçün xüsusi platforma rolunu oynayır. Bu modellərdə süni intellektə əsaslanan adaptiv öyrənmə sistemləri tələbələrin fərdi qabiliyyət və ehtiyaclarına uyğun material təqdim edir. Nəticədə, öyrənmə prosesi daha məqsədyönlü və ölçüləbilən olur. Eyni zamanda, rəqəmsal analitika vasitəsilə tələbələrin irəliləyişi izlənilir, zəif tərəflər müəyyən edilir və tədris prosesinə operativ müdaxilə imkanı yaranır. Bu dövrdə müəllimlərin rolu da dəyişməkdədir. Onlar artıq yalnız bilik verən deyil, həm də öyrənməni istiqamətləndirən, fərdi inkişafı müşahidə edən və təlimin strateji planlaşdırıcısı kimi çıxış edirlər. Bu baxımdan, pedaqoji fəaliyyətin keyfiyyət göstəriciləri rəqəmsal bacarıqlarla sıx əlaqəlidir. Müəllimlər onlayn platformalarda dərs dizaynı, interaktiv məzmunun yaradılması, rəqəmsal qiymətləndirmə və distant ünsiyyət bacarıqlarına yiyələnməlidirlər. Tələbə baxımından isə bu dəyişikliklər daha çox məsuliyyət və özünüidarə tələb edir. Onlayn öyrənmədə motivasiyanın davamlılığı, vaxtın düzgün idarə olunması və müstəqil tədqiqat aparmaq bacarığı mühüm rol oynayır. Buna görə də müasir təhsil yanaşmaları yalnız biliklərin mənimsənilməsinə deyil, həm də öyrənmənin necə baş verdiyini anlamağa yönəlir (Shambour və Abu-Shanab, 2021).

Digər mühüm tendensiya təhsilin qlobal xarakter almasıdır. Rəqəmsal platformalar vasitəsilə tələbələr müxtəlif ölkələrdən olan müəllim və həmyaşıdlarla qarşılıqlı əlaqə qurur, beynəlxalq layihələrdə iştirak edir və mədəni mübadilə mühitində öyrənirlər. Bu, yalnız akademik deyil, həm də sosial kapitalın formalaşmasına töhfə verir. Bütün bu proseslər göstərir ki, müasir təhsil sistemi artıq təkamül deyil, transformasiya mərhələsindədir. Bu transformasiyanın uğuru texnologiyanın tətbiq səviyyəsindən çox, onun pedaqoji məqsədlərlə nə dərəcədə səmərəli istifadə olunmasından asılıdır. Təhsildə davamlı inkişaf, inklüzivlik və keyfiyyətin artırılması üçün ən doğru yol — innovativ texnologiyaları humanist və sosial dəyərlərlə uzlaşdırmaqdan keçir.

Nəticə

Yekun olaraq qeyd etmək olar ki, müasir təhsil sistemində onlayn və ənənəvi tədris modellərinin inkişafı bir-birini tamamlayan iki istiqamət kimi formalaşmışdır. Hər iki modelin özünəməxsus funksional üstünlükləri olsa da, onların inteqrasiyası təhsil prosesini daha səmərəli, dinamik və fərdiləşdirilmiş hala gətirir. Rəqəmsal texnologiyalar sayəsində öyrənmə mühiti məkan və zaman məhdudiyyətlərindən azad olmuş, tədris prosesində çeviklik və interaktivlik artmışdır. Tədqiqatlar göstərir ki, hibrid təhsil modeli həm müəllimlər, həm də tələbələr üçün ən optimal yanaşmadır. Bu

modeldə rəqəmsal resurslardan istifadənin effektivliyi, praktiki təcrübə ilə sinifdaxili qarşılıqlı əlaqə arasında tarazlıq yaradılır. Eyni zamanda, bu yanaşma tələbələrin motivasiyasını, öyrənmə məsuliyyətini və analitik düşünmə qabiliyyətini artırır. Müasir dövrdə təhsil sisteminin dayanıqlılığı artıq yalnız maddi-texniki bazadan deyil, həm də rəqəmsal transformasiyanın pedaqoji və sosial mühitə uyğun şəkildə tətbiqindən asılıdır. Buna görə də, təhsil siyasətində əsas prioritetlərdən biri müəllimlərin rəqəmsal bacarıqlarının gücləndirilməsi, interaktiv tədris metodlarının tətbiqi və tələbəyönümlü yanaşmanın genişləndirilməsi olmalıdır. Beləliklə, gələcək təhsil strategiyası texnologiya və humanizmin sintezini əks etdirməlidir. Bu sintez, həm biliklərin dərin mənimsənilməsini, həm də şəxsiyyətin sosial-mədəni inkişafını təmin edərək təhsili sadəcə öyrənmə prosesi deyil, həyat boyu davam edən inkişaf mərhələsi kimi formalaşdıracaq.

Ədəbiyyat

1. Alam, B. F., Bashir, R., Hussain, T., Abbas, T., Malik, S. A., Jan, S. H., & Khurshid, M. (2023). Online vs. traditional learning: A comparative analysis of student's responses during COVID-19. *Work, 74*(1), 21–29.
2. Elfaki, N. K., Abdulraheem, I., & Abdulrahim, R. (2019). Impact of e-learning vs traditional learning on student's performance and attitude. *International Medical Journal, 24*(03), 225–233.
3. Hannay, M., & Newvine, T. (2006). Perceptions of distance learning: A comparison of online and traditional learning. *Journal of Online Learning and Teaching, 2*(1), 1–11.
4. Jayasinghe, U., Dharmaratne, A., & Atukorale, A. (2015, February). Students' performance evaluation in online education system vs traditional education system. In *Proceedings of the 2015 12th International Conference on Remote Engineering and Virtual Instrumentation (REV)* (pp. 131–135). IEEE.
5. Kumari, S. (2021). Online classes versus traditional classes? Comparison of student satisfaction and performance. *PMC*.
6. Kusmaryono, I., Jupriyanto, & Kusumaningsih, W. (2021). A systematic literature review on the effectiveness of distance learning: Problems, opportunities, challenges, and predictions. *International Journal of Education, 14*(1), 62–69.
7. Makarova, E. (2021). Effectiveness of traditional and online learning: Comparative analysis from the student perspective. In *SHS Web of Conferences* (Vol. 99, p. 01019). EDP Sciences.
8. Means, B., Toyama, Y., Murphy, R., Bakia, M., & Jones, K. (2010). *Evaluation of evidence-based practices in online learning: A meta-analysis and review of online learning studies*. U.S. Department of Education.
9. Shambour, M. K. Y., & Abu-Shanab, E. (2021). Analysing lecturers' perceptions on traditional vs. distance teaching. *PMC*.
10. Totlis, T., Tishukov, M., Piagkou, M., Kostares, M., & Natsis, K. (2021). Online educational methods vs. traditional teaching of anatomy during the COVID-19 pandemic. *Anatomy & Cell Biology, 54*(3), 332–339.
11. Trietiak, A. (2020). *Online education vs. traditional classroom instruction: A review of the literature*. EdSpace.
12. Yadav, R., & Singh, P. (2024). A study that compares traditional classroom teaching with online learning and using traditional textbooks with online learning in middle schools. *IAR Journal of Education and Literature (IARJEL).*

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 333–337
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 333–337
DOI: https://doi.org/10.36719/2706-6185/60/333-337

Məktəbdaxili qiymətləndirmə və təlim keyfiyyəti: Müasir yanaşmalar

Bəlqız Musayeva

Xülasə. *Müasir təhsil sistemində qiymətləndirmə artıq yalnız şagirdin biliyini yoxlamağa xidmət edən vasitə kimi deyil, onun inkişafını dəstəkləyən və öyrənmə prosesini istiqamətləndirən mühüm pedaqoji mexanizm kimi qəbul olunur. Qiymətləndirmə təkcə yekun nəticəni müəyyən etmir, eyni zamanda şagirdin bilik, bacarıq və kompetensiyalarının inkişaf səviyyəsini izləməyə imkan yaradır. Tədqiqat çərçivəsində məktəbdaxili qiymətləndirmənin əsas növləri olan diaqnostik, formativ və summativ qiymətləndirmə təhlil edilmişdir. Xüsusilə formativ qiymətləndirmə və rəyin şagird nailiyyətlərinə göstərdiyi müsbət təsir ön plana çəkilmişdir. Müasir pedaqoji yanaşmalarda rəy şagirdin inkişafını istiqamətləndirən, motivasiyasını artıran və öyrənmə fəaliyyətini daha məqsədyönlü edən vacib vasitə hesab olunur. Bununla yanaşı, konstruktivist yanaşma və Lev Vıqotskinin sosial öyrənmə nəzəriyyəsi əsasında rəyin öyrənmə prosesindəki rolu araşdırılmışdır. Müasir texnologiyaların tətbiqi qiymətləndirməni daha interaktiv və fərdiləşdirilmiş etmiş, özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə isə şagirdlərdə reflektiv düşünmə, əməkdaşlıq və müstəqil öyrənmə bacarıqlarının formalaşmasına şərait yaratmışdır*

Açar sözlər: *qiymətləndirmə, məktəbdaxili qiymətləndirmə, formativ qiymətləndirmə, summativ qiymətləndirmə, diaqnostik qiymətləndirmə, rəy, konstruktivizm, özünüqiymətləndirmə, qarşılıqlı qiymətləndirmə, təlim prosesi, pedaqoji yanaşma, şagird inkişafı*

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: musayevabalqiz@gmail.com
Daxil oldu: 20 Yanvar 2026; Qəbul edildi: 8 May 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

In-School Assessment and Teaching Quality: Modern Approaches

Balgız Musayeva

Abstract. *In the modern education system, assessment is no longer considered merely a tool for testing students' knowledge, but rather an important pedagogical mechanism that supports students' development and guides the learning process. Assessment not only determines final outcomes, but also allows teachers to monitor the development of students' knowledge, skills, and competencies. Within the framework of the research, the main types of school-based assessment diagnostic, formative, and summative assessment were analyzed.*

Particular attention was paid to the positive impact of formative assessment and feedback on student achievement. In contemporary pedagogical approaches, feedback is regarded as an essential tool that directs students' progress, increases motivation, and makes learning more purposeful. In addition, the role of feedback in the learning process was examined within the context of constructivist approaches and the social learning theory of Lev Vygotsky. The integration of modern technologies has made assessment more interactive and individualized, while self-assessment and peer assessment have contributed to the development of students' reflective thinking, collaboration, and independent learning skills.

Keywords: *assessment, school-based assessment, formative assessment, summative assessment, diagnostic assessment, feedback, constructivism, self-assessment, peer assessment, learning process, pedagogical approach, student development*

Baku Slavic University, Master's student, Baku, Azerbaijan
E-mail: musayevabalqiz@gmail.com
Received: 20 January 2026; Accepted: 8 May 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Müasir dövrdə təhsilin keyfiyyətinin artırılması birbaşa olaraq qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlıdır. Ənənəvi yanaşmalardan fərqli olaraq, günümüzün pedaqoji tələbləri qiymətləndirməni sadəcə bir nəzarət aləti deyil, şagirdin fərdi potensialını üzə çıxaran və təlim prosesini stimullaşdıran fundamental bir proses kimi qəbul edir. Təhsil paradiqmasının dəyişməsi nəticəsində qiymətləndirmə artıq şagird fəaliyyətinin "hökmü" deyil, onun inkişaf trayektoriyasının müəyyənləşdirilməsi üçün strateji bir vasitəyə çevrilmişdir. Bu baxımdan, məktəbdaxili qiymətləndirmənin konseptual əsaslarını və onun müasir formalarını dərindən təhlil etmək, təlimin effektivliyini artırmaq üçün xüsusi əhəmiyyət kəsb edir.

Klassik tədris metodlarında qiymətləndirmə mexanizmi şagirdin topladığı informasiyanı ölçməkdən ibarət idi. Burada əsas diqqət təlimin gedişatına deyil, onun yekunlaşdığı nöqtəyə yönəlirdi. Test və imtahan nəticələri əsas götürüldüyü üçün fərdi inkişaf və şagirdin qarşılaşdığı maneələr çox vaxt analiz edilmirdi. Beləliklə, qiymətləndirmə sadəcə bir inzibati nəzarət aləti funksiyasını yerinə yetirirdi. Günümüzdə isə bu yanaşma öz yerini daha produktiv bir modelə verib. Yeni təhsil paradiqmasında qiymətləndirmə artıq passiv bir ölçmə vasitəsi deyil, şagirdin potensialını üzə çıxaran dinamik bir mexanizmdir. Müasir yanaşmaya görə, bu proses həm müəllimə, həm də şagirdə öyrənmənin keyfiyyətini artırmaq üçün lazımi istiqaməti verməlidir. Bu yeni yanaşmaya görə, qiymətləndirmə təlim prosesindən ayrı bir mərhələ kimi deyil, onun ayrılmaz tərkib hissəsi kimi qəbul olunur. Şagirdin öyrənmə fəaliyyəti davam etdiyi müddətdə qiymətləndirmə də paralel şəkildə həyata keçirilir və bu yanaşma onun inkişaf səviyyəsini daha obyektiv şəkildə izləməyə imkan yaradır. Müasir pedaqoji baxışlarda qiymətləndirmə artıq sadəcə yoxlama vasitəsi deyil, təlim prosesini istiqamətləndirən əsas mexanizmlərdən biri hesab edilir. Bu prosesdə müəllim yalnız nəticəni qiymətləndirən şəxs deyil, eyni zamanda şagirdin öyrənmə yolunu müşahidə edən və ona inkişaf istiqaməti göstərən pedaqoji bələdçi rolunu oynayır (Yusifov, 2015, s. 42–45).

Son illərdə aparılan tədqiqatlar göstərir ki, təlim prosesində formativ qiymətləndirmədən məqsədyönlü istifadə şagirdlərin akademik nəticələrinə müsbət təsir göstərir (Wiliam, 2018, s. 48–56). Bu yanaşma vasitəsilə müəllim yalnız şagirdin mövcud bilik səviyyəsini deyil, həm də öyrənmə prosesində qarşılaşdığı çətinlikləri və inkişaf potensialını müəyyənləşdirə bilir.

Tədqiqat

Qiymətləndirmə sisteminin bugünkü müasir formaya gəlib çatması təhsil sahəsində uzun illər davam edən dəyişikliklər və pedaqoji yanaşmaların inkişafı ilə bağlıdır. Əvvəlki dövrlərdə qiymətləndirmə əsasən şagirdin nə qədər məlumat mənimsədiyini müəyyənləşdirmək və nəticələri yoxlamaq məqsədi daşıyırdı. Bu səbəbdən proses daha çox nəzarət və qiymətvermə xarakteri ilə seçilirdi. Zaman keçdikcə təhsildə yeni yanaşmalar meydana çıxdı və qiymətləndirməyə münasibət dəyişməyə başladı. Artıq diqqət yalnız yekun nəticəyə deyil, şagirdin öyrənmə prosesinə, inkişaf dinamikasına və əldə etdiyi bacarıqlara yönəldi. Müasir təhsil yanaşmalarında qiymətləndirmə şagirdin öyrənməsini istiqamətləndirən və onu dəstəkləyən vacib mexanizm kimi qəbul edilir. Bu modeldə hər bir şagirdin fərdi xüsusiyyətləri, öyrənmə tempi və ehtiyacları nəzərə alınır, müəllim isə qiymətləndirmə nəticələrindən təlimin daha səmərəli təşkili üçün istifadə edir (OECD, 2024, s. 15–18).

Bu inkişaf mərhələlərinin nəticəsində qiymətləndirməyə münasibət də əhəmiyyətli dərəcədə dəyişmişdir. Artıq qiymətləndirmə yalnız müəyyən vaxtlarda aparılan formal yoxlama kimi deyil, təlim prosesi boyunca davam edən və şagirdin inkişafını mərhələli şəkildə izləyən dinamik pedaqoji fəaliyyət kimi qəbul olunur. Başqa sözlə, qiymətləndirmə şagirdin öyrənmə yolunu dərsin hər mərhələsində müşahidə etməyə və onun inkişaf istiqamətlərini müəyyənləşdirməyə imkan yaradan fasiləsiz proses xarakteri daşıyır. Məktəbdə təlim prosesinin səmərəli təşkili və şagirdlərin inkişafının düzgün izlənməsi məqsədilə məktəbdaxili qiymətləndirmə mühüm pedaqoji vasitə kimi tətbiq olunur. Bu proses müəllim tərəfindən tədris müəssisəsi daxilində həyata keçirilir və əsas diqqət şagirdin hansı inkişaf mərhələsində olduğunu müəyyənləşdirməyə, öyrənmə zamanı yaranan çətinlikləri vaxtında görməyə və dərsin gedişini həmin ehtiyaclara uyğun şəkildə qurmağa yönəlir. Başqa sözlə, qiymətləndirmə yalnız nəticəni qeyd etmir, həm də təlimin istiqamətini formalaşdıran davamlı bir proses kimi çıxış edir.

Struktur baxımından məktəbdaxili qiymətləndirmə üç əsas komponent üzərində qurulur: diaqnostik, formativ və summativ qiymətləndirmə. Bu mərhələlərin hər biri fərqli funksiyanı yerinə yetirsə də, onların hamısı vahid məqsədə – tədrisin keyfiyyətinin artırılmasına xidmət edir və bir-birini tamamlayaraq bütöv bir sistem yaradır. Tədrisin ilkin mərhələsində həyata keçirilən diaqnostik qiymətləndirmənin əsas məqsədi şagirdlərin əvvəlki bilik səviyyəsini müəyyənləşdirməkdir. Şagirdlərin hansı hazırlıq səviyyəsində olduğunu anlamaq üçün dərsə başlamazdan əvvəl bu tip yoxlamalar aparılır və nəticələr müəllimə sinfin ümumi vəziyyəti barədə aydın təsəvvür yaradır. Bu məlumat əsasında dərs planı daha real ehtiyaclara uyğun şəkildə tənzimlənir və şagirdlər arasındakı fərqlər nəzərə alınaraq fərdiləşdirilmiş yanaşma formalaşdırılır.

Təlim prosesi boyunca davam edən formativ qiymətləndirmə isə daha çevik və dinamik xarakter daşıyır. Şagirdin zamanla hansı irəliləyişlərə nail olduğunu müşahidə etmək və onun öyrənmə yolunu düzgün istiqamətləndirmək bu mərhələnin əsas məqsədidir. Burada müəllim sadəcə qiymət verməklə kifayətlənmir, şagirdlə davamlı əks-əlaqə qurur, onun cavablarını və fəaliyyətini təhlil edir, eyni zamanda yol verilən səhvlərin səbəblərini izah edərək inkişaf üçün konkret istiqamətlər göstərir. Beləliklə, səhvlər qiymətləndirmənin sonu deyil, əksinə, öyrənmənin bir hissəsinə çevrilir. Müasir dövrdə Kahoot, Quizizz və Wordwall kimi rəqəmsal platformaların təhsildə tətbiqi qiymətləndirmə prosesini daha interaktiv və oyunlaşdırılmış formaya çevirmişdir. Bununla yanaşı, bu texnoloji dəyişikliklərin nəzəri əsasları Lev Vygotsky-nin sosial konstruktivizm yanaşması ilə izah olunur. Bu yanaşmaya görə, biliklər fərdi şəkildə deyil, sosial qarşılıqlı təsir və fəal iştirak nəticəsində formalaşır. Eyni zamanda, qiymətləndirmə artıq yalnız ölçmə vasitəsi kimi deyil, öyrənmə prosesinin ayrılmaz hissəsi kimi çıxış edir.

Müasir təlim mühitində şagirdə verilən rəy artıq yalnız "düzdür–yanlışdır" tipli qısa qiymətləndirmə kimi başa düşülmür. O, daha çox şagirdin harada dayandığını görməsinə və növbəti addımını planlaşdırmasına kömək edən bir istiqamətverici vasitə kimi qəbul olunur. Son illərdə aparılan araşdırmalar da göstərir ki, səmərəli rəy şagirdin hazırkı bilik səviyyəsi ilə qarşısına qoyulan məqsəd arasında əlaqə qurur və bu boşluğu necə doldura biləcəyinə dair ona yol göstərir. Bu proses şagirdin öz öyrənməsinə daha məsuliyyətli yanaşmasına, səhvlərini sadəcə nəticə kimi deyil, inkişaf üçün imkan kimi görməsinə şərait yaradır. Nəticə etibarilə, rəy yalnız qiymətləndirmə aktının bir hissəsi deyil, öyrənməni canlı saxlayan və onu irəli aparan əsas pedaqoji dəstək vasitələrindən biridir (Hattie və Clarke, 2019, s. 52–58).

Bununla yanaşı, tədris prosesi vahid bir mərhələdən ibarət deyil, əksinə, ardıcıl və qarşılıqlı əlaqəli mərhələlərin vəhdətidir. Bu baxımdan, yekun nəticə həm başlanğıcda aparılan diaqnostik qiymətləndirmənin, həm də proses boyu həyata keçirilən formativ izləmələrin məntiqi nəticəsi kimi formalaşır. Beləliklə, summativ qiymətləndirmə yalnız son mərhələ deyil, bütün öyrənmə prosesinin ümumiləşdirilmiş ifadəsidir.

Nəticə

Məktəb daxilində həyata keçirilən qiymətləndirmə sistemi şagirdin öyrənmə trayektoriyasını izləmək və təlimi fərdiləşdirmək məqsədi daşıyır. Bu prosesdə şagird artıq passiv informasiya daşıyıcısı kimi deyil, bilikləri aktiv şəkildə quran tədqiqatçı subyekt kimi çıxış edir. Müəllim isə onun öyrənmə fəaliyyətini yönləndirən və inkişafını dəstəkləyən fasilitator rolunu oynayır. Eyni zamanda, rəyin effektivliyi onun operativliyindən, yəni şagird mövzunu unutmazdan əvvəl təqdim olunmasından birbaşa asılıdır. Vaxtında verilmiş rəy səhvlərin möhkəmlənməsinin qarşısını alır və öyrənmədə çevik düzəlişlərə imkan yaradır. Əks halda, gecikdirilmiş rəy öz inkişafetdirici təsirini qismən itirə bilər.
Bundan əlavə, rəy yalnız akademik deyil, həm də psixoloji təsirə malikdir. Dəstəkləyici və istiqamətləndirici rəy şagird üçün silsiləvi inkişaf mühiti yaradır, onun özünəinamını gücləndirir və öyrənməyə marağını artırır. Əksinə, qeyri-konkret və ümumi tənqidlər motivasiyanın azalmasına səbəb ola bilər.

Nəticə etibarilə, müasir pedaqoji yanaşmalarda rəyin əsas funksiyası keçmiş nəticəni qiymətləndirməkdən daha çox gələcək inkişafı istiqamətləndirməkdir. Bu baxımdan rəy "nə səhvdir?" sualından çox "növbəti addım nə olmalıdır?" sualına cavab verməlidir.

Ədəbiyyat

1. Andersson, C., & Palm, T. (2017). The impact of formative assessment on student achievement. *Learning and Instruction, 49*, 92–102.
2. Andrade, H., & Brookhart, S. M. (2016). The role of classroom assessment in supporting self-regulated learning. In *The enabling power of assessment* (pp. 293–309). Springer.
3. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi. (2020). *Ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulum)*.
4. Azərbaycan Respublikası. (2023). *Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu* (yenilənmiş nəşr).
5. Brookhart, S. M. (2016). *Rubrics for formative assessment and grading*. ASCD.
6. Brookhart, S. M. (2023). *Classroom assessment essentials*. ASCD.
7. Brown, G. T. L., & Harris, L. R. (2016). *Handbook of human and social conditions in assessment*. Routledge.
8. Furtak, E. M., et al. (2016). Teachers' formative assessment abilities and their relationship to student learning. *Instructional Science, 44*(3), 267–291.

9. Heitink, M. C., et al. (2016). A systematic review of prerequisites for implementing assessment for learning. *Educational Research Review, 17*, 50–62.
10. Kingston, N., & Nash, B. (2019). Formative assessment: A meta-analysis and a call for research. *Educational Measurement: Issues and Practice, 38*(3), 13–24.
11. Nitko, A. J., & Brookhart, S. M. (2018). *Educational assessment of students* (8th ed.). Pearson.
12. OECD. (2024). *Using formative assessment and feedback: Unlocking high-quality teaching*. OECD Publishing.
13. Prompiengchai, S., Narreddy, C., & Joordens, S. (2025). *A practical guide for supporting formative assessment and feedback using generative AI*.
14. Wiliam, D. (2018). *Embedded formative assessment* (2nd ed.). Solution Tree Press.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 338–343
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 338–343
DOI: https://doi.org/10.36719/2706-6185/60/338-343

Qlobal iqtisadi transformasiya şəraitində yaşıl iqtisadiyyatın formalaşması və institusional inkişaf mərhələləri

Nihad Əmirov

Xülasə. *Məqalədə XXI əsrdə qlobal iqtisadi inteqrasiyanın dərinləşməsi fonunda artan ekoloji təzyiqlər və bu kontekstdə yaşıl iqtisadiyyat modelinin formalaşması məsələsi araşdırılır. Mövzunun aktuallığı iqlim dəyişiklikləri, resurs qıtlığı, enerji təhlükəsizliyi və sosial bərabərsizlik kimi çoxölçülü çağırışların mövcud iqtisadi artım modelinin dayanıqlığını sual altına alması ilə əsaslandırılır. Tədqiqatın məqsədi yaşıl iqtisadiyyatın nəzəri əsaslarını, institusional inkişaf mərhələlərini və qlobal normativ çərçivəyə inteqrasiyasını sistemli şəkildə təhlil etməkdir. Tədqiqatın obyekti yaşıl iqtisadiyyat konsepsiyası, predmeti isə onun iqtisadi artım, karbon emissiyaları, resurs səmərəliliyi və sosial rifah kimi dəyişənlərlə qarşılıqlı əlaqəsidir. Əhatə olunan dövr əsasən 2008-ci il qlobal maliyyə böhranından sonrakı mərhələni və 2015-ci ildən etibarən formalaşmış iqlim və davamlı inkişaf çərçivəsini əhatə edir. İşdə müqayisəli təhlil, institusional analiz və sənəd araşdırması metodlarından istifadə olunmuşdur. Nəticələr göstərir ki, yaşıl iqtisadiyyat iqtisadi artımı təbii kapitalın qorunması və aşağı karbonlu transformasiya ilə uzlaşdıran alternativ model kimi formalaşmışdır.*

Açar sözlər: *yaşıl iqtisadiyyat, qlobal iqtisadi transformasiya, iqlim dəyişiklikləri, iqtisadi artım, enerji təhlükəsizliyi*

Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: amirov.nihad.sohrab.2024@unec.edu.az
Daxil oldu: 31 Dekabr 2025; Qəbul edildi: 25 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Formation of Green Economy and Stages of Institutional Development in the Context of Global Economic Transformation

Nihad Amirov

Abstract. *The article examines the growing environmental pressures against the backdrop of deepening global economic integration in the 21st century and the formation of a green economy model in this context. The relevance of the topic is justified by the fact that multidimensional challenges such as climate change, resource scarcity, energy security and social inequality question the sustainability of the current economic growth model. The aim of the study is to systematically analyze the theoretical foundations of the green economy, its institutional development stages and its integration into the global normative framework.*

The object of the study is the concept of green economy, and its subject is its interaction with variables such as economic growth, carbon emissions, resource efficiency and social welfare. The period covered mainly covers the period after the 2008 global financial crisis and the climate and sustainable development framework that has been formed since 2015. The methods of comparative analysis, institutional analysis and document research were used in the study. The results show that the green economy has been formed as an alternative model that reconciles economic growth with the protection of natural capital and low-carbon transformation.

Keywords: *green economy, global economic transformation, climate change, economic growth, energy*

Azerbaijan State University of Economics, Master's student, Baku, Azerbaijan
E-mail: amirov.nihad.sohrab.2024@unec.edu.az
Received: 31 December 2025; Accepted: 25 Aprel 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

XXI əsrdə qlobal iqtisadi inteqrasiyanın sürətlənməsi, istehsal və istehlak miqyasının genişlənməsi ilə yanaşı, ekoloji sistemlər üzərində artan təzyiq dünya iqtisadiyyatının dayanıqlılıq məsələsini ön plana çıxarmışdır. İqlim dəyişiklikləri, təbii resursların tükənməsi, su və enerji təhlükəsizliyi problemləri, biomüxtəlifliyin azalması və sosial bərabərsizliyin dərinləşməsi mövcud iqtisadi artım modelinin struktur məhdudiyyətlərini üzə çıxarmışdır. Bu baxımdan yaşıl iqtisadiyyat konsepsiyası iqtisadi inkişaf ilə ekoloji dayanıqlılıq arasında tarazlığın təmin edilməsinə yönəlmiş alternativ model kimi aktuallıq qazanmışdır. Mövzunun işlənmə səviyyəsinə gəldikdə, beynəlxalq təşkilatların hesabatlarında, ekoloji iqtisadiyyat məktəbinin nümayəndələrinin əsərlərində və qlobal siyasət sənədlərində yaşıl iqtisadiyyat geniş şəkildə təhlil olunsa da, onun nəzəri əsaslarının, institusional mərhələlərinin və qlobal iqlim çərçivəsinə inteqrasiyasının sistemli şəkildə bir arada araşdırılması zərurəti qalmaqdadır.

Tədqiqatın obyekti yaşıl iqtisadiyyat konsepsiyası, predmeti isə iqtisadi artım, karbon emissiyaları, resurs səmərəliliyi və sosial rifah arasında qarşılıqlı əlaqələrin yaşıl transformasiya kontekstində təhlilidir. Tədqiqatın məqsədi yaşıl iqtisadiyyatın formalaşma mərhələlərini, nəzəri və institusional əsaslarını, həmçinin qlobal iqlim və davamlı inkişaf gündəliyi ilə əlaqəsini kompleks şəkildə araşdırmaqdır. Bu məqsədə nail olmaq üçün iqtisadi artım modeli, təbii kapitalın dəyəri, karbon intensivliyi, enerji strukturu və sosial inklüzivlik kimi əsas dəyişənlər təhlilə cəlb edilmişdir. İşdə əsas informasiya bazası kimi BMT qurumlarının, İƏİT və digər qlobal institutların hesabatları, elmi monoqrafiyalar və analitik sənədlər istifadə edilmişdir. Tədqiqat metodları sırasında müqayisəli təhlil, institusional analiz, sənəd araşdırması və sistemli yanaşma tətbiq edilmişdir. Tədqiqat nəticələrinin nəzəri əhəmiyyəti yaşıl iqtisadiyyatın inkişaf mərhələlərinin ardıcıllıqla təhlil olunması və onun iqtisadi nəzəriyyədə alternativ artım modeli kimi əsaslandırılmasındadır.

Tədqiqat

XXI əsr qlobal iqtisadi inteqrasiyanın dərinləşməsi, istehsal və istehlak miqyasının genişlənməsi ilə xarakterizə olunsa da, bu proses paralel şəkildə ekoloji gərginliyin artması ilə müşayiət olunur. İqtisadi artımın sürətlənməsi bir tərəfdən rifah səviyyəsinin yüksəlməsinə şərait yaradırsa, digər tərəfdən təbii sistemlər üzərində təzyiqi gücləndirir. Hər bir ölkənin iqtisadi strukturu, sənayeləşmə səviyyəsi, enerji balansı və institusional idarəetmə xüsusiyyətləri fərqli olduğundan ekoloji

problemlər də müxtəlif formalarda və intensivlikdə təzahür edir. Sənaye yönümlü iqtisadiyyatlarda atmosfer emissiyaları və sənaye tullantıları ön plana çıxırsa, aqrar və ya resurs ixracına əsaslanan ölkələrdə torpaq deqradasiyası, su ehtiyatlarının azalması və biomüxtəlifliyin itirilməsi daha qabarıq görünür.

Müasir mərhələdə iqlim dəyişiklikləri, atmosfer və hidrosferin çirklənməsi, bərk və təhlükəli tullantıların idarə olunmasında institusional boşluqlar, eləcə də qeyri-bərpa olunan resursların tükənməsi qlobal miqyasda sistemli xarakter almışdır. Bu problemlər artıq lokal ekoloji hadisə deyil, iqtisadi təhlükəsizlik, sosial sabitlik və ərzaq təminatı ilə birbaşa bağlı olan çoxölçülü risk faktoruna çevrilmişdir. Məhz bu kontekstdə iqtisadi inkişaf modelinin yenidən nəzərdən keçirilməsi zərurəti meydana çıxmış və ekoloji məhdudiyyətləri nəzərə alan alternativ yanaşmaların formalaşmasına təkan vermişdir. Davam edən maliyyə və ekoloji böhranlar göstərmişdir ki, ənənəvi "artım naminə artım" prinsipi struktur baxımından davamlı deyil və uzunmüddətli perspektivdə həm iqtisadi, həm də ekosistem sabitliyini zəiflədir. Bu çərçivədə formalaşan yaşıl iqtisadiyyat yanaşması iqtisadi artım ilə ekoloji dayanıqlılıq arasında tarazlığın qurulmasını hədəfləyir. Akademik müstəvidə bu anlayışın nəzəri əsaslandırılmasında Devid Pirin "Blueprint for a Green Economy" əsəri mühüm rol oynamışdır (Barbier, 2022).

Demoqrafik dinamika bu prosesləri daha da mürəkkəbləşdirir. Dünya əhalisinin artımı ərzaq, su, enerji və torpaq ehtiyacını genişləndirir, halbuki təbii kapitalın bərpa potensialı məhduddur. Əhali artımı ilə paralel olaraq istehlak standartlarının yüksəlməsi resurslara olan təzyiqi daha da artırır. Bu kontekstdə əsas problem artıq yalnız artımın təmin edilməsi deyil, artan tələbatın ekoloji limitlər daxilində qarşılanmasıdır. Əks halda, iqlim riskləri ilə yanaşı, qida təhlükəsizliyi, sosial sabitlik və regional təhlükəsizlik məsələləri daha da kəskinləşəcəkdir.

2008-ci ilin qlobal maliyyə böhranı fonunda iqtisadi sistemlərin struktur zəifликləri daha aydın şəkildə üzə çıxdı və bu kontekstdə ekoloji baxımdan dayanıqlı investisiya modelinə keçid məsələsi beynəlxalq gündəmin prioritetinə çevrildi. Məhz bu şəraitdə 2008-ci ilin oktyabrında Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) tərəfindən "Green Economy Initiative" adlı təşəbbüs irəli sürüldü. Təşəbbüsün əsas məqsədi yaşıl sektorlara yönələn investisiyaların iqtisadi səmərəliliyini təhlil etmək, dövlət siyasətlərinin uyğunlaşdırılmasını təşviq etmək və ekoloji risk daşıyan sənaye sahələrinin struktur transformasiyasını dəstəkləmək idi. Burada əsas ideya ondan ibarət idi ki, iqtisadi bərpa yalnız maliyyə sabitliyi ilə məhdudlaşmamalı, eyni zamanda resurs səmərəliliyini artıran və karbon intensivliyini azaldan struktur dəyişikliklərlə müşayiət olunmalıdır. Beləliklə, böhrandan çıxış strategiyası ekoloji modernləşmə ilə uzlaşdırılmalı idi. Bu yanaşma tədricən beynəlxalq səviyyədə geniş dəstək qazandı. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) yaşıl artım konsepsiyasını inkişaf etdirərək iqtisadi siyasətlərin təbii kapitalın qorunması ilə uyğunlaşdırılmasına dair metodoloji çərçivə təqdim etdi. Eyni zamanda Ümumdünya Vəhşi Təbiət Fondu və Beynəlxalq Təbiəti Mühafizə Birliyi kimi qurumlar ekosistem xidmətlərinin iqtisadi dəyərinin tanınması və biomüxtəlifliyin qorunması istiqamətində normativ təşəbbüslərlə çıxış etdilər. Beləliklə, yaşıl iqtisadiyyat təkcə hökumətlərarası platformalarda deyil, həm də vətəndaş cəmiyyəti institutları səviyyəsində çoxsəviyyəli dəstək qazanan inkişaf modelinə çevrildi. Nəzəri baxımdan yaşıl iqtisadiyyatın konseptual əsaslarının sistemləşdirilməsində 2010-cu ildə Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatı tərəfindən nəşr olunan "Green Economy: Why, What and How" adlı toplu mühüm rol oynadı. Bu nəşrdə yaşıl iqtisadiyyatın mahiyyəti, tətbiq mexanizmləri və makroiqtisadi təsirləri müxtəlif tədqiqatçılar tərəfindən təhlil edilmiş, anlayışın həm normativ, həm də praktik ölçüləri izah edilmişdir (Dasgupta, 2021).

Yaşıl iqtisadiyyatın təşəkkül prosesi təsadüfi ideoloji çağırış deyil, mərhələli şəkildə formalaşmış institusional və normativ çərçivənin nəticəsidir. Bu istiqamətdə ilk sistemli təşəbbüslərdən biri 2008-ci ildə qlobal maliyyə böhranı fonunda Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı

(UNEP) tərəfindən irəli sürülmüş Green Economy Initiative olmuşdur. Təşəbbüsün əsas məntiqi iqtisadi dirçəliş strategiyalarını yalnız fiskal və monetar stimullaşdırma vasitələri ilə deyil, eyni zamanda ekoloji investisiyalar və struktur modernləşmə ilə əlaqələndirmək idi. Beləliklə, böhrandan çıxış modeli "bərpa + transformasiya" prinsipi üzərində qurulurdu. UNEP-in 2011-ci ildə təqdim etdiyi Towards a Green Economy: Pathways to Sustainable Development and Poverty Eradication hesabatında göstərilir ki, ümumi daxili məhsulun illik təxminən 2%-nin enerji, kənd təsərrüfatı, su təsərrüfatı, nəqliyyat və tullantıların idarə edilməsi kimi əsas yaşıl sektorlara yönəldilməsi uzunmüddətli perspektivdə ənənəvi, yüksək karbonlu "qəhvəyi iqtisadiyyat" modelindən daha dayanıqlı artım trayektoriyası yarada bilər (Bowen və Kuralbayeva, 2021). Hesabatın arqumentinə görə, belə investisiyalar yalnız ekoloji riskləri azaltmaqla kifayətlənmir, eyni zamanda yeni məşğulluq imkanları formalaşdırır, texnoloji yenilənməni sürətləndirir və makroiqtisadi sabitliyə töhfə verir. Sənəddə xüsusi vurğulanır ki, resurs məhsuldarlığının artırılması və karbon intensivliyinin azaldılması paralel şəkildə yoxsulluğun azaldılmasına xidmət edə bilər; yəni ekoloji modernləşmə sosial inklüzivliklə ziddiyyət təşkil etmir, əksinə onu gücləndirə bilər (IEA, 2023). Sonrakı mərhələdə yaşıl iqtisadiyyat konsepsiyası daha operativ və ölçülə bilən siyasət alətlərinə transformasiya olunaraq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən "yaşıl artım" (green growth) çərçivəsində konkretləşdirilmişdir. OECD-nin Towards Green Growth (2011) və Green Growth Indicators (2014) sənədlərində iqtisadi artımın təbii kapitalın qorunması ilə uzlaşdırılması üçün indikator əsaslı qiymətləndirmə sistemi təqdim edilmişdir. Bu sistem karbon intensivliyi, enerji məhsuldarlığı, material səmərəliliyi, innovasiya göstəriciləri və ekosistem aktivlərinin vəziyyəti kimi ölçülə bilən parametrlər vasitəsilə siyasətin effektivliyini izləməyi nəzərdə tutur (UNEP, 2021). İƏİT yanaşmasına görə, iqtisadi artım yalnız ÜDM artımı ilə ölçülməməli, onun resurs istifadəsi və emissiya strukturu ilə əlaqəsi də nəzərə alınmalıdır. Təşkilatın məlumatları göstərir ki, yaşıl texnologiyalara və aşağı karbonlu infrastruktur layihələrinə investisiya edən ölkələrdə enerji intensivliyi daha sürətlə azalmış, bərpa olunan enerji sektorunda isə məşğulluq səviyyəsində artım qeydə alınmışdır (IRENA, 2022). Bu fakt yaşıl transformasiyanın iqtisadi dinamika ilə ziddiyyət təşkil etmədiyini, əksinə innovasiya və struktur yenilənmə vasitəsilə rəqabət qabiliyyətini gücləndirə biləcəyini göstərir.

Qlobal iqlim risklərinin intensivləşməsi yaşıl iqtisadiyyatın yalnız konseptual deyil, həm də normativ baxımdan möhkəmlənməsinə təkan vermişdir. 2015-ci ildə qəbul edilmiş Paris Sazişi çərçivəsində dövlətlər qlobal orta temperatur artımını sənaye öncəsi dövrlə müqayisədə 2°C-dən aşağı səviyyədə saxlamaq və 1.5°C həddinə mümkün qədər yaxınlaşdırmaq öhdəliyini götürmüşlər (IRENA, 2023). Bu öhdəlik faktiki olaraq iqtisadiyyatların dekarbonizasiyasını və enerji sistemlərinin struktur transformasiyasını tələb edir. Temperatur hədəfləri yalnız ekoloji deyil, həm də makroiqtisadi planlaşdırma, enerji siyasəti və investisiya prioritetlərinin yenidən müəyyənləşdirilməsi məsələsidir. IPCC-nin Altıncı Qiymətləndirmə Hesabatında vurğulanır ki, 2030-cu ilə qədər qlobal emissiyalarda kəskin azalma təmin edilmədiyi halda 1.5°C trayektoriyasını qorumaq mümkün olmayacaq (IPCC, 2023). Bu isə göstərir ki, mövcud siyasətlər və könüllü öhdəliklər kifayət deyil; iqtisadi sistemin karbon intensivliyini azaltmaq üçün daha radikal və koordinasiyalı tədbirlər tələb olunur. Belə şəraitdə yaşıl iqtisadiyyat aşağı karbonlu inkişaf modelinin yalnız ideoloji çərçivəsi deyil, həm də fiskal mexanizmlər, karbon qiymətləndirilməsi alətləri, texnoloji innovasiya və yaşıl maliyyə vasitəsilə həyata keçirilən praktik institusional platforması kimi çıxış edir. Digər tərəfdən, demoqrafik dinamika və resurs təzyiqi yaşıl transformasiyanın qaçılmazlığını gücləndirir. Birləşmiş Millətlər Təşkilatının 2022-ci il World Population Prospects hesabatına görə, dünya əhalisinin 2050-ci ildə 9,7 milyarda çatacağı proqnozlaşdırılır (United Nations, 2022).

Əhali artımı istehlakın miqyasını genişləndirir, urbanizasiyanı sürətləndirir və enerji, su, ərzaq və torpaq ehtiyatlarına olan tələbatı artırır. Eyni zamanda, Dünya Bankının məlumatları göstərir ki, 2050-ci ilə qədər qlobal su tələbatının 20–30% artacağı gözlənilir (World Bank, 2023). Bu göstərici xüsusilə su stressi yaşayan regionlarda sosial-iqtisadi gərginliyin artmasına səbəb ola bilər. Bu

dinamika onu göstərir ki, mövcud istehlak və istehsal modelləri struktur baxımdan dəyişdirilməzsə, resurs qıtlığı, torpaq və su deqradasiyası, biomüxtəlifliyin azalması kimi proseslər dərinləşəcək. Yəni problem təkcə emissiyaların azaldılması deyil, eyni zamanda resurs məhsuldarlığının artırılması və təbii kapitalın bərpa potensialının qorunmasıdır. Bu baxımdan yaşıl iqtisadiyyat iqlim siyasəti ilə demoqrafik və resurs planlaşdırmasının inteqrasiyasını təmin edən kompleks inkişaf çərçivəsi kimi formalaşır.

Beləliklə, yaşıl iqtisadiyyatın formalaşması mərhələli və çoxsəviyyəli proses olmuşdur: ilkin nəzəri əsaslandırma mərhələsindən (Pearce və ekoloji iqtisadiyyat yanaşması), 2008-ci ildən sonrakı institusional təşəbbüslərə, 2015-ci ildən etibarən isə qlobal iqlim və davamlı inkişaf çərçivəsinə inteqrasiya mərhələsinə keçid baş vermişdir. Müasir inkişaf modelləri iqtisadi artımı təbii kapitalın qorunması, karbon emissiyalarının azaldılması və sosial rifahın artırılması ilə uzlaşdırmağa yönəlmişdir. Mövcud elmi hesabatlar göstərir ki, alternativ yoxdur: resurs səmərəliliyi, aşağı karbonlu texnologiyalar və inklüziv siyasətlər olmadan qlobal iqtisadi sistem uzunmüddətli dayanıqlılıq təmin edə bilməyəcəkdir.

Nəticə

Aparılan təhlil göstərir ki, yaşıl iqtisadiyyat konsepsiyası təsadüfi ideoloji çağırış deyil, qlobal iqtisadi və ekoloji böhranların yaratdığı struktur zərurətin nəticəsidir. İqlim dəyişikliklərinin intensivləşməsi, resurs qıtlığı, demoqrafik təzyiq və sosial bərabərsizlik kimi çoxölçülü risklər mövcud inkişaf modelinin məhdudiyyətlərini açıq şəkildə nümayiş etdirir. Son illərin beynəlxalq hesabatları sübut edir ki, iqtisadi artımın davamlılığı yalnız karbon intensivliyinin azaldılması, resurs məhsuldarlığının artırılması və təbii kapitalın qorunması ilə uzlaşdırıldığı halda təmin oluna bilər. Bu baxımdan yaşıl iqtisadiyyat fiskal alətlər, yaşıl maliyyə mexanizmləri, innovasiya siyasəti və institusional islahatlar vasitəsilə reallaşdırılan kompleks transformasiya modelidir. Müasir mərhələdə əsas çağırış konsepsiyanın nəzəri əsaslandırılmasından daha çox onun praktik tətbiqində siyasət koordinasiyasının, hüquqi mexanizmlərin və maliyyə resurslarının effektiv səfərbər edilməsidir.

Ədəbiyyat

1. Barbier, E. B. (2022). Greening the post-pandemic recovery in the G20. *Environmental and Resource Economics, 81*(2), 355–376.
2. Bowen, A., & Kuralbayeva, K. (2021). Looking for green jobs: The impact of green growth on employment. *Climate Policy, 21*(8), 1062–1078.
3. Dasgupta, P. (2021). *The economics of biodiversity: The Dasgupta review*. https://assets.publishing.service.gov.uk/government/uploads/system/uploads/attachment_data/file/962785/The_Economics_of_Biodiversity_The_Dasgupta_Review_Full_Report.pdf
4. International Energy Agency (IEA). (2023). *World energy outlook 2023*. https://iea.blob.core.windows.net/assets/WorldEnergyOutlook2023.pdf
5. IPCC. (2023). *Climate change 2023: Synthesis report*. https://www.ipcc.ch/report/ar6/syr/downloads/report/IPCC_AR6_SYR_LongerReport.pdf
6. IRENA. (2022). *World energy transitions outlook 2022*. https://www.irena.org/publications/2022/Mar/World-Energy-Transitions-Outlook-2022
7. IRENA. (2023). *Renewable capacity statistics 2023*. https://www.irena.org/Publications/2023/Mar/Renewable-Capacity-Statistics-2023
8. OECD. (2021). *Towards green growth: Monitoring progress*. https://www.oecd.org/green-growth/monitoring-progress-2021.pdf
9. OECD. (2023). *Climate action monitor 2023: Policies for a net zero transition*. https://www.oecd.org/climate-action-monitor-2023.pdf

10. UNDP. (2023). *Human development report 2023/2024: Breaking the gridlock*. https://hdr.undp.org/system/files/documents/global-report-document/hdr2023-24reporten.pdf
11. UNEP. (2021). *Making peace with nature*. https://www.unep.org/resources/making-peace-nature-report
12. UNEP. (2023). *Emissions gap report 2023*. https://www.unep.org/resources/emissions-gap-report-2023
13. United Nations DESA. (2022). *World population prospects 2022*. https://population.un.org/wpp/Publications/Files/WPP2022_Summary.pdf
14. World Bank. (2021). *The changing wealth of nations 2021*. https://openknowledge.worldbank.org/handle/10986/36400
15. World Bank. (2023). *World development report 2023: Migrants, refugees, and societies*. https://openknowledge.worldbank.org/handle/10986/40060

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 344–349
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 344–349
DOI: https://doi.org/10.36719/2706-6185/60/344-349

Azərbaycanda reklam bazarının formalaşması və inkişaf xüsusiyyətləri

İsmayıl Emiralizadə

Xülasə. *Bu tədqiqatda Azərbaycan Respublikasının reklam bazarının tarixi formalaşması, mövcud quruluşu və gələcək inkişafları araşdırılır. SSRİ zamanlarının ciddi mərkəzləşdirilmiş rejimindən başlayaraq dövlətimizin müstəqilliyinin bərpası və "Əsrin Müqaviləsi"nin imzalanmasından sonra maliyyə sektorunun sürətli böyüməsi ilə sonlanan reklamın inkişafı detallı bir şəkildə araşdırılır. Xüsusi diqqət əsasən XXI əsrdə reklam sektorunun rəqəmsal dəyişikliyinə yönəldilir. Ənənəvi marketinq ilə müasir rəqəmsal marketinq arasındakı əlaqə təhlil edilir. Milli marketinqin əsas cəhətləri, həmçinin Azərbaycan dilinin, ənənələrinin və bayram endirimləri və kampaniyalarının alıcı davranışına necə təsir etməsi müəyyən edilir. Bundan əlavə süni intellektin tətbiqi, proqram texnologiyaları və data analitikası kimi sektorun inkişafı üçün perspektivli sahələri təsvir edilir.*

Açar sözlər: *Azərbaycanın reklam sektoru, rəqəmsal marketinq, reklamın inkişafı, ənənəvi marketinq, sosial platformalar, targetinq, reklamda süni intellekt, data analitika*

Azərbaycan Memarlıq və İnşaat Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: ismayil.emiralizade.24@gmail.com
Daxil oldu: 6 Yanvar 2026; Qəbul edildi: 16 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Formation and Development Features of the Advertising Market in Azerbaijan

Ismayıl Emiralizada

Abstract. *This study examines the historical formation, current structure and future developments of the advertising market of the Republic of Azerbaijan. The development of advertising, starting from the strictly centralized regime of the USSR and ending with the rapid growth of the financial sector after the restoration of our state's independence and the signing of the "Contract of the Century", is examined in detail. Special attention is paid to the digital transformation of the advertising sector in the 21st century. The relationship between traditional marketing and modern digital marketing is analyzed. The main aspects of national marketing are determined, as well as how the Azerbaijani language, traditions and holiday discounts and campaigns affect consumer behavior.*

In addition, promising areas for the development of the sector, such as the application of artificial intelligence, software technologies and data analytics, are described.

Keywords: *Azerbaijani advertising sector, digital marketing, advertising development, traditional marketing, social platforms, targeting, artificial intelligence in advertising, data analytics*

Azerbaijan University of Architecture and Construction, Master's student, Baku, Azerbaijan
E-mail: ismayil.emiralizade.24@gmail.com
Received: 6 January 2026; Accepted: 16 April 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Reklam sferası bütün ölkələrdə mövcud olan bir sahədir. Ölkələrin iqtisadi perspektivinin və eyni zamanda kommersiya aktivliklərinin əsas struktur hissəsi məhz reklam sektoruna aiddir. Azərbaycan Respublikasında reklam sektoru son zamanlarda dinamik şəkildə təkmilləşib. Əsasən də son onilliklərdə bu sferada ciddi artım və perspektivlər gözə çarpır. Reklam bazarının inkişafı və genişlənməsi diqqətəlayiq dərəcədə inkişaf edib. Bu referat işində Azərbaycan Respublikasının reklam sektorunun inkişaf yolundan bəhs olunur. Həmçinin, burada reklam bazarının hazırkı vəziyyəti və strukturu araşdırılacaq. Bundan əlavə, ölkədə reklamın əsas özəllikləri barədə də məlumat veriləcək.

Azərbaycanda reklam bazarının tarixi

Sovet dövrü və ilk addımlar: Azərbaycanda ilk dəfə reklam Sovet İttifaqı dövründə tətbiq edilmişdir. Həmin dövrdə reklam adətən dövlət müəssisələrindəki məhsulların, o cümlədən xidmətlərin tanıdılması və önə çıxarılması üçün istifadə edilirdi. Sovet İttifaqı zamanlarında bu cür reklam fəaliyyəti ancaq mərkəzləşdirilmiş formada həyata keçirilirdi. Yəni Sovet İttifaqında sosializm cərəyanı mövcud olduğu üçün özəl müəssisələrdə reklamın hazırlanması mümkün deyildi. Çünki o dövrlərdə özəl müəssisələr yox, sırf dövlət müəssisələri var olmuşdur. SSRİ dövründə kütləvi informasiya vasitələri sistemində ümumiyyətlə reklama rast gəlmək mümkün deyildi. O zamanlar SSRİ-də planlı təsərrüfat mövcud olmuş, buna görə də xarici iş adamları ölkəyə buraxılmamış və hökumət kütləvi informasiya vasitələrində reklamı qadağan etmişdi. Reklam işi dövlətin inhisarında idi. Ancaq sovet ittifaqı yeni iqtisadi siyasət dövründə ilk dəfə xüsusi reklam işinə imkan vermişdi. 1970-ci illərdə bəzi qəzetlərdə həftəlik reklam əlavəsinə icazə verildi. Ən çox reklama yer ayıran qəzetlər isə axşam qəzetləri olmuşdu. “Bakı” və “Baku” axşam qəzetləri Azərbaycanda, sovet jurnalistikasının ilk reklam çap edən qəzeti oldu ("Bakı" və "Baku" qəzetləri).

Sovet ittifaqında reklamın statistikası da hər ötən il üçün dəyişmişdir. SSRİ-nin reklam prinsipindəki əsas məsələ siyasətyönümlü reklamların üstünlük təşkil etməsi idi. Belə ki, 1920-30–cu illərdə reklamın 40%-i ticarət xarakterli, 60%-i siyasi mövzuda idi. Bu göstəricilər müvafiq olaraq 1930-40–cı illərdə 20 və 80%, 1940-50–ci illərdə isə 0 və 100% olub. Respublikamız müstəqillik əldə etdikdən sonra isə göstəricilər əvvəlcə ticarət reklamının xeyrinə artaraq 1995-97–ci illərdə 80 və 20%, sonra azalaraq 1997-99-cu illərdə 50 və 50%, 2006-cı ildə isə 15 və 85% təşkil edib (Kərimli, 2017).

Müstəqillikdən sonrakı dövr (1990-lar): Azərbaycan Respublikası 1991-ci ildə öz müstəqilliyini yenidən qazandıqdan sonra reklam sahəsində yeni inkişaf dövrünü başlatmış oldu. Ölkədə iqtisadi sərbəstlik və bazar iqtisadiyyatına keçidlə yanaşı, ticarətyönümlü elanlar geniş vüsət aldı. Ancaq həmin dövrdə reklam sferası hələ tam şəkildə özünü göstərməmiş və əsasən qəzet, jurnal və televiziya

kimi ənənəvi media kanalları üzərində toplanmışdı. Respublikamızda reklam işi ilə bağlı fəaliyyət göstərən şirkətlər 1994-cü ildən başlayaraq yavaş-yavaş reklam məkanında görünməyə başladı. "Əsrin müqaviləsi" imzalandıqdan sonra ölkəmizə böyük maraq yarandı. Bu da öz növbəsində sahibkarlıq fəaliyyətinin inkişafına təkan verdi və məhz 1995-1997-ci illərdə reklam sahəsində yüksək nailiyyətlər qazanılıb (Usubova, 2019).

1990-cı illərdə Bakıda 50-dən çox reklam agentliyi fəaliyyət göstərirdi. Ölkədəki bütün reklam firmalarının ümumi mənfəəti 1996-cı ildə 8 milyon $, 1998-ci ildə 10 milyon $, 2000-ci ildə 8 milyon $, olmuşdur. Əhalisi 8 milyon nəfər olan bir ölkə üçün 4 il ərzində orta gəlirin 9.5 milyon dollar olması olduqca aşağıdır. Ancaq Rusiya Federasiyasında bu statistika il ərzində orta hesabla 2 milyard $-a bərabərdir (Məmizadə, 2017).

Rəqəmsal inqilab və yeni trendlər (2000-lər və sonrası): 2000-ci illərin başlarında internet ölkəmizə geniş şəkildə daxil oldu və bunun nəticəsində rəqəmsal reklamın inkişafı prosesi başlandı. Son zamanlarda isə sosial şəbəkələr reklamın əsas daşıyıcı ünsürlərinə çevrilib. Müasir dövrdə qloballaşma və rəqəmsallaşma iqtisadi münasibətlərin, sosial əlaqələrin və marketinq strategiyalarının əsas istiqamətlərini müəyyənləşdirən başlıca amillərdəndir. Texnologiyanın inkişafı nəticəsində yaranan rəqəmsal mühit, brendlərin fəaliyyət prinsiplərini, istehlakçı davranışlarını və kommunikasiya formalarını köklü şəkildə dəyişmişdir. Artıq brend anlayışı yalnız məhsulun və ya xidmətin keyfiyyət göstəriciləri ilə məhdudlaşmır, o, sosial, emosional və dəyər əsaslı mənalar daşıyan bir identifikasiya vasitəsinə çevrilmişdir (Haqverdiyeva, 2025).

Azərbaycanda reklam bazarının mövcud vəziyyəti

Ənənəvi Media Kanalları: Azərbaycanda ənənəvi reklam kanalları; televiziya, radio və qəzet öz aktuallığını qismən də olsa qorumaqdadır. Əsasən böyük korporasiyalara, dövlət müəssisələri və geniş kütləni özünə cəlb etmək istəyənlər üçün televiziyada reklam vermək indiki dövrdə hələ də effektiv bir metod hesab edilir. Azərbaycanda televiziya reklamının və ümumilikdə reklam bazarının inkişaf etdirilməsində bir çox şirkət və reklam agentliklərinin təşəbbüsləri var. Ancaq ANS Şirkətlər Qrupunun nəzdində yer olan ANS Kommers Şirkəti 25 noyabr 1995-ci ildə Azərbaycanın Respublikasının reklam bazarının təməlini qoyan ilk reklam agentliyidir. ANS Kommers-in qurulmasındakı əsas hədəf, daxili və xarici şirkətləri Azərbaycanın reklam bazarına yönəltməklə ANS-in sərbəst inkişafını təmin etmək idi. 1995-ci ildə ANS Kommers Şirkətinin ümumi reklam gəliri ayda 300 ABŞ Dolları təşkil edirdi. 2005-ci ildə isə, 10 ildən sonra bu rəqəm min dəfə çox, yəni ayda 300 min ABŞ Dolları xəttini keçdi. Reklamdan alınan gəlirlər Şirkətin təsisçilərinə yox, ANS-TV, ANS-ÇM radio, ANS-Pressin və bu gün ANS Şirkətlər Qrupuna daxil olan digər Şirkətlərin yaranmasına və inkişafına yönəldi (İdriszadə, 2016).

Reklam bazarının televiziyaya inteqrasiyası yeni modelin yaranmasına təkan verdi. Dünyaca məşhur şirkətlərin Azərbaycanda fəaliyyətə başlamaları reklam bazarının inkişafına geniş təsirini göstərdi. Ölkəmizdə ilk vaxtlar türk şirkətləri fəaliyyətə başlayıb. Yeni fəaliyyətə başlayan kompaniyanın istehsal etdiyi məhsulların təbliği məqsədi ilə kütləvi informasiya vasitələrinin təqdim etdiyi reklam paketində göstərməsi təbii idi. Statistikanı nəzərə alsaq görə bilərik ki, 1991-ci ildə "Azersun Holdinq", 1993-cü ildə "Çağ" öyrətim şirkəti, 1995-ci ildə "Ramstore" və digər şirkətlər televiziyada öz reklam çarxlarını nümayiş etdiriblər (Əliyev, 2017).

Rəqəmsal reklam kanalları: Azərbaycan Respublikasında dijital reklam bazarının artımı son illərdə çox yüksəlib. Korparasiyalar və marketoloqlar üçün daha dəqiq ölçülə bilən və məqsədli reklam təklifləri irəli sürən dijital platformalar önəm qazanıb. Rəqəmsal platformalarda reklam vermək üçün bir çox seqmentlər və yaxud platformalardan istifadə olunur. Bunun ən məhşurları isə Google AdSense və Facebook Ads kimi platformalardır.

Azərbaycanda rəqəmsal reklam bazarına töhfə verən digər seqmentlər isə aşağıdakı kimidir:

- Sosial Media: Sosial şəbəkə platformaları (Facebook, Instagram, TikTok və s.) və yerli onlayn media kanalları brendlərin hədəf auditoriyasına daha effektiv çatmasına imkan verir (Abbasov, 2025). Facebook, Instagram, TikTok, və YouTube kimi sosial şəbəkələrdə reklam vermək çox geniş vüsət aldı. Həmin platformalar sayəsində həm B2C, həm də B2B seqmentlərində geniş hədəf kütləsinə çatmaq mümkündür (Ələfsərli, 2020).
- Google Ads və SEO: Veb-brauzerlər vasitəsilə reklam kampaniyaları, xüsusilə də Google Ads, Azərbaycanda ən geniş istifadəçi kütləsinə sahib dijital marketinq strategiyalarından biridir.
- Yerüstü Platformalar və RTB: Azərbaycanda RTB House, Google Display Network və yerli xəbər saytlarında reklam yerləşdirmək də populyarlaşmaqdadır.

Mobil reklamın artımı: Mobil internetdən istifadənin geniş yayılması ilə mobil reklamlara tələbat da artır. Azərbaycanda smartfon istifadə edənlərin sayında artım olduqca, mobil təkmilləşdirilmiş reklam kampaniyalarının da effektivliyi artır. Son zamanlar respublikamızda mobil reklam sektoru sürətlə inkişaf edir. Şirkətlər və marketinq mütəxəssisləri mobil cihazlarla geniş auditoriyaya çatmağın daha faydalı olduğunu anlayaraq, reklamyönümlü strategiyalarında mobil platformalara daha çox üstünlük verməyə başlayıblar. Bu səbəbə görə həm də Azərbaycanda rəqəmsal marketinq sahəsində ixtisaslı kadrların davamlı olaraq hazırlanması, həm dövlət, həm də özəl müəssisələr tərəfindən bu istiqamətdə təlim proqramlarının həyata keçirilməsi, innovativ texnologiyalara investisiya qoyuluşu və biznesin rəqəmsallaşdırma strategiyalarının gücləndirilməsi gələcəkdə Azərbaycanın regionda rəqəmsal marketinq sahəsində ciddi rəqabət üstünlüyü qazanmasına imkan verəcək (Isgandarov, 2025).

Azərbaycanda reklamın xüsusiyyətləri

Dil və mədəni xüsusiyyətlər: Azərbaycanda reklam sferasında, yerli mədəniyyət, dil və mentalitet dəyərlərinə xas olan reklam kontentinə önəm verilir. Müştərilərlə daha yaxın kommunikasiya yaratmaq üçün reklamların yerli tərzdə və Azərbaycan dilində olması əsas şərtlərdən biridir. Ölkəmizdə reklamlarda istifadə olunan dil, fərqli məqsədlər və hədəf kütlələrinə uyğun olaraq təkmilləşir. Reklamın dili bəlli səviyyədə kreativlik, emosiya və təsiredici ifadə tərzi vasitəsilə seçilir.
Hədəf Kütləsi və Davranış Analitikası: Azərbaycanda reklam kampaniyalarının effektiv olması üçün düzgün hədəf auditoriyası təyin etmək çox önəmli məsələdir. Cəmiyyətdəki demoqrafik göstəricilər, sosial şəbəkə aktivliyi və ticarət vərdişləri əsas götürülərək reklam strategiyaları hazırlanır.
Sezonal kampaniyalar: Azərbaycanda kampaniyalar əsasən özəl bayram günlərində formalaşır. Bu həmin ərəfələrdə daha çox reklamın verilməsinə təkan verir. Novruz bayramı, Yeni İl, Qurban bayramı və Ramazan bayramı kimi xüsusi günlərdə reklamın intensivliyi bir xeyli artır. Çünki bayram günlərində insanlar daha çox alış-veriş edir və bir çox xidmətlərdən istifadə edir.

Azərbaycanda reklam bazarının gələcək perspektivləri

Rəqəmsal marketinqin artımı: Dijital reklam sferasının təkmilləşməsi ilə əlaqədar, Azərbaycanda rəqəmsal platformaların gələcəkdə öz mövqelərini daha da gücləndirəcəyi gözlənilir. Əsasən süni intellekt, avtomatlaşdırılmış reklam sistemləri və influencerlər vasitəsilə marketinq, bu sferanın aparıcı istiqamətləri olacaq. Azərbaycanda dijital marketinq son zamanlarda sürətlə inkişaf etməkdədir və fərqli sahələrdə öz üstünlüyünü qorumaqdadır. Statistikaya əsasən, ölkəmizdə internet istifadəçilərinin sayı yüksəlməkdir. Belə ki, Azərbaycanda kişilərin 92,7%-i və qadınların 85,4%-i internetdən istifadə edir (AZƏRTAC, 2025). Bu göstərici, dijital platformalarda marketinqin sürətlə yayılmasını artırır və korparasiyaları bu sferaya daha çox kapital qoymağa sövq edir. Dijital marketinqin tərkib hissələri, həmçinin SEO, SMM, kontent marketinq və mobil marketinq, Azərbaycan kompaniyaları tərəfindən aktiv şəkildə istifadə olunur.

İnnovativ texnologiyalar və data analitika: Azərbaycanın reklam sferasında texnologiya yönümlü yeniliklərin çoxalması, xüsusən də data analitika və personalizasiya şəraitinin olması gözlənilir. Bu isə öz növbəsində ROI (Return on Investment) hallarının qalxmasına və daha dəqiq hədəf təyin etməyə kömək edəcək. Respublikamızın reklam bazarında texnologiyaların innovativliyi və data analitika, dijitallaşmanın təkmilləşdiyi bir dövrdə daha mühüm rol oynayır. Bu sferanın əsas meyilləri aşağıdakı formadadır:

- Süni İntellekt və Avtomatlaşdırma: Texnologiyaların süni intellektə doğru meyl etməsi, reklam və marketinq strategiyalarının effektivliyinə müsbət təsir edir. Çünki süni intellekt müştəriləri effektiv şəkildə seqmentləşdirərək, bizneslər öz marketinq kampaniyalarını xüsusi qruplara uyğunlaşdıra bilər ki, bu da təkmilləşdirilmiş hədəfləmə və daha yüksək konvertasiya nisbətlərinə gətirib çıxarır (Əlizadə, 2024).
- Data Analitika və Böyük Məlumat: Şirkətlər və korparasiyalar müştərilərin həm ictimai, həm də virtual maraqlarını, eyni zamanda aktivliyini anlamaq məqsədilə data analitikadan istifadə edirlər.
- Proqramatik Reklam: Reklamlar avtomatlaşdırılmış texnologiyalar vasitəsilə həm daha dəqiq, həm də sərfəli şəkildə yerləşdirilə bilir.
- Influencer Marketinq və Personalizasiya: Data analitikadan istifadə edilərək influencerlər daha məqsədli kampaniyalar təşkil olunur. Reklamverən şəxslər, əsasən sosial şəbəkələrdə məlumat xarakterli strategiyaların köməyi ilə şəxsi təcrübələr yaratmağa cəhd edirlər.
- Mobil və İnteqrativ Texnologiyalar: Mobil cihazların istifadəçi sayının artması, marketinqdə mobil texnikanın üstünlüyünü bir qədər də artırır. Mobil aplikasiyalarda və sosial şəbəkələrdə data xarakterli hədəf reklamları ən məhşur strategiyalardan biridir.

Nəticə

Azərbaycan Respublikasında reklam sektoru intensiv şəkildə inkişaf edir və bu öz növbəsində dijital dəyişikliklərin təsiri sayəsində daha da müxtəlifləşir. Televiziya, radio və qəzetlərdə reklamın var olması öz əhəmiyyətini hələ də qorusa da, dijital reklam platformaları, əsasən də sosial şəbəkələr və axtarış brauzerləri, sektorun əsas qüvvələrindən birinə çevrilib. Azərbaycan Respublikasının adət-ənənələri və kommersiya şəraitlərini nəzərə almaq şərtilə, yerli reklam bazarında uğurlu reklam strategiyaları qurmaq mümkündür. Bunun üçün həm mədəni, həm də müasir ideyaları tarazlı formada tətbiq etmək gərəklidir.

Ədəbiyyat

1. *"Bakı" və "Baku" qəzetləri*. (n.d.). https://baku-ih.gov.az/storage/files/files/Bak%C4%B1%20qazeti.pdf
2. Abbasov, T. (2025). Azərbaycan iqtisadiyyatında rəqəmsal marketinq və intellektual idarəetmə. *Scientific Work, 6*(2), 83–88. https://doi.org/10.36719/2663-4619/122/83-88
3. AZƏRTAC. (2025). *Azərbaycanın şəhər və kəndlərində əhalinin internetdən istifadə göstəriciləri açıqlanıb*. https://azertag.az/xeber/azerbaycanin_seher_ve_kendlerinde_ehalinin_internetden_istifade_gostericileri_achiqlanib-3453759
4. Ələfsərli, Ş. E. (2020). *Rəqəmsal marketinqin beynəlxalq iqtisadi münasibətlərdə rolu*.
5. Əliyev, O. A. (2017). *Ticarətin idarə edilməsində müştəri münasibətləri menecmentinin tətbiqi*.
6. Əlizadə, S. (2024). Rəqəmsal marketinqdə süni intellektin rolu və tətbiqi. *Scientific Work, 8*(3), 47–54. https://doi.org/10.36719/2663-4619/98/47-54
7. Haqverdiyeva, J. (2025). Impact of digital platforms on brand image in world and Azerbaijani experience. *Filologiya Məsələləri, 9*(2), 262–270. https://doi.org/10.62837/2025.9.262
8. İdriszadə, A. S. (2016). *Biznesdə reklam fəaliyyətinin zəruriliyi*.
9. Isgandarov, A. (2025). *Development factors and prospects of digital marketing in Azerbaijan*. https://audit-journal.az/en/articles/330

10. Kərimli, İ. M. (2017). *Kommersiya fəaliyyətinin inkişaf etdirilməsi strategiyasında bazar infrastrukturunun rolu*.
11. Məmizadə, P. A. (2017). *Müasir informasiya sistemləri və elektron biznes*.
12. Usubova, N. E. (2019). *Azərbaycan müəssisələrində reklam fəaliyyətinin təşkili və təkmilləşdirilməsi*.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 350–355
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 350–355
DOI: https://doi.org/10.36719/2706-6185/60/350-355

Turizm sahəsində insan hüquqlarının tənzimlənməsi məsələsində beynəlxalq hüquq normalarının əhəmiyyəti

İzzət Səfərov

Xülasə. *Bu məqalədə turizm sektorunda insan hüquqlarının tənzimlənməsində beynəlxalq hüquq normalarının rolunu və əhəmiyyətini təhlil edilmişdir. Turizmin qlobal miqyasda sürətli inkişafı, bu istiqamətdə fəaliyyət göstərən bütün maraqlı tərəflərin, məsələn, turistlərin, bu sahədə çalışan işçilərin, yerli icmaların hüquqlarının qorunmasını zəruri etmişdir. Tədqiqat beynəlxalq hüquqi sənədlərin, xüsusilə BMT-nin Ümumdünya Turizm Təşkilatı tərəfindən qəbul edilmiş Qlobal Turizm Etik Kodeksi, İnsan Hüquqları üzrə Ümumdünya Bəyannaməsi, Beynəlxalq Əmək Təşkilatının konvensiyaları və digər çoxtərəfli müqavilələrin tənzimləyici mexanizmlərini araşdırır.*
Metodoloji baxımdan hüquqi normativ və müqayisəli təhlil üsullarından istifadə edilmişdir. Nəticələr göstərir ki, beynəlxalq hüquq normaları dövlətlərə, turizm müəssisələrinə və digər aktorlara əmək haqqı, iş şəraiti, ayrı-seçkiliyin qarşısının alınması, yerli əhalinin məcburi köçürülməməsi və ətraf mühitin mühafizəsi kimi sahələrdə öhdəliklər qoymaqla mühüm tənzimləyici çərçivə təqdim edir. Lakin mövcud mexanizmlərin qeyri-məcburi xarakteri və nəzarət tətbiq mexanizmlərinin zəifliyi bu normaların effektivliyini məhdudlaşdırır. Məqalə beynəlxalq hüquq normalarının turizm sektorunda insan hüquqlarının qorunması üçün vacib, lakin təkmilləşdirilməyə ehtiyacı olan bir vasitə olduğu qənaətinə gəlir.

Açar sözlər: *turizm hüququ, beynəlxalq hüquq, insan hüquqları, Qlobal Turizm Etik Kodeksi, turizmin tənzimlənməsi*

Bakı Dövlət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: sepherov2003@gmail.com
Daxil oldu: 29 Dekabr 2025; Qəbul edildi: 11 Aprel 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

The Significance of International Legal Norms in the Regulation of Human Rights in the Tourism Sector

Izzet Safarov

Abstract. *This article examines the role and significance of international legal norms in regulating human rights within the tourism sector. The rapid expansion of tourism on a global scale has made it essential to protect the rights of all relevant stakeholders involved in this field, including tourists, workers employed in the industry, and local communities.*

The study investigates the regulatory mechanisms of various international legal instruments, with particular emphasis on the Global Code of Ethics for Tourism adopted by the United Nations World Tourism Organization, the Universal Declaration of Human Rights, conventions established by the International Labour Organization, and other multilateral agreements.
From a methodological standpoint, the research draws on legal normative analysis and comparative assessment techniques. The findings reveal that international legal standards offer a substantial regulatory framework by imposing obligations on states, tourism enterprises, and other actors in areas such as wage fairness, working conditions, prevention of discrimination, avoidance of forced displacement of local populations, and environmental protection. Nevertheless, the non-binding nature of existing mechanisms and the limited effectiveness of enforcement and monitoring systems constrain the practical impact of these norms. The article concludes that while international legal standards represent an essential tool for safeguarding human rights in the tourism industry, they still require further refinement and strengthening.

Keywords: *tourism law, international law, human rights, Global Code of Ethics for Tourism, tourism regulation*

Baku State University, Master's student, Baku, Azerbaijan
E-mail: sepherov2003@gmail.com
Received: 29 December 2025; Accepted: 11 April 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

İnsanlar yarandığı gündən bəri həm sosial, həm də fiziki tələbatlarını qarşılamaq məqsədi ilə daim bir-biri ilə ünsiyyət və qarşılıqlı əlaqə şəraitində yaşamışdır. Tarix boyu insanların bir yerdən başqa bir yerə köçməsi və fərqli cəmiyyətlərlə əlaqəyə girməsi müxtəlif amillərlə–iqtisadi maraqlar, siyasi hədəflər, dini etiqadlar və ya sadəcə olaraq maraq və kəşf həvəsi ilə əlaqəli olmuşdur (Boz, 2008, s. 22). Qədim dövrlərdə və orta əsrlərdə Qədim Misir, Finikiya, Babil və Şumer kimi sivilizasiyalarda insanlar ticarət, səyahət və müşahidə məqsədilə müxtəlif ərazilərə səfərlər edərək cəmiyyətlər arasında sosial və iqtisadi bağların yaranmasına səbəb olmuşdur (Barutçugil, 1989, s. 39). Zaman keçdikcə bu cür qarşılıqlı əlaqələrin genişlənməsi insanların davranış və münasibətlərini tənzimləyən müəyyən qayda və normaların yaranması ehtiyacını doğurmuşdur.

Məhz həmin ehtiyacın nəticəsi olaraq ictimai münasibətlərin tənzimlənməsi məqsədilə hüquq mexanizmləri formalaşmağa başlamış, həm ölkə daxilində, həm də beynəlxalq aləmdə hüquq normaları, dövlətlərarası sazişlər və anlaşmalar ortaya çıxmışdır. Bu proses nəticədə insanın ləyaqətli həyat yaşaması, təhlükəsizliyinin təmin olunması və bərabər hüquqlara sahib olması kimi prinsipləri özündə cəmləşdirən "insan haqları" anlayışının meydana gəlməsinə yol açmışdır. Hüquq baxımından yanaşdıqda, turizm fəaliyyətinin genişlənməsi bu sahədə iştirak edən bütün tərəflərin hüquqlarının müdafiəsini və çıxarlarının tarazlaşdırılmasını zəruri edir. Bu səbəbdən müasir hüquq nəzəriyyəsində turizm və insan haqları arasındakı qarşılıqlı əlaqə və inteqrasiya məsələsi xüsusi diqqət obyektinə çevrilmişdir.

Turizm sahəsində tərəqqiyə nail olmağın üsullarından biri dövlətlər arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulmasıdır (Rəhimova, 2021, s. 178). Turizmin qlobal miqyaslı olması isə bu sahədə hüquqi tənzimləmənin sadəcə milli qanunvericiliklə məhdudlaşmadığını ortaya qoyur. Beynəlxalq turizm fəaliyyəti müxtəlif ölkələrin hüquq sistemlərinin bir-biri ilə əlaqələndirilməsini və uyğunlaşdırılmasını tələb edən geniş spektrli və dinamik bir hüquqi mühit yaradır.

Tədqiqat

Beynəlxalq miqyasda turizm siyasətinin formalaşdırılmasında və turizm fəaliyyətinin inkişaf istiqamətlərinin müəyyən edilməsində mühüm rol oynayan qurumlardan biri Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatıdır (BMTÜTT). Bu təşkilat turizm siyasətinin işlənib hazırlanması, statistik göstəricilərin toplanması, davamlı turizmin təşviqi və ölkələr arasında əməkdaşlıq münasibətlərinin genişləndirilməsi sahələrində çalışır. Bundan başqa, BMTÜTT tərəfindən qəbul olunmuş "Qlobal Turizm Etik Kodu" turizm fəaliyyətində etik davranış qaydalarını və sosial məsuliyyət prinsiplərini müəyyənləşdirməklə turizm ilə insan haqları arasındakı bağın güclənməsinə xidmət edir (WTO, 2022).

Əlavə olaraq, beynəlxalq sazişlər və konvensiyalar da turizm hüququnun qanuni zəminini yaradan vacib sənədlər sırasındadır. Hava və dəniz daşımalarına aid Varşava və Monreal konvensiyaları, viza rejimləri və sərhəd keçidləri ilə bağlı beynəlxalq müqavilələr, həmçinin YUNESKO-nun mədəni və təbii irsin mühafizəsinə dair konvensiyası turizm fəaliyyətinin hüquqi çərçivəsini müəyyənləşdirir və turistlərin hüquqlarının müdafiəsinə xidmət göstərir (UNESCO, 1972). Bununla yanaşı, Avropa İttifaqı, Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Əmək Təşkilatı, Dünya Bankı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, habelə Dünya Turizm Təşkilatı kimi beynəlxalq qurumlar müxtəlif tövsiyələr, proqramlar və təşəbbüslər vasitəsilə turizm sektorunda insan hüquqlarının müdafiəsinin möhkəmləndirilməsinə əhəmiyyətli töhfələr verirlər. Turizm mikro, kiçik və orta ölçülü müəssisələr vasitəsilə iqtisadi artıma təsir göstərir (ILO, 2017, s. 1, 9).

Turizmin sosial və iqtisadi əhəmiyyəti ilə yanaşı, bu sahənin insan haqları ilə əlaqəsi də nəzəri və hüquqi cəhətdən izah edilməlidir. Bu baxımdan insan haqları anlayışının tarixi inkişaf mərhələlərinə müraciət etmək vacibdir. XVII və XVIII əsrlərdə Tomas Hobbs, Con Lokk, Samuel fon Pufendorf və Jan-Jak Russo kimi ictimai müqavilə nəzəriyyəçiləri hüquqların qaynağını izah etmək məqsədilə müxtəlif nəzəri konsepsiyalar ortaya qoymuşlar (Arslan, 2024, s. 1645). Müasir dövrdə insan haqlarının müdafiəsi beynəlxalq hüququn təməl prinsiplərindən biri kimi qəbul edilməkdədir və bu sahədə bir çox əhəmiyyətli beynəlxalq sənədlər qəbul olunmuşdur. Həmin sənədlər arasında ən önəmlilərindən biri Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş İnsan Hüquqlarının Ümumdünya Bəyannaməsidir. Birləşmiş Millətlər Təşkilatı 1948-ci ildə dünya miqyasında fərdlərin və cəmiyyətlərin riayət etməli olduğu dəyərlər sisteminin yaradılmasının həyati vacibliyini dərk edərək bu prinsipləri İnsan Hüquqlarının Ümumdünya Bəyannaməsi adı ilə qəbul etmişdir. Bəyannamənin 2-ci maddəsində bərabərlik prinsipi aşağıdakı şəkildə ifadə olunmuşdur: "Hər bir şəxs, irqi, dəri rəngi, cinsi, dili və dini etiqadı, siyasi və digər əqidələri, milli və ya sosial mənşəyi, əmlakı, doğulması və ya digər statusu nəzərə alınmadan, bu Bəyannamədə qeyd olunan bütün hüquq və azadlıqlardan istifadə edə bilər" (United Nations, 2015; Jubojević, 2017, s. 204).

İnsan haqlarının beynəlxalq səviyyədə müdafiəsi istiqamətində qəbul edilmiş əsas sənədlər arasında İnsan Hüquqlarının Ümumdünya Bəyannaməsi (1948), Beynəlxalq Səyahət və Turizm üzrə Birləşmiş Millətlər Konfransı (1963), İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Pakt (1966), Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt (1966) və Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Konfrans (1975) xüsusi yer tutur. Bu sənədlər insan haqlarının beynəlxalq hüquqi bazasının yaradılmasında və dövlətlərin öhdəliklərinin müəyyənləşdirilməsində mühüm rol oynamışdır (Cole,2010, s.110–120).

XX-XXI əsrin ilk onilliklərində baş vermiş sosial- iqtisadi, siyasi dəyişikliklər insan haqlarının müdafiəsi məsələsini daha da ön plana çıxarmışdır. Daxili münaqişələr və dövlətlərarası toqquşmalar, terror hadisələri, dini qarşıdurmalar, həm təbii, həm də insan fəaliyyəti nəticəsində yaranan ekoloji fəlakətlər, miqrasiya axınlarının güclənməsi və COVID-19 qlobal pandemiyası insan haqlarının təmin edilməsinə ciddi təsir göstərmişdir. Qloballaşma prosesləri və informasiya texnologiyalarının

sürətli inkişafı bu hadisələrlə bağlı məlumatların yayılmasını xeyli sürətləndirmişdir. Turizm sektorunun genişlənməsi ilə bağlı olaraq bəzi hallarda insan haqlarının pozulması ilə bağlı narahatlıqlar da artmışdır. Qeyri-hökumət təşkilatlarının hesabatlarında turizm fəaliyyəti ilə əlaqəli istismar halları, yerli icmaların zorla köçürülməsi, aşağı əmək haqqı və qeyri-qənaətbəxş iş şəraiti kimi problemlər qeydə alınmışdır (Giampiccole, 2012, s.175–180). Turistlər çox vaxt turizm sektorunda baş verən insan haqları pozuntularının varlığına diqqət çəkmiş, səyahət məntəqələrində yaşayan yerli sakinlər isə gələn ziyarətçilərin və bütövlükdə sektorun fəaliyyətinin onların hüquqlarına zərər vurduğunu bəyan etmişdir. Bununla belə, turizm çalışanları həm işəgötürənlərin, həm də turistlərin onların ləyaqət və əmək hüquqlarını lazımınca nəzərə almadığını bildirmişlər. (George, 2007, s. 41).

Turizm fəaliyyətlərinin və növlərinin sürətlə çoxalması ilə əlaqədar olaraq bərabərsizlik, irqçilik, institusional hakimiyyətin sui-istifadəsi, uşaq hüquqları, əlilliyi olan şəxslərin hüquqları, ekoloji hüquqlar, qadın hüquqları, istehlakçı hüquqları və ayrı-seçkilik kimi sahələrdə qeyri-etik davranış və münasibətlər ortaya çıxmışdır. Problemin həlli istiqamətində ilk növbədə dövlətlərin üzv olduğu bütün beynəlxalq qurum və təşkilatlar turizmin əsas maraqlı tərəfləri kimi qəbul edilməyə başlanmışdır.

Turizm sferasında və insan haqları sahəsində mənfi halların qarşısının alınması məqsədi ilə Avropa İttifaqı, Greenpeace və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Beynəlxalq Valyuta Fondu kimi beynəlxalq qurumlar universal etik tədbirlər müəyyən etmişlər. Turizmin insan haqları ilə əlaqəsi və qarşılıqlı inteqrasiyası nəzərə alınaraq tərəflərin, yəni maraqlı subyektlərin hüquq və vəzifələri müəyyənləşdirilmişdir. Bu çərçivədə BMT sistemi daxilində turizm sektorunda ədalətlilik, ardıcıllıq və etik davranışın təşviqi məqsədilə müxtəlif institusional təşəbbüslər reallaşdırılmışdır. Bu təşəbbüslər turizm təşkilatlarının həm işçilər, həm də müştərilər qarşısında etibarlılığının və nüfuzunun artırılmasına yönəldilmişdir (Fennell və Malloy, 2007).

Bu məqsədə nail olmaq üçün BMT-nin Ümumdünya Turizm Təşkilatı (BMTÜTT) tərəfindən "Turizm Sahəsində Qlobal Etik Kodeks" adlı sənəd qəbul edilmişdir (WTO, 2022). Həmin sənəd turizm sahəsində çalışan bütün maraqlı tərəflərin – dövlətlərin, turizm şirkətlərinin, səyahətçilərin və yerli icmaların – əməl etməli olduğu etik davranış normalarını müəyyənləşdirir və turizmin insan haqları, sosial ədalət və dayanıqlı inkişaf prinsipləri ilə uyğunlaşdırılmasını hədəfləyir. Turizm və insan haqları arasındakı əlaqəyə qloballaşma prosesləri də əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Qloballaşma coğrafi, iqtisadi və mədəni sərhədlərə dair ənənəvi qavrayışları dəyişdirərək turizm fəaliyyətlərinin həcmini və sıxlığını xeyli artırmışdır. Hərəkətliliyin yüksəlməsi nəticəsində dünya miqyasında məsafələr "qısalmış", sosioloq Ziqmunt Bauman bu hadisəni "məsafənin ölümü" olaraq adlandırmışdır (Sheller, 2004, s. 30). Texnoloji tərəqqi isə informasiyanın, kapitalın və insanların hərəkətinin daha intensiv xarakter almasına şərait yaratmışdır (Sheller, 2004, s. 2–6). Turizm insan haqları baxımından əhəmiyyətli sosial funksiyalar da icra etmişdir. Xüsusilə, turizmin inkişafı bir çox ölkələrdə əhalinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması və işlə təmin olunmanın artırılması baxımından mühüm rol oynamışdır. Bu yanaşma sosial dövlət konsepsiyası ilə də sıx surətdə bağlıdır. Sosial dövlət anlayışı vətəndaşlar üçün bərabər imkanların yaradılmasını və sosial rifahın artırılmasını əsas məqsəd kimi müəyyənləşdirir. Bu çərçivədə turizm bəzi hallarda sosial siyasətin bir aləti kimi çıxış edərək vətəndaşların istirahət və rekreasiya imkanlarına əlçatanlığını genişləndirmişdir.

Nəticə

Beynəlxalq hüquq çərçivəsində turizm və insan haqları mövzusuna ümumi bir baxışla yekunlaşdırsaq, bu iki sahə arasındakı qarşılıqlı əlaqənin getdikcə daha nizamlı və sistemli bir formada tənzimləndiyini görərik. Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Turizm Təşkilatı tərəfindən

qəbul olunmuş sənədlərdə turizm fəaliyyətinin insan haqlarına hörmət prinsiplərinə, həmçinin ekoloji baxımdan davamlı inkişafın təmin edilməsinə uyğun şəkildə icra edilməsi vacib şərt kimi irəli sürülür. Bu yanaşma eyni zamanda Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Minilliyin İnkişaf Məqsədləri və Davamlı İnkişaf Məqsədləri kimi sənədlər tərəfindən də dəstəklənir və turizmin sosial-iqtisadi inkişaf üçün nə qədər əhəmiyyətli bir vasitə olduğunu ortaya qoyur.

Turizm sektorunda fəaliyyət göstərən işçilər insan kapitalı olaraq dəyərləndirilir və göstərilən xidmətin keyfiyyətinin yaranmasında həlledici əhəmiyyətə malikdirlər. Bununla belə, əmək haqqı, iş vaxtı, təhlükəsizlik və ayrı-seçkiliyin qarşısının alınması kimi məsələlərdəki cari problemlər işçilərin ruhlandırılmasına və sektorun uzunmüddətli inkişafına mənfi təsir edir. Beynəlxalq əmək hüququ qaydalarına uyğun tədbirlərin kifayət qədər icra edilməməsi və nəzarət mexanizmlərinin zəif olması sektorun hüquqi boşluqlardan əziyyət çəkməsinə yol açır.

Bundan başqa, turizm fəaliyyətinin genişlənməsi yerli icmaların hüquqlarına da təsir edir. Çox vaxt turistlərin hüquqları ön planda tutulsa da, yerli sakinlərin sosial, iqtisadi və mədəni hüquqları kifayət qədər qorunmur. Halbuki yerli icmanın hüquqları insan ləyaqətinin və məqbul həyat şəraitinin təmin edilməsinin təməl daşlarından biridir. Bu səbəbdən sosial, ekoloji və iqtisadi məsuliyyət prinsiplərinə dayanan məsuliyyətli turizm, etik turizm və etik turist anlayışlarının təşviqi turizmin insan haqlarına uyğun şəkildə inkişaf etdirilməsi üçün böyük əhəmiyyət daşıyır. Beynəlxalq hüquqi çərçivə, eyni zamanda dövlətlərin, turizm sahəsinin və digər maraqlı tərəflərin öhdəliklərini aydın şəkildə müəyyənləşdirir. Turizm Etikası üzrə Qlobal Kodeks həmin prinsiplərin real həyatda tətbiqinə xidmət göstərir və turizm fəaliyyəti prosesində yerli icmaların, işçilərin və turistlərin hüquqlarının tarazlı şəkildə müdafiə olunmasını təmin edir. Bu isə turizm sektorunun sosial, iqtisadi və ekoloji baxımdan dayanıqlılığını daha da möhkəmləndirir.

Yekun olaraq, turizm sahəsində insan haqlarının müdafiəsi uzaqgörən perspektivdə təkcə sosial ədalət baxımından deyil, həm də iqtisadi dayanıqlıq və davamlı inkişaf baxımından mühüm əhəmiyyət daşıyır. Gələcək dövrlərdə turizm hüququ yeni qlobal meyllərə uyğunlaşmalı, rəqəmsal turizm, süni intellekt, məlumat təhlükəsizliyi, sağlamlıq turizmi və kosmos turizmi kimi istiqamətlər üçün hüquqi mexanizmlər işləyib hazırlamalıdır. Bununla yanaşı, iqlim dəyişikliyi, pandemiyalar və qlobal iqtisadi dəyişikliklər turizm hüququnun təkamülünü zəruri edir və insan haqları ilə turizm arasında gələcəkdə daha sıx inteqrasiyanı şərtləndirir.

Ədəbiyyat

1. Arslan, L., & Çavuş, M. N. (2024). Entegrasyon bağlamında turizm ve insan hakları. *Tarih Okulu Dergisi, 17*(70), 1643–1675.
2. Barutçugil, İ. S. (1989). *Turizm işletmeciliği*. Beta Basım Yayın.
3. Boz, N., & Hocaoğlu, U. (2008). *Turizm hukuku*. Seçkin Yayıncılık.
4. Cole, S., & Eriksson, J. (2010). Tourism and human rights. In *Tourism and inequality: Problems and prospects* (pp. 107–125). CAB International.
5. Fennell, D., & Malloy, D. (2007). *Codes of ethics in tourism: Practice, theory, synthesis*. Channel View Publications.
6. George, B. P., & Varghese, V. (2007). Human rights in tourism: Conceptualization and stakeholder perspectives. *Electronic Journal of Business Ethics and Organization Studies, 12*(2), 40–48.
7. Giampiccoli, A., & Kalis, J. H. (2012). Community-based tourism and local culture. *PASOS, 10*(1), 173–188.
8. International Labour Organization. (2017). *ILO guidelines on decent work and socially responsible tourism*.

9. Jubojević, R. (2017). International legal framework for tourism sustainability. *Tourism International Scientific Conference Proceedings, 2*(2), 203–218.
10. Rəhimova, M. (2021). Azərbaycan Respublikasında turizm sahəsində kadr potensialının artırılmasında beynəlxalq əməkdaşlığın rolu. *Elmi İş, 15*(4), 178–180. https://doi.org/10.36719/2663-4619/65/178-180
11. Sheller, M., & Urry, J. (2004). *Tourism mobilities: Places to play, places in play*. Routledge.
12. UNESCO. (1972). *Convention concerning the protection of the world cultural and natural heritage*.
13. United Nations. (2015). *Universal Declaration of Human Rights*.
14. World Tourism Organization. (2022). *International code for the protection of tourists*.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 356–360
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 356–360
DOI: https://doi.org/10.36719/2706-6185/60/356-360

2015-ci ildə baş verən devalvasiyanın Azərbaycan bank sektorunda kredit portfellərinə təsirinin qiymətləndirilməsi

Kamran Kərimli

Xülasə. *Tədqiqatda 2015-ci ildə Azərbaycanda baş verən devalvasiya prosesinin bank sektorunun kredit portfelinin keyfiyyətinə təsirləri kompleks şəkildə və öncəki mühüm və etibarlı tədqiqatların nəticəsi əsas götürülməklə təhlil olunur. Tədqiqatın əsas məqsədi kəskin məzənnə dəyişikliklərinin bankların mənfəətlilik göstəriciləri, kapital adekvatlığı və dollarlaşma səviyyəsi üzərindəki destruktiv təsirlərini empirik məlumatlar əsasında ortaya qoymaqdır. Təhlillər göstərir ki, devalvasiya nəticəsində valyuta uyğunsuzluğu dərinləşmiş, qeyri-işlək kreditlərin (NPL) payı kəskin artaraq 21%-ə çatmış və bank sektorunun ümumi itkiləri 1.33 milyard ABŞ dollarını ötmüşdür, həmçinin böhran nəticəsində bəzi bankların fəaliyyətlərindən məhrum olaraq bağlanması vurğulanır. Əvvəlki etibarlı tədqiqatların nəticələrindən bəhrələnməklə, 2013–2018-ci illəri əhatə edən panel data analizləri məzənnə şoklarının bankların aktivlərinin gəlirliliyi (ROA) ilə mənfi korrelyasiya təşkil etdiyini təsdiqləyir. Tədqiqatda həmçinin bank sektorundakı struktur daralması, lisenziyaların ləğvi və post-böhran dövründə həyata keçirilən bərpa tədbirləri araşdırılır. Nəticə olaraq, gələcək makroiqtisadi şoklara qarşı dayanıqlığın artırılması üçün dollarlaşmanın azaldılması, "hecinq" mexanizmlərinin tətbiqi və kapital buferlərinin gücləndirilməsi kimi anti-böhran və strateji təkliflər irəli sürülür.*

Açar sözlər: *devalvasiya, bank sektoru, dollarlaşma, qeyri-işlək kreditlər, maliyyə sabitliyi, valyuta riski*

Azərbaycan Dövlət İqtisad Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: kamrankarimli1501@gmail.com
Daxil oldu: 3 Yanvar 2026; Qəbul edildi: 21 Mart 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Evaluation of the Impact of the Devaluation that Occurred in 2015 on Credit Portfolios in the Azerbaijani Banking Sector

Kamran Karimli

Abstract. *This study provides a comprehensive analysis of the impact of the 2015 devaluations in Azerbaijan on the quality of the banking sector's loan portfolio, grounded in the findings of prior significant and credible research. The primary objective of the study is to empirically demonstrate the destructive effects of sharp exchange rate fluctuations on banks' profitability indicators, capital adequacy, and dollarization levels. The analysis reveals that the devaluations exacerbated currency mismatches, leading to a sharp rise in non-performing loans (NPLs) to 21% and total banking sector losses exceeding 1.33 billion USD.*

Furthermore, the study highlights the subsequent closure of several banks due to operational failure. Drawing on established research, panel data analyses covering the period 2013–2018 confirm a negative correlation between exchange rate shocks and the return on assets (ROA). The research also examines the structural contraction of the banking sector, the revocation of licenses, and the recovery measures implemented in the post-crisis period. Conclusively, the study proposes anti-crisis and strategic measures such as de-dollarization, the implementation of hedging mechanisms, and the strengthening of capital buffers to enhance resilience against future macroeconomic shocks.

Keywords: *devaluation, banking sector, dollarization, non-performing loans (NPLs), financial stability, currency risk*

Azerbaijan State University of Economics, Master's student, Baku, Azerbaijan
E-mail: kamrankarimli1501@gmail.com
Received: 3 January 2026; Accepted: 21 March 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Müasir qlobal dünyada bank sektorunun iştirakı olmadan iqtisadiyyatları və iqtisadi sistemləri təsəvvür etmək mümkün deyil. Bank sektoru iqtisadiyyatda mühüm yer tutmaqla yanaşı, ona geniş təsir edə bilən və ya onu müəyyən mənada tənzimləyən strukturdur. O cümlədən, makroiqtisadi şərait və dalğalanmalar, ələlxüsus iqtisadi və maliyyə böhranları kimi xüsusi vəziyyətlər də bank sektoruna mühüm təsir göstərərək, onun fəaliyyət istiqamətini dəyişmək imkanına malikdir. Bank sektorunun mühüm komponentlərindən sayılan kredit portfeli də məhz makroiqtisadi faktorların təsirinə uğrayaraq formalaşa bilər.

İqtisadiyyatdakı dalğalanma və böhranlar banklara da təsirini göstərir. 2015-ci il devalvasiyası məhz bu böhranlardan biri kimi, Azərbaycanda ölkə miqyasında baş verdi və ölkə ərazisində fəaliyyət göstərən bankların maliyyə sabitliyi və dayanıqlığın qorunması məsələsini gündəmə gətirdi. Bu böhran kommersiya banklarının öz fəaliyyətini dayanıqlı və etibarlı şəkildə həyata keçirməsinə mane olmuşdur. Təbii olaraq, 2015-ci ildə manatın ardıcıl şəkildə devalvasiyaya uğramasının həm ölkədaxili, həm də xarici səbəbləri olmuşdur. 2014-cü ilin sonlarından dünya əmtəə bazarında neftin ucuzlaşması iqtisadiyyatı neftdən asılı olan ölkələrin makroiqtisadi sabitliyinə böyük zərbə vurdu, iqtisadiyyatın diversifikasiya olunmasına nail olan ABŞ, Norveç və Kanada kimi ölkələrdən fərqli olaraq, neft gəlirlərinin xeyli hissəsindən məhrum olma fonunda Rusiya, Qazaxıstan və Venesuela kimi ölkələr çox böyük çətinliklərlə üzləşdi: milli valyuta dəyərsizləşdi, inflyasiya cilovlana bilmədi və valyuta ehtiyatları getdikcə tükəndi. Devalvasiya fonunda Azərbaycanda manatın dəyəri 1.28 dollardan 0.65 dollara qədər düşdü, ardınca milli valyuta üzən məzənnəyə keçirildi. 2017-ci ilin aprelində isə 1 manat 0.59 dollar kimi qiymətləndirildi.

Tədqiqat

Azərbaycanın bank sektorunda devalvasiyadan əvvəlki mərhələ daxili tələbin stimullaşdırılmasına yönəlmiş aqressiv kreditləşmə strategiyası ilə xarakterizə olunurdu. Lakin 2015-ci ilin fevral və dekabr aylarında baş verən kəskin devalvasiyalar bankların aktivlərinin keyfiyyətinə ciddi zərbə vuraraq, genişlənmə fazasını daralma ilə əvəz etmişdir. Bu dövrdə kredit portfelinin həcmcə kiçilməsi yalnız yüksək dollarlaşma səviyyəsi ilə deyil, həm də bankların risk iştahasının kəskin azalması və daxili prudensial nəzarət mexanizmlərinin sərtləşdirilməsi ilə birbaşa bağlıdır.

Devalvasiyadan sonrakı makroiqtisadi mühitdə problemli kreditlərin (NPL) payının artması bankların balanslarını yükləyərək likvidlik sıxıntılarına və nəticə etibarilə kredit təklifinin məhdudlaşmasına səbəb olmuşdur. Valyuta risklərinin reallaşması həm təklif, həm də tələb tərəfində davranış dəyişikliklərinə yol açmışdır: müştərilərin xarici valyutada borclanma meyilləri minimuma enmiş, banklar isə kredit riskini idarə etmək məqsədilə daha mühafizəkar anderraytinq siyasətinə keçid etmişlər (Əliyeva, 2020).

Aparılan hesablamalara görə, hesabat dövründə kreditləşmə həcmlərində aşağıdakı kəskin reqressiyalar müşahidə edilmişdir:

İqtisadi Sektor	**Azalma Faizi (%)**
İnşaat və əmlak sektoru	82.2%
Sənaye və istehsal	68.1%
İstehlak kreditləşməsi	45.1%
Ticarət və xidmət sahəsi	34.5%
Nəqliyyat və rabitə	23.1%
Kənd təsərrüfatı və emal	15.5%

Devalvasiya prosesinin bank sektorunda doğurduğu fundamental fəsadlar əsasən aşağıdakı istiqamətlərdə təzahür etmişdir: aktiv və passivlərin valyuta tərkibi arasındakı balansın pozulması (valyuta uyğunsuzluğu), dollarlaşma səviyyəsinin kəskin yüksəlməsi (depozitlərdə 76.8%-dən 82%-ə, kreditlərdə isə 31.2%-dən 49%-ə qədər), borcalanların öhdəliklərini yerinə yetirmə qabiliyyətinin zəifləməsi və ümumi balans pozuntuları (Baku Research Institute, 2016; CESD, 2016). Bu faktorların kumulyativ təsiri nəticəsində bank sektoru təxminən 1–1.33 milyard ABŞ dolları həcmində zərərə uğramışdır (OCCRP, 2016). Sektordakı struktur daralması nəticəsində 2015-ci ildə 45 olan bank sayı 2018-ci ilə qədər 30-a enmiş, 7 maliyyə institutunun lisenziyası isə ləğv edilmişdir (EBRD, 2017; The Banker, 2018).

Sözügedən makroiqtisadi şok inflyasiya təzyiqlərinin artmasına (2016-cı ildə 12.4%), ÜDM-in artım tempinin mənfi zonaya keçməsinə (2015-ci ildə 1.1%, 2016-cı ildə -3.1%) və cari hesab balansının pisləşməsinə rəvac vermişdir (World Bank, 2018; IMF, 2016). Qonşu ölkələrin milli valyutalarının ucuzlaşması fonunda yerli valyutanın dəyər itirməsi rəqabət qabiliyyətinin daha da zəifləməsi ilə nəticələnmişdir (Eurasianet, 2017). Mərkəzi Bank tərəfindən 2006-cı ildən etibarən tətbiq edilən sabit məzənnə rejimi bu növ ekzogen şoklar qarşısında dayanıqsızlığını nümayiş etdirmişdir (CBAR, 2015). Xarici valyutada olan kreditlərin portfeldəki yüksək payı, gəlirləri milli valyutada olan borclular üçün ciddi maliyyə disbalansı yaradaraq defolt risklərini stimullaşdırmışdır.

Qeyd olunan mexanizmlər bankların kapital adekvatlıq əmsalının (CAR) aşınmasına, likvidlik kəsirinin dərinləşməsinə və sektor üzrə sistem əhəmiyyətli itkilərə yol açmışdır (IMF FSAP, 2025). Empirik tədqiqatlar məzənnə volatilliyinin bankların aktivlərinin gəlirlilik göstəricisinə (ROA) statistik əhəmiyyətli dərəcədə mənfi təsir göstərdiyini təsdiqləyir (koeffisient - 0.033556, p=0.0264) (Əliyeva, 2020). Beynəlxalq reytinq agentlikləri və maliyyə qurumları sektorun yüksək dollarlaşma və valyuta risklərinə həssaslığını xüsusi qeyd etmişlər (Ratings, 2015). Bununla belə, devalvasiyanın qısamüddətli neqativ təsirləri ilə yanaşı, uzunmüddətli perspektivdə xarici ticarətdə rəqabət üstünlüyü və strateji rezervlərin qorunması kimi potensial faydaları da vurğulanmışdır (Galt və Taggart, 2015). Lakin bank sistemində baş verən böhranın genişmiqyaslı sosial-iqtisadi fəsadları qaçılmaz olmuşdur (IWPR, 2016).
Bank sektorunda qeyri-işlək kreditlərin (NPL) xüsusi çəkisi ən kritik artım dinamikasını nümayiş etdirmişdir: belə ki, 2015-ci ildən 2016-cı ilin sonuna qədər olan dövr ərzində NPL həcmi 39.1% artaraq ümumi portfelin 20-21% səviyyəsinə yüksəlmişdir (IMF FSAP, 2025; Ratings, 2019). Beynəlxalq maliyyə institutlarının hesabatlarına əsasən, xarici valyutada verilmiş kreditlər üzrə defolt göstəricisi milli valyutadakı analoji göstəricini iki dəfə üstələmişdir (TCX Fund, 2023; The Banker, 2018). Bu kəskin disbalans, borcalanların birbaşa valyuta riskinə məruz qalması və yerli valyutanın

kəskin dəyər itirməsi fonunda öhdəliklərin idarəolunmaz səviyyəyə çatması ilə izah olunur (Əliyeva, 2020; OCCRP, 2016). Kredit portfellərinin keyfiyyətinin deqradasiyası bankları əlavə ehtiyat ayırmaları (provisions) formalaşdırmağa vadar etmiş, bu da öz növbəsində mənfəətlilik indikatorlarını minimuma endirərək bank balanslarının strukturunu pozmuş və sektorun post-şok bərpa prosesini ləngitmişdir (World Bank, 2018).

Eyni zamanda, kreditlərin depozitlərə nisbəti (LTD) göstəricisi də ciddi təzyiqlərlə üzləşmişdir. Tətbiq edilən empirik modellər LTD əmsalının aktivlərin gəlirliliyinə (ROA) təsirinin mənfi və statistik əhəmiyyətli olduğunu sübut edir (koeffisient - 0.000625, $p<0.05$) (Əliyeva, 2020; Galt və Taggart, 2015). Bu meyl bankların maliyyələşmə strukturunun kövrəkləşməsini əks etdirməklə yanaşı, depozit bazasının daralması ilə korrelyasiya təşkil edir. Borcalanların ödəmə qabiliyyətinin aşağı düşməsi portfelin keyfiyyətini sistemli şəkildə zəiflətmiş və itkilərin multiplikativ artımına səbəb olmuşdur (Gurbanov, 2021). 2015-ci ilin yekunlarına görə dollarlaşma səviyyəsinin 50-60% diapazonuna yüksəlməsi aktivlərin keyfiyyətini daha da pisləşdirən əsas amil kimi çıxış etmişdir (IMF, 2016). Qiymətdən düşmüş kreditlərin (*impaired loans*) payı 2013-cü ildəki 5.1% səviyyəsindən 2017-ci ildə 13.8%-ə, beynəlxalq audit qiymətləndirmələrində isə 20%-ə yaxın həddə çatmışdır (Ratings, 2019; IMF FSAP, 2025). Bu artım tendensiyası bankların risk xərclərini maksimallaşdırmış və xalis mənfəət marjasını əhəmiyyətli dərəcədə sıxışdırmışdır.

Nəticə

2015-ci il devalvasiyası Azərbaycanın bank sektorunda valyuta uyğunsuzluğu və kəskin dollarlaşma ilə xarakterizə olunan sistemli bir böhrana yol açmışdır. Bu dövrdə sektorun ümumi itkiləri 1.33 milyard ABŞ dollarına çatmış, qeyri-işlək kreditlərin (NPL) payı 21%-ə yüksəlmiş və mənfəətlilik göstəriciləri (ROA, ROE) mənfi zonaya düşmüşdür. Nəticədə bankların sayı əhəmiyyətli dərəcədə azalaraq sektorun konsolidasiyası sürətlənsə də, maliyyə xidmətlərinin əlçatanlığı zəifləmişdir. Empirik təhlillər göstərir ki, məzənnə şokları bankların kapital adekvatlığına və gəlirliliyinə təsir edən ən destruktiv amil olmuşdur.

Böhranın ağır sosial-iqtisadi fəsadlarına — kredit daralması və əhalinin ödəmə qabiliyyətinin düşməsinə — baxmayaraq, bu proses uzunmüddətli perspektivdə mühüm dərslər və islahatlar üçün zəmin yaratmışdır. Rezervlərin səmərəli idarə edilməsi və ixracın stimullaşdırılması kimi nisbi üstünlüklər yaransa da, sektorun ekzogen şoklara qarşı həssaslığı hələ də qalmaqdadır. Gələcək dayanıqlığın təmini üçün dollarlaşmanın azaldılması, yerli valyutada kreditləşmənin genişləndirilməsi, "hecinq" mexanizmlərinin tətbiqi və kapital buferlərinin gücləndirilməsi strateji prioritetlər kimi çıxış edir. Yekun olaraq, 2015-ci il təcrübəsi makroiqtisadi siyasətdə valyuta sabitliyinin və risk menecmentinin diversifikasiya olunmuş iqtisadi model üçün fundamental əhəmiyyət kəsb etdiyini təsdiqləmişdir.

Ədəbiyyat

1. ADB. (2017). *Azerbaijan's financial sector and the path to diversification*. Asian Development Bank.
2. Baku Research Institute. (2016). *Impact of currency devaluation on Azerbaijan's banking sector*. BRI.
3. CBAR. (2015). *Annual report and monetary policy review*. Central Bank of the Republic of Azerbaijan.
4. CESD. (2016). *Macroeconomic impacts of the manat devaluation*. Center for Economic and Social Development.
5. EBRD. (2017). *Transition report: Azerbaijan*. European Bank for Reconstruction and Development.
6. Əliyeva, U. (2020). *Məzənnə volatilliyinin bankların mənfəətlilik göstəricilərinə (ROA) təsirinin empirik təhlili*. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi.

7. Eurasianet. (2017, May 15). *The regional ripple effects of currency depreciation in the Caspian Basin*. Eurasianet.org. https://eurasianet.org
8. Fitch Ratings. (2015). *Azerbaijani banks: Currency risks and asset quality challenges*. Fitch.
9. Fitch Ratings. (2019). *Banking system outlook: Azerbaijan – Asset quality and NPL trends*. Fitch.
10. Galt & Taggart. (2015). *Azerbaijan's economy: Devaluation and long-term competitiveness analysis*. Galt & Taggart Research.
11. Gurbanov, N. (2021). *The impact of macroeconomic shocks on banking stability: A panel data analysis*. ResearchGate. https://doi.org/10.13140/RG.2.2.3145
12. IMF FSAP. (2025). *Financial sector assessment program: Azerbaijan stability report*. International Monetary Fund.
13. IMF. (2016). *Republic of Azerbaijan: Article IV consultation press release*. International Monetary Fund.
14. IWPR. (2016). *Azerbaijan: Socio-economic consequences of the financial crisis*. Institute for War and Peace Reporting.
15. OCCRP. (2016). *The cost of devaluation to Azerbaijan's financial sector*. Organized Crime and Corruption Reporting Project.
16. S&P Global. (2016). *Banking industry country risk assessment: Azerbaijan*. Standard & Poor's.
17. TCX Fund. (2023). *Managing FX risks in frontier markets: Case study: Azerbaijan*. The Currency Exchange Fund.
18. *The Banker*. (2018). *Structural reforms and bank consolidation in Azerbaijan*. Financial Times Group.
19. World Bank. (2018). *Azerbaijan economic update: Navigating the post-devaluation landscape*. World Bank Group.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 361–368
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 361–368
DOI: https://doi.org/10.36719/2706-6185/60/361-368

Azərbaycan qanunvericiliyində turizmin davamlı inkişaf hüququna təsiri

Əsgər Abdullayev

Xülasə. *Məqalədə Azərbaycan qanunvericiliyində turizmin davamlı inkişaf hüququna təsirinin normativ əsasları hüquqi baxımdan təhlil olunur. Tədqiqatın mərkəzində davamlı inkişaf hüququnun Konstitusiya və sahəvi qanunvericilikdə hansı hüquqlar və dövlət öhdəlikləri vasitəsilə ifadə olunması dayanır. Araşdırmada formal-hüquqi, sistemli və məqsədyönlü şərh metodlarından istifadə edilmişdir. Müəyyən edilir ki, Azərbaycan Respublikası Konstitusiyasının sağlam ətraf mühit, mədəni həyatda iştirak, sahibkarlıq azadlığı, ətraf mühitin və abidələrin qorunması ilə bağlı müddəaları turizm sahəsində davamlı inkişafın hüquqi bazasını formalaşdırır. 2021-ci il tarixli "Turizm haqqında" Qanun isə davamlı və dayanıqlı inkişafı, təbii və mədəni irsin qorunmasını, habelə turizm və rekreasiya zonalarının hüquqi rejimini birbaşa normativ kateqoriya kimi tanıyır. Bununla yanaşı, ətraf mühitə təsirin qiymətləndirilməsi, strateji ekoloji qiymətləndirmə, mədəni irsin mühafizəsi və xüsusi mühafizə olunan təbiət ərazilərindən istifadə üzrə hüquqi mexanizmlər turizm fəaliyyətinin sərhədlərini müəyyənləşdirir. Məqalədə göstərilir ki, mövcud hüquqi tənzimləmə müəyyən institusional baza yaratsa da, davamlı turizmin hüquqlar mərkəzli modeli baxımından normativ parçalanma, anlayış qeyri-müəyyənliyi və tətbiq mexanizmlərinin pərakəndəliyi qalmaqdadır. Xüsusən yerli icmaların iştirakı, kumulyativ ekoloji təsirin nəzərə alınması, iqlim amilinin turizm hüququna inteqrasiyası və turizm zonalarında məcburi idarəetmə standartları məsələləri daha aydın hüquqi həll tələb edir. Nəticədə Azərbaycan qanunvericiliyində turizmin davamlı inkişaf hüququna təsiri müsbət normativ baza ilə müşayiət olunsa da, onun tam realizəsi üçün daha sistemli və hüquqlar əsaslı qanunvericilik təkmilləşdirilməsi zəruridir.*

Açar sözlər: *davamlı inkişaf hüququ, turizm hüququ, Azərbaycan qanunvericiliyi, turizm və rekreasiya zonaları, ətraf mühitin mühafizəsi*

Bakı Dövlət Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: asgar.abdullayev.new@gmail.com
Daxil oldu: 15 Yanvar 2026; Qəbul edildi: 7 May 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Qədim Diyar 8(5), 2026
Ancient Land 8(5), 2026

The Impact of Tourism on the Right to Sustainable Development in Azerbaijani Legislation

Asgar Abdullayev

Abstract. *The article examines, from a legal perspective, how Azerbaijani legislation shapes the impact of tourism on the right to sustainable development. The study proceeds from the premise that this right is not expressly codified in Azerbaijani law as an autonomous subjective right, but is derived from constitutional guarantees related to a healthy environment, cultural participation, free enterprise, and the duty to protect the environment and historical monuments. Using formal legal and systematic interpretation, the paper analyzes the Constitution, the 2021 Law on Tourism, environmental impact assessment legislation, and legal acts on cultural and natural heritage protection. It is argued that the current legal framework recognizes sustainable and resilient tourism as a normative objective and incorporates environmental and heritage safeguards into tourism governance. At the same time, the article shows that the existing framework remains fragmented and does not yet provide a fully articulated rights-based model of sustainable tourism. Particular attention is paid to legal gaps concerning local community participation, cumulative ecological impact, climate-sensitive tourism regulation, and enforceable sustainability standards in tourism and recreation zones. The article concludes that Azerbaijani legislation has established a meaningful legal basis for aligning tourism with sustainable development, but further legislative refinement is required to transform this basis into a coherent and enforceable legal regime.*

Keywords: *right to sustainable development, tourism law, Azerbaijani legislation, tourism and recreation zones, environmental protection*

Baku State University, Master's student, Baku, Azerbaijan
E-mail: asgar.abdullayev.new@gmail.com
Received: 15 January 2026; Accepted: 7 May 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Turizmin hüquqi tənzimlənməsi artıq yalnız sahibkarlıq fəaliyyəti, xidmət keyfiyyəti və turist təhlükəsizliyi ilə məhdudlaşan sahə kimi dəyərləndirilə bilməz. Müasir hüquq nəzəriyyəsində turizm təbii ehtiyatlardan istifadə, mədəni irsin qorunması, yaşayış məkanlarının funksional tarazlığı, yerli icmaların maraqları və gələcək nəsillərin hüquqi müdafiəsi ilə kəsişən çoxsahəli hüquqi münasibətlər kompleksi kimi çıxış edir. Bu səbəbdən turizmin davamlı inkişaf hüququ ilə əlaqəsi artıq yalnız siyasət sənədlərinin dili ilə deyil, normativ hüquqi aktların məzmunu və tətbiq mexanizmləri prizmasından araşdırılmalıdır (Office of the United Nations High Commissioner for Human Rights Declaration on the Right to Development, 1986; United Nations Transforming our world: the 2030 Agenda for Sustainable Development, 2015; United Nations Tourism Global Code of Ethics for Tourism, 2024).

Tədqiqat

Azərbaycan qanunvericiliyində davamlı inkişaf hüququ ayrıca, müstəqil və tam formalaşmış subyektiv hüquq kimi adbaad təsbit olunmamışdır. Bununla belə, həmin hüququn normativ əsası Konstitusiyanın sağlam ətraf mühit, mədəni həyatda iştirak, sərbəst sahibkarlıq, tarixi və mədəni abidələrin, eləcə də ətraf mühitin qorunması ilə bağlı müddəalarının sistemli şərhindən çıxarılır

(Azərbaycan Respublikasının Konstitusiyası, 1995, maddələr 39, 40, 59, 77, 78). Bu baxımdan turizm sahəsində qəbul edilən qanunlar və digər aktlar davamlı inkişaf hüququnun reallaşmasına ya yardım edən, ya da onu məhdudlaşdıran hüquqi vasitələr kimi qiymətləndirilməlidir. Bu məqalənin məqsədi Azərbaycan qanunvericiliyində turizmin davamlı inkişaf hüququna təsirini hüquqi müstəvidə təhlil etmək, mövcud normativ bazanın üstün və zəif tərəflərini müəyyənləşdirmək, habelə hüquqi təkmilləşdirmə istiqamətlərini irəli sürməkdən ibarətdir. Tədqiqatda formal-hüquqi, sistemli, məqsədyönlü və qismən müqayisəli-hüquqi metodlardan istifadə edilmişdir. Araşdırmanın mənbə bazasını Azərbaycan Respublikasının Konstitusiyası, "Turizm haqqında" Qanun, ətraf mühitin mühafizəsi və ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə qanunvericilik, mədəni irsin mühafizəsi ilə bağlı aktlar təşkil edir. Bununla yanaşı, beynəlxalq hüquqi sənədlərin də araşdırma bazasına daxil edilməsi zəruri olmuşdur. Belə ki, turizm sahəsində istər inkişafın, istərsə də hüquqların təmin edilməsi məqsədilə dövlətlər arasındakı beynəlxalq əlaqələrin qurulmasının vacibliyi inkarolunmazdır (Elmi iş beynəlxalq elmi jurnalı, Mələkxanım Seyfulla qızı Rəhimova - "Azərbaycan Respublikasında turizm sahəsində kadr potensialının artırılmasında beynəlxalq əməkdaşlığın rolu", 2021).

1. Davamlı inkişaf hüququnun nəzəri-hüquqi mahiyyəti və turizm münasibətləri ilə əlaqəsi

Davamlı inkişaf hüququ anlayışı hüquq nəzəriyyəsində vahid və qəti məzmunla sabitləşmiş kateqoriya deyildir. Bunun səbəbi odur ki, o, bir tərəfdən inkişaf hüququnun insan hüquqları məntiqindən, digər tərəfdən ekoloji hüququn və nəsillərarası ədalət ideyasının normativ məzmunundan qidalanır. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 4 dekabr 1986-cı il tarixli İnkişaf Hüququ Bəyannaməsi inkişaf hüququnu hər bir insanın və bütün xalqların iqtisadi, sosial, mədəni və siyasi inkişafda iştirak etmək, həmin inkişafdan faydalanmaq və onu bölüşmək hüququ kimi müəyyən edir (Office of the United Nations High Commissioner for Human Rights Declaration on the Right to Development, 1986). Sonrakı mərhələdə 2030 Gündəliyi davamlı inkişafı insan, planet və rifah arasında tarazlıq əsasında şərh etmiş, beləliklə inkişaf hüququnun ekoloji və institusional komponentini daha da gücləndirmişdir (United Nations Transforming our world: the 2030 Agenda for Sustainable Development, 2015).

Turizm bu çərçivədə təkcə iqtisadi fəaliyyət deyildir. O, ətraf mühitə müdaxilə, təbii resursların istifadə rejimi, mədəni obyektlərin dövriyyəsi, torpaq və şəhərsalma qərarları, ictimai infrastrukturun yüklənməsi, yerli icmaların gündəlik həyatına təsir və bəzən insan hüquqlarının kolliziyası ilə müşayiət olunur. Birləşmiş Millətlər Təşkilatının turizm üzrə etik standartları da turizmin ev sahibi regionların ənənələrinə, qanunlarına, mədəni dəyərlərinə və ekoloji tarazlığına uyğun aparılmalı olduğunu vurğulayır (United Nations Tourism Global Code of Ethics for Tourism, 2024). Deməli, turizmin davamlı inkişaf hüququna təsiri yalnız "turizmi inkişaf etdirmək" vəzifəsi ilə ölçülmür; burada əsas meyar turizmin hansı hüquqi sərhədlər daxilində və hansı müdafiə mexanizmləri ilə həyata keçirilməsidir.

Bu kontekstdə hüquqi doktrina üç əsas elementi fərqləndirməyə imkan verir. Birincisi, davamlı inkişaf hüququnun maddi komponenti vardır; buraya əlverişli ətraf mühit, mədəni irsin qorunması, resurslardan məqsədyönlü istifadə və gələcək nəsillərin maraqlarının nəzərə alınması daxildir. İkincisi, onun prosessual komponenti vardır; bu komponent məlumat əldə etmək, iştirak etmək, dinlənilmək və təsirli müdafiə vasitələrindən istifadə etmək imkanlarını ehtiva edir. Üçüncüsü, institusional komponent mövcuddur; burada dövlətin normativ siyasəti, icraedici orqanların səlahiyyət bölgüsü, monitorinq və nəzarət mexanizmləri xüsusi əhəmiyyət daşıyır. Turizm hüququnun davamlı inkişafla uzlaşması yalnız bu üç komponent paralel işlədikdə mümkündür.

2. Azərbaycan qanunvericiliyində turizmin davamlı inkişaf hüququna təsir edən normativ əsaslar

Azərbaycan Respublikasının hüquq sistemində davamlı inkişafın turizmlə əlaqəsi ilk növbədə konstitusion müstəvidə görünür. Konstitusiyanın 39-cu maddəsi hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququnu, həqiqi ekoloji vəziyyət barədə məlumat almaq hüququnu və ekoloji tələblərin pozulması nəticəsində vurulan ziyana görə kompensasiya almaq hüququnu tanıyır (Azərbaycan Respublikasının Konstitusiyası, 1995, maddə 39). Eyni zamanda 40-cı maddə mədəni həyatda iştirak və mədəni sərvətlərdən istifadə hüququnu təsbit edir, 77-ci maddə tarixi və mədəni abidələri qorumağı, 78-ci maddə isə ətraf mühiti qorumağı vətəndaş borcu kimi müəyyən edir (Azərbaycan Respublikasının Konstitusiyası, 1995, maddələr 40, 77, 78). 59-cu maddədə sərbəst sahibkarlıq hüququnun tanınması isə turizm fəaliyyətinin bazar subyektləri vasitəsilə həyata keçirilməsinin hüquqi əsası kimi çıxış edir (Azərbaycan Respublikasının Konstitusiyası, 1995, maddə 59).

Konstitusion səviyyədə formalaşan bu model davamlı inkişaf hüququnu ikitərəfli məntiqdə təqdim edir. Bir tərəfdən fərdlərin və icmaların sağlam ətraf mühitə və mədəni sərvətlərə çıxış hüququ tanınır, digər tərəfdən həmin sərvətlərin qorunması həm dövlətin, həm də vətəndaşların vəzifəsi kimi müəyyən edilir. Turizm sahəsində bu, belə bir hüquqi nəticəyə gətirir ki, turizm fəaliyyəti nə qədər iqtisadi cəhətdən cəlbedici olsa da, o, konstitusion mühafizə predmeti olan ekoloji və mədəni dəyərləri sıradan çıxaracaq formada qurula bilməz. Başqa sözlə, turizmin hüquqi azadlığı konstitusion mühafizə olunan dəyərlərin həddi ilə məhdudlaşır.

Bu konstitusion baza 2021-ci il tarixli "Turizm haqqında" Azərbaycan Respublikasının Qanununda daha konkret ifadə olunmuşdur. Həmin Qanun turizm və rekreasiya zonalarını xüsusi ekoloji, tarixi və mədəni əhəmiyyət daşıyan, təbiəti mühafizə, tarixi və mədəni irsi qoruma, turizmin dayanıqlı təşkili və davamlı inkişafı, investisiya qoyuluşunun təşviqi məqsədilə ayrılan ərazilər kimi müəyyən edir (Turizm haqqında Qanun, 2021, maddə 1.1.7). Bu normanın xüsusi əhəmiyyəti ondadır ki, qanun davamlı inkişafı sırf siyasi şüar kimi deyil, turizm zonalarının hüquqi təyinatını müəyyən edən normativ meyar kimi qəbul edir. Eyni Qanunun 6.1.2-ci maddəsində turizmin davamlı və dayanıqlı inkişafı məqsədilə dövlət strategiyalarının hazırlanması və həyata keçirilməsi dövlət vəzifəsi kimi təsbit olunmuşdur (Turizm haqqında Qanun, 2021, maddə 6.1.2). 6.1.6-cı maddə isə turizm fəaliyyəti həyata keçirilərkən ölkənin təbii, mədəni və tarixi irsindən səmərəli, təyinatına uyğun istifadənin, onların qorunmasının və ətraf mühitin mühafizəsinin təmin edilməsini dövlətin vəzifələri sırasında göstərir (Turizm haqqında Qanun, 2021, maddə 6.1.6). Bu müddəalar göstərir ki, Azərbaycan qanunvericisi turizm sektorunu hüquqi baxımdan yalnız xidmət bazarı kimi görmür; o, turizmi irs və təbiət ilə birgə tənzimlənən sahə kimi normalaşdırır.

Qanunun 18.6-cı maddəsinə əsasən, turizm sahəsi üzrə strateji sənədlərin layihələrinə dair "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanuna uyğun olaraq strateji ekoloji qiymətləndirmə sənədi hazırlanmalı və onun dövlət ekoloji ekspertizası keçirilməlidir (Turizm haqqında Qanun, 2021, maddə 18.6). Bundan əlavə, 19.2-ci maddə 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektlərinin layihələri üçün ƏMTQ sənədinin hazırlanmasını və dövlət ekoloji ekspertizasını məcburi edir; 19.4-cü maddə isə transsərhəd təsir aşkar edildikdə məsələnin beynəlxalq müqavilələrə uyğun həllini nəzərdə tutur (Turizm haqqında Qanun, 2021, maddələr 19.2-19.4). Beləliklə, turizm sahəsində davamlı inkişaf hüququnun prosessual müdafiəsi ekoloji qiymətləndirmə mexanizmləri vasitəsilə dəstəklənir.

"Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" 2018-ci il tarixli Qanun bu mexanizmin normativ məğzini açıqlayır. Həmin Qanunun 2.1-ci maddəsində göstərilir ki, bu sahədə qanunvericilik Konstitusiyadan, ƏMTQ haqqında Qanundan, "Ətraf mühitin mühafizəsi haqqında" və "Ekoloji təhlükəsizlik haqqında" qanunlardan, eləcə də şəhərsalma və tikinti qanunvericiliyindən ibarətdir (Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Qanun, 2018, maddə 2.1). Qanunun 6.0.1-ci

maddəsi SEQ-in məqsədlərindən birini ətraf mühitdən səmərəli istifadə, ətraf mühitin davamlı inkişafı və ekoloji təhlükəsizliyin təmin edilməsi kimi müəyyən edir; 7.1.1-ci maddə turizm sahəsi üzrə strateji sənədləri SEQ obyektləri sırasına daxil edir; 8.1-ci maddə isə ictimai dinləmələrin təşkili və monitorinq mərhələsini prosedurun ayrılmaz hissəsi kimi nəzərdə tutur (Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Qanun, 2018, maddələr 6.0.1, 7.1.1, 8.1).

Turizmin davamlı inkişaf hüququna təsir edən başqa mühüm blok mədəni və təbii irsin mühafizəsi ilə bağlı qanunvericilikdir. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanun abidələrin qorunması, öyrənilməsi və istifadəsi ilə bağlı münasibətləri tənzimləyir; "Mədəniyyət haqqında" Qanun isə mədəni həyatda iştirak hüququnu və mədəni sərvətlərdən istifadə imkanını hüquqi müstəvidə möhkəmləndirir (Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Qanun, 1998; Mədəniyyət haqqında Qanun, 2012). Turizm, xüsusən mədəni və irs turizmi, bu sahələrə bilavasitə müdaxilə etdiyinə görə, adı çəkilən qanunlar turizm hüququnun xarici əlavəsi deyil, onun davamlılıq sərhədlərini müəyyən edən birbaşa normativ mənbələrdir.

Oxşar yanaşma təbiətin mühafizəsi sahəsində də müşahidə olunur. "Ətraf mühitin mühafizəsi haqqında" Qanun ətraf mühitin ekoloji tarazlığının mühafizəsini və ekoloji təhlükəsizliyin təminini bu sahənin əsas məqsədi kimi təsbit edir (Ətraf mühitin mühafizəsi haqqında Qanun, 1999). "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Qanun isə bu əraziləri xüsusi ekoloji, elmi, mədəni və estetik dəyərə malik milli sərvət kimi qoruyur (Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında Qanun, 2000). 2024-cü ildə təsdiq edilmiş "Turizm və rekreasiya zonalarının Nümunəvi Əsasnaməsi" də həmin yanaşmanı davam etdirərək zonaların yaradılmasının məqsədləri sırasında turizmin dayanıqlı təşkili, ətraf mühitin qorunması, ekoloji tarazlığın saxlanması və milli-mədəni irsin qorunmasını ayrıca qeyd edir; daha sonra mədəni irs obyektlərindən və xüsusi mühafizə olunan təbiət ərazilərindən turizm məqsədilə istifadənin aidiyyəti sahə qanunlarına uyğun aparılmalı olduğunu göstərir (Turizm və rekreasiya zonalarının Nümunəvi Əsasnaməsi, 2024, bəndlər 1.2.1, 2.1.2, 2.1.3, 14.1).

Normativ sistemin institusional hissəsi də diqqətəlayiqdir. Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə bu quruma turizm, o cümlədən turizm və rekreasiya zonaları sahəsində dövlət siyasətinin həyata keçirilməsi ilə bağlı səlahiyyət verir (Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə, 2018). Bununla yanaşı, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan 2026" kimi strateji sənədlər turizm sektorunun davamlı inkişafını dövlət siyasətinin istiqaməti kimi nəzərdə tutur ("Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2 fevral 2021), "Azərbaycan 2026" sosial-iqtisadi inkişaf Strategiyası və müvafiq Fəaliyyət Planı 22 iyul 2022). Bu sənədlər sərt hüquq anlamında qanun olmasalar da, onların normativ-siyasi rolu ondan ibarətdir ki, turizm sahəsində davamlılıq ölçüsünü idarəetmə qərarları üçün məcburi istiqamətləndirici meyara çevirirlər.

3. Tətbiq problemləri: normativ baza ilə hüquqlar əsaslı realizə arasındakı boşluqlar

Azərbaycan qanunvericiliyinin mövcud vəziyyəti göstərir ki, davamlı turizm ideyası normativ mətnlərdə artıq tanınır. Lakin tanınma ilə realizə arasında əhəmiyyətli hüquqi fərq qalır. İlk problem anlayış səviyyəsindədir. "Turizm haqqında" Qanun davamlı və dayanıqlı inkişaf terminlərini işlətsə də, bu anlayışların hüquqi meyarlarını ayrıca maddədə dəqiqləşdirmir. Nəticədə davamlılıq anlayışı çox vaxt geniş məqsəd müddəası kimi qalır və icra prosesində onun hansı indikatorlar əsasında qiymətləndiriləcəyi, hansı hallarda pozuntu sayılacağı, hansı hüquqi nəticələr doğuracağı açıq göstərilmir.

İkinci problem normativ parçalanmadır. Turizmin davamlı inkişaf hüququ ilə əlaqəli əsas müddəalar Konstitusiya, turizm qanunvericiliyi, ekoloji qanunvericilik, mədəni irsin mühafizəsi, şəhərsalma, torpaq və inzibati tənzimləmə aktları arasında parçalanmış vəziyyətdədir. Bu parçalanma sistemli şərh imkanı yaratsa da, tətbiqedici orqanlar və məhkəmələr üçün vahid hüquqi model formalaşdırmır. Hüquqi nəticə ondan ibarət olur ki, turizm layihəsinin davamlı olub-olmaması bəzən bir sahənin aktı daxilində deyil, bir neçə ayrı normativ blokun paralel tətbiqi ilə müəyyən edilir. Belə struktur isə hüquqi müəyyənlik prinsipini zəiflədir.

Üçüncü problem hüquqlar mərkəzli iştirak mexanizmlərinin turizm qanunvericiliyinin özündə kifayət qədər aydın ifadə olunmamasıdır. ƏMTQ və SEQ qanunvericiliyi ictimai dinləmələr və monitorinq mexanizmlərini nəzərdə tutur (Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Qanun, 2018, maddələr 5.3.13, 8.1). Lakin "Turizm haqqında" Qanunda turizm siyasətinin hazırlanması, turizm marşrutlarının və ya turizm-rekreasiya zonalarının təşkili zamanı yerli icmaların məcburi dinlənilməsi, onların etiraz və təkliflərinin hüquqi statusu, yaxud icma maraqlarının qiymətləndirilməsi proseduru ayrıca normativ çərçivə kimi görünmür. Bu boşluq turizmin davamlı inkişaf hüququnun prosessual aspektini zəiflədir.

Dördüncü problem ekoloji qiymətləndirmənin hədləri ilə bağlıdır. 300 nəfərdən çox tutumu olan turizm və rekreasiya obyektləri üçün ƏMTQ məcburi hesab edilir (Turizm haqqında Qanun, 2021, maddə 19.2). Bu həd iri layihələr üçün hüquqi süzgəc yaratsa da, kiçik və orta tutumlu, lakin eyni ərazidə çoxsaylı şəkildə yerləşən obyektlərin kumulyativ təsirini turizm qanunvericiliyinin məhz özündə ayrıca normativ kateqoriya kimi əks etdirmir. Halbuki sahil əraziləri, dağlıq məkanlar, meşə zolaqları və mədəni landşaftlar kimi həssas turizm məkanlarında məhz parçalanmış və mərhələli yüklənmə davamlılıq üçün daha ciddi risk yarada bilər.

Beşinci problem iqlim amilinin turizm hüququna məhdud inteqrasiyası ilə bağlıdır. Turizm haqqında Qanunda ekoloji mühafizə, təbii və mədəni irsin qorunması və dayanıqlı inkişaf ideyası mövcuddur, lakin iqlimə uyğunlaşma, su resurslarından dayanıqlı istifadə, enerji səmərəliliyi, karbon izi və turizm infrastrukturu üçün iqlim dayanıqlığı tələbləri ayrıca hüquqi öhdəlik kimi ifadə olunmamışdır. Bu isə müasir mərhələdə davamlı inkişaf hüququnun məzmununu daraldır, çünki iqlim riski artıq yalnız ekoloji məsələ deyil, hüquq və idarəetmə məsələsidir. Altıncı problem turizm və rekreasiya zonalarının hüquqi rejimində investisiya təşviqi ilə mühafizə məqsədləri arasında normativ balansın tam aydın qurulmamasıdır. Nümunəvi Əsasnamədə investisiya və sahibkarlığın dəstəklənməsi legitim məqsəd kimi qəbul olunur (Turizm və rekreasiya zonalarının Nümunəvi Əsasnaməsi, 2024, bənd 2.1.4). Lakin eyni aktda zonalar üzrə vahid ekoloji daşıma həddi, məcburi ictimai hesabatlılıq, hüquqi audit, insan hüquqlarına təsirin qiymətləndirilməsi və ya mədəni landşaftın qorunmasına dair xüsusi standartların normativ məcburiliyi ayrıca sistemləşdirilməmişdir. Bu vəziyyətdə investisiya yönümlü qərarların hüquqlar əsaslı mühafizə çərçivəsini sıxışdırmaq riski qalır.

4. Hüquqi təkmilləşdirmə perspektivləri

Birinci istiqamət "Turizm haqqında" Qanunda davamlı turizmin hüquqi anlayışının ayrıca norma ilə dəqiqləşdirilməsidir. Həmin norma təkcə ümumi məqsəd bəyanatı olmamalı, ekoloji tarazlıq, mədəni irsin qorunması, yerli icmaların maraqlarının nəzərə alınması, resurslardan təyinatına uyğun istifadə, iştirak, şəffaflıq və nəsillərarası ədalət kimi meyarları özündə birləşdirməlidir. Bu, davamlılıq anlayışını təfsirə açıq siyasət tezisindən çıxarıb tətbiq edilə bilən hüquqi ölçüyə çevirə bilər.

İkinci istiqamət turizm və rekreasiya zonaları üzrə xüsusi hüquqi standartların sərtləşdirilməsidir. Zonanın yaradılması haqqında qərarda və ya inkişaf konsepsiyasında yalnız ixtisaslaşma istiqaməti və maliyyələşmə mənbələri deyil, həm də ekoloji daşıma qabiliyyəti, mədəni irsin istifadə limiti, su və enerji yükü, tullantıların idarə olunması, ictimai iştirak planı və məcburi monitorinq mexanizmləri təsbit edilməlidir. Bu cür meyarlar qanun və ya ona əsasən qəbul olunan məcburi qaydalar

səviyyəsində müəyyənləşdirildikdə, zonaların idarə edilməsində normativ müəyyənlik güclənər. Üçüncü istiqamət kumulyativ təsirin qiymətləndirilməsi institutunun turizm hüququna daha aydın inteqrasiyasıdır. ƏMTQ qanunvericiliyi alternativlər, monitorinq və ictimai dinləmə kimi mühüm elementləri ehtiva edir (Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Qanun, 2018, maddələr 5.3.7, 5.3.8, 5.3.9, 5.3.10, 5.3.11). Lakin turizm sahəsinə aid xüsusi norma ilə həssas məkanlarda mərhələli və çoxsaylı layihələrin ümumi təsirinin ayrıca nəzərə alınması tələb oluna bilər. Bu, hüquqi qiymətləndirməni layihə-mərkəzli yanaşmadan ərazi-mərkəzli yanaşmaya keçirər.

Dördüncü istiqamət yerli icmaların hüquqi statusunun gücləndirilməsidir. Turizmin davamlı inkişaf hüququ yalnız dövlət və sahibkar arasındakı münasibət deyil; o, ərazidə yaşayan əhalinin yaşayış mühiti, mədəni kimliyi və ictimai resurslara çıxışı ilə də bağlıdır. Buna görə turizm qanunvericiliyində yerli icmaların məlumatlandırılması, məsləhətləşmə hüququ, əsaslandırılmış etiraz vermək imkanı və qərarların əsaslandırılmasında bu mövqelərin nəzərə alınması ayrıca prosessual hüquq kimi tanına bilər. Belə mexanizm davamlı inkişaf hüququnun demokratik və iştirakçı məzmununu gücləndirər.

Beşinci istiqamət iqlim hüququ ilə turizm hüququ arasında normativ körpünün qurulmasıdır. Yeni redaksiyalarda turizm obyektlərinin enerji səmərəliliyi, su istehlakı, tullantı sularının idarə olunması, həssas ekosistemlərdə tikinti məhdudiyyətləri və iqlim risklərinə uyğunlaşdırma tədbirləri qanun və ya məcburi alt-normativ aktlarla daha konkret ifadə oluna bilər. Bu, davamlı inkişaf hüququnun müasir məzmununa daha uyğun yanaşma olardı.

Altıncı istiqamət məhkəmə və inzibati müdafiə vasitələrinin daha aydın normativ artikulyasiyasıdır. Turizm layihələrinin dayandırılması, icazələrin ləğvi, monitorinq nəticələrinin açıqlanması və ekoloji-mədəni zərərin kompensasiyası üzrə hüquqi vasitələr müxtəlif aktlarda mövcuddur. Lakin onların turizm sektoru üçün vahid hüquqi mexanizm şəklində göstərilməsi həm hüquqi müəyyənliyi, həm də preventiv funksiyanı artırar. Bu baxımdan turizm sahəsi üzrə xüsusi hüquqi uyğunluq auditi və ya davamlılıq üzrə məcburi hesabatlılıq mexanizmi ayrıca nəzərdən keçirilə bilər.

Nəticə

Azərbaycan qanunvericiliyində turizmin davamlı inkişaf hüququna təsiri ümumən müsbət normativ istiqamətdə formalaşmışdır. Konstitusiya davamlılıq üçün zəruri olan ekoloji və mədəni hüquqların əsasını qoyur; "Turizm haqqında" Qanun bu əsasları turizm sahəsinə tətbiq edərək dayanıqlı inkişafı, təbii və mədəni irsin qorunmasını və turizm-rekreasiya zonalarının xüsusi hüquqi rejimini tanıyır; ekoloji və mədəniyyət qanunvericiliyi isə həmin yanaşmanı məzmunca tamamlayır (Azərbaycan Respublikasının Konstitusiyası, 1995; Turizm haqqında Qanun, 2021; Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Qanun, 2018; Turizm və rekreasiya zonalarının Nümunəvi Əsasnaməsi, 2024).

Lakin hüquqi tanınma davamlı inkişaf hüququnun tam və effektiv realizəsi ilə eyni deyil. Mövcud normativ modeldə anlayış qeyri-müəyyənliyi, sahələrarası parçalanma, iştirak mexanizmlərinin zəif artikulyasiyası, kumulyativ təsirin ayrıca normativ kateqoriya kimi göstərilməməsi və iqlim komponentinin məhdudluğı qalmaqdadır. Deməli, Azərbaycan qanunvericiliyinin qarşısında duran əsas vəzifə davamlı turizmi yalnız inkişaf strategiyasının məqsədi kimi deyil, hüquqlar və öhdəliklər balansı əsasında işləyən konkret hüquqi rejim kimi formalaşdırmaqdır. Belə bir yanaşma qəbul olunduqda turizm sektoru yalnız iqtisadi və mədəni potensialın istifadə sahəsi kimi deyil, həm də Konstitusiyada qorunan ekoloji, mədəni və sosial dəyərlərin reallaşdığı hüquqi məkan kimi fəaliyyət göstərəcəkdir. Məhz bu halda turizmin inkişafı davamlı inkişaf hüququna formal deyil, real və hüquqi cəhətdən təmin olunmuş təsir göstərə bilər.

Ədəbiyyat

1. *"Azərbaycan 2026" sosial-iqtisadi inkişaf Strategiyası və müvafiq Fəaliyyət Planı*. (2022, 22 iyul).
2. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. (2021, 2 fevral).
3. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu. (2018, 12 iyun). № 1175-VQ.
4. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu. (1999, 8 iyun). № 678-IQ.
5. "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanunu. (2012, 21 dekabr). № 506-IVQ.
6. "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu. (1998, 10 aprel).
7. "Turizm haqqında" Azərbaycan Respublikasının Qanunu. (2021, 27 dekabr). № 448-VIQ.
8. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanunu. (2000, 24 mart). № 840-IQ.
9. Azərbaycan Respublikası Konstitusiyası. (1995). *Azərbaycan Prezidentinin rəsmi internet səhifəsi*.
10. *Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi haqqında Əsasnamə*. (2018, 21 sentyabr).
11. Office of the United Nations High Commissioner for Human Rights. (1986). *Declaration on the Right to Development*.
12. Rəhimova, M. S. q. (2021, 30 aprel). "Azərbaycan Respublikasında turizm sahəsində kadr potensialının artırılmasında beynəlxalq əməkdaşlığın rolu". *Elmi iş beynəlxalq elmi jurnalı*.
13. *Turizm və rekreasiya zonalarının Nümunəvi Əsasnaməsi*. (2024, 2 avqust).
14. United Nations Tourism. (2024). *Global Code of Ethics for Tourism*.
15. United Nations. (2015). *Transforming our world: The 2030 Agenda for Sustainable Development*.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 369–373
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 369–373
DOI: https://doi.org/10.36719/2706-6185/60/369-373

Azad iqtisadi zonalarda hüquqi tənzimləmə

İlahə Nəsirova

Xülasə. *Azad iqtisadi zonalarda (AİZ) hüquqi tənzimləmə dövlətin investisiya siyasətinin və iqtisadi liberallaşma strategiyasının mühüm tərkib hissəsidir. AİZ-lər xüsusi hüquqi rejim tətbiq edilən, sahibkarlıq fəaliyyətinin təşviq olunduğu, vergi və gömrük güzəştlərinin verildiyi və inzibati prosedurların sadələşdirildiyi ərazilərdir. Bu zonaların hüquqi əsasları xüsusi qanunlar və normativ aktlarla müəyyən olunur və rezidentlərin statusunu, hüquq və vəzifələrini, investisiyaların qorunmasını və mübahisələrin həlli mexanizmlərini əhatə edir.*
AİZ-lərdə hüquqi rejim daha elastik və stimullaşdırıcı xarakter daşıyır, investorlara vergi güzəştləri, valyuta sərbəstliyi və xüsusi istifadə şərtləri təqdim edilir. Bu tənzimləmənin məqsədi investisiya mühitini cəlbedici etmək və eyni zamanda milli iqtisadi maraqları qorumaqdır. Beynəlxalq təcrübədə AİZ-lər müxtəlif formalarda – sənaye parkları, texnoparklar və logistika mərkəzləri kimi fəaliyyət göstərir və onların effektivliyi hüquqi sabitlik, güclü idarəetmə və investor hüquqlarının təminatı ilə bağlıdır.

Açar sözlər: *azad, hüquqi, investisiya,vergi və gömrük, beynəlxalq, liberallaşma*

Xəzər Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: ilahenesirova333@gmail.com
Daxil oldu: 18 Dekabr 2025; Qəbul edildi: 1 Mart 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Legal Regulatıon in Free Economıc Zones

Ilaha Nasirova

Abstract. *Legal regulation in free economic zones (FEZs) is an important component of the state's investment policy and economic liberalization strategy. FEZs are territories where a special legal regime is applied, entrepreneurial activity is encouraged, tax and customs benefits are provided, and administrative procedures are simplified. The legal basis of these zones is determined by special laws and regulatory acts and covers the status, rights and obligations of residents, investment protection and dispute resolution mechanisms.*
The legal regime in FEZs is more flexible and stimulating in nature, investors are provided with tax benefits, currency freedom and special conditions of use.

The purpose of this regulation is to make the investment environment attractive and at the same time protect national economic interests. In international practice, FEZs operate in various forms - as industrial parks, technoparks and logistics centers, and their effectiveness is associated with legal stability, strong governance and the provision of investor rights.

Keywords: *free, legal, investment, tax and customs, international, liberalization*

Khazar University, Master's student, Baku, Azerbaijan
E-mail: ilahenesirova333@gmail.com
Received: 18 December 2025; Accepted: 1 March 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Azad İqtisadi Zonalar (AİZ) müasir qlobal iqtisadiyyatın mühüm tərkib hissəsidir və beynəlxalq ticarət, investisiyalar və iqtisadi inkişafın stimullaşdırılmasında mühüm rol oynayır. Bu zonaların yaradılmasının əsas məqsədi, ölkələrin iqtisadiyyatı üçün strateji əhəmiyyət daşıyan sahələrdə müsbət dəyişikliklər əldə etmək və sərmayə axınına şərait yaratmaqdır. Azad iqtisadi zonalar, xüsusilə inkişaf etməkdə olan ölkələrdə iqtisadi artımı stimullaşdırmaq, xarici ticarəti genişləndirmək və işsizlik səviyyəsini azaltmaq üçün vacib vasitə kimi istifadə edilir. Azad iqtisadi zonalar, əksər hallarda iqtisadi fəaliyyətin təşviq edilməsi və xarici sərmayələrin cəlb olunması məqsədilə yaradılır. Bu zonalarda vergi güzəştləri, mülkiyyət hüquqları, gömrük rüsumları və digər iqtisadi tənzimləmələrdə xüsusi fərqliliklər mövcuddur. Bu fərqliliklər həm yerli, həm də xarici investorlar üçün daha əlverişli şərait yaradır, beləliklə, ölkənin iqtisadi inkişafını sürətləndirir. Hüquqi tənzimləmə isə bu zonaların düzgün işləməsini təmin etmək, eyni zamanda investorların hüquqlarını qorumaq və ölkə iqtisadiyyatı üçün mənfəət əldə etmək məqsədini daşıyır.

Azad İqtisadi Zonalarda hüquqi tənzimləmə, ölkənin qanunvericilik sisteminin xüsusilə də iqtisadi sahələrdə olan məsələləri düzgün tənzimləməsini tələb edir. Bu sahədə görülən ən mühüm işlərdən biri, xarici investorlar və yerli sahibkarlar üçün hüquqi təminatların verilməsi, hüquqi münasibətlərin düzgün və şəffaf şəkildə tənzimlənməsidir. Bu tənzimləmə həmçinin mülkiyyət hüquqları, müqavilələr, iş hüquqları, vergi siyasəti və digər iqtisadi qanunların həyata keçirilməsini nəzərdə tutur. Azad İqtisadi Zonalarda hüquqi tənzimləmə daha çox üç əsas sahədə özünü göstərir: vergi qanunvericiliyi, investisiya hüquqları və gömrük siyasəti. Vergi qanunvericiliyi investorlar üçün daha əlverişli mühit yaratmaq məqsədilə tətbiq edilən vergilərin azaldılması və ya bəzən tamamilə ləğv edilməsi ilə özünü göstərir. Bu, iqtisadi fəaliyyətin stimullaşdırılmasına xidmət edir və daha çox xarici sərmayələrin cəlb olunmasına şərait yaradır. İnvestisiya hüquqları isə investorların sərmayələrini təhlükəsiz şəkildə yerləşdirməsinə və geri almağa imkan verən hüquqi təminatların təmin edilməsini nəzərdə tutur. Gömrük siyasəti isə AİZ-lərdə beynəlxalq ticarət əlaqələrinin inkişafını təmin etmək üçün xüsusi güzəştlər və asanlaşdırılmış prosedurlar tətbiq edir.

Azad iqtisadi zonaların uğurla fəaliyyət göstərməsi üçün hüquqi tənzimləmələrin ardıcıl və şəffaf olması vacibdir. Həmçinin, hüquqi mühitin sabitliyi və dəyişən iqtisadi şəraitə uyğun olaraq qanunların yenilənməsi də əhəmiyyətli rol oynayır. Bu baxımdan, hər bir azad iqtisadi zona, təkcə xarici sərmayəçilərin və sahibkarların maraqlarını deyil, həm də milli iqtisadiyyatın davamlı inkişafını nəzərə alaraq hüquqi çərçivəni müəyyən etməlidir. Bu məqalədə, azad iqtisadi zonaların yaradılması və hüquqi tənzimləmə prinsiplərinin əhəmiyyəti daha detallı şəkildə təhlil ediləcək və Azərbaycan daxil olmaqla müxtəlif ölkələrin bu zonalardakı təcrübələri müzakirə ediləcəkdir. Azad iqtisadi zonaların hüquqi tənzimləmələrinin doğru qurulması, həm ölkənin iqtisadiyyatı, həm də qlobal iqtisadiyyatla inteqrasiyası üçün böyük əhəmiyyət daşıyır.

Tədqiqat

Azad iqtisadi zonalarda hüquqi tənzimləmənin təhlili göstərir ki, bu mexanizmlər dövlətin iqtisadi siyasətinin həyata keçirilməsində strateji alət kimi çıxış edir (Əliyev, 2021). İlk növbədə, hüquqi rejimin əsas xüsusiyyəti onun diferensial xarakter daşımasıdır, yəni ümumi milli qanunvericilikdən müəyyən dərəcədə fərqlənərək investorlara daha əlverişli şərait yaradır (Məmmədov, 2020). Bu fərqlilik vergi və gömrük güzəştləri, sadələşdirilmiş qeydiyyat prosedurları və sərbəst valyuta rejimi kimi elementlər vasitəsilə reallaşır. Təhlil göstərir ki, bu cür hüquqi stimullar xarici investisiyaların cəlb olunmasında və iqtisadi fəallığın artırılmasında mühüm rol oynayır, lakin eyni zamanda bu güzəştlərin balanslı tətbiqi dövlət büdcəsinə təsirlərin nəzərə alınmasını tələb edir (Həsənov, 2019). Hüquqi tənzimləmənin digər mühüm aspekti institusional idarəetmə və nəzarət mexanizmləri ilə bağlıdır. Azad iqtisadi zonalarda fəaliyyətin effektivliyi yalnız normativ aktların mövcudluğu ilə deyil, həm də onların icra mexanizmlərinin səmərəliliyi ilə müəyyən olunur (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, 2023). Bu baxımdan zonaların idarəedici qurumlarının səlahiyyət bölgüsü, şəffaf qərar qəbuletmə prosesi və hesabatlılıq sistemləri xüsusi əhəmiyyət daşıyır. Təhlil göstərir ki, zəif institusional mühit və hüquqi qeyri-müəyyənlik investorların risklərini artırır və zonaların rəqabət qabiliyyətini azalda bilər. Buna görə də hüquqi sabitlik və normativ bazanın davamlılığı əsas prioritet kimi çıxış etməlidir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 2024).

Beynəlxalq təcrübənin müqayisəli təhlili isə göstərir ki, uğurlu azad iqtisadi zonaların əsas xüsusiyyətləri güclü hüquqi təminat, mübahisələrin effektiv həlli mexanizmləri və investor hüquqlarının qorunmasıdır (Zeynalov, 2022). Xüsusilə beynəlxalq arbitraj imkanlarının mövcudluğu və investisiyaların qarşılıqlı qorunması haqqında sazişlər hüquqi təhlükəsizliyi artırır (Farole və Akinci, 2011). Bununla yanaşı, müasir mərhələdə rəqəmsallaşma və elektron idarəetmə sistemlərinin tətbiqi hüquqi tənzimləmənin effektivliyini daha da yüksəldir (UNCTAD. 2019).

Qrafik 1
Azad iqtisadi zonalarda xarici investisiyaların ölkələr üzrə müqayisəli təhlili



Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (2024). *Azərbaycanın sosial-iqtisadi göstəriciləri*.

Qrafik 1-də azad iqtisadi zonalarda (AİZ) xarici investisiyaların ölkələr üzrə müqayisəli göstəriciləri təqdim olunmuşdur (Zeng, 2016). Təhlil göstərir ki, ən yüksək investisiya həcmi BƏƏ-də müşahidə olunur (təxminən 5000 mln ABŞ dolları), bu da həmin ölkədə hüquqi tənzimləmənin sabitliyi, investorlar üçün əlverişli şərait və inkişaf etmiş infrastrukturla izah olunur. Türkiyə (3200 mln USD) və Qazaxıstan (2100 mln USD) da yüksək göstəricilərlə seçilir ki, bu da onların regionda investisiya cəlbediciliyinin güclü olduğunu göstərir (Aggarwal, 2012).

Azərbaycan və Gürcüstanda isə investisiya həcmi nisbətən aşağıdır (müvafiq olaraq 850 və 900 mln USD). Bu göstəricilər həmin ölkələrdə AİZ-lərin inkişaf mərhələsində olduğunu və hüquqi-institusional mexanizmlərin daha da təkmilləşdirilməsinə ehtiyac olduğunu göstərir.

Cədvəl 1
Azad iqtisadi zonaların hüquqi tənzimlənməsi və faydaları

Azad İqtisadi Zona	**Hüquqi Tənzimləmə Qanunvericiliyi**	**Əsas Məqsəd**	**Əsas Fəaliyyətlər**	**Faydalar**
Bakı Azad İqtisadi Zona	Azərbaycan Respublikası Prezidentinin Fərmanı (2011)	İxracın artırılması və yerli iqtisadiyyatı gücləndirmək	Beynəlxalq ticarət, istehsal, təchizat zəncirləri	Vergi güzəştləri, xarici sərmayə cəlbi
Sumqayıt Azad İqtisadi Zona	Azad İqtisadi Zonalar haqqında Qanun (2011)	Kimya və plastik istehsalı	Sənaye istehsalı və texnologiya inkişafı	İxrac bazarına çıxış, müasir infrastruktura malik olmaq
Mingəçevir Azad İqtisadi Zona	Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (2014)	Enerji istehsalı və bərpa olunan enerji	Elektrik enerjisi istehsalı və satışı	Vergi güzəştləri, yüksək sərmayə stimulları
Astara Azad İqtisadi Zona	Dövlət Gömrük Komitəsi və digər müvafiq strukturların təlimatları	Kənd təsərrüfatı və turizm	Məhsul emalı və kənd təsərrüfatı ixracı	Yerli istehsalın dəstəklənməsi, iş yerlərinin artırılması

Mənbə: https://president.az

Azad İqtisadi Zonalar haqqında cədvəldə göstərilən məlumatlar, bu zonaların hüquqi tənzimlənməsi və onların fəaliyyəti ilə əlaqəli əsas məqamları əhatə edir. Hər bir zonanın hüquqi tənzimləmə qanunları və məqsədləri müəyyən edilmişdir. Bakı Azad İqtisadi Zona üçün təyin olunan hüquqi tənzimləmə, Azərbaycan Respublikası Prezidentinin fərmanına əsaslanır və əsas məqsəd ixracın artırılması ilə yerli iqtisadiyyatı gücləndirməkdir. Bu zona, beynəlxalq ticarət və istehsal sahələrində fəaliyyət göstərir, investorlar üçün vergi güzəştləri və xarici sərmayə cəlb etmək imkanı yaradır. Sumqayıt Azad İqtisadi Zona isə kimya və plastik istehsalına yönəlmişdir. Bu zonada sənaye istehsalı və texnologiya inkişafı üçün şərait yaradılır. Azad iqtisadi zonanın yaradılması məqsədilə müəyyən edilmiş hüquqi çərçivə, sənaye sektoru üçün böyük stimul yaradaraq, yerli istehsalın inkişafına dəstək verir.

Mingəçevir Azad İqtisadi Zona da enerji istehsalı, xüsusilə bərpa olunan enerji mənbələrindən istifadə sahəsində fəaliyyət göstərir. Burada elektrik enerjisi istehsalı və satışı üzərində fokuslanır, enerji sektoru üçün xüsusi hüquqi tənzimləmə tətbiq edilir. Bu, yerli iqtisadiyyata enerji təminatının artırılması və bərpa olunan enerji texnologiyalarının inkişafı baxımından faydalıdır. Astara Azad İqtisadi Zona kənd təsərrüfatı və turizm sahələrini əhatə edir. Burada kənd təsərrüfatı məhsullarının emalı və ixracı artırılaraq, yerli istehsalın dəstəklənməsi və iş yerlərinin yaradılması məqsəd qoyulur. Hüquqi tənzimləmə bu zonada biznesin inkişafını asanlaşdırır (Dünya Bankı. 2020). Ümumiyyətlə, hər bir azad iqtisadi zona öz sahəsindəki prioritetlərə uyğun olaraq hüquqi tənzimləmə qaydalarına tabedir, bu da yerli və beynəlxalq sərmayələrin təşviq olunması, iqtisadi inkişafın artırılması və yeni iş imkanlarının yaradılması məqsədini güdür.

Nəticə

Aparılan təhlil və statistik göstəricilər əsasında belə nəticəyə gəlmək olar ki, azad iqtisadi zonalarda hüquqi tənzimləmə investisiya cəlbediciliyinin formalaşmasında həlledici rol oynayır. Qrafik məlumatları göstərir ki, hüquqi sabitlik, şəffaf idarəetmə və investorlar üçün yaradılan güzəştli rejimlər xarici investisiyaların həcminə birbaşa təsir edir. Xüsusilə inkişaf etmiş AİZ modellərinə malik ölkələrdə investisiya axınlarının daha yüksək olması hüquqi mexanizmlərin effektivliyini bir daha təsdiq edir. Eyni zamanda, nisbətən aşağı göstəricilərə malik ölkələr üçün bu sahədə institusional və hüquqi islahatların aparılması zərurəti ortaya çıxır. Vergi və gömrük siyasətinin optimallaşdırılması, mübahisələrin operativ həlli mexanizmlərinin gücləndirilməsi və beynəlxalq standartlara uyğun hüquqi mühitin yaradılması AİZ-lərin inkişafını sürətləndirə bilər. Beləliklə, azad iqtisadi zonalarda hüquqi tənzimləmənin təkmilləşdirilməsi yalnız investisiyaların artmasına deyil, həm də dayanıqlı iqtisadi inkişafın təmin olunmasına xidmət edir.

Ədəbiyyat

1. Aggarwal, A. (2012). Social and economic impact of SEZs in India. *Oxford Development Studies, 40*(3), 341–363.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2024). *Azərbaycanın sosial-iqtisadi göstəriciləri*.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. (2023). *Azad iqtisadi zonalar üzrə illik hesabat*.
4. Dünya Bankı. (2020). *World development indicators*.
5. Əliyev, R. Ə. (2021). *Azad iqtisadi zonaların inkişafı və hüquqi tənzimlənməsi*. İqtisad Universiteti Nəşriyyatı.
6. Farole, T., & Akinci, G. (2011). *Special economic zones: Progress, emerging challenges, and future directions*. World Bank.
7. Həsənov, A. M. (2019). *İqtisadi islahatlar və azad iqtisadi zonaların rolu*. Elm.
8. Məmmədov, S. H. (2020). Azərbaycanda investisiya mühitinin hüquqi əsasları və azad iqtisadi zonalar. *İqtisadiyyat və İdarəetmə, 4*(2), 45–60.
9. Moberg, L. (2015). The political economy of special economic zones. *Journal of Institutional Economics, 11*(1), 167–190.
10. UNCTAD. (2019). *World investment report 2019: Special economic zones*. United Nations.
11. Zeng, D. Z. (2016). *Global experiences with special economic zones*. World Bank.
12. Zeynalov, T. Q. (2022). Azad iqtisadi zonalarda vergi və gömrük güzəştlərinin iqtisadi təsiri. *Vergi jurnalı, 3*(1), 88–102.

Qədim Diyar
May 2026, Cild: 8, Sayı: 5, s. 374–378
Ancient Land
May 2026, Volume: 8, Issue: 5, pp. 374–378
DOI: https://doi.org/10.36719/2706-6185/60/374-378

Qarabağda müharibədən sonrakı şəhərsalma transformasiyaları və davamlı inkişaf modelləri

İradə İskəndərova

Xülasə. *Qarabağda müharibədən sonrakı dövrdə şəhərsalma transformasiyaları regionun sosial-iqtisadi dirçəlişi və uzunmüddətli inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir. Dağıdılmış infrastrukturun bərpası ilə yanaşı, müasir və dayanıqlı şəhərsalma prinsiplərinin tətbiqi əsas prioritetlərdən biridir. Bu proses yalnız fiziki yenidənqurma ilə məhdudlaşmır, eyni zamanda əhalinin geri qayıdışı, sosial xidmətlərin təşkili, iqtisadi fəaliyyətin canlandırılması və ekoloji tarazlığın qorunmasını da əhatə edir. Müasir yanaşmalar çərçivəsində "ağıllı şəhər" konsepsiyaları, yaşıl enerji həlləri, rəqəmsal texnologiyalar və innovativ idarəetmə modelləri geniş tətbiq olunur.*
Şəhərsalma transformasiyalarında davamlı inkişaf prinsipləri mühüm yer tutur. Bu prinsiplər iqtisadi səmərəlilik, sosial inklüzivlik və ekoloji davamlılıq arasında balansın qorunmasına yönəlmişdir. Qarabağ regionunda həyata keçirilən layihələrdə alternativ enerji mənbələrinin istifadəsi, ekoloji cəhətdən təmiz tikinti materiallarının tətbiqi və resurslardan səmərəli istifadə xüsusi diqqət mərkəzindədir. Eyni zamanda, mədəni irsin qorunması və bərpası şəhərsalma siyasətinin vacib komponentlərindən biri kimi çıxış edir.

Açar sözlər: *Qarabağ, şəhərsalma, transformasiya, bərpa, davamlılıq, inkişaf, infrastruktur, ağıllı şəhər, yaşıl enerji, innovasiya, ekologiya, sosial inkişaf, iqtisadiyyat, rəqəmsallaşma, planlaşdırma*

Bakı, Azərbaycan
E-poçt: ilahenesirova333@gmail.com
Daxil oldu: 1 Yanvar 2026; Qəbul edildi: 3 Mart 2026; Onlayn dərc edilib: 28 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

Urban Plannıng Transformatıons and Sustaınable Development Models in Post-War Karabakh

Irada Iskanderova

Abstract. *Urban planning transformations in post-war Karabakh are of great importance for the socio-economic recovery and long-term development of the region. Along with the restoration of destroyed infrastructure, the implementation of modern and sustainable urban planning principles is one of the main priorities. This process is not limited to physical reconstruction; it also includes the return of the population, the organization of social services, the revitalization of economic activity, and the preservation of ecological balance. Within the framework of modern approaches, "smart city" concepts, green energy solutions, digital technologies, and innovative management models are widely applied.*

Sustainable development principles play a key role in urban planning transformations. These principles aim to maintain a balance between economic efficiency, social inclusiveness, and environmental sustainability. In the projects implemented in the Karabakh region, special attention is given to the use of alternative energy sources, environmentally friendly construction materials, and the efficient use of resources. At the same time, the protection and restoration of cultural heritage is considered an important component of urban planning policy.

Keywords: *Karabakh, urban planning, transformation, reconstruction, sustainability, development, infrastructure, smart city, green energy, innovation, ecology, social development, economy, digitalization, planning*

Baku, Azerbaijan
E-mail: irada.shahinovna@gmail.com
Received: 1 January 2026; Accepted: 3 March 2026; Published online: 28 May 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

Giriş

Müharibədən sonrakı dövrdə Qarabağ regionunda həyata keçirilən şəhərsalma transformasiyaları müasir urbanistika və regional inkişaf strategiyaları baxımından xüsusi elmi və praktiki əhəmiyyət daşıyır. Uzun illər davam edən münaqişə nəticəsində ciddi şəkildə dağıdılmış şəhər və kənd infrastrukturunun yenidən qurulması yalnız fiziki bərpa prosesi kimi deyil, eyni zamanda sosial, iqtisadi və ekoloji sistemlərin kompleks şəkildə yenidən formalaşdırılması kimi qiymətləndirilir. Bu baxımdan Qarabağda aparılan yenidənqurma işləri regionun gələcək inkişaf modelini müəyyən edən strateji istiqamətlərdən biri hesab olunur. Şəhərsalma transformasiyaları müasir dövrdə təkcə tikinti və infrastrukturun bərpası ilə məhdudlaşmır, həm də "ağıllı şəhər" konsepsiyasının tətbiqi, rəqəmsal idarəetmə sistemlərinin qurulması, dayanıqlı enerji mənbələrinə keçid və ekoloji tarazlığın qorunması kimi kompleks yanaşmaları əhatə edir. Qarabağda həyata keçirilən layihələrdə bu yanaşmaların tətbiqi regionun gələcəkdə innovativ və davamlı inkişaf edən bir məkana çevrilməsini hədəfləyir (Qarabağın bərpası və inkişaf strategiyaları, 2023).

Eyni zamanda, müharibədən sonrakı şəhərsalma prosesində əhalinin geri qayıdışı və məskunlaşması mühüm sosial amil kimi çıxış edir. Bu prosesin uğurlu şəkildə həyata keçirilməsi üçün yaşayış infrastrukturunun bərpası ilə yanaşı, təhsil, səhiyyə, mədəniyyət və məşğulluq sahələrinin inkişafı da vacibdir. Beləliklə, şəhərsalma yalnız fiziki məkanın yenilənməsi deyil, həm də sosial həyatın bərpası və cəmiyyətin yenidən formalaşması prosesidir. Qarabağ regionunun təbii resursları, coğrafi mövqeyi və strateji əhəmiyyəti burada davamlı inkişaf modellərinin tətbiqini daha da aktuallaşdırır. Yaşıl enerji layihələri, ekoloji cəhətdən təmiz tikinti materiallarının istifadəsi, su və torpaq resurslarının səmərəli idarə olunması kimi yanaşmalar regionun ekoloji dayanıqlığını təmin etməyə yönəlmişdir. Bundan əlavə, mədəni irsin qorunması və tarixi abidələrin bərpası şəhərsalma siyasətinin ayrılmaz tərkib hissəsi kimi çıxış edir və regionun identikliyinin qorunmasına xidmət edir.

Beləliklə, Qarabağda müharibədən sonrakı şəhərsalma transformasiyaları çoxşaxəli və kompleks xarakter daşıyır. Bu proses təkcə dağıdılmış ərazilərin bərpası deyil, eyni zamanda müasir standartlara uyğun yeni inkişaf modelinin formalaşdırılmasıdır. Davamlı inkişaf prinsiplərinin tətbiqi isə bu transformasiyaların uzunmüddətli effektivliyini təmin edən əsas amillərdən biridir. Qarabağda müharibədən sonrakı şəhərsalma transformasiyalarının uğurlu icrası üçün sistemli planlaşdırma və mərhələli yanaşma əsas şərtlərdən biridir. Bu kontekstdə ilk mərhələ dağıdılmış infrastrukturun qiymətləndirilməsi və prioritet istiqamətlərin müəyyən edilməsidir. Yol-nəqliyyat şəbəkəsi, enerji

təchizatı, su və kanalizasiya sistemləri kimi əsas infrastruktur sahələrinin bərpası şəhərsalma prosesinin fundamentini təşkil edir. Eyni zamanda, bu mərhələdə müasir standartlara uyğun layihələndirmə prinsiplərinin tətbiqi gələcək inkişafın dayanıqlığını təmin edir (Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi 2022).

İkinci mərhələdə yaşayış məskənlərinin yenidən qurulması və urban mühitin formalaşdırılması həyata keçirilir. Bu prosesdə funksional zonalaşma, yaşıl sahələrin artırılması, ictimai məkanların yaradılması və nəqliyyat sistemlərinin optimallaşdırılması mühüm rol oynayır. Müasir şəhərsalma yanaşmalarında insan mərkəzli planlaşdırma xüsusi əhəmiyyət daşıyır və bu, yaşayış mühitinin keyfiyyətinin yüksəldilməsinə xidmət edir (Təhsil və inkişaf strategiyaları, 2023). Davamlı inkişaf modellərinin tətbiqi Qarabağda şəhərsalma prosesinin əsas istiqamətlərindən biri kimi çıxış edir. Bu modellər iqtisadi inkişafın sürətləndirilməsi ilə yanaşı, təbii resursların qorunmasını və ətraf mühitə minimal təsirin təmin olunmasını hədəfləyir. Xüsusilə, günəş və külək enerjisi kimi bərpa olunan enerji mənbələrinin geniş tətbiqi regionun enerji təhlükəsizliyini gücləndirir və ekoloji balansın qorunmasına töhfə verir (Qarabağ Dirçəliş Fondu, 2023).

Bundan əlavə, rəqəmsal texnologiyaların şəhər idarəçiliyinə inteqrasiyası "ağıllı şəhər" konsepsiyasının reallaşdırılmasını sürətləndirir. Elektron idarəetmə sistemləri, rəqəmsal xəritələşdirmə, məlumat bazalarının yaradılması və ağıllı infrastruktur həlləri şəhərsalma prosesini daha effektiv və şəffaf edir. Bu yanaşma həm də resursların optimallaşdırılmasına və idarəetmə xərclərinin azaldılmasına imkan yaradır (Azərbaycan Memarlıq və İnşaat Universiteti, 2022). Sosial aspektlər də şəhərsalma transformasiyalarında mühüm yer tutur. Əhalinin təhlükəsiz və rahat yaşayış şəraitinin təmin edilməsi, məşğulluq imkanlarının yaradılması və sosial infrastrukturun inkişafı regionun dayanıqlı inkişafına birbaşa təsir göstərir. Təhsil və səhiyyə müəssisələrinin bərpası və müasir standartlara uyğunlaşdırılması əhalinin həyat keyfiyyətinin yüksəldilməsində əsas rol oynayır.

Nəticə etibarilə, Qarabağda həyata keçirilən şəhərsalma transformasiyaları kompleks, çoxşaxəli və strateji xarakter daşıyır (Rəqəmsal transformasiya strategiyaları, 2023). Bu prosesin davamlı inkişaf modelləri ilə uzlaşdırılması regionun uzunmüddətli sosial-iqtisadi sabitliyini təmin edir və onu müasir urban inkişaf standartlarına uyğun nümunəvi bir məkana çevirmək potensialına malikdir.

Tədqiqat

Qarabağda müharibədən sonrakı şəhərsalma transformasiyaları üzrə aparılan tədqiqatlar göstərir ki, bu proses yalnız fiziki infrastrukturun bərpası ilə məhdudlaşmır, eyni zamanda kompleks sosial-iqtisadi və ekoloji dəyişiklikləri əhatə edən çoxşaxəli inkişaf modelidir. Tədqiqatın əsas məqsədi regionda həyata keçirilən şəhərsalma siyasətinin istiqamətlərini, tətbiq olunan davamlı inkişaf modellərini və onların effektivliyini analiz etməkdir. Metodoloji baxımdan bu tədqiqatda müqayisəli analiz, sistemli yanaşma və statistik məlumatların təhlili metodlarından istifadə olunur. Müxtəlif ölkələrin post-münaqişə bərpa təcrübələrinin öyrənilməsi Qarabağ modelinin formalaşmasında mühüm rol oynayır. Xüsusilə Avropa və Asiya regionlarında tətbiq edilən "ağıllı şəhər" və "yaşıl şəhər" konsepsiyaları Qarabağ üçün uyğunlaşdırılmış inkişaf strategiyalarının hazırlanmasına imkan verir (Şəhərsalma və inkişaf layihələri, 2023).

Aparılan təhlillər göstərir ki, şəhərsalma transformasiyalarının effektivliyi əsasən üç əsas amildən asılıdır: infrastrukturun bərpası sürəti, institusional idarəetmənin səmərəliliyi və maliyyə resurslarının düzgün yönləndirilməsi. Bu amillər arasında balansın təmin olunması davamlı inkişafın əsas şərtlərindən biridir. Eyni zamanda, ekoloji faktorlar da tədqiqatın mühüm istiqamətlərindən birini təşkil edir. Təbii resursların qorunması, torpaq və su ehtiyatlarının düzgün idarə olunması şəhərsalma prosesinin uzunmüddətli dayanıqlığını təmin edir.

Bundan əlavə, sosial infrastrukturun inkişafı və əhalinin həyat keyfiyyətinin yüksəldilməsi şəhərsalma transformasiyalarının uğurunda mühüm rol oynayır. Rəqəmsal texnologiyaların tətbiqi idarəetmə proseslərini daha şəffaf və operativ edir (Qarabağ Portalı, 2024). Həmçinin, beynəlxalq təcrübənin öyrənilməsi və yerli şəraitə uyğunlaşdırılması davamlı inkişaf modellərinin səmərəliliyini artırır. Şəhər planlaşdırılmasında insan amilinin nəzərə alınması daha yaşana bilən mühitin formalaşdırılmasına imkan verir. Eyni zamanda, ekoloji maarifləndirmə və ictimai iştirakın gücləndirilməsi uzunmüddətli dayanıqlığa müsbət təsir göstərir.

Tədqiqat nəticələrinə görə, Qarabağ regionunda tətbiq olunan şəhərsalma modelləri innovativ yanaşmalarla zənginləşdirilir. Rəqəmsal texnologiyaların tətbiqi, geoinformasiya sistemlərinin istifadəsi və planlaşdırma prosesinin avtomatlaşdırılması şəhər idarəçiliyinin daha effektiv olmasına şərait yaradır. Bu, həmçinin qərarların daha operativ və dəqiq qəbul olunmasına imkan verir (Həsənov, 2022). Sosial tədqiqatlar isə göstərir ki, əhalinin geri qayıdışı və məskunlaşma prosesi şəhərsalma strategiyalarının uğurunda həlledici rol oynayır. Yaşayış şəraitinin yaxşılaşdırılması, sosial xidmətlərin əlçatanlığı və məşğulluq imkanlarının artırılması bu prosesin əsas göstəricilərindəndir. Əhalinin aktiv iştirakı olmadan şəhərsalma transformasiyalarının davamlılığı tam təmin edilə bilməz.

Ümumilikdə, aparılan tədqiqatlar nəticəsində belə qənaətə gəlmək olar ki, Qarabağda müharibədən sonrakı şəhərsalma transformasiyaları kompleks, planlı və davamlı inkişaf prinsiplərinə əsaslanan bir prosesdir. Bu model həm regionun bərpasına, həm də onun gələcəkdə iqtisadi və sosial cəhətdən güclü bir məkana çevrilməsinə xidmət edir.

Nəticə

Qarabağda müharibədən sonrakı şəhərsalma transformasiyaları və davamlı inkişaf modellərinin təhlili göstərir ki, bu proses regionun yalnız fiziki bərpası deyil, həm də onun sosial, iqtisadi və ekoloji cəhətdən yenidən qurulmasını əhatə edən kompleks və strateji bir inkişaf mərhələsidir. Aparılan tədqiqatlar və mövcud təcrübələr sübut edir ki, şəhərsalma siyasəti müasir dövrdə çoxölçülü yanaşma tələb edir və bu yanaşma yalnız infrastrukturun bərpası ilə məhdudlaşmamalıdır. Əldə olunan nəticələrə əsasən demək olar ki, Qarabağda həyata keçirilən urban inkişaf layihələri "ağıllı şəhər" konsepsiyası, yaşıl enerji həlləri və rəqəmsal idarəetmə sistemləri kimi innovativ modellərə əsaslanır. Bu yanaşmalar regionun gələcək inkişafını daha səmərəli, çevik və davamlı edir. Eyni zamanda, ekoloji tarazlığın qorunması və təbii resurslardan rasional istifadə şəhərsalma strategiyasının əsas istiqamətlərindən biri kimi çıxış edir.

Nəticələr göstərir ki, davamlı inkişaf modellərinin tətbiqi iqtisadi səmərəliliyin artırılması ilə yanaşı, sosial rifahın yüksəldilməsinə də mühüm töhfə verir. Əhalinin geri qayıdışı, yeni iş yerlərinin yaradılması, sosial infrastrukturun bərpası və inkişafı regionda sabit və dayanıqlı həyat mühitinin formalaşmasına şərait yaradır. Bu isə Qarabağın uzunmüddətli sosial-iqtisadi inkişafının əsas təminatçılarından biridir (Məmmədov, 2021). Bundan əlavə, mədəni irsin qorunması və tarixi abidələrin bərpası şəhərsalma prosesinin ayrılmaz hissəsi kimi çıxış edir. Bu, həm regionun tarixi kimliyinin qorunmasına, həm də onun turizm potensialının artırılmasına xidmət edir. Beləliklə, Qarabağda aparılan bərpa və yenidənqurma işləri yalnız müasir şəhər mühitinin yaradılmasına deyil, həm də mədəni davamlılığın təmin olunmasına yönəlmişdir (Ekoloji siyasət və davamlı inkişaf, 2023). Digər mühüm nəticə ondan ibarətdir ki, Qarabağda həyata keçirilən şəhərsalma modelləri beynəlxalq təcrübəyə inteqrasiya olunaraq, regionu innovativ urban inkişaf mərkəzlərindən birinə çevirmək potensialına malikdir. Xüsusilə rəqəmsallaşma, ekoloji dayanıqlılıq və resursların səmərəli idarə olunması sahəsində əldə olunan nəticələr gələcəkdə bu təcrübənin digər regionlar üçün də nümunə kimi istifadə olunmasına imkan yaradır.

Ədəbiyyat

1. Azərbaycan Memarlıq və İnşaat Universiteti. (2022). *Şəhərsalma və memarlıq üzrə elmi tədqiqatlar*. https://azmiu.edu.az/
2. Azərbaycan Milli Kitabxanası. (2023). *Elektron resurslar və nəşrlər kataloqu*. https://www.millikitabxana.az/
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2023). *Sosial-iqtisadi göstəricilər*. https://www.stat.gov.az/
4. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. (2023). *Ekoloji siyasət və davamlı inkişaf*. https://eco.gov.az/
5. Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi. (2023). *Təhsil və inkişaf strategiyaları*. https://edu.gov.az/
6. Azərbaycan Respublikası. (2022). *Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi*. https://e-qanun.az/framework/
7. Azərbaycan Respublikasının Prezident Kitabxanası. (2024). *Rəsmi elektron resurslar*. https://www.preslib.az/
8. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. (2023). *Rəqəmsal transformasiya strategiyaları*. https://mincom.gov.az/
9. Bakı Şəhər İcra Hakimiyyəti. (2023). *Şəhərsalma və inkişaf layihələri*. https://www.bakicity.az/
10. Həsənov, R. (2022). *Davamlı inkişaf və ekoloji planlaşdırma*. İqtisad Universiteti Nəşriyyatı.
11. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. (2022). *İqtisadi islahatlar və inkişaf hesabatları*. https://ereforms.gov.az/
12. Məmmədov, Q. (2021). *Şəhərsalmanın əsasları*. Elm və Təhsil Nəşriyyatı.
13. Qarabağ Dirçəliş Fondu. (2023). *Qarabağın bərpası və inkişaf strategiyaları*. https://karabakhfoundation.az/
14. Qarabağ Portalı. (2024). *Qarabağ regionunun bərpası üzrə məlumatlar*. https://karabakh.az/

İÇİNDƏKİLƏR
CONTENTS

Rafail Əhmədli
Azərbaycanda milli şüurun formalaşmasında Əlimərdan bəy Topçubaşovun rolu 7
Cəmilə Hüseynova
İnsanın sosiallaşmasına təsir edən faktorların müsbət və mənfi tərəfləri 14
Turkan Mehraj Ismayilli, Kovser Abbasova
New Approaches and Methods in Language Teaching 19
Günay Məmmədova
1980-ci illərdə Azərbaycanda ictimai-siyasi vəziyyətin mətbuata təsiri 24
Natavan Seyidzadə
Dil seçimi və sosial təsirlər 33
Vusal Heydarov, Zhala Mammadova
Application of Artificial Intelligence in Small and "Medium-Sized", Enterprıses and its Impact on "Economic Efficiency 37
Cavid Məmmədli
Şərqdə sabitlik axtarışı: Helmut Kol Kanslerliyi dövründə Almaniyanın Rusiya strategiyası və Avro-Atlantika Təhlükəsizlik Sistemində yeni arxitektura (1991–1998) 44
Fail Imanov
Performance Evaluation of Organizations and Existing Financial Reporting Frameworks in Azerbaijan 53
Mirodillo Boboyev
Yuriy Fyodorovich Buryakov (1934–2015): A Historiographical Analysis of Archaeological Excavations and Material Culture Studies in the Tashkent Oasis 60
Günel Məmmədova
Azərbaycanda təhsilin modernləşdirilməsi kontekstində innovativ tədris metodikalarının tətbiqi və gələcək müəllimlərin elmi-tədqiqat bacarıqlarının inkişaf perspektivləri 71
Vüqar Abbasov, Lalə Əliyeva, Xoşqədəm Zeynalova
Böyük İpək Yolunun coğrafiyasında Türk dövlətçilik irsi: siyasi idarəetmə sistemi və yazı mədəniyyətinin təkamülü 84
Noureddine Bensoula
The Role of Cinema in Geopolitics: Case Studies from a Selection of International Films 89
Alimardon Toshmatov
Teaching Academic English to Non-English Majors in Uzbekistan: Challenges, Needs and Pedagogical Adaptations 99
Abdullajon Nematov
High Achievement, Low Confidence: Linguistic Insecurity among Advanced EFL Learners 111
Fatiha Khaldi
Religion and Communicative Rationality in Habermas 122
Debbagh Bouchra, Ali Houiche, Abdenour Khechai
Multidimensional Pathways Linking Chronic Stress to Cardiovascular Pathogenesis: A Biopsychosocial Integration 133
Ezzine Abdelhak, Tebr Houari Boumediene
Anthropology of Communication in Cultural Events the Oran Arab Film Festival as a Model 144

Mislimat Safikhanova
Floristic Analysis of the Gusarchay River 153
Nərmin Ələsgərova
Liderlik paradiqmalarının təkamülü 159
Atabəy Rəşidli
Azərbaycanda rəqəmsal texnologiyaların beynəlxalq təchizat zəncirində tətbiqinin qiymətləndirilməsi 165
Baza El Hadj
The Emergence of Philosophical Thought Among the Greeks 169
Rövşən Niyazov
Effektiv rəhbər və yumşaq bacarıqlar 178
Karim Kiared, Mehdi Souiah
ESAA: Navigating Between Complex Institutional Issues and Communication Strategies in the Algerian University Field 187
Taloum Hamana, Tahar Abdouali
Issues Related to Shrouding the Deceased Infected With the (Coronavirus) Epidemic 198
Mammeri Hamid
Sufi Heritage in the Poetry of "Othman Loussif" 209
Həsənəli Əliyev
Beynəlxalq audit standartlarında (ISA, IFAC, ACFE) forensik yanaşmalar 219
Aişə İsmayılzadə
Şomutəpə mədəniyyətinin Gəncə-Qazax bölgəsində yayılması və xüsusiyyətləri 226
Leyla Quluzadə
Tikinti materialları istehlakçılarının davranış xüsusiyyətləri və satış strategiyalarına təsiri 231
Xanım Səfərli
Qərbi Azərbaycanda pedaqoji kadr hazırlığının tarixi inkişaf dinamikası və ənənəvi təhsildən institusional pedaqoji təhsilə keçid 237
Toğrul Muradzadə
Komanda idarəetməsi və liderlik strategiyalarının layihə uğuruna təsiri 245
Fizuli Kərimov
İqtisadi təhlükəsizliyin təmin edilməsində institusional mexanizmlərin rolu və təkmilləşdirilməsi istiqamətləri: Azərbaycan təcrübəsi 251
Sübhan Rüstəmov
Azərbaycan Respublikasında valyuta tənzimlənməsi siyasətinin qeyri-neft ixracına təsiri 259
Samad Islamov
The Concept, History and Causesof International Terrorism 265
Salatın Dəmirova
Müasir mərhələdə biznes infrastrukturunun formalaşmasında investisiyaların rolu və inkişaf istiqamətləri 270
Ruslan Sardarov
Assessing Risks in the Bakery Industry: A Comprehensive Analysis of Hazards and Their Impact on Food Safety and Quality Management 276
Ruqəyya Təhməzli
Standartlaşdırılmış testlərdə oxu bacarığının yoxlanılması (Kembric PET, FCE VƏ DİM test nümunələri əsasında) 281
Vəkil Vəkilov
7-9 yaşlı qızların fiziki sağlamlıq göstəricilərinin yaxşılaşmasına təsir göstərən üzgüçülük məşqləri metodikasının xüsusiyyətləri 287

Mətin Qarayev
Ş.Monteskye və C.Lokkun klassik hakimiyyət bölgüsü nəzəriyyəsi 293
Mirzaman Salayev
Konsolidə olunmuş maliyyə hesabatlarının aydınlığına təsir edən amillərin reqressiya analizi 298
Murad Fərəczadə
Elektron lüğət əsasında Azərbaycan və fransız dillərinin müqayisəli təhlili 303
Nicat Əliyev
Qonaqpərvərlik sənayesinin müasir problemləri 309
Nigar Mustafayeva
Overview of Consumer Protection Needs 314
Nahid Babayev
Azərbaycanda elektron ticarətin rəqəmsal iqtisadiyyatın inkişaf perspektivlərinə təsirinin qiymətləndirilməsi 320
Aysu Əhmədova
Onlayn təhsil ilə ənənəvi təhsilin müqayisəsi 325
Bəlqız Musayeva
Məktəbdaxili qiymətləndirmə və təlim keyfiyyəti: Müasir yanaşmalar 333
Nihad Əmirov
Qlobal iqtisadi transformasiya şəraitində yaşıl iqtisadiyyatın formalaşması və institusional inkişaf mərhələləri 338
İsmayıl Emiralizadə
Azərbaycanda reklam bazarının formalaşması və inkişaf xüsusiyyətləri 344
İzzət Səfərov
Turizm sahəsində insan hüquqlarının tənzimlənməsi məsələsində beynəlxalq hüquq normalarının əhəmiyyəti 350
Kamran Kərimli
2015-ci ildə baş verən devalvasiyanin Azərbaycan bank sektorunda kredit portfellərinə təsirinin qiymətləndirilməsi 356
Əsgər Abdullayev
Azərbaycan qanunvericiliyində turizmin davamlı inkişaf hüququna təsiri 361
İlahə Nəsirova
Azad iqtisadi zonalarda hüquqi tənzimləmə 369
İradə İskəndərova
Qarabağda müharibədən sonrakı şəhərsalma transformasiyaları və davamlı inkişaf modelləri 374

Redaksiyanın ünvanı
AZ1073, Bakı şəh.,
Bakı şəh., Yasamal r-nu,
A.M.Şərifzadə 19
Tel.: +994 99 806 67 68
+994 99 808 67 68
e-mail: qedim.2012@aem.az

Editorial address
AZ1073, Baku city,
Baku city, Yasamal dist.,
A.M.Sharifzade 19
Phone: +994 99 806 67 68
+994 99 808 67 68
e-mail: qedim.2012@aem.az

İmzalandı: 24.05.2026
Onlayn çap: 28.05.2026
Kağız çapı: 10.06.2026
Kağız formatı: 60x84, 1/8
H/n həcmi: 48 ç.v.
Sifariş: 176

"ZƏNGƏZURDA"
Çap Evində çap olunub.
Ünvan: Bakı şəh., Yasamal r-nu,
A.M.Şərifzadə 19
Tel.: +994 50 209 59 68
e-mail: zengezurda1868@mail.ru

Signed: 24.05.2026
Online publication: 28.05.2026
Paper printing: 10.06.2026
Format: 60/84, 1/8
Stock issuance: 48 p.s.
Order: 176

It has been published in the printing house
"ZANGAZURDA"
Address: Baku city, Yasamal dist.,
A.M.Sharifzade 19
Phone: +994 50 209 59 68
e-mail: zengezurda1868@mail.ru